# TƏBİƏT HAQQINDA
# HEKAYƏLƏR

**Tərtib edənlər: Ş. A. MİKAYILOV**
**A. A. SƏMƏDOV**



**«MAARİF» NƏŞRİYYATI**
**Bakı – 1989**

## ÖN SÖZ

Həyatı obrazlı şəkildə ümumiləşdirən bədii ədəbiyyat qüdrətli tərbiyə vasitəsidir; o, insanın dünyagörüşünü formalaşdırır, biliyini, bədii-estetik zövqünü, nitqini zənginləşdirir. İctimai şüurun təsirli formalarından biri olan ədəbiyyatı V.İ.Lenin «partiya işinin tərkib hissəsi», M.Qorki «insanşünaslıq» adlandırır.

Sovet İttifaqı Kommunist Partiyasının Proqramında deyilir: «Ədəbiyyat və incəsənət xalqın mənafeyinə, kommunizm işinə xidmət etməli, milyonlarla adam üçün sevinc və ilham mənbəyi olmalı, onların iradəsini, duyğularını və fikirlərini ifadə etməli, onların ideyaca zənginləşməsinə və mənəvi tərbiyəsinə fəal kömək göstərməlidir». Bu baxımdan orta ümumtəhsil məktəblərində ədəbiyyatın tədrisi qarşısında mənəvi zənginliyə, əxlaq saflığına və fiziki kamilliyə malik olan yeni insan tərbiyə etmək kimi mühüm vəzifə durur. «Ümumtəhsil və peşə məktəbi, islahatının əsas istiqamətləri haqqında qərarda fənlərin, o cümlədən də ədəbiyyat tədrisinin keyfiyyətini yüksəltmək, gənc nəsldə əməyə, peşəyönümünə məhəbbət tərbiyə etmək ön plana çəkilir. Qərarda deyilir: «Şagirdlərin bədii təhsilini və estetik tərbiyəsini xeyli yaxşılaşdırmaq çox mühüm vəzifədir. Gözəllik hissi inkişaf etdirilməli, yüksək estetik zövqlər, incəsənət əsərlərini, tarix və arxitektura abidələrini, doğma təbiətin gözəlliyini və zənginliyini başa düşmək və qiymətləndirmək bacarığı formalaşdırılmalıdır. Bu məqsədlə hər bir tədris fənninin, xüsusilə böyük idrak və tərbiyə gücünə malik ədəbiyyat, musiqi, təsviri sənət və estetikanın imkanlarından daha yaxşı istifadə olunsun».

Deməli, məktəblilərin bədii zövqünün yüksəlməsi onlarda ədəbi əsərlərə, xüsusilə təbiət (peyzaj) təsviri zəngin olan nadir sənət incilərinə, o cümlədən də təbiət haqqında hekayələrə marağı daha da artırır. Ona görə ki, şagirdlərin estetik tərbiyəsi sahəsində aparılan tədbirlər indi böyük məsuliyyət və yaradıcı iş tələb edir. Gənc nəslin ahəngdar, hərtərəfli inkişafı, onlarda materialist dünyagörüşünün formalaşdırılması müasir dövrün aktual

problemlərindən birinə çevrilmişdir. Bu sahədə ədəbiyyat və incəsənət daha zəngin material verir.

Sov. İKP MK-nın Baş katibi M.S.Qorbaçov yoldaş Sovet İttifaqı Kommunist Partiyasının XXVII qurultayına Sov. İKP Mərkəzi Komitəsinin Siyasi məruzəsində demişdir: «Cəmiyyətin mənəvi sağlamlığı, adamların yaşadığı mənəvi mühit xeyli dərəcədə ədəbiyyat və incəsənətin vəziyyəti ilə müəyyən olunur. Ədəbiyyatımız yeni dünyanın yaranmasını əks etdirməklə bərabər, onun təşəkkülündə fəal iştirak etmiş, bu dünyanın adamını öz ölkəsinin vətənpərvəri, əsl beynəlmiləlçi olan adamı yetişdirmişdir. Beləliklə, ədəbiyyatımız ümumxalq işində öz yerini, öz rolunu düzgün seçmişdir». Başlıca vəzifə formaca milli, məzmunca sosialist ədəbiyyatımızın nadir incilərini gənc nəslə şüurlu surətdə mənimsətməkdən ibarətdir. Şübhəsiz ki, yaradıcı müəllim əməyinin rolu bu problemin həllində daha da artır, müəllimin ideya-siyasi və elmi-metodik baxımdan silahlanmasını tələb edir. Bu səmərəli işdə müəllimə elmi-metodik ədəbiyyat düzgün istiqamət verir, onun məsuliyyətini artırır. Eyni zamanda, «Maarif» nəşriyyatının «Məktəb kitabxanası» seriyasından buraxdığı kitablar məktəblilərin qiraətə olan tələbini ödəyir, onları mütaliəyə sövq edir və onlarda ədəbiyyata olan marağı daha da artırır. Bu baxımdan ilk təşəbbüs kimi tərtib olunan «Təbiət haqqında hekayələr» kitabı da məktəblilər üçün gözəl hədiyyə hesab oluna bilər. Əlbəttə, Azərbaycan ədəbiyyatındakı təbiət haqqında hekayələrin hamısını bir kitabda vermək və ya tamamilə əhatə etmək mümkün deyildir. Məhz buna görə də tərtib zamanı ədəbiyyat proqram və dərsliklərinə verilən tələblərlə səsləşən təbiət haqqında hekayələr nəzərdən keçirilmiş və bu sahədə səmərəli fəaliyyət göstərən sənətkarların hekayələrindən ən yaxşı nümunələr seçilmişdir.

Baharın gəlməsi, təbiətin yaşıl don geyinməsi, zirvələrin ağ örpəyə bürünməsi, zəmilərin dərya kimi dalğalanması, çəmənliklərin gül-çiçəklə bəzənməsi, suların zümzüməsi, bulaqların laylası, meşələrin titrəməsi, əsən külək, yağan yağış, bol məhsullu tarlalar, bağlar, bostanlar təbiət

hekayələrinə dərin məzmun, təsirli ideya, zəngin bədii-estetik mahiyyət, yüksək təlim-tərbiyəvi qüvvət verir. Təbiət vurğunu Mikayıl Rzaquluzadənin «Gözəlliyin keşiyində» hekayəsindən götürülmüş aşağıdakı parçaya diqqət edək: «Tünd-yaşıl məxmər ətəklərini göldə yuyan gözəllər kimi halay vurmuş cərgə-cərgə şam ağacları pillə-pillə ucalır, vüqarlı Kəpəzin yalçın qayaları sıyrılmış xəncərlər kimi bu gözəlləri, bu gözəlliyi sanki yadlardan, yağılardan qoruyurdu. Gölün büllur suları, pənbə buludları, qızıl şəfəqləri, yaşıl təpələri, sarı-qızıl qayaları qoynuna alıb ağır-ağırləngər vurduqca, sədəf kimi min rəngə çalırdı». Göründüyü kimi, təbiət gözəlliyinin təsvirində dərin hikmət, zəngin məzmun var. Kəpəz haqqında orijinal və canlı təsəvvür verən peyzaj insan qəlbini estetik zövqlə doldurur, onun mənəviyyatını, əxlaqi keyfiyyətlərini zənginləşdirir. Hekayədə təbiət gözəlliyi ilə insan gözəlliyi bir-birini tamamlayaraq sənətkar ideyasının tərənnümünə çevrilir.

Azərbaycan ədəbiyyatında təbiət hadisələrinə həsr olunmuş ictimai və didaktik mahiyyətli hekayələrin səciyyəvi tarixi inkişaf yolu vardır. Böyük Oktyabr sosialist inqilabından əvvəlki dərsliklərdə, eləcə də uşaq jurnallarında («Dəbistan», «Rəhbər», «Məktəb») hekayələrə, o cümlədən də təbiət haqqında hekayələrə yer verilir, balaların qiraətə olan tələbi ödənilirdi. Maarifpərvər yazıçı-müəllimlərdən S.S.Axundov, A.Şaiq, S.M. Qənizadə, R.Əfəndiyev, A.Divanbəyoğlu, B.Talıblı və başqaları bu sahədə səmərəli fəaliyyət göstərirdilər. Onlar müəllimliklə kifayətlənmir, eyni zamanda, orijinal hekayələr yazır, tərcümələr edirdilər. «Dəbistan» jurnalındakı «İfadeyi-məram» adlı məqalədə oxuyuruq: «Öz halımıza dair gülməli və ibarətamiz hekayələr və mənzumələr qeyrəti ilə uşaqlarımız zəif və bivüsət əql və dərrakələrini gücləndirib gözəl hisslər və təcrübələr əxz edirlər. Böylə bir mühüm və əhəmiyyətli mətləbə yetişməkdə ancaq məktəblərimizə ümidvar olmayırıq, çünki uşaqlarımızın məktəblərdə keçirdikləri üç, ya dörd saat vaxt yazıb oxumaq və dərs kitablarında tutulan hekayələri öyrənməyə ancaq kifayət edir», Şübhəsiz ki, göstərilən fikir

yalnız «Dəbistan» jurnalında deyil, «Rəhbər» və «Məktəb» jurnallarının qarşısında qoyulan vəzifələrin də konkret şərhini verir. Belə ki, bu jurnallarda maraqlı məzmuna, təlim-tərbiyəvi mahiyyətə malik olan hekayələrə geniş yer verilirdi. Bu hekayələr içərisində təbiət haqqında hekayələrin xüsusi yer tutması təbii haldır, çünki təbiət hekayələri oxucuya bədii-estetik zövq aşılamağın ən qüdrətli vasitəsidir.

Tərtib etdiyimiz «Təbiət haqqında hekayələr» kitabına maarifpərvər yazıçı-müəllim Rəşid bəy Əfəndiyevin «Bəsi- rətül-ətfal» (1901) dərsliyində verilən «Uşaqların meşədəki əhvalatı» və «Alma ağacının əhvalı» hekayələri də salınmışdır. Görkəmli söz ustaları Ə.Haqverdiyev, S.S.Axundov və A. Şaiqin hekayələrindən nümunələr, Azərbaycan sovet ədəbiyyatının S.Rəhimov, Ə.Vəliyev, M.Rzaquluzadə, Ə Əbülhəsən, Mir Cəlal, Mehdi Hüseyn, Mirzə İbrahimov kimi tanınmış nümayəndələrinin təbiət haqqında hekayələrindən seçmələr kitabın bədii-estetik dəyərini artırmaqla onun mövzu və məna tutumunu daha da zənginləşdirmişdir. Təbiət haqqında hekayələr toplusunu zinətləndirən əsərlərin müəyyənləşdirilməsində pedaqoji və tarixi ardıcıllıq prinsipi qorunmuşdur.

Kitabdakı hekayələrin dərk olunmasına kömək etmək məqsədi ilə epik janr və onun növlərini bir daha xatırlamaq faydalıdır.

Məlumdur ki, böyük yunan alimi Aristotel bədii əsərləri lirik, epik və dramatik növə bölmüşdür. Ədəbiyyatı incəsənətin ən yüksək növü adlandıran V.Q.Belinski yazır ki, «epos», söz, rəvayət demək olub, predmetin zahiri görkəmini verir və ümumiyyətlə, predmetin nə olduğunu və necə olduğunu izah edir. Deməli, «epik» «epos» sözündəndir, yunanca «epos» danışmaq, söyləmək, nağıl etmək deməkdir. Hekayə də epik növə daxildir.

Həcm etibarilə qısa, yığcam olan hekayədəki hadisələr əsasən bir şəxsin ətrafında cərəyan edir, onun həyatından müəyyən bir epizod, maraqlı əhvalat təsvir olunur. Hekayənin qəhrəmanı da həmin şəxs olur. Hekayədə iştirak edən digər surət və ya surətlər əsas qəhrəmanın səciyyələndirilməsinə, onun

xarakterinin aydınlaşdırılmasına kömək edir. Ümumiyyətlə, hekayələrdə iştirak edən surətlərin sayı az olur, onların təsviri geniş, təfsilatlı verilmir.

Geniş yayılmış hekayə janrında əsər yazmaq sənətkardan mahir ustalıq, hadisələrə dərindən nüfuz etmək, öyrənmək, məsuliyyət tələb edir. Sənətkar insan həyatının müəyyən tipik cəhətini qələmə alarkən diqqətli olmalı, dövrün tələblərinə cavab verməyə oxucunu tam təmin etməyə çalışmalı, dilin sadəliyini, təhkiyənin gözəlliyini, səmimiliyini, axıcılığını, bədiiliyini gözləməli, hekayə janrının tələblərinə əməl etməlidir. Təhkiyə epik əsərlərin, o cümlədən də hekayələrin əsas xüsusiyyətini müəyyənləşdirir; hadisələr ardıcıl, sistemli və əhatəli söylənilir. Hekayələrdəki adi əhvalatlarda böyük həqiqətlər oxucunu valeh edir, onu düşündürür, ona bilik, bədii-estetik zövq verir, onun dünyagörüşünün formalaşmasına, nitq mədəniyyətinin zənginləşdirilməsinə əsaslı təkan verir. Bir həqiqəti inkar etmək qətiyyən mümkün deyildir ki, təbiət (peyzaj) təsviri verilməyən hekayə təsəvvürə gətirmək çox çətindir, daha doğrusu imkandan xaricdir. Təbiət təsviri bədii əsərlərə, o cümlədən də hekayələrə məna və sənətkarlıq zənginliyi gətirir. S.S.Axundov «Qorxulu nağıllar» silsiləsindən «Əhməd və Məleykə», «Abbas və Zeynəb», «Nurəddin», «Qaraca qız», «Əşrəf» hekayələrində təbiət təsvirləri vermişdirsə, A.Şaiq, Ə.Mustafayev, A.İsrafilbəyov və başqaları da «Gülməli nağıllar» silsiləsindən yazdıqları hekayələri təbiət təsvirləri ilə zənginləşdirmişlər. Nəticə olaraq deməliyik ki, hekayələrin hamısında təbiət təsvirləri verilir. Görkəmli söz ustaları İ.Əfəndiyevin və Ə.Məmmədxanlının hekayələrini təbiət təsvirlərindən ayrı düşünmək olmaz, çünki peyzaj bu hekayələrin mahiyyətinə hopdurulmuşdur. Yazıçı oxucusunu ictimai mənalı bir həyat hadisəsi ilə məhdud zaman, məkan daxilində tanış edir, ona bədii sözün qüdrətilə gözəl əxlaqi sifətlər aşılamağa çalışır. Sadə quruluşa, yığcam süjetə, maraqlı təsvir vasitələrinə, təhkiyə üsuluna malik olan hekayələr dünya ədəbiyyatında geniş yayılmış şöhrət, qazanmışdır. Hər bir xalqın məşhur hekayə ustaları, hekayə yaratmaq ənənələri vardır. Rus tənqidi realist ədəbiyyatına dünya şöhrəti qazandırmış

görkəmli sənətkar F.M.Dostoyevskinin «biz N.V.Qoqolun «Şinel»indən çıxmışıq», ədib Mir Cəlalın «biz Cəlil Məmmədquluzadənin «Poçt qutusu»ndan çıxmışıq» ifadələri olduqca hikmətamiz, təsirli və mənalıdır. Bütün bunlar göstərir ki, hər bir xalqın özünəməxsus hekayə yaratmaq ənənəsi vardır və bu ənənə klassik irsdən bəhrələnərək davam etdirilir, daha da zənginləşdirilir. Məşhur yazıçılar hekayələri həyatilik və həqiqilik, tərbiyəvi təsir cəhətdən ən fəal ədəbi janr saymış, yüksək qiymətləndirmişlər. Elə buna görə də hekayə janrına bütün dövrlərdə tələb çox böyük olmuşdur. Klassik ədəbiyyatımızın mütərəqqi ənənələrini davam və inkişaf etdirən yazıçılarımız hekayə yazmağa mənəvi borc kimi baxmış, onun gözəl nümunələrini yaratmışlar.

Azərbaycan ədəbiyyatı tarixində realist hekayənin ilk nümunəsi Cəlil Məmmədquluzadənin məşhur «Poçt qutusu» (1903) əsəridir. Ədəbiyyatşünas Altay Məmmədov «Azərbaycan hekayəsi» (1984) monoqrafiyasında yazır ki, «Poçt qutusu» yeni Azərbaycan hekayəsinin manifestidir. Lakin bu hekayənin yaranmasına qədər olan boşluğu M.Ş.Vazehin, S.Ə.Şirvaninin və M.M.Şükuhinin hekayə təsiri bağışlayan kiçik miniatürləri doldurmuşdur. Həmin miniatürlərin yaranmasına başlıca səbəb yeni üsullu məktəblərin yaranması və qiraətə olan tələbin artması idi.

Azərbaycan ədəbiyyatı tarixində bünövrəsini Mirzə Cəlilin qoyduğu realist hekayə janrını N.Nərimanov, Ə.Haqverdiyev, N.Vəzirov. S.S.Axundov, S.M.Qənizadə, R.Əfən diyev, A.Şaiq, A.Divanbəyoğlu, S.Hüseyn, H.Nəzərli, B.Talıblı, T.Şabhazi, C.Cabbarlı kimi görkəmli sənətkarlar davam və inkişaf etdirmişlər.

Azərbaycan ədəbiyyatında realist, romantik, satirik, yumoristik, tarixi, fəlsəfi, ailə-məişət, məhəbbət, əhvalat, portret, əşya, təbiət (peyzaj), inqilabi, hərbi və s. mövzularda maraqlı hekayələr yazılmışdır. Həmin hekayələrdən orta ümumtəhsil məktəblərin ədəbiyyat proqram və dərsliklərində istifadə olunur. Hekayələr təhkiyə və mükalimə üslubunda

daha çox yazılır. Tədris prosesində təhkiyə dili, onun xüsusiyyətləri və əhəmiyyəti aydınlaşdırılmalı, konkret nümunələr göstərilməlidir.

Sovet dövründə yaradılan hekayələr Böyük Oktyabr sosialist inqilabından əvvəl yaradılmış hekayələrin qanunauyğun davamı və inkişafı kimi qiymətləndirilməli, tədris olunmalıdır. Dövrün qarşıya qoyduğu tələblər baxımından yazılan bitkin, təsirli hekayələr təlim-tərbiyə cəhətdən daha faydalıdır. Bu hekayələrdə portret, təbiət və əşya təsvirləri, fikir dərinliyi, surətlərin əhvali-ruhiyyəsinin bədii ümumiləşdirilmələrlə verilməsi, quruluşunun yığcam və maraqlı olması məzmunun və ideyanın şüurlu mənimsənilməsini asanlaşdırır. Ümumiyyətlə, bədii ədəbiyyatın, o cümlədən hekayələrin tərbiyəvi rolunun müvəffəqiyyətlə gənc nəslə öyrədilməsində sovet məktəblərinin qarşısında böyük vəzifələr durur. Bu da məktəbdə ədəbiyyat tədrisinin yaxşılaşdırılmasını tələb edir. Tədrisin yaxşılaşdırılması isə təlim metodlarının təkmilləşdirilməsindən asılıdır. Bunlar bir-birini tamamlayır, mövzunun şüurlu dərk olunmasının səmərəli yollarını müəyyənləşdirir.

Təbiət haqqında hekayələr estetik zövqün aşılanmasında mühüm amillərdən biridir. Gənc nəsil təbiət və cəmiyyət hadisələrini qiymətləndirməyi, həqiqi gözəlliyi dərk etməyi bacarmalı, bədii əsər haqqında mühakimə yürütməyi, mülahizə söyləməyi öyrənməlidir. Təbiət haqqında hekayənin esqetik hiss və həyəcan doğurduğunu, insana bədii zövq verdiyini şagird şüurlu dərk etməli, əsərin məzmun və ideyasını, sənətkarlıq xüsusiyyətlərini səmərəli öyrənməli, ondan təlim-tərbiyəvi nəticə çıxarmağı bacarmalıdır. Estetik zövqün inkişafı insanın ümumi mədəni səviyyəsi, dünyagörüşünün genişliyi, mühakiməsinin kamilliyi və yetkinliyi ilə möhkəm əlaqədardır. Estetik mühakimənin çıxış nöqtəsi sənət əsərinin məzmun və ideyasını, bədii xüsusiyyətlərini qavramaqdan ibarətdir. Estetik tərbiyə insanı kamilləşdirir, yetkinləşdirir, ülviləşdirir, onun ahəngdar inkişafında mühüm rol oynayır. Estetik tərbiyə həyatda və incəsənətdə

ülviliyi, gözəlliyi qavramağın meyarıdır, ədalətli, obyektiv olmağın əsasıdır. Bu problemin həllində sənət əsərlərinin rolu böyükdür.

Epik əsərlərdə, o cümlədən hekayələrdə hadisələr təhkiyə və təsvir üsulunda verilir. Əsərdəki surətlərlə yanaşı dram əsərlərindən fərqli olaraq, müəllifin özü də danışır, hətta bəzən onun təhkiyəsi əsas yer tutur. Əsərdəki surətlər arasında gərgin münaqişələr, kəskin ziddiyyətlər baş verir, kamil və tamamlanmış xarakterlər yaradılır. Epik əsərlərdə yazıçı hadisələrə müdaxilə edir, maraqlı epizodlar, bədii haşiyələr verir. Yazıçı əsərdə aparıcı vəzifəni icra edir, yəni əsərdəki hadisə və surətləri bir-biri ilə möhkəm bağlayır, onların hansı məqsədlə verildiyini şərh edir, surətləri görüşdürür.

Epik əsərlərin quruluşu yazıçıya imkan verir ki, təsvir etdiyi hadisə surətləri həyat həqiqətləri əsasında bədii boyalarla zənginləşdirsin, daha orijinal yaratmağa nail olsun. Sözə qənaət, az söz ilə dərin məna bildirmək, folklorun nadir incilərindən, klassiklərin hikmətli sözlərindən yerində istifadə etmək epik əsərlərə xüsusi gözəllik verir, onun dəyərini artırır.

Azərbaycan sovet nəsrində təbiət gözəlliklərinə vurğunluq, vətən məhəbbəti, xalq məhəbbəti, təbiəti mühafizə kimi problemlərin bədii ifadəsi canlı verilmişdir. Məhz buna görə də şagirdlərin mütaliə etdikləri bədii əsərlər içərisində peyzaj hekayələri xüsusi yer tutur. Şagirdlərin dünyagörüşünün, bilik dairəsinin inkişafında, ideyaca yetkinləşməsində, bədii-estetik zövqünün cilalanmasında, xaraterinin mətinləşməsində, mənəvi aləminin zənginləşməsində təbiət hekayələrinin böyük əhəmiyyəti vardır.

Hekayələrdə təbiət (peyzaj), əşya və portret təsvirinə geniş yer verilməsi təbii haldır. Ona görə ki, məzmun və ideyanın şərhində, surətlərin səciyyələndirilməsində, dil və bədii ifadə xüsusiyyətlərinin təhlil olunmasında təsvir vasitələrinin rolu çox böyükdür. Böyük rus tənqidçisi N.Q.Çernışevski yazır: «Portret onun üçün çəkilmir ki, canlı insanın sifəti bizi təmin etmir; onun üçün çəkilir ki, adam bizim gözümüzün qabağında olmadığı zaman onu xatırlamağa bizə kömək edir və onu görməmiş olan adamda onun haqqında bəzi təsəvvür yaradır».

Deməli, portret, əşya və eləcə də peyzaj təsviri həm obrazın səciyyələndirilməsinə, həm də məzmunun və ideyanın səmərəli mənimsənilməsinə kömək edir, əsərin ideya-estetik məziyyətlərini artırır. Həyat lövhələrini təsirli bədii vasitələrlə əks etdirən əsərlər oxucuların daha böyük marağına səbəb olur, stolüstü kitaba çevrilir. Müasir varlığı, əmək qəhrəmanlıqlarını, uşaqların romantik həyatını əks etdirən əsərlərin təlim-tərbiyəvi təsiri güclü olur. Yenilik duyğusuna sadiq qalan yazıçı oxucunun yaş və bilik səviyyəsini nəzərə alır, onların mütaliəyə olan mənəvi ehtiyacını ödəyə bilir. Bu baxımdan kitabda verilən təbiət hekayələri yaxşı təsir bağışlayır, şagirdlərin qiraətə olan tələbinin müəyyən mənada ödənməsinə kömək edir. Ümumiyyətlə, uşaq kitabları faydalı olmalı, gözəl təlim-tərbiyəvi təsir bağışlamalıdır. Böyük rus tənqidçisi V.Q.Belinski uşaq mütaliəsinə məsuliyyətlə yanaşmağın zəruriliyini qeyd edərək yazırdı: «Uşaqlar üçün kitab yazmaq olar və lazımdır; lakin uşaqlar üçün yazılan o əsərlər yaxşıdır ki, onlar böyükləri də yalnız uşaqlar üçün yazılmış bir əsər kimi deyil, hamı üçün yazılmış ədəbi bir əsər kimi maraqlandıra bilsin. Bu, başqa növdən olan əsərlərdə olduğundan daha artıq hekayələrə, povestlərə aiddir». Uşaqlar mücərrəd ideyaları sevmir, onlara elə hekayələr lazımdır ki, oxucuya milli iftixar hissi aşılasın, ona görə ki, «öz vətəninə mənsub olmayan adam bəşəriyyətə də mənsub deyildir». Deməli, təbiət hekayələrinin milli iftixar hissinin tərbiyə olunmasında da böyük rolu və əhəmiyyəti vardır.

Təbiət haqqında yazılmış hekayələr gənc nəslin zəngin bədii-estetik tərbiyə mənbəyidir. Həmin hekayələr təbiət və cəmiyyət hadisələri haqqında geniş, ətraflı məlumat verir. Gənc nəslin ahəngdar inkişafında mühüm rol oynayır. Ədəbiyyatımızda təbiət haqqında yazılmış hekayələr ənənəvi bir inkişaf yolu keçmiş, görkəmli yazıçılar bu sahədə qələmlərini sınamış, vətənpərvərlik, humanizm, əməksevərlik, xalqa məhəbbət, azadlıq, xoşbəxtlik kimi yüksək əxlaqi keyfiyyətlər aşılayan sənət nümunələri yaratmışlar. Bu baxımdan «Təbiət haqqında hekayələr» toplusunu

Ə.Məmmədxanlı, İ.Əfəndiyev, Q.İlkin, B.Bayramov, İ.Şıxlı, H.Abbaszadə, A.Məmmədov, Y.Səmədoğlu kimi oxucuların hörmətini qazanmış yazıçıların hekayələri zənginləşdirmişdir.

Şübhə yoxdur ki, «Məktəb kitabxanası» seriyasından ilk təşəbbüs kimi tərtib olunan «Təbiət haqqında hekayələr» kitabı müəyyən qüsurlardan xali deyildir. Bunu nəzərə alaraq kitabın gələcək nəşrini zənginləşdirmək, tərtibçiyə, elmi, nəzəri və metodik baxımdan gömək etmək, qüsurları obyektiv göstərmək məqsədilə öz xeyirxah mülahizələrini, səmərəli təkliflərini yazan yoldaşlara əvvəlcədən minnətdarlığımızı bildiririk.

***Tərtibçilər***

## RƏŞİD BƏY ƏFƏNDİYEV

(1863 – 1942)

## UŞAQLARIN MEŞƏDƏKİ ƏHVALATI

Bir neçə uşaq-qardaş və bacı bahar fəsli məktəbə gedirdilər. Yol getdikcə, isti və toz bunları incidirdi. Meşənin sərin və gözəl havası xoşlarına gəldi,-dedilər ki, ey uşaqlar, gəlin kefimizi arayaq; bax, gör nə gözəl quş sədası gəlir və nə qəribə siçovullar atılıb-düşürlər, gedək meşədə oynayaq.

Bu təklif xoşlarına gəldi. Bunlar kitablarını çəmənə atıb meşəyə sarı yönəldilər. Cökə ağacının gözəl ətri və qara kölgəsi, palıd və şam ağaclarına dırmaşıb çulğalanmış sarmaşığın əlvan gülü və çiçəyi, yaşıl çəmən uzunu koma-koma duran böyürtkənin, moruğun kolları vəhşi meşəni müntəzəm bir bağa bənzətmişdi. Bu yaşıllığın içində quşların nəğməsi, siçovulların və dovşanların sıçraması, atılıb düşməsi, xırda-xırda cücülərin, arıların və qurdların hərəkət və sükunəti meşənin gözəlliyinə başqa bir məlahət verirdi.

Uşaqlar qabaqca dozanqurduna yönəldilər ki, gəl bizimlə oyna. O dedi ki, oynamağa mənim macalım yoxdur, azuqə dalınca gedib ac qarnımı doydurmaq lazımdır.

Uşaqların bundan əli çıxıb bal arısına yönəldilər ki:

Canım arı, gözüm arı,
Sən də bizlə oyna barı.

Bu da dedi ki, macalım yoxdur, bal qayırmaq üçün çiçəklərdən şəhd yığıram.

Bundan da məyus olan uşaqlar qarışqaya yönəldilər və gördülər ki, bir neçə qarışqa yığılıb on qat öz bədənləri boyda samanı yuvalarına çəkirlər.

Sonra yönəldilər siçovula sarı. Siçovul dedi:

– Əzizlərim, mən qış üçün yuvama fındıq, qoz yığmağa məcburam, məndə fürsət olmaz.

Siçovuldan haray olmadığını qanıb, bunlar göyərçinə yönəldilər. O da dedi ki, mən də balalarıma yuva tikməyə məşğulam, vaxtım yoxdur.

Xülasə, bu aralıqda onların gözü sataşdı çiyələk çiçəyinə, buna demək istəyirdilər ki, barı sən də olsa gəl bizim könlümüzü aç, gördülər ki, bu çiçək dadlı meyvə yetirməyə qadirdir.

Uşaqlara qəm üz vermişdi. Məyus-məyus meşədə gəzdikləri əsnada gördülər ki, meşənin ortasından qobu salıb gömgöy bir çay axır. Bunlar çaya dedilər ki, ay çay, dünyada hər şeyə ki yönəldik bir işə onu məşğul gördük, təklif elədik bizimlə oynamağa, fürsətləri olmadı, sənin işin-peşən yoxdur, gəl bizim ilə oyna. Çay acıqlı-acıqlı axıb cavab verdi ki, ey tənbəl uşaqlar, mənimmi işim-peşəm yoxdur? Görün ki, insanlar və heyvanları suvaran mənəm, əyin paltarını yuyub arıdan mənəm, tingləri və dəyirmanları işlədən mənəm, qayıqları və gəmiləri gəzdirən mənəm, yanğınları keçirib söndürən mənəm, işimin çoxluğundan başım hərlənir.

Bu sözləri deyib çay nərildəyə-nərildəyə axıb getdi.

Uşaqlar kor-peşman meşədən çıxıb məktəbə gəlmək fikrinə düşdülər. Burada gözləri bir qızlarquşuna sataşdı. Buna yönəlib dedilər:

— Ay qızlarquşu, barı sən gəl, bizimlə ülfət eylə, sənin ki, heç işin yoxdur, sən ki bir azadə quşsan.

Uşaqların bu sözü qızlarquşunun çox kefinə dəydi, dedi ki, hər yerdə gəzib balalarımı dəqiqədən-dəqiqəyə doyduran mən deyiləmmi? Siz indi mənim bir qədər dayanıb oxumağımı gördünüz? Bununla mən həm yorğunluğumu alıram və həm balalarıma layla çalıram. Bir deyin görüm bu gün siz, balaca tənbəllər nə iş görübsünüz? Məktəbə getməyibsiniz? Heç bir şey öyrənməyibsiniz? Meşəyə qaçıbsınız? Hələ kəsb əhlilərini meşədə kəsbdən uzaq salmaq istəyirsiniz? Əməllərinizdən utanın, gedin o işin dalınca ki, sizi göndəriblər. Mənim bu nəsihətimi unutmayın ki, iş tutub, tutduğun işi yarıdandan sonra olan rahətlik və oynamaq çox ləzzətli olur.

Uşaqlar qızlarquşunun töhmətindən xeyli xəcalət çəkib məktəbə yüyürdülər və gəlib dərsə gec çatdılarsa da səy ilə oxumağa və kamal kəsb eyləməyə xeyli həvəs göstərdilər.

## ALMA AĞACININ ƏHVALI

Meşədə zorba bir cır alma ağacı bitmiş idi. Payız fəslində bu ağacdan bir alma düşüb yerdə qalmış idi. Qurd-quş bu almanı dimdikləyib həm özünü və həm toxumunu yemiş idilər. Alma toxumundan bir dənəsi sıçrayıb yerin cadarına düşmüş və orada qalmış idi. Qış ötdü, yaz açılan zaman günün hərarəti yerə təsir eləməyə başladı, bu toxum da o vaxt göyərməyə başladı; torpağın içinə sarı kök atdı, havaya iki yarpaq açıb baş çıxartdı.

Bu dediyimiz əvvəlinci iki yarpağın tən ortasından bir zoğ göyərməyə başladı. Bu zoğ uzunu xırda-xırda düymələr düzülmüş idi və bunlardan dəxi təzə yarpaqlar və zoğlar çıxmağa başlamış idi. Bu minval ilə zoğ ata-ata toxum kizlənmiş yerdə bir gözəl alma ağacı əmələ gəlmiş idi. Bir nəfər bağban əlində dəmir bel meşədə gəzərkən bu şümal onun gözünə sataşdı və dərhal bu ağacı qazıb yerdən çıxarmağa başladı. Alma ağacı bu halı görüb dedi:

– Vay, vay. Ömrüm burada tamam oldu, daha yaşamaq mənə mümkün olmaz, tələf oldum getdi.

Amma bağban kamal-ehtiyat ilə ətrafını qazıb, rişələrinə xələl yetirməyərək, bu cavan alma ağacını meşədən çıxarıb bağına göçürdü və rahat yerə basdırdı. Təzə basdırılmış ağac ətrafına baxıb gördü ki, qonşuluğunda gödək-gödək göyərtilər yerə basdırılıb, başları kəsilib və kəsik yerlərə cırıq-cındır bağlanıbdır. Özünə olan hörməti görüb xeyli məğrurlaşdı. Ancaq yazıq bilmirdi ki, kök tutandan sonra bağban onu da ətrafındakıların halına salacaqdır. O biri il bağban əlində iti dəhrə gəlib bu ağacın boğazından kəsib atdı, qaldı bircə kötüyü. Bu dəfə alma ağacı özü-özündən əl götürdü və dedi ki, lap həlak oldum. Mən bir daha əmələ gəlmərəm.

Bağban əlindəki dəhrə ilə götüyün təpəsindən vurub başı aşağı cırdı. həmin yarığa başqa bir cins alma ağacının zoğunu salıb vurduğu yaranı məlhəm ilə bağladı. Alma ağacı cavan olduğu və qüvvətli yerdə bitdiyindən,

götürdüyü yarası tezliklə sağalıb başqa cins ağacın budağı ilə qaynadı. Bu calaq üç il ərzində qol-budaq atıb meyvə gətirməyə başladı.

Meyvə, necə meyvə. Özü iri, rənki al-qırmızı, ətri xoş, dadı turşaşirin, özü yumyumuşaq. Xülasə, bu alma ağacı elə bir şöhrət qazandı ki, hər yerdən gəlib ondan qələm aparıb calaq calayırdılar.

## ƏBDÜRRƏHİM BƏY HAQVERDİYEV

(1870—1933)

### AYIN ŞAHİDLİYİ

**Ey gahi qədim kimi xəmidə,**
**Gahi pür olan misali-didə.**

*Füzuli*

Yay fəsli təzə daxil olmuşdu. Şəhərin havasının qəlizliyindən, tozundan, zəhmətinin kəsrətindən bir qədər asudələşmək və yorulmuş bədəni köhnə halətinə gətirmək üçün kəndə rəvan oldum. Qəndablı kəndinin havası, ələlxüsus gecələri cümləyə məlumdur. Bu kəndin aydınlıq gecələri nə qələmlə və nə dillə vəsfə gələn deyil və məni kəndə çəkən ancaq onun gecələrinin səfası idi.

Gözəl gecələrin birində bir evin qabağında bir taxt qoyub bir tərəfində mən və bir tərəfində imperator Birinci Nikolayın əsrində xidmət etmiş əmim əyləşib istirahətə məşğul idik. Həqiqət nəsimin əsməyi, çəyirtkələrin qanadlarının sızıltısı və yaxın arxın qurbağalarının nəğmələri hamısı bir-birinə qarışıb, ruha sükunət verən qərib bir ahənki-təbii əmələ gətirmişdilər. Düzlərdə əkilmiş taxıl nəsimin qabağında o yan-bu yana yatıb dərya tək mövclənirdi və dolu sünbüllər məzlum-məzlum başlarını aşağı salıb, qətlinə fərman verilmiş müqəssirlər tək cəlladları olan biçinçilərə müntəzir idilər. Tək-tək boş sünbüllər başlarını yuxarı qalxızıb qürurla sairlərinə baxırdılar. Amma səhv edirdilər; onlar da cəllad əlindən qurtara

bilməyəcəkdilər. Ancaq dolu baş, boş başdan artıq kəsiləcəkdi. Taxılın qurtardığı yerdə xırda çayın şırıltısı bilavasitə qulağa gəlirdi və çayın kənarında cərgə ilə boy atmış ərərləri guya sünbüllər üstündə qarovul qoymuşdular.

Kənd yatmışdı. Nə xoruzlardan, nə itlərdən və nə sair heyvandan bir səs çıxmırdı. Qəflətən kəndin ayağında bir xoruz banladı. O saat fikrimə gəldi ki, yəqin sabah bu xoruzun bivaxt banlamağına görə başı cəllad əlində gedəcək: əlbəttə, bir yerdə ki camaat hamısı yuxuya məşğuldur, küy qalxızıb səs salanın başı gərək kəsilsin.

Bədirlənmiş ay qalxıb göyün bir qatında durub bu övzaya tamaşa edirdi.

Qoca əmim birdən dizi üstə qalxıb, papağını gözlərinin üstünə endirdi. O saat bildim ki, keçmiş günləri yadına düşüb, bir qəribə hekayət söyləyəcək.

Əmim əvvəl bir dərin ah çəkib dedi:

—Dünyanın xilqətindən indiyədək bu gördüyümüz Ay yerin ətrafında dolanır, neçə davalar, neçə min hadisələrə şahid olub, neçə min böyük şəxslər əsrini görüb; nə olardı bunun dili olsaydı. Axı, nə gözəl söhbətlər edərdi. Şəhadət dedim, bir keyfiyyət yadıma düşdü, qulaq ver, nağıl edim:

Qırx il, ya daha artıq bundan əqdəm mənim xidmət edən vaxtımda bir belə gözəl gecədə Səlman adlı bir şəxs bir qədər çit mal öz atına yüklüyüb bu kənddən o biri kəndə ti carət üçün gedərkən yolu bir dərədən düşdü. Dərənin ortasında bir müsəlləh şəxs Səlmanın qabağını kəsib buyurdu atdan düşsün. Binəva Səlman ayaqları titrəyə-titrəyə atdan aşağı endi. Quldur onun atını yükü ilə əlindən alıb dedi: indi özün də vaxtına hazır ol, çünki axır nəfəsin gərək burada çata. Mən səni buradan salamat buraxmayacağam. Çünki kənd yaxındır, gedib xəbər edərsən, mənim dalımca gəlib məni tutarlar.

Səlmanın bədəninə lərzə düşdü, dedi: «Ey şəxs, hər kimsən mən səni tanımıram, amma görürəm müsəlmansan, müsəlmanda nə qədər olsa bir mərdanə sifət olar. Mən əlsiz-ayaqsız çərçinin taqsırı nədir ki, öldürmək istəyirsən? Olan malımı əlimdən aldın, məgər mənim canımdan da sən bir fayda götürəcəksən? Səni and verirəm bizi yaradan bir Allaha, sən gəl mənim

canıma qəsd etmə, mən yazıq kişiyəm. Yeddi nəfər balaca uşaqların atasıyam, altı aydır arvadım ölüb, mən o uşaqlara həm atalıq, həm analıq edirəm, əgər mən də ölsəm, bil ki, uşaqlar hamısı acından qırılasıdırlar. Sən gəl Allah xatirəsi üçün mənim balaca yetimlərimi atasız qoyma. Rəhm insan ürəyində gözəl sifətdir; sənin mənim balalarıma rəhmin gəlsə, xudavəndialəm də səni yaddan çıxarmaz və mən də and içirəm ki, bu malın hamısını sənə halal edim və heç yerdə də danışmayım».

Quldura Səlmanın sözləri əsər etmədi. Dedi; «Kişi, nahaq yerə yetim-filan ortaya gətirmə, mənim sözüm sözdür, vaxtına hazır ol». Səlman dedi: «Belə olan surətdə izn ver iki rükət namaz qılım, ondan sonra məni tapşırım öz insafına». Quldur cavab verdi ki, namaza mane deyiləm, ancaq tez qurtar, gedəcəyəm.

Səlman iki rükət namaz qılıb sonra əllərini qaziyəlhacat dərgahına qalxızıb dedi: «Xudaya, mənim bu nahaq qanımı yerdə qoyma, pərvərdigara, mənim bir kəsim yoxdur, sən özün mənim yetim balalarıma pərəstar ol». Sonra gözünüAya döndərib dedi: «Ey dünyanı illərlə seyr edən Ay. Şahidi ol ki, sənin gözünün qabağında bir fəqir əlsiz-ayaqsız sövdəgəri nahaq yerə öldürdülər. Güzarın bizim evə düşsə, öz işığını salkinən mənim yetimlərimin üstünə və deyinən ki, yazıq balalar, atanız uzaq səfərə gedib, ona müntəzir olmayın. Gedin küçələrdə, qapılarda özünüzə gün ruzusu qazanın. Ey dağlar, daşlar, göllər, axan sular, əsən yellər, burada sizdən sivayı bir kəs yoxdur. Siz də şahid olun ki, bu yerdə dünya malından ötrü bir şəxsi öldürüb, onun yeddi balasını yetim qoydular».

Sonra kəlmeyi-şəhadətini deyib üzün quldura tutub dedi: «Qardaş, indi ixtiyar sahibisən, əgər məni öldürmək fikrindən daşınmayıbsan isə, bismillah, sözüm yoxdur, amma bil ki, mənim qanımı Allah yerdə qoymayacaq».

Quldur heç bir söz deməyib tüfənkini düzəldib Səlman kişinin ürəyindən bir güllə vurub onu qətlə yetirdi və sonra onun atını, çitini, libasını götürüb yola düşdü.

Sübh kənd əhalisi Səlmanın meyidini tapıb, bir ata yükləyib dəfn üçün kəndə apardılar. Səlmanın balaca yetimlərinin, ələlxüsus on yaşında bir qızının nalə və şivənini heç bir qələm yazmağa qadir deyil. Hər bir oxucu özü yeddi nəfər yetim qalmış xırda balaların halətini təsəvvürünə gətirə bilər.

Səlmanın ölümündən beş-altı ay keçmiş, onun cavan qardaşı Süleyman bir qan üstündə müttəhim olub dustaqxanaya salındı. Bu oğlan bisahib və qan tərəfi zorlu olmağına görə göstərilən şahidlər gedib divanda yalandan and içib qanı cavan Süleymanın boynuna qoydular. Bu binəvayə neçə il katorqa kəsildi.

Bir neçə vaxtdan sonra Süleyman mümkün tapıb dustaqxanadan qaçıb, quldurlar dəstəsinə qoşuldu və bu dəstənin də başçısı haman onun qardaşı Səlmanın qatili quldur idi. Süleyman öz qardaşının qatili ilə neçə müddət yoldaşlıq etdi.

İttifaqən bir gecə bu iki yoldaşın yolu haman Səlman ölən dərədən düşdü. Dərənin içində quldur çox ucadan güldü. Süleyman onun belə gülməyinin səbəbini soruşdu. Quldur cavab verdi ki, vallah, gülməyimə bir elə artıq səbəb yoxdur, ancaq bir keçmiş əhvalat yadıma düşdü, ona görə güldüm. Süleyman təkidlə soruşandan sonra quldur cavab verdi ki, neçə il bundan əqdəm burada bir çərçi öldürdüm və o çərçi ölən vaxt ayı, ulduzu, daşı, torpağı özünə şahid qayırdı. İndi yadıma düşüb, o çərçinin axmaqlığına gülürəm.

Süleyman bu sözü eşidən kimi təəccüblə barmağını dişləyib dedi: «Bəli, dünyada belə qəribə işlər çox ittifaq düşür».

Yoldaşlar dərədən çıxdılar düzə. Bir az gedəndən sonra Süleyman atının irəşini düzəltmək bəhanəsi ilə düşüb geridə qaldı və quldur getdi qabağa. Süleyman quldura bir az ara verib, tüfənki düzəldib onun kürəyinin ortasından vurub, öz qardaşının qanını aldı...

Əmim nağılını qurtarıb dedi: «Bala, Allah heç nahaq qanı yerdə qoymaz və ay, ulduz, daşlar, ağaclar Allahın hökmü ilə bu növ şəhadət edə bilərlər».

Qocanın nağılı tamam oldu, amma onun əvvəl sualı heç mənim başımdan çıxmadı. Öz ürəyimdə bir ucdan bu sualı verirdim: «Nə üçün bu göydəki ay danışmır? Nə üçün onun dili yoxdur? Ah... Nə olaydı bu ay mənimlə bir az söhbət edə idi». Bu xəyalla məni yuxu tutub yatdım.

Gecə röyada gördüm: ay yerindən hərəkət edib mənə tərəf enir, dedim: «Məramıma çatdım, yəqin mənimlə söhbət edəcəkdir». Həqiqət, ay gəlib bərabərimdə durub dedi: «Doğrudur, mən dünyanın xilqətindən Yerin ətrafına dolanıram. Mən həzrət Adəmin Həvva ilə bərabər behiştdən ixrac olunmaqlarını görmüşəm, mən həzrət Musanın Turda minacatlarını eşitmişəm, mən həzrət Yusifin quyu dibində üstünə işıq salmışam və həzrət Yəqubun gecələr naləsini və «oğul vay» sədasını eşitmişəm. Mənim şəfəqim Misir fironlarının, Roma qeysərlərinin, Kəyaniyan və Sasaniyan şahənşahlarının, Bəni-Ümməyyə, Bəni-Əbbasiyə xüləfasının qəsrlərinə, Turan və türk xalqlarının qəsrlərinə düşübdür. Mən islamın tərəqqi və tənəzzülünün şahidi olmuşam. Mən o gecənin şahidiyəm ki, peyğəmbər axirəzzaman bir neçə nəfər əshabi ilə Məkkənin kənarında bir dağın başında durub deyirdi: «Mənim yoldaşlarım, mənim əzizlərim, Məkkə əhli bizə dünyanı təng edib, bunlar bizi öldürüb, dini-mübini, yox edəcək. Məsləhət budur ki, burada bölünüb iki dəstə olaq, yarımız həbəşə tərəf, yarımız Yəsribə tərəf getsin. Əgər dəstənin biri tələf olsa, bəlkə o birisi salamat gedib, bir yana çıxıb dini-islami nəşr edə. Və mən o gecənin şahidiyəm ki, meydani-Kərbəlada peyğəmbər övladı, sübhədək ənvəri-qüdsiyyə içində, din yolunda şəhadətə hazırlanırdılar... İslamın yolunda mən neçə davalar, neçə cahadlar görmüşəm, odur ki, müsəlmanlar məni özlərinə bir əlaməti-məxsusə ittixaz etmişlər. Amma indi bu millətin əhvalına nəzər etdikcə deyirəm ki, lal olub danışmamaq məsləhətdir. Mənim üzümdə siz bir qara görüb onu ləkə hesab edirsiniz. Xeyr, o, qara ləkə deyil, bəlkə mənim ahımın tüstüsüdür ki, əqvami-islamiyyənin hər cəhətdən cəmi millətdən geri qalmağını görüb ciyərimdən çıxardıram...»

Bu halda xoruzlar banlayıb məni yuxudan oyatdılar. Baxdım gördüm sübhə az qalıb və ya məğrib tərəfə yaxınlaşıb, batmağa hazırlaşır. Yuxudan ayılmağıma artıq heyf edib dedim: nə olardı bir həftə yuxu yatıb ayla söhbət edib eşitdiyimi camaata bəyan edəydim.

Ax, nə gözəl olardı, bu ay danışsaydı...

## SÜLEYMAN SANİ AXUNDOV

(1875—1939)

### QAN BULAĞI

İyulun isti günlərinin birində dağların arası ilə uzanan əyri-üyrü, eniş-yoxuş yol ilə iki atlı gedirdi. Bunların biri iyirmi yaşında gənc, digəri yetmiş sinninə varmış bir qoca idi. Bu iki şəxsin yaşlarında bu qədər böyük fərq olduğu halda zahirlərində bir o qədər fərq görünməyirdi. Hər birisinin əynində pişmət, çərkəzi çuxa, belində kəmər, xəncər və qılınc, başında dəri papaq, çiynində qara yapıncı və boynunda ağ başlıq var idi. Qocanın at üstündə əyləşməsi, əzasının hərəkəti, alıcı quş kimi baxışı gəncdən seçilməyirdi. Lakin qocalıq nişanəsi üzünün qırışından və uzun ağ saqqalından görünürdü. Yol getdikcə daralırdı. Dağlardan enib, indi qayadöşü incə bir yol ilə gedirdilər. Onun yuxarı tərəfi divar kimi ucalan sıldırım qayalar, alt tərəfi göz qaraldan uçurum dərələr idi. Bu qorxulu yol ilə səfər etmək qeyrilərə namümkün olduğu halda, Dağıstan əhalisinə və onların atlarına adi bir şeydir.

Vaxt günortaya yaxınlaşmışdı. Susuzluqdan hər iki süvari yanırdı. Ələlxüsus susuzluq gəncə artıq təsir eləyirdi. Onun gözləri səbirsiz və iztirab ilə su arayırdı. Bu halda gəncin qulağına su şırıltısı gəldi.

— Baba, muştuluq olsun, irəlidən su səsi gəlir,-deyə cavan atını sürdü.

Qoca təbəssüm ilə ona nəzər salaraq, başını yırğaladı. Gənc bulağa çatdıqda gördü ki, suyun rənki qırmızıya çalır. Buna baxmayaraq susuzluğunu tezcə rəf etmək üçün bir qurtum su içər-içməz:

— Bu nə cür sudur?-deyə ayağa qalxdı. Bu halda qoca gəlib ona çatdı və gülümsəyərək dedi:

— Susuzluğunu rəf etdinmi, oğlum?

— Xeyr, baba, bu bulağın suyu içməli deyil, zəfir dadı verir, rəngi də qana bənzəyir,-deyə cavab verdi.

— Elədir, oğlum, bu «Qan bulağı»dır, bunun suyu dəmir ilə qarışmış, bu su qansızlara və bəzi naxoşlara dərmandır...

Cavan soruşdu:

— Bu «Qan bulağı» adını nədən almış, baba?

— Bir az səbr et, oğlum, bulağın hekayəsini sənə söylərəm. İndi isə ardımca sür, bu yaxında içməli su var,-deyə qoca atını sürdü.

Bir qədər getdikdən sonra gözəl bir bulağa rast gəldilər, atdan endilər. Cavan xurcunundan yemək çıxarıb, süfrə salmağa məşğul oldu. Nahardan sonra qoca yapıncısını yerə sərib üstünə uzandı. Cavan onun «Qan bulağı» barəsində verdiyi vədəyə müntəzir, qarşısında əyləşmişdi. Qoca gözlərini yumub bir müddət sükuta getdi. Gənc elə fikir etdi ki, qoca vədəsini unudub yuxuya daldı. Lakin fikri yanlış idi. Bir azdan sonra qoca gözlərini açdı, başlığını büküb dirsəyinin altına qoydu və dərindən bir ah çəkib dedi:

— Ulu Qafqaz, ulu dağlar. Hər bir daşın bir tarixdir. Kimlər gəlib sinəndən geçmədi, çaylarını qızıl qana döndərmədi...

— Oğlum, bu dərə, bu torpağı iki yerə təqsim edir. Belə rəvayət edirlər ki, qədim zamanda bu dərənin o tərəfində böyük bir qəbilə, başında Misir xan adında bir rəis və bu tərəfində, digər bir silsilə Surxay xanın rəisliyi ilə sakin olurmuşlar. İttifaqən bu iki xanın arasında qan davası düşür, bunlar bir-birlərini tələf etməyə başlayırlar. Bir müddət geçmiş, Misir xan və Surxay xan bir də baxıb görürlər ki, cəmi oğlanları və yaxın əqrəbaları bu qan davasında qırılıb tələf olmuşlar. Ədavət isə yenə yatmayıb baqi qalır.

Lakin hər iki rəis yeni övladlarının dünyaya gəlməsinə müntəzir olur ki, onların göməkliyi ilə düşməndən intiqamını alsın. İttifaqən bunların bir gecədə iki övladı təvəllüd edir. Surxay xanın oğlu, Misir xanın qızı olur. Bu ittifaqdan nə qədər Surxay xan şad olursa, bir o qədər də Misir xan qəmkin və məyus olur. Misir xanın anası, oğlunu belə məyus və qəmkin gördükdə deyir:

– Oğlum, qəm etmə, bilirəm səni pərişan edən nədir. Məgər qız tayfası düşməndən intiqam ala bilməz? Onlara da oğlan kimi tərbiyə versən, ikidlikdə heç kəsdən geri qalmazlar.

Bunu eşitcək Misir xan yerindən sıçrayıb qalxır və anasını qucaqlayaraq deyir:

– Ana, fikrin çox gözəldir, ancaq de görüm, qızım olmağını kim bilir?

– Məndən və arvadından başqa kimsə bilməyir,- deyə anası cavab verir.

– Çox gözəl, indi mənim qızım olmağını gərək bir adam bilməsin. Sabahdan oğlum olduğunu elan edəcəyəm, sən deyən tərbiyəni də qızıma özüm verəcəyəm, lakin bu sirrin kizli qalması səninlə anasından asılıdır.

– Arxayın ol, oğlum, əmrini yerinə yetir,-deyə anası cavab verdi. On gündən sonra Misir xan qızına Teymur xan namını verir və bu sirr pünhan qalmaq üçün həmin bu müqabilimizdəki qayanın döşündə bir köşk bina edib orada sakin olur.

Teymur xan atasının nəzarəti altında tərbiyə alaraq, nağıl olunan köşkdə böyüməyə başlayır. Onun oyun şeyləri; tüfəng, xəncər, qılınc və yoldaşları bu qayalar sakini laçın, qaraquş, tərlan kimi yırtıcı quşlar olur. Belə tərbiyə nəticəsi olaraq on yaşında Teymur xan at minmədə, tüfəng atmada, qılınc vurmada ikid cavanlardan geri qalmayır. Bunlardan artıq, insanları heyrətə gətirən Teymurxanın vəsfə gəlməyən gözəlliyi olur.

Bu tərəfdən Surxay xanın oğlu Paşa xan, Teymur xan kimi igidlik və gözəllikdə məşhur olur.

Bu iki uşaq böyüyüb on səkkiz yaşına çatır, bunların igidliyi və gözəlliyi ətraf və əknafa yayılır. Bu vaxta qədər görüşmək bunlara mümkün olmamışdı. İttifaqən bu iki cavan yek-digərinə rast gələrsə, biri və bəlkə də

ikisi də tələf olmalarını hiss edirmişlər. Bununla bərabər görüşmək arzusu hər ikisində gündən-günə qüvvətlənir. Oğlum, əcdadımızdan bizə irs qalmış qana-qan etmək adətinə qurban olan bu cavanlar axırda bir-birləri ilə görüşürlər.

Belə ki, baharın gözəl səhərlərinin birində Teymur xan ov arxasınca, sərhədləri olan bu dərəni aşıb o tərəfə keçir. O zaman Paşa xan da ova çıxmış olur. Bu iki aslan gördüyün «Qan bulağı»nın başında bir-birlərinə rast gəlir. Bir müddət bir-birlərinin gözəl camalına heyran olub qalırlar. Paşa xan Teymur xanın fövqəladə gözəlliyinə heyran olur. Teymur xan isə on səkkiz ilin ərzində qadınlığa müğayir yırtıcı, qaniçici quş kimi aldığı tərbiyənin onda qadınlıq hissini hələ puç etmədiyini indi anlayır, eşq odu onun ürəyini yaxıb yandırır, hər zaman ikidləri xofa salan gözləri indi Paşa xana xumar-xumar baxıb ondan aman gözləyir. Paşa xan heyrətdən ayılıb, Teymur xanın kim olduğunu duyursa da sorur:

– Sən kimsən?

– Sən özün kimsən?

– Mən bu torpağın sahibi Surxay xanın oğlu Paşa xanam.

– Mən də bu torpağın sahibi Misir xanın övladı Teymur xanam.

Bu sual-cavabdan sonra hər ikisi bir-birlərinə düşmənçilik nəzərilə baxmağa başlayır. Axırda Paşa xan:

– Camalın çox gözəldir, buna söz yox, görək qılınc vurmağın necədir?-deyə qılıncını çıxarır.

Onun cavabında:

– İndi qılınc vurmağımı da görüb bəyənərsən,-deyə Teymur xan da qılıncını çıxarıb Paşa xanın üstünə hücum edir.

Oğlum, necə ki, göy üzündə əvvəl şimşək parlayıb, sonra gurultulu sədası gələr, elə də bu iki cavanın qılıncı od parladıb bu qayalara səs salır. Xeyli müddət çarpışırlar, lakin bir-birlərinə zəfər yetirə bilməyirlər. Bu halda günəş dağın dalında tülu edir. Onun zərrələri Teymur xanın gözlərinə ox kimi sancılıb qamaşdırır və bu anda Paşa xan fürsət tapıb qılıncı Teymur xanın

sinəsindən vurur. Teymur xan yıxılır. Qan çeşmə kimi sinəsindən axıb baharın təzə və tər otlarını və çiçəklərini boyayır.

Paşa qılıncını atıb Teymur xanın yarasını bağlamaq qəsdilə sinəsini açır.

— Aman, ya rəbb, sən qadın imişsən,-deyə qışqırır və Teymur xanın başını dizi üstə alıb:-Söylə, söylə, gözəlim. O soluq nəfəsinlə mənə lənətini, nifrətini izhar elə,-deyə fəryad edir.

Teymur xan, zəif səs ilə cavabında:

— Paşa xan, sənə eşqimi izhar edirəm. Bu çirkin adətə lənət və nifrət. Ah, təbiət nə gözəldir. Paşa, mən gedirəm, əlvida.

— Toxta, bir az toxta, gözəlim, Paşa da səninlə gedir. Paşa xan xəncərini çıxarıb öz sinəsinə vurur və Teymur xanı ağuşuna alıb deyir:

— İndi qoy mənim də qanım səninkinə qarışsın.

Oğlum, o vaxt bu dağlarda zəlzələ zühur edir və həmin yerdən dağ aralanıb iki növcavanı ağuşuna alır. Bir müddət keçərək gördüyün Qan bulağı qaya arasında cari olur. Rəvayətə görə həmin bulağın suyu Paşa xan ilə Teymur xanın qanından əmələ gəlmişdir.

## ƏHMƏD VƏ MƏLEYKƏ

Qışın orta ayı idi. Soyuqdan hamı qaçıb evlərində gizlənmişdi. Hacı Səmədin külfəti isti otaqda süfrənin başına cəm olub, yemək üçün onu gözləyirdi. O isə o biri otaqda öz işinə məşğul idi.

Hacı Səməd əlli yaşında, saf ürəkli, rəhmdil bir kişi idi. Hacı Səmədin külfəti qoca anasından, arvadından, doqquz yaşında bir oğlundan və bir də yeddi yaşında qızından ibarətdi.

Hacı Səməd oğlu Məmmədi ibtidai şəhər məktəbində oxudurdu və bu ildən də qızı Fatmanı şəhər qız məktəbinə vermişdi. Hacı Səməd başqa müsəlman atalara bərəks olaraq uşaqlarının dərslərinə, ədəb və tərbiyəsinə çox fikir verərdi.

Hacı Səməd işini qurtarıb yemək otağına gəldi. O, süfrənin başında əyləşdi, yeməyə başladılar. Şam qurtardı. Hacı Səmədin xörəyin üstündən acı çay içmək adəti idi. Bu vaxt külfətə ya kitab, ya gündəlik qəzetlərdən oxuyardı. Bu da olmasaydı, gəzib gördüyü vilayətlərdən danışardı. Buna görə də gözlüyü gözünə taxıb əlinə qəzeti götürəndə hamı sakit olub onun danışığını gözləyirdi.

Hacı Səməd isə səsini çıxartmayıb öz-özünə yavaşcadan oxumağa başladı.

Fatma bu sakitliyə davam etməyib qoca nənəsinə dedi:

— Nənə, mənə bir qorxulu nağıl söylə.

Fatmanın qardaşı Məmməd, bacısından bu sözü eşidib dedi:

— İndi ki, qorxulu nağıl istəyirsən, bəs niyə o günü nənəm Məlik Məmməd nağılını söyləyəndə, div adı gələn vaxt nənənin qucağına qısıldın?

— Yox, mən heç qorxmurdum,-deyə Fatma cavab verdi.

Bu halda hacı Səməd qəzeti yerə qoyub dedi:

— Yaxşı, qızım, bu gecə nənənin əvəzinə mən sənə bir qorxulu nağıl söylərəm, bu şərtlə ki, qorxmayasan.

— Yox, ata, qorxmaram, söylə.

— Hacı Səməd çaydan bir neçə qurtum içib başladı:

— Qızım, biri vardı, biri yoxdu, şimal-şərqdə, meşə içində, çay kənarında Tatarcıq adında bir kənd vardı. Bu kəndin əhli əkinçilik və çarvadarlıqla güzaran edərdi. Qızım, həmin bu nağıl olunan kənddə Nurəddin adında bir kişi vardı. Bu Nurəddinin on yaşında Əhməd adlı bir oğlu, altı yaşında Məleykə adlı bir qızı və Xədicə adında bir arvadı vardı.

Nurəddinin sənəti əkinçilik idi və mal-qaradan ancaq bir atı vardı. Nağıl olunan zaman bahar və yay çox quraqlıq keçdiyinə görə o vilayətdə taxıl susuzluqdan yanıb tələf oldu. Çox çəkmədi ki, ətraf və əknafda aclıq başlandı. Payızın əvvəlindən Nurəddin arabasını qoşub şəhərə kirayəçiliyə getdi. Orada qazandığı pulu dörd gündən, beş gündən bir evinə göndərirdi. Külfəti də onunla güzaran edərdi.

Əhməd kənd məktəbində oxuyurdu. Atası tərəfindən gələn məktubları asanca oxuya bilirdi. Bir neçə gün bundan əqdəm Əhməd yazıb atasından özü üçün başlıq və bacısı üçün bir əlcək istəmişdi. Hər ikisi bu şeylərin tezcə alınmasını xahiş edirdi. Lakin beş gün keçdi, bir həftə keçdi, on gün keçdi, atalarından bir xəbər çıxmadı. Xədicə bərk qorxuya düşmüşdü. Evdə pul və çörək də tükənmişdi.

Bir dəfə, əziz balalarım, söz vaxtına çəkər, belə bir gecədə, qarlı çovğunun şiddətli vaxtında, Əhməd və Məleykə atalarının yolunu səbirsiz gözləyən zaman, kim isə qapını döydü. Uşaqlar cəld:

— Atam gəldi,-deyə qapıya tərəf yüyürüşdülər. Amma onun əvəzinə kürkə bürünmüş, əlləri əlcəkli, başı başlıqlı qonşuları Şəhabəddin içəri daxil oldu. O kişi Nurəddinlə bərabər arabaçılığa getmişdi. Bunu görcək Xədicənin ürəyini qorxu aldı.

Uşaqlar:

— Əmi, bəs atamız hanı?-deyə soruşduqları vaxt ondan cavab almadılar. Şəhabəddin Xədicəni bayıra çağırıb, ərinin atlı-arabalı dərəyə uçub ölməyini xəbər verdi və onun cibindən çıxan altı manatı verib cəld getdi.

Xədicə ruhu qaçmış, nitqi tutulmuş halda içəri kirdi və uşaqlarını bağrına basıb zar-zar ağladı. Bunların ah-naləsi, boranın gurultulu səsi bir-birinə qarışmışdı. Bunlar axırda sakit oldular. Əhməd anasından soruşdu:

— Ana, bu aclıq ildə atasız biz necə dolanacağıq, acından öləcəyik.

— Qorxma, oğlum, bu saçlarımı satıb sizi ac qoymaram, —deyə Xədicə oğluna təsəlli verdi, sonra hər ikisini soyundurub yatağa uzandırdı. Bir azdan sonra uşaqlar yuxuya getdilər.

Amma o gecəni Xədicə sübhə kimi yata bilmədi. Fikir, xəyal onu götürmüşdü. Sahibsiz arvad, yetim uşaqlar aclıq ildə necə dolansın?

Bir neçə müddət keçdi. Xədicənin pulu lap qurtardı. Yavaş-yavaş ev şeylərini satmağa başladı. Xədicə bir də baxdı gördü ki, evdə heç bir şey qalmayıbdır. Uşaqlar da acdır. Çörək üçün hansı qonşuya getdisə, əliboş qayıtdı, çünki hamı bunların günündə idi. Acından zavallı uşaqlar taqət və

gücdən düşmüşdülər. Yazıq Xədicə hər yerdən ümidi gəsilmiş, dizlərini qucaqlayıb bir güncdə mumiya kimi oturmuşdu. Gizlin ağlamaqdan gözlərinin yaşı da qurumuşdu.

Qızım, axşam oldu. Acından Məleykənin qırmızı yanaqları saralmışdı...

Birdən Fatma özünü atasının qucağına atıb dedi:

– Ata, demə, demə. Qorxuram.

Hacı Səməd qızının başını sığallayaraq dedi:

– Qorxma, qızım, dalı yaxşıdır. Qulaq as, harada qaldım?

Hə, Xədicə Məleykəni soyundurub yerə qoydu ki, bəlkə yuxuya gedə. Amma yazıq tifil rahat ola bilmirdi. Axırda Xədicə onu sakit etmək üçün dedi:

– Qızım, Məleykə, gözlərini yumub yat; onda gecə mələk bacamızdan sənə çörək salar.

Məleykə gözlərini yumdu. Bir azdan sonra yuxuya getdi. Amma Əhməd anası ilə oyaq qalmışdı. Gecədən xeyli geçmiş bacadan gumbultu ilə bir şey içəri düşdü. Ana və oğul diksinmiş ayağa qalxdılar ki, görsünlər o düşən nədir. Gördülər ki, ağzı bağlı bir torbadır. Xədicə əli əsə-əsə torbanın ağzını açdı. Gördülər ki, içi çörək, yemiş, cücə, yumurta və qeyri yeməli şeylərlə doludur. Bunu görcək Əhməd dedi:

– Ana, gördünmü, mələk bacamızdan bizə çörək saldı.

Xədicə heyrətdə qalıb cavab verə bilmədi. Bu halda torbanı boşaldanda içindən kağıza bükülmüş bir yumru şey çıxdı. Açanda gördülər ki, hamısı qızıl puldur. Bunu görən ana və oğul daha da artıq təəccüb etdilər. Bu halda Əhmədin gözünə pula bükülmüş kağızda yazı sataşdı.

– Ana, burada yazı da var; qoy görək nədir?-deyə Əhməd kağızı oxudu:

«Qızım Məleykə, mən bir qoca səyyaham. Yolda evinizin yanında faytonumun çarxı oxdan çıxdı, onu salınca mən istədim ki, sizdə bir az qızınıb, rahat olam. Qapıya gəldikdə anan dediyi sözləri eşitdim. Geri qayıdıb bu şeyləri və pulu sənin üçün hazır etlim və təzədən gəlib bacanızdan atdım. Yaşa, qızım, yaşa, mən qoca babanı da, yaddan çıxartma. Xudahafiz.

Səyyah Cəmaləddin»

Bu halda Məleykə oyanıb dedi:

— Ana, mələk bacamızdan çörək saldımı?

— Bəli, qızım, ancaq mələk yox, baban Cəmaləddin,-deyə Xədicə Məleykənin qabağını yeməli şeylərlə doldurdu. O gecəsi iki bala, bir ana şadlıqlarından bilmirdilər ki, nə etsinlər. Axırda hamı şad-xürrəm yıxılıb yatdılar.

İndi siz də, əziz balalarım, durun yatın, səhər dərsə gedəcəksiniz.

Bu sözlərlə Hacı Səməd sözünü tamam etdi.

## ABDULLA ŞAİQ TALIBZADƏ

(1881 — 1959)

### KÖÇ

Mayın gözəl bir səhəri idi. Dan yeri yenicə ağarmağa başlamışdı.

Yatağımda yatırdım. Birdən-birə anamın yavaşca: «Oğlum, qalx, yaylağa gedirik» deməsindən gözlərimi açdım. Anam başımı əlləri içinə alaraq bir də: «Qalx, oğlum! Səndən başqa hamı hazırdır, arabamız da gəlib»-dedi.

Dərhal dim-dik qalxdım. Paltarımı geydim. Əl-üzümü yudum. Bir fincan çay içər-içməz pilləkənləri gup-gup başıaşağı endim. Öküz arabası qapımızın ağzında durur, arabaçı Salman kişi də şeyləri üsulluca arabaya yerləşdirirdi.

Artıq, hərəkət edəcəyik. Sevinirəm... Ailəmizin hamısı aşağıda idi. Hətta Mərmər adlı ağ pişiyimi, sarı, iri tüklü toyuğumu cücələri ilə bərbər bir səbət içində götürmüşdük. Necə sevinməyim? Hamımız arabaya doluşduq. Salman kişi də arabanın boynuna oturdu: «Həm.-. ho» edib əlindəki uzun qırmancını havada bir neçə kərə şaqqıldatdı. Araba hərəkət etməyə başladı.

Atam da ata minib, yanımızca gəlirdi. Artıq şəhərin iri, geniş küçələri ilə gedirik. hər zaman gözümüzün alışdığı geniş küçələr, böyük evlər, iri şüşəli mağazalar..

Araba şəhərdən çıxarkən günəş yenicə çırtır, şərqi bürüyən qırmızılıqdan üfüqlərdəki dağ silsiləsi kimi görünən buludlar əlvan rənglərə boyanırdı.

Şəhərin tozlu, gurultulu küçələrindən, isti havasından get-gedə uzaqlaşırdıq.

Arabamız iki tərəfi ağac, əkin və bostanla bəzənmiş bir yolla gedirdi.

Azərbaycan!... Doğma vətənimin gözəl təbiəti vardır. Səhərlərə məxsus olan nəsimdən arabir yarpaqlar qımıldanır, tarlalara, çöllərə xalı kimi döşənmiş lətif, yumşaq otlar, çiçəklər dəniz kimi dalğalanır, yaşıl yarpaqlar arasına sığınmış quşcuğazlar səs-səsə verib ötüşürdü. Göz işlədikcə açıqlıq, yaşıllıq, dərəlik, təpəlik, irəlilədikcə qarşımızda bir-birindən daha gözəl təbiət, daha canlı lövhələr açılır. İri, kələ-kötür, ətəkləri qaratikan kolları ilə döşənmiş dağlar arasından yuxarı qalxdıqca təbiət və hava bütün başqalaşır, insan ürək dolusu nəfəs alır.

Yumşaq otların, əlvan çiçəklərin, dağ nanələrinin gözəl qoxusundan insan bihuş olurdu.

Dağların ardı-arası kəsilmir, zəncir kimi bir-birinə hörülmüş, bir-birini qucaqlamış kimi durur. Qocaman bir dağın təpəsinə qalxdıq. Qarşımıza daha böyük bir dağ çıxdı. Bu dağı da aşdıq; çiçəklər səltənəti kimi bir açıqlığa çıxdıq. Bu yer qalın, sıx meşəlik, çılpaq qayalıq, uçurumlu dərələrlə qucaqlaşmışdı. Uzaqda bir təpə ətəyində beş-on alaçıqdan ibarət bir oba görünürdü. Artıq yetişmişdik. Sevincimdən atılıb düşürdüm.

Yaxınlaşınca bizi ən əvvəl bir çoban köpəyi qarşıladı. İt qara ağzını açıb hürür və üstümüzə atılırdı.

## OBA

Obaya yaxınlaşınca uşaqlar, bir neçə yaşlı qadın və kişi qarşımıza çıxdı. Qoca hamısından əvvəl irəliləyib, salam verdi. Sallaq iri dodaqlarında

yanları cizkilərlə örtülmüş kiçik gözlərində, sümükləri qalxıq qırmızı üzündə bir təbəssüm vardı. O, yumru başlı çomağına sökənərək:

— Sizi dünən gözləyirdik, xoş gəldiniz,-dedi.

Atam:

— Sağ ol, Kərim baba, dünən olmasın, bu gün olsun,-deyə cavab verdi.

Bu aralıq, qadınlar da yetişib arabamızı araya aldılar, anamla görüşdülər. Atam gülə-gülə:

— Ay Kərim baba, Ayrım qızı ilə necə geçinirsən?-deyə soruşdu.

Kərim baba iri sallaq dodaqlarını geniş açaraq, gözlərini dərhal da qıydı:

— Ağzında Ayrım qızı deyirsən, necə keçinəcəyik, itlə pişik kimi.

Atam yaşlı adamlarla əylənməyi çox sevirdi. Qırx beş, əlli yaşında, qısa boylu, sağlam və ağzı yaşmaqlı bir qadın yaxınlaşıb, atama salam verdi.

— Ayrım qızı, bax, yetişər-yetişməz, Kərim baba səndən şikayət edir.

Ayrım qızı kiçik və yanları ətli gözləri ilə gülümsəyərək:

— Qoy istədiyi qədər şikayət etsin, nənəmiz həvva Adəmi cənnətdən çıxardığı üçün kişilər bizimlə heç bir zaman barışmayacaqlar-dedi.

## ALAÇIĞIMIZ

Arabamız bir alaçığın ağzında durdu. Yerə endik. Bizi keçədən qayrılmış bir alaçığa gətirdilər. Bir anda kənd qadınları və uşaqları ətrafımızı aldılar.

Qadınlar anamla öpüşür, danışır, gülüşürdülər. Uşaqlar isə inci kimi düzülmüş ağ dişlərini göstərərək, mənimlə danışmaq, oynamaq istədiklərini anladırdılar. Mən isə utancaq bir uşaq olduğumdan anamın yanında büzüşb durur, arabir onların təbəssümlərində iştirak edir kimi görünürdüm. Atam da alaçığın böyründə Kərim baba ilə köhnə bir palazın üstündə oturub, söhbət edirdi. O gün hava çox isti idi.

Günəş yandırırdı. Bir tərəfdən, alaçıq içinə doluşmuş bu qədər adamın ağır nəfəsi, o biri tərəfdən, alaçıq keçələrinin başçatladan havasından nəfəs almaq mümkün deyildi. Yaxşı ki, bu hal çox sürmədi. Bayırdan Kərim babanın: «Qonaqları çox incitməyin, yoldan gəliblər, qoyun bir az rahat olsunlar»

deməsi ilə adamlar yavaş-yavaş çəkilməyə başladılar. Bir azdan sonra kasıb bir süfrə açıldı; yeyib qalxandan sonra atam Kərim babanı səslədi:

— Ay Kərim, bizim alaçıq üçün çubuq hazırlamısanmı?

Kərim baba soyuq bir halda:

— Bilmirəm bu oxumuşların səbri nə üçün az olur? Gəldiyiniz indidir, nə xəbər?-dedi.

Atam:

— Vaxt keçir, hər halda alaçıq hazır olmalıdır,-dedi.

Kərim baba:

— Nəyinə gərək, axşama qədər sən alaçığını məndən istə, mənim əlimdə o nə çətin işdir? Hələ ağacları dünən qırıb hazırlamışam-cavabını verdi.

Ayrım qızı:

— Çox öyünmə, dünən zor-güc ağacları mən kəsdirdim; sənə qalsa idi, kim bilir, indi də hazır olmayacaqdı.

O, bu sözləri elə bir tərzdə dedi ki, hamı güldü. Atam Kərim baba ilə alaçıq qurmağa getdi. Alaçığımız obadan bir az uzaq, atamın bəyəndiyi axar-baxarlı, gözəl bir yerdə quruldu. Bir saat sonra alaçığımıza köçdük.

## MƏŞĞƏLƏLƏRİM

Yavaş-yavaş oba uşaqlarına alışdım. Hər gün çayımı içər-içməz alaçıqdan çıxardım. Uşaqları tapıb çiyələk, göbələk toplamağa, ya dərədə balıq tutmağa gedərdik. Bu dərə başdan-başa su qaynağı idi. Hər ağacın, hər daşın dibindən su sızırdı. Daşların, ağacların dibini qazar, ətrafına çay daşları yığıb, bulaq qayırardıq. Hər birimiz tapdığımız bulağa öz adımızı verərdik. Elə gün olurdu ki, səhərdən axşamadək o dərədə yalqız gəzərdim. Gözəl çiçəklərdən, bulaqlardan, yaşıllıqlardan doymaz, ayrılmazdım. Arabir də meşədə quş yuvası axtarmağa gedərdik.

Mənim quş balasına olan məhəbbətimi oxuculara qələmlə anlada bilməyəcəyəm. Bu kiçik, məsum heyvanları dəlicəsinə sevirdim. Bir quş balası tapdıqda o qədər sevinərdim ki, dünyalara sığmazdım. Anam, atam: «Oğul, bu heyvanları əsir etmə, burax, yazıqdırlar»-deyə nə qədər israr

edirdilərsə də, ağlayıb, yalvarıb onları zor-güc razı edirdim. Bu quş balalarını fındıq çubuqlarından qayırdığım bir qəfəs içində bəsləyirdim.

Şəhərdən gətirdiyim toyuğumun cücələri böyümüş, tüklənmiş, xoruzu, fərəsi bəlli olmuşdu. Kiçik bacımla hər birimiz bir xoruz və bir fərə seçmişdik.

Çadırımızın dörd bir yanı açıqlıq, çalılıq olduğundan toyuq cücələri ilə o açıqlıqda gəzişir, qurd-quş, çəyirtkə tutub yeyir və çalıların altında eşələnirdi. Ovcumu dənlə doldurub «dü-dü-dü!»-deyə səslədiyim zaman görməliydiniz, hər yerdə olsalar, qala üzərinə yürüş edən qalib bir ordu kimi uçaraq, qoşaraq ətrafımı alırdılar.

Mən onları aldadırmışam kimi əlimi arxamda gizlədirdim. Hamısı boyunlarını bükərək, gözlərini aşağıdan yuxarıya üzümə dikib baxırdı. Bilsəniz, o məsum baxışlar qəlbimə nə qədər toxunardı. Biixtiyar ovcumdakı dəni yerə səpərdim. Cücələr bir-birini döşləyərək, dimdikləyərək səpdiyim dəni dənlərdilər.

Alaçığımızın böyründə bunlara kiçik bir hin qayırmışdım. Tülkü, çaqqal qorxusundan hinin ağzını gecələr böyük bir daşla örtürdüm. Günlərimin çoxunu bu heyvanlarla keçirərdim.

## SƏHƏRLƏRİM, AXŞAMLARIM

Bu yerlərin səhərləri, axşamları mənə hər şeyi unutdururdu. Axşamlar qoyun-quzu mələşə-mələşə obaya dönərkən səsdən qulaq tutulurdu. Xüsusən yavaş-yavaş nəfəs alan səhərlərin, axşamların qanadları ucundan yayılan sərinlik, dağ çiçəklərinin, cögə ağaclarının rayihəsi, qoruqlarda, tarlalarda biçilmiş təzə otların gözəl ətri, meşənin axşamlara, səhərlərə məxsus rütubət qoxusu, bulaqların şırıltısı, quşların ötüşməsi, quzuların mələşməsi, itlərin hürüşməsi bir-birinə qarışaraq, obaya başqa bir rəng, başqa bir şəkil verirdi. Bir saat əvvəl səssizlikdən ölgün kimi görünən təbiət birdən-birə canlanırdı. Hər şeydə bir yenilik, bir təravət görünürdü. Bundan böyük məşğələ nə ola bilərdi? Dəyənəyi əlimə alıb, obaya gedərdim. Analarını əmməsinlər deyə

quzuları, oğlaqları bir ağıla doldururdular. Mən kənd uşaqları ilə ağıla atılıb o şux quzularla doyunca oynar, onlarla bərabər atılıb düşərdim.

Qoyunlar sağılıb qurtardıqdan sonra ağılın ağzını açarkən, ana-bala mələşə-mələşə qaçaraq bir-birinə qarışırdı. Həsrətlərinə qovuşmuş heyvancığazlar ayaqlarını bükərək, quyruqlarını oynada-oynada analarını əmirdilər.

Obanı yenə də həzin bir sükut almış, yalnız ara-sıra çobanların səsi, itlərin hürüşməsi, uşaqların bağırtısı eşidilirdi. Bu kiçik heyvanları sevdiyim kimi, çobanları da sevər, çox vaxtımı onlarla keçirərdim. Onların sadə və sərbəst sandığım məişəti xoşuma gəlirdi. Hətta o bəxtiyar bildiyim insanlara qibtə edərəh «bu açıq, geniş obalarda, bu gözəl təpələrdə, yaşıl yamaclarda çoban olmaq pisdirmi?» deyərdim. Mən də kiçik çomağımı alıb, çox zaman onlarla bərabər gedirdim. Qoyunları yamaca yayıb bir təpədə otururdıq. Çobanlar tütək çalar, həzin mahnı oxuyar, keçmiş günlərdən və gələcəkdən dadlı-dadlı söhbət edirdilər.

Oxunan mahnılarda həm ələm vardı, həm də nəşə. Lakin bu sirri anlamaq üçün mən hələ kiçik idim...

Oruc adlı bir çoban gözəl tütək çalırdı. O, tütək çalarkən qoyunlar iştahla otlar, arabir qulaqlarını qırparaq, o səsi dinlərdilər. Hətta Dəmir adlı qıllı, boz köpək də qulaqlarını sallayaraq iri, tüklü quyruğunu yerə çırpa-çırpa başını Orucun ayaqları üstünə qoyub, gözlərini tütəkdən ayırmaz və ara-sıra həzin bir səslə zingildərdi. O çalğıdan, o gözəl səsdən bu heyvan da həzz aldığını bununla anladırdı. Gözəl səsin, gözəl çalğının heyvanlara nə qədər böyük təsiri olduğunu gözümlə gördüm: obanın şərq tərəfində Novçalı adlı bir bulaq var idi. Günortaçağı çobanlar sürünü ora aparırdılar. Bir gün sürünü o bulağa sürərkən Oruc təpə başından yoldaşı İlyasa:

— Ay İlyas, Ay İlyas! Bu tütəklə sürünü geri döndərimmi?-dedi.

İlyas cavab verdi:

— Döndərə bilməzsən.

Oruc tütəyi çalmağa başladı. Qoyunlara sanki gizli bir qüvvə «dur» əmrini verdi. Hamısı bir şeydən hürkmüş kimi durdu. Qulaqlarını qırparaq, birdən-birə döndülər, quyruqlarını ata-ata, mələşə-mələşə təpəni baş yuxarı dırmandılar.

Oruc məğrur bir tövrlə:

— Hə, döndərdimmi?-deyə çomağı qapıb təzədən sürünü dərəyə sürdü.

## KƏRİM BABA

Günlərimin bir qismini də Kərim baba ilə keçirirdim. Kərim baba altmış yaşlarında, qısa boylu, köksü və kürəkləri enli bir qoca idi. Gözünün yanları iri cizgilərlə örtülmüş və kiçilmişdisə də, yenə parlaq idi. Söz söylədiyi zaman daima kiçik gözləri, qalın və iri dodaqları gülərdi. Onun keçirmiş olduğu uzun bir tarixi hər zaman gözlərində oxumaq olurdu. Yaşlı olduğu halda daima açıq, geniş çöllərdə yaşamış bu adamın üzü ətli, yanaqları qıpqırmızı, canı sapsağlam idi. Bu adamın hərəkətindən və simasından gəncliyində çox igid və qoçaq olduğu anlaşılırdı. İndi belə, fikri-zikri daima ovda və şikarda idi.

Atasından qalma göhnə tüfəngi var idi. Bu tüfəngin lüləsi kiçik bir top lüləsi qədər idi. Onu hər zaman özü ilə gəzdirər və bir an yanından ayırmazdı. Hər gün silər, təmizlər və arabir dərənin içinə enərək, bir yeri nişan alırdı. Nişanladığını vurduqda, bütün arzularına qovuşmuş bəxtiyar bir uşaq kimi sevincindən atılıb düşərdi. Tüfəngin bir top qədər şiddətli səsindən xoşlanmayan Ayrım qızı arabir Kərim babaya istehza ilə: «Ayıbını yer örtsün, sən heç bildiyindən əl çəkmə. Yaxşı ki, dədən Qafar sənə bu qırıq tüfəngi qoyub gedibdir»-deyirkən Kərim baba məğrur bir tövrlə:

— İgid atadan igid oğula bir tüfəng, bir də at qalar,-cavabını verirdi. Kərim baba inəkləri cüzi ayıqlıqla güdərdi. Özünün də iki inəyi, dörd-beş qoyunu var idi. Hər gün inəkləri bir yamaca yayıb obaya qayıdardı. Bu işdə ona bəzən kiçik oğlu Vəli də kömək edərdi. Oğul-uşaq zoğal, fındıq, moruq dərməyə gedərkən Kərim baba da sıradan qalmazdı. O da onların içində

olmalı idi. Kərim babanın inəkləri özbaşına buraxması sahiblərinin xoşuna gəlməzdi; lakin o bunlara heç əhəmiyyət verməyib nəşəsini pozmaz, tütək çalar, sümsü qayırar, hələ bayatı şikəstəsi də ağzından düşməzdi.

**AYRIM QIZI**

Ayrım qızı qısa boylu, kök bir qadın idi. Kiçik qumral gözləri, Ay kimi yuvarlaq üzü var idi. Bu çalışqan, namuslu qadının üzündə kişilərə məxsus bir heybət vardı. Hələ gurlayan səsini hər kəs eşitsə idi, onun bir kişi olduğuna inanırdı. Gündüzləri bir yandan bizim evdə çalışıb-çapalayar, bir yandan da öz evinin işlərini görərdi. Meşədən şələ-şələ odun daşıyar, sac asar, çörək bişirər, özgələrinin inəklərini, qoyunlarını sağar, nehrə çalxayar və yorulmaq nə olduğunu bilməzdi.

Bu vaxta qədər kimsə Ayrım qızından «yoruldum» sözünü eşitməmişdi. Həyat onu belə öyrətmişdi. Onun əsl adı Fatma idi. Atası «ayrım» olduğundan hamı onu «Ayrım qızı» çağırırdı.

Bu iki adamın təbiəti bir-birinə əsla uymurdu. Onun üçün Ayrım qızı bir yandan Kərim babanın uşaqcasına işlərindən, qəribə hərəkətlərindən darılar, o biri tərəfdən də naxır sahiblərinin töhmət və məzəmmətlərini izzəti-nəfsinə sığışdıra bilmədiyindən Kərim babanın arxasınca hər gün söylənərdi. Kərim baba heç bir şeyə əhəmiyyət vermədiyi kimi, buna da əsla əhəmiyyət verməyib nəşəsindən, kefindən qalmazdı.

Bir gün qadınlarla uşaqlar moruq və çiyələk yığmağa getmişdi. Kərim baba sıradan heç qalarmı? Ayrım qızı Kərim babanın da getdiyini, naxırın başsız qaldığını bilmiş, naxır sahiblərinin acı töhmətini eşitməmək, həm də Kərim babaya acı dərs vermək qəsdi ilə yumru başlı, iri çomağı götürüb özünü naxıra yetirmişdi. Axşamçağı naxırı obaya doğru sürərkən hamı ona tamaşaya çıxdı.

Hətta Kərim baba da bu tamaşadan qalmadı, uzaqdan laqeyd baxışlarla arvadını seyr etdi. Ayrım qızı əsla tövrünü dəyişməyərək əlində çomaq o inəyin, bu öküzün arxasınca bağıra-bağıra qaçırdı.

Kəndlilərdən biri gülə-gülə Kərim babaya:

– Ay Kərim, ay Kərim. Buna Ayrım qızı deyərlər, adamdan belə hayıf alarlar, bu pəhləvan arvad kişidən artıqdır,-dedi.

Bu sözün Kərim babaya bir milçək vızıltısı qədər təsiri olmadı, gurlayan səsi ilə:

– Mənim kimi kişinin elə də arvadı olar-deyə cavab verdi.

## İKİ PƏHLƏVAN

Sular qaralmağa, günəş yavaş-yavaş meşəli dağların arasına çəkilməyə başlamışdı. Alaçığın sağ tərəfində palaz döşəyib, çay içirdik. Kərim baba da palazın bir ucunda Ayrım qızı ilə yan-yana oturmuşdu. Hər ikisi keçmiş igidliklərindən danışır, öyünməyə və hər biri özünü bəyəndirməyə çalışırdı.

Ayrım qızı Kərim babanı qızışdırmaq fikri ilə əlini onun çiyninə vuraraq deyirdi:

– Bunu görürsünüz, aylarca üzünü görməzdim. İşi nəidi? Boşboğazlıq, o qapı-bu qapıda veyl-veyl gəzməkdən başqa əlindən bir iş gəlməzdi, evə gələndə bizə qan qusdurardı. Bir igidliyi, qoçaqlığı olsaydı... Meşədən bir şələ demirəm, bir qucaq odun da gətirməzdi. Odun gətirməyə getsə, görərsən beş-on çırpını arxasına alır: «Ayrım qızı, Ayrım qızı! Bunu hara töküm?»-deyə bar-bar bağırırdı; elə bil ki, mənə baş gətirib. Bu gün meşədən gətirdiyim bu dağ kimi şələni görürsüz ki? Belə şələ gətirsə, kişi deyərəm. Onun hünəri nədir?

Ayrım qızı söylədiyi sözlərdən məğrur bir vəziyyət aldı. Gurlayan səsi ilə Kərim babaya:

– Rəhim ağanın qapısında nehrə çalxaladığımız yadındadır?-dedi.

Kərim baba sükutla başını tərpətdi. Ayrım qızı üstün gəldiyini hiss edərək, özünü doğrultdu, şən və açıq bir sifətlə sözə başladı:

– İkimiz də cavan idik. Rəhim ağanın qapısında qulluq edirdik, bu çoban idi, mən də ağanın inəklərini sağır, yağ-pendirini tuturdum. Qapıda bundan başqa dörd-beş çoban da var idi. Hamısı yeniyetmə, bığıburma oğlanlar idi. Bir gün nehrə çalxayırdım, Zəhra xanım da alaçığın ağzında durub baxırdı.

Canınız üçün, çobanların hamısını yordum. Bax, bunun özünü elə yordum ki, düşdüyü yerdə qaldı. Zəhra xanım əllərini bir-birinə vurub qaqqıldadı:

— Ay Kərim, çox öyünmə, Ayrım qızı dörd-beş kişiyə dov gəldi,-dedi. Ayrım qızı bu sözləri söyləyərkən Kərim baba başını köksünə dikərək, həzin-həzin dinləyirdi. Ayrım qızının belə öyünməsi, Kərim babanın sükutla büzülüb durması birdən-birə bayaqdan Ayrım qızına qulaq asanların qəhqəhəsinə səbəb oldu. Bu qəhqəhədən Kərim baba özünü bir qədər doğrultdu:

— Eh! Adam qocalanda belə sözləri çox eşidir; mən əgər yazı-pozu bilsəydim göstərdiyim igidlikləri bir-bir yazar, böyük kitab bağlardım. İnsan özünü öyməkdən nə çıxar? Arvad nədir ki, onun igidliyi nə olsun. Hay beş-on qoyun sağıb nehrə çalxayıb, yağ-pendir tutub, dili ağzına sığmır. İndi mən deyim sən qulaq as.

## PƏLƏNG OVU

Kərim baba söhbətinə belə başladı:

— Bizim Borçalı meşələrində pələng olmadığını bilirsiniz; ancaq qabaq zamanlarda varmış. Qırx-əlli il bundan əvvəl kəndin yaxınlığında bir pələng görünmüşdü. Onun qorxusundan meşəyə heç kəs getmirdi. Bir gün eşitdim ki, kəndin yaxınlığında pələng üç inək parçalayıbdır; ağlım başımdan çıxdı. Tüfəngimi götürüb getdim. Kəndlə pələngin arası beş ağac olardı. Dərəni aşdım. Aşağı uzanan daşlı-qayalı bir dağ ətəyi ilə meşənin içərisinə gedirdim. Günün bu zamanı günəş saralmağa, sular qaralmağa başlamışdı. Pələngi gözdən qaçırmamaq üçün yan-yörəmə baxırdım. Bir də nə gördüm? Uzaqda iki göz məşəl kimi yanır. Baxdım, pələng idi; o da məni görmüşdü, pəncəsi ilə acıqlı-acıqlı yeri eşir, cırmaqlayırdı.

Bir az getmişdim ki, birdən-birə pələng yerdən atılıb, bağıra-bağıra üstümə gəldi. Bir daşa söygənib, tüfəngimi ona tərəf yönəltdim. Pələngin bir nəcib xasiyyəti var: hücuma başladığı yerdən üç dəfə ovun üstünə atılır. Bu üç dəfənin heç birində ovlaya bilməsə, güsüb gedir. Qalxdığı yerdən iki dəfə üstümə atıldı, üçüncü dəfə az qaldı üstümə düşsün. Tüfəngimi diklətdim,

havada üstümə gələrkən, qolları arasından nişan aldım. Pələngdən elə bir bağırtı qopdu ki, səsindən dağ-daş titrədi. Gözlərim qaraldı, tüklərim ürpəndi. Elə bil ağaclar, daşlar bir pələng sürüsü olub üstümə gəlirdi. O iki-üç addım məndən aralı bir qaratikan kolu yanında yıxılıb nərildəyirdi. İki dəqiqədən sonra canını təslim etdi. Yaxınlaşdım. O igid heyvanı öldürdüyümə peşman oldum, ürəyim göyrəldi, gözlərim yaşardı. Tüfəngimi bir tərəfə atıb, qabağında diz çökdüm. Başını qollarım arasına alıb, üzündən-gözündən öpdüm. Pələngin dərisini soyub evə qayıdandan sonra qonşular başıma yığıldılar. Dedim ki, Borçalı torpağında bir igid var idi, o da bu gündən yaşamır. Bundan sonra Borçalı torpağı igid üzü görməyəcək.

Bir saat əvvəl sakit və dalğın halda bir yerdə büzülüb duran bu qoca artıq nəzərimizdə böyümüşdü. Hamımız başdan-ayağa hekayəyə qulaq kəsilərək onu dinləyirdik.

## KƏRİM BABANIN ATASI

Kərim baba söhbətdən doymur, hadisəni hadisəyə, xatirəni xatirəyə calayırdı.

– Mənim atam da gözəl ovçu idi. Nağıl edirdi ki, bir gün maral ovuna çıxmışdım. Dərədə kök bir buğa ovladım. Çeşmə başında kabab bişirib yedikdən sonra, uzanıb yatmışdım. Bir də gözlərimi açanda nə gördüm? Dörd bir yanımı duman elə bürüyüb ki, bir addım da qabaq görünmür. O gün evə qayıtmaqdan ümidimi üzdüm. Axşam olduğunu havadan bilmişdim. Kim bilir nə qədər yatmışam; nə edəcəyimi bilmirdim. Düşündüm-düşündüm, axırda gecəni bir qaya altında keçirmək üçün yavaş-yavaş dağa dırmaşdım. Elə uçurum sıldırım qayalıq yerlərdən keçirdim ki, ayağımın altından bir daş uçsa idi, birbaşa dərəyə yuvarlanıb, parça-parça olacaqdım. Həm də qaranlıq, göz-gözü görmürdü. Qabağıma bir mağara çıxdı. Durdum, mağaranın ağzından içəri baxdım. Bir şey görmədim, çarəsiz mağaraya girdim, az sonra yuxuya getdim. Bir də ağır xorultudan gözlərimi açdım «-Bu nədir? Məndən başqa burada adammı

var?»-dedim.

Dimdik oturub yan-yörəmi yoxlarkən, əlimə bir heyvan quyruğu toxundu: bu bir pələng quyruğu idi. Mən mağaraya sığındığım zaman o, oyaq imiş. Çünki yatmış olsaydı xorultusunu eşidərdim. Bu igid heyvanın məni bir qonaq kimi mağarasına qəbul etdiyinə şübhəm qalmadı. Özümü itirdim. Ancaq qorxmurdum: çünki bu heyvanın comərdliyinə əmin idim. Gecəni pələnglə bir yerdə keçirtdim. Səhər dan yeri ağaranda mağaradan çıxıb, dünən maral ovladığım yerə gəldim. Maralın bir budunu mağaranın ağzına gətirib, yavaşca içəri itələdim. O gün yenə ovladığım maralın ətindən kabab bişirib yedim. Günortadan sonra idi, kəndə tərəf döndüm. Mağaranın aşağı yanından keçirdim. Gördüyüm bir hadisə ayaqlarımı mismar kimi yerə mıxladı: dərənin içində bir pələng uzanmış, bir qurd da onun ətrafında tülkü kimi quyruq bulayırdı. Məni heyrət aldı, bir yerdə oturub baxırdım. Qurd quyruğunu sallayıb dərənin bir o başına gedir, bir də dönüb gəlir, quyruğunu böyrünə qısaraq, dili ilə pələngi yalayırdı. Pələng isə əsla vüqarını pozmayıb, yalnız onu iti baxışları ilə süzürdü. Qurd bir az sonra pələngin çənəsini, boğazını yalamağa başladı. Bu xainin riyakarlıqla pələngi tələf edəcəyini hiss etmişdim. Bir ara qurdu nişan alıb vurmaq istədim. Nədənsə fikrimdən vaz keçdim. Qurd bir də dərəni dolanıb, pələngə yaxınlaşanda onun boğazından yapışdı. Yazıq heyvan elə bağırdı ki, səsindən dağ-daş titrədi. Elə bildim ki, qayalar üstümə töküləcək. Beş-on dəqiqə o gözəl heyvan atılıb düşəndən sonra hərəkətsiz qaldı. Təəccüb burasıdır ki, qurd yenə pələngin boğazını buraxmaq istəmirdi. Özü isə heç tərpənmirdi.

Pələngin öldüyünü yəqin etdim; ancaq qurdun da tərpənməməsindən heyrətdə idim. Tüfəngimi alıb dərəyə endim. Pələng ölmüşdü. Tüfəngin qundağı ilə qurdu nə qədər vurdumsa, tərpənmədi. Bu da murdar olmuşdu. Mən ancaq indi anladım ki, pələng dərədə uzanırkən, bu xain qurd onunla üz-üzə gəlmiş, onun pəncəsindən qurtarmaq mümkün olmadığından bu riyakarlıqla ondan can qurtarmaq istəmiş, axırda da qorxudan bağrı yarılıb

ölmüşdü. Çox əlləşdim, pələngin boğazını qurdun ağzından qurtara bilmədim, dişləri kilidləşmişdi. Çarəsiz qəməmi çıxarıb, qurdun dişlərini çapdım. Elə igid bir heyvanın qurd kimi qorxaq, tamahkar bir heyvanın əlində ölməsinə ürəyim yandı.

Bu hadisədən xatirə olmaq üçün pələngin dərisini soyub evə gətirdim.

Atasının nağıl etdiklərini bitirdikdən sonra Kərim baba özünəməxsus ağırlıq və təmkinlə əlavə etdi.

— İndi haman pələng dərisi məndədir. Atamdan yadigar olduğu üçün saxlayıram.

Atam onu təsdiqləyərək:

— Əlbəttə, həm bunu, həm də vurduğun pələngin dərisini saxlamalısan,-dedi,-çünki dərilərin hər birisi iki igidin tarixini bildirən qiymətli xatirədir.

## QIZIL İT

Kərim babanın «Qızıl» adlı bir iti vardı. Gecə-gündüz bizim qapımızdan ayrılmazdı. Oba itlərini heç sevməzdim, çünki onların qorxusundan obada tək və azad gəzinə bilmirdim. Uzaqdan kölgəmi görüncə sürü ilə üstümə tökülüb hürərdilər. Bizim Qızılı özümə alışdırmaq ümidi ilə hər gün nə qədər çörək yedirdirdimsə, yenə də alaçıqdan çıxıb, bir yana getdiyimi görüncə kəsik qulaqlarını oynadaraq, qalın, boğuq səsi ilə hürər, nəşəmi pozardı. Ona görə Qızılı da sevmirdim.

Bir gün alaçıqdan çıxarkən Qızıl üstümə düşüb, hürməyə başladı. Əlimdəki dəyənəyimlə iti vura-vura qovdum. Kərim baba iti vurduğumu bir neçə dəfə görmüş, bir söz deməmişdisə də, xoşuna gəlmədiyini üz-gözündən duymuşdum. Bir gün iti vura-vura qapıdan qovarkən Kərim baba gördü. Yaxınlaşaraq:

— Vurma, oğlum,-dedi. -Bu, mənim çörək ağacımdır. Bunun bir qardaş qədər mənə yaxşılığı keçibdir. Sən bunun indiliyini görürsən. Bir vaxt bunun qorxusundan evimizin yanından quş quşluğu ilə keçə bilməzdi. Bu itə beş yüz

manat verən olub, verməmişəm. Hər güçüyünü otuz, əlli manata satmışam. Bunun nə qədər ağıllı, igid heyvan olduğunu bilsən, heç vurmazsan.

Kərim baba bu sözləri deyib, itin başını əlləri ilə oxşadı. Sonra yenə üzünü mənə tutaraq dedi:

— Qışlaqda idik, payızın aydınlıq gecəsi idi. Qoyunları yamaca yayıb, bir daş üstünə uzanmışdım. Nə vaxt yatdığımı heç bilməmişəm. Oyandığım vaxt hava qaralmış, dövrəmi də qalın duman almışdı. Elə qaranlıq düşmüşdü ki, göz-gözü görmürdü. Çomağı götürüb yerimdən qalxdım. Sürüdən xəbər yox idi. Qızılı çağırdım. Cavab vermədi. Dəli kimi o gecəni səhər etdim. Ancaq mənə ümid verən bu it idi. Bilirdim, Qızıl sürüdən ayrılmaz. Dan yeri ağarar-ağarmaz uca bir təpə başına dırmaşdım. Aşağıya baxdım. Dumandan hər şey qara görünürdü. Yenə «Qızıl! Qızıl!» deyə çağırarkən dərədən boğuq bir səs eşitdim. İldırım sürəti ilə dərəyə atıldım. O, sürünü iki təpə arasına yığmış, özü də yol ağzında durub hürür, məni səsləyirdi. Özümü Qızıla yetirdim. Məni görən kimi sevindiyindən quyruğunu sallayıb, qulaqlarını dikləyərək, məni yalamağa başladı. Sürüyə qurd gəldiyini o saat bildim. Sürünün içinə girəndə üç qurd ölüsü gördüm. İşin nə yerdə olduğunu anladım. Sürüyə qurd daraşanda Qızıl onlarla boğuşa-boğuşa sürünü bu iki təpənin arasına sıxışdırmış, burada qurdlara hücum edib, bir-bir onları boğub öldürmüşdü. Qızılın boynuna necə sarılmışam... Üzündən-gözündən necə öpmüşəm... Sonra kök bir qoçun quyruğunu kəsib qabağına atmışam.

İftixar hissi ilə söhbətini tamamlamağa çalışan Kərim baba Qızılı oxşayaraq:

— İndi bunun nə cür it olduğunu bildinmi? Bu, it deyil, aslandır, əjdahadır,-dedi.

Kərim babanın bu tərifindən sonra Qızılla barışmış, səmimi bir dost olmuşduq.

## SÜMSÜ

Kərim baba ilə armud ağacı altında oturmuşduq. Mən dərədən topladığım daşlarla oynayırdım. Kərim baba fit çala-çala bir yaş çubuğu yonurdu. Kərim babanın yeni bir şey qayırmaq istədiyini anladım, yanına gedərkən o, qalın, **boa** bığları altından gülümsəyərək:

– Sənə sümsü qayırıram,-dedi.

– Sümsü nədir?-deyə soruşdum.

– Sümsü quş kimi oxuyur, bununla qızılquş balası tuturlar-dedi.

Kərim babaya daha da yaxınlaşaraq, gözlərimi əllərindən götürməz olmuşdum. Çubuğun ortasından iki barmaq qədər kəsib, üstünü götürdü. O yerə yaş ot qoyduqdan sonra kəsdiyi qalpağı üstünə basaraq:

– Bax, sümsü budur,-dedi və uşaqlara məxsus bir sevinclə sümsünü iri dodaqları arasına qısıb, çalmağa başladı.

Mən səbirsiz halda sümsünü dartıb əlindən alırkən, o, bürüşük gözlərində, qalın, iri dodaqlarında daşqın sevinc qığılcımları uçuşaraq:

– Qızılquş balasını bu səslə çağırır,-dedi.

Sümsünü indi mən çalır, o isə öyrədirdi və biliciliyi ilə öyünüb, məğrur baxışlarla mənə baxıb gülürdü.

– Bununla qızılquş balasını necə tuturlar?-deyə mən soruşduqda, Kərim baba mənə bu məlumatı verdi:

– Qızılquş yuvasını çox vaxt su kənarında, uca ağacların başında tikər. Balaları yumurtadan çıxan kimi ovladığı quşları öldürüb qanını içər, sonra da o qanı qusub balalarını yedirər. Balaları bir qədər böyüdükdən sonra, ovladığı quşu su kənarına aparar, tüklərini yolar, cəmdəyini suda təmiz yuduqdan sonra parçalayıb, balalarının qabağına atar. Balaları qanadlanıb uçmağa başladığı vaxt tutduğu ovu gətirib yuvasının ağzına birdən-birə buraxar, quş ölüm pəncəsindən qurtardığını görüncə, pırıldayıb uçmaq istərkən qızılquş balaları hücum edər, dərhal onu tutub yeyərlər. Anası balalarına bu cür ovçuluq öyrədir. Balalarının bu zamanı anaları üçün də qorxuludur, yaxın gələrsə, o saat hücum edib, onu da parçalayarlar. Ona görə

də ovladığı quşla yuvasına yaxın bir ağaca qonar və özünəməxsus bir səslə balalarını səslər. Onların uçub gəldiyini görüncə, ovu buraxıb qaçar. Qızılquş balalarını ovçular bu vaxtlar tuturlar. Yuvalarına yaxın bir yerdə tor qurub, içinə toyuq, kəklik buraxırlar. Çır-çırpıdan, otlardan qayırdıqları kiçik daxmalarda gizlənib bir əllə torun ipini tutar, o biri əllə də sümsünü çalarlar. Qızılquş balaları analarının ov gətirdiyinə aldanıb, özlərini tordakı quşun üstünə atanda ovçular ipi tez çəkir, tor bağlanır, qızılquş balaları da torun içində qalırlar. Qızılquş balaları bu zaman çox acıqlı olurlar. Özlərini insan əlində əsir görəndə ürəkləri partlar, insana heç alışmazlar. Ona görə də ovçular qızılquş balalarını tutunca, iynə ilə göz qapaqlarını bir-birinə tikirlər. İki-üç gün ac saxlar və yavaş-yavaş ət verib, özlərinə alışdırdıqdan sonra göz qapaqlarını açarlar. Quşcuğazların acığı bu cür sönər, sahiblərinə alışarlar. Ovçular qızılquş, tula götürüb ova çıxarlar. Tulalar kolların, qamışların arasına soxulub ördək, qaz, kəklik, qırqovul və turacı qaldırınca, qızılquş hücum çəkib ovlar.

## CAN QORXUSU

Sentyabrın isti günü idi. Günəş yandırırdı. İtlər, çobanlar meşələrə, sərin kölgəliklər altına çəkilmişdilər. Biz də alaçığın içində hər birimiz bir yanda uzanmışdıq. Sarı toyuğum da cücələrini başına yığıb armud ağacı altında eşələnir, dənələnirdi. Toyuq birdən-birə acıqlı səslə qaqqıldadı. Cücələr dərhal uçaraq kolların arasına soxulurdular.

Bu zaman bir quş alaçığın ağzından ildırım kimi şığıyıb, yükün altına soxuldu. Qüvvətli qanad çalınmasına bənzər bir səs hələ də alaçığımızın üstündə eşidilirdi. Bir-birinin arxasınca baş verən bu hadisələrdən özümüzü itirmiş halda alaçıqdan kənara çıxdıq. Alaçıqdan on-on beş arşın ucada böyük bir quş iri qanadlarını açmış, odlu və acıqlı baxışlarla bizi süzürdü. Anam:

— Qızılquşdur,-dedi, sonra cücələri tutmaması üçün əlinə böyük bir ağac alıb «kiş, kiş» edərəkg, qızılquşu qovalamağa başladı. Biz alaçığa girən quşun arxasınca getdik. Bizdən əvvəl qardaşım yüg altında bir bucağa sığınmış quşu qaldırıb, sevinə-sevinə:

— Tutdum, kəklikdir,-dedi.

Qardaşımın ətrafında sevincimdən atılıb-düşərək:

— Ver mən də baxım,-deyə bağırdım.

Bu zaman anam içəri kirdi. Gəgliyi əlimizdə gerüncə:

— Canının qorxusundan yazıq özünü alaçığa salıb,-dedi.

Qızılquşun pəncəsindən qurtarıb özünü insan əlində əsir görən kəklik həyəcanla çırpınır, dartınır, əllərimizi dimdikləyirdi. Qardaşım:

— Qanadlarını bağlayım, qaçmasın,-dedi.

— Yox, oğlum, bu heyvan bizim evimizə sığınmışdır, onu azad edin; baxsanız a, qorxusundan yazığın ürəyi ağzına gəlir,-deyə anam cavab verdi.

Bu sözləri anam elə söylədi ki, qəlbimizdə riqqət doğdu. Artıq hamımız onun azad edilməsi tərəfdarı idi. Hamımız alaçığdan çıxdıq. Qızılquş uçub getmişdi. Kəklik də o kiçik gözlərini göyə dikərək baxır, düşmənin getmiş olduğunu bilmək istəyirdi. Qardaşım quşu birdən-birə havaya ataraq:

— Uç, get,-dedi.

Kəklik onun əlindən ox kimi çıxdı və bir anda meşənin ağacları arasında yox oldu.

Hamımız bağırışaraq, kəkliyin arxasınca xeyli baxdıq.

## BİÇİN

Səhər-səhər alaçığın ağzında oynayırdıq. Kənd uşaqları əllərində badya, mis kasa dərəyə enirdilər.

Qardaşım onların dalınca:

— Namaz, Namaz, haraya gedirsiniz?-deyə çığırdı.

Namaz arxaya dönərək yarımağız:

— Qoruğa gedirik, qoruğa, çiyələk dərməyə,-dedi.

Biz də arxalarınca qaçıb yetişdik, dərəni keçdik, kiçik bir cığırla meşəyə doğru qalxdıq. İki çağrım qədər getmişdik ki, uzaqda biçinçilərin ornaqlarının qat-qarışıq səsləri qulağımıza yetişdi. Sevincimizdən sıçradıq. Bir az sonra artıq talada idik. Biçinçilər sıra ilə durmuş, göbəyə qədər qalxmış yaş otu biçir, qadınlar, uşaqlar isə otların arasından çiyələk yığır və qurumuş otlardan ötədə, bəridə taya vururdular. Biz dayanarmıyıq? Yetişən kimi qoruğa atıldıq. Çiyələkdən doyunca yedik. Sonra yumşaq otların, dərzlərin üstündə atılıb düşməyə, bağırışmağa başladıq. Biçinçilərdən biri orağını böyük bir qanqalın kökündən endirərkən quş balaları «cik-cik» edib, kiçik qanadlarını çırparaq, qalın otlar arasına soxuldular. Hamımız oraya qaçdıq. Biçinçi əyilib, ovcunda tutduğu bir quş balasını mənə uzadaraq:

– Al,-dedi.

Sevincək əlimi açdım. Quşu ovcuma qoydu. Ovcumu açarkən əllərim al-qan içində idi. Tüklərim ürpərmiş bir halda «Ay, bu nədir?» deyə quşu yerə atdım. Oraq onun hər iki ayağını biçmiş, kiçik heyvan ayaqsız qalmışdı; bir əllərimi al qırmızı boyayan qana, bir də otlar üstündə inildəyə-inildəyə sürünən o kiçik heyvana baxdım.

Qəlbimdə acı bir hiss doğdu. «Topal heyvan, səni artıq kim bəsləyəcəg?»-dedim. Hamı biçilmiş qoruğun tikan kimi duan otları üstündə inildəyə-inildəyə sürünən quşcuğaza baxırdı. O biri quşları tutmuş olan uşaqlar topal quşu ovucları içinə alıb tamaşa etdikdən sonra, yenə otlar arasına buraxdılar. O günkü nəşəmə zəhər qatılmış olduğundan çox dalğın idim. Bir saat sonra obaya döndük.

Bu əhvalatdan uzun illər keçmişdir. Ancaq bu gün də o qanlı vaqiəni unutmamışam.

## YOLDAŞIM RZA

Cümə axşamları mənim ən çox sevdiyim gün idi; çünki hər həftənin bu günü atam şəhərdən gəlirdi. Bir təpə başında oturub, səbirsizliklə atamın yolunu gözləyirdim.

Axşamüstü idi. Obada gəzinirdim. O gün südçülərdən biri şəhərdən çox tez qayıtmışdı. Onu uzaqdan görüncə yanına qaçıb, atamı soruşdum. Südçü çubuğunu qalın dodaqlarının bir tərəfinə qısaraq, o biri tərəfindən tüstünü buraxdığı halda gülümsəyərək:

— Atan bu gün gəlməyəcək, işi var-dedi. Bu söz ildırım kimi məni sarsıtdı. Məyus və dalğın halda geri döndüm. O isə arxamdan çağırıb:

— Ey, bura bax. Gələcək, səni aldatdım, mən bu gün tezdən çıxmışam,-dedi.

Cavab vermədən yoluma davam etdim. Günəş qızıl saçlarını dərələrdən, meşələrdən yavaş-yavaş toplayaraq qərbə, yüksək dağlar arxasına çəkilməyə, uca ağacların kölgələri şərqə doğru uzanmağa başlamışdı. Sürülər, naxırlar mələşə-mələşə obaya doğru qaçırdı. Mən də bir təpədə oturub o gurultunu dinləyir, o canlı lövhəni seyr edirdim. Çadırımızın ağzında at kişnəməsi eşitdim. Dönüb baxınca nə gördüm? Atam... Sevincimdən ayaqlarım bir-birinə dolaşa-dolaşa yüyürüb boynuna sarıldım. Atam yoldaşım Rzanı da özü ilə gətirdiyindən sevincim bir qat daha artmışdı. Sevinməzmiyəm? Cücələrimi, çeşmələrimi, göyəm ağaclarımı göstərməg üçün yeni adam tapmışdım. Bir fincan çay içən kimi qalxdıq. Toyuqlarımdan başlayaraq göyəm ağaclarımı, dərədəki çeşmələrimi bir-bir göstərdim. Sonra obaya gəldik. Sürülərin içinə soxulduq. Quzularla, oğlaqlarla oynadıq, onlarla bərabər atılıb düşdük. Artıq qaranlıq düşür, seyrək duman uca dağlar başından dərələrə, meşələrə enirdi. Göy üzü təmiz olduğundan şimal tərəfdəki bir-iki bulud dəniz içində kiçik təpəciklər kimi görünürdü. Hər ikimiz əl-ələ verib yüyürə-yüyürə evə gəldik.

## YAĞIŞ

Atam çadırımızın yanındakı armud ağacı altında oturub Kərim baba ilə söhbət edirdi. Kərim baba birdən-birə gözlərini şimala dikərək gurlayan bir

səslə: «Allah sən saxla»,-dedi. Bu sözləri elə söylədi ki, hamımızda bir həyəcan doğdu.

Bürüşük və titrək əli ilə göyün şimal tərəfindəki kiçik qara buludu göstərərək:

— O ilan quyruğu kimi qara buludu görürsən? Çox ziyankar buluddur,-dedi.-Bu, ziyansız keçməyəcək.

Atam etinasız cavab verdi:

— O bulud buradan çox uzaqdır, bizə ziyan dəyməz.

Kərim baba iri papaqlı başını, uzun, çal saqqalını oynadaraq, bir daha diqqətlə buludu süzdükdən sonra:

— Buna oynaq bulud deyərlər,-deyə sözünə davam etdi. Bu hər yeri gəzər, amma çox durmaz. Bir saat yağsa, aləmi tufana verər. İki saat çəkməz ki, toyuq kimi balalarını başına yığıb gəzməyə başlar. Bu buluddan gözüm heç su içmir, ehtiyatı əldən vermək olmaz. Alaçığın xəndəyini təmizləməliyəm.

Kərim baba durub getdi. Biz də atamla alaçığa dönüb, yorğun olduğumuzdan tez yatdıq. Sonra nələr olduğunu bilmirəm, Bu qədər xatırlayıram ki, atam məni qolları arasında yük üstünə uzadarkən, qulaqlarımın dibində gurlayan bir səsdən gözlərimi açdım. Ətrafıma baxdım. Atam, anam hər ikisi alaçığın içində dimdik durmuşdu.

Atam kiçik qardaşım Əsədullanın beşiyini yuxarı qaldırmış, anam da kiçik bacımı qucağına almışdı. Sel gurultu ilə alaçığın içindən axıb gedirdi. Yağış damcıları başımızın üstündə alaçığın geçələrini gum-gum qamçılayırdı. O gecəki tufandan yalnız bu qədər görə bildim.

Sonra yenə yatmışam. Səhər gözlərimi açdığım zaman günəş doğmuş, şəfəqlərdən hörülmüş saçlarını otlu-çiçəkli dağların, yamyaşıl duran meşənin üstünə dağıtmışdı. Tez alaçıqdan çıxdım. Hava o qədər saf, o qədər gözəl idi ki, hər şey insanın üzünə gülürdü... Gecəki yağışdan çiçəklərin, yarpaqların uclarından sallanan damlalar günəşin al şəfəqləri altında almaz dənələri kimi parıl-parıl parıldayır, ətrafına incə telli nurlar saçırdı. Kiçik quşlar yaşıl budaqlarda qanadlarını günəşə doğru açaraq həm qurudur, həm

də gözəlliklərə baxır, o lətafətə bürünmüş təbiəti dadlı nəğmələri ilə alqışlayırdılar.

Anam gecəki yağışdan islanmış şeyləri Ayrım qızının köməyi ilə alaçıqdan çıxara-çıxara:

— Allah kəssin belə yaylağı, elə bil başımıza yer qəhətdi. Bu nə dirrikdir; islanmamış şey qalmayıb. Hələ gecə gözlərimi bir tikə də yummamışam,-söylənirdi.

Atam da:

— Ay dəli, çölçülükdür, ürəyini sıxma, bunun da bir nəşəsi var,-deyə anama təsəlli verirdi.

— Belə nəşəni istəmirəm. Sizin üçün nə var ki, özünüz çöllü, gördüyünüz də elə bu,-deyə anam cavab verdi.

Bu aralıq birdən-birə cücələri, toyuğumu xatırlayıb, cəld hinə tərəf yüyürdüm. Hinin ağzındakı daşı götürəndə gördüm ki, hinin içi göl bağlayıbdır. Bu faciəli mənzərəni görməyimlə «Vay, cücələrim boğulublar»,-deyə qışqırmağım bir oldu. Dərhal ailə üzvləri ətrafımı bürüdülər. Atam:

— Yazıq cücələr, heç yadımıza da düşməyiblər,-deyə təəssüfünü bildirdi, sonra başımı oxşayaraq, öz hərəkəti ilə mənə sanki təsəlli vermək istədi.

Anam:

— Mənim fikrimə gəlmişdi, amma nə edək, öz başımızın hayına qalmışdıq,-dedi.

Əlimi hinə soxub, boğulmuş cücələri suyun içindən bir-bir çıxartdım.

Anam:

— Yaman gözə ox batsın,-dedi.-Hər görən: «Bunlara nə veribsən ki, dərilərinə sığmırlar» deyirdi. Bunlara hansı bədnəzərinsə gözü dəydi. Fikir etmə, oğlum, qada-balamızı aparıblar.

Artıq nə edəcəkdim? Olan olmuş, keçən keçmişdi.

## İGİD UŞAQ

Obamızın şimal tərəfi qərbdən-şərqə doğru uzanmış çılpaq qayalıq, daha sonra qalın meşəlik idi. Dərə qərbə doğru getdikcə qayalıq, dağlıq, iri və oyuq daşlarla dolu yerlərdən ibarət idi. Biz oralara getməyə qorxardıq, çünki kəndlilər «ayı var» deyə bizi qorxutmuşdular. Bu qorxu ucundan dərənin qərb tərəfinə getməzdik.

İkindi çağı idi. Obada «Dursunu ayı basıb»-deyə səs qopdu. Kəndlilər dəyənək, tüfəng, it görüb getdilər. Bütün oba axdı. Mən də camaata qoşulub getdim. Nədən qorxacaqdım, Kərim baba orada idi. Köməyə gedirmişəm kimi, hətta əlimdə yekə bir dəyənəyim də var idi. Hamımız nizamlı qoşun kimi, sanki bir qala almağa gedirdik. Dərəni aşdıq. Ayı dərəsinin dağlıq tərəfindən dırmanırdıq. Yuxarıda qat-qarışıq bir səs eşidildi. İtlər quyruqlarını, qulaqlarını şəkləyərək, birdən-birə hürməyə, üstümüzə yüyürməyə başladılar. Hamıda bir rəşadət və şücaət doğdu. Təpəni dırmandıq. Dursun əlində tüfəng məğrur bir halda bizi qarşılayaraq:

– Vurdum. Qoltuğunun arasından vurmuşam. Az qala kafir məni boğmuşdu,-deyə camaata qarışdı.

İndi hər kəs Dursundan məlumat almağa can atırdı. Nəhayət, bəlli oldu ki, bu qorxmaz uşaq tüfənglə o tərəflərdə gəzdiyi zaman öz yuvası ağzında iki balası ilə oynayan yekə bir ayı ilə üz-üzə gəlir. Ayı Dursunu görüncə arxasınca düşür. Dursun qaçır, ayı qovur; nəhayət, Dursun başı aşağı qaçmağın çətin olduğunu görəndə özünü toplayıb, geri dönür və ayını nişanlayıb, iki qolları arasından vurur. Ayı aldığı yaradan qüvvətini itirib, yerə yıxılır. Dursun kəndə dönüb, bu vaqiəni xəbər verir. Bir neçə kişi ilə ayı vurulan yerə gəlirlər.

Biz ayı vurulan yerə yetişər-yetişməz itlərdən biri ayını yaxaladı. Yaralı heyvan bağıra-bağıra onu qolları arasına alıb elə sıxdı ki, göpək qara ağzını açıb var gücü ilə zingildədi. Kəndlilər, ağac, qəmə gücü ilə iti ayının pəncəsindən qurtarınca, it qulaqlarını sallayaraq, quyruğunu böyrünə qısıb, birbaş obaya qaçdı.

Bu qərar ilə ayı itlərin hamısını bir-bir qaçırtdı. Ancaq özü də candan, taqətdən düşmüşdü. Nəhayət, kəndlilərdən biri ayını tüfənglə vurub öldürən kimi, hamı ayının yuvasına doğru axdı. Ayı yuvası dərənin ətəyində kiçik, təbii bir mağara idi. Mağara o qədər kiçik idi ki, içindəki iki ayı potası apaçıq görünürdü. Hər ikisi bir-birinə sığınıb, qorxaq baxışlarla mağara ağzındakı adamlara baxırdı. Mağaranın içi yumşaq ağac qabıqları ilə döşənmişdi. Görünür anaları çalışmış, zəhmətə qatlaşmış, qırdığı ağacların ən yumşaq qabıqları ilə mağaranın içini bir xalı kimi döşəmişdi. Axırda onların uğrunda canını da fəda etməkdən çəkinməmişdi. Xülasə, o kiçik yetimləri çomaqların başı ilə vura-vura mağaradan çıxartdılar. Boyunlarına kəndir bağlayıb, kəndə gətirdilər. Bir az əvvəl əzrail pəncəsindən qurtarmış kimi quyruqlarını yanlarına qısıb bağıra-bağıra qaçan itlər indi bu heyvancığazlara qarşı aslan kəsilərək, dörd yandan hücum etmək istəyirdilər. Kəndlilər zor-güc bu heyvanları itlərin pəncəsindən qurtara bildilər .

Kənd həyatında təbiətin o zəngin və geniş qucağında nə qədər canlı lövhələr, unudulmaz xatirələr vardır... Uşaqlıqdan qəlbimin dərinliklərində iz salmış o rəngarəng, o qiymətli və silinməz xatirələr...

## DAŞQIN

Baharın dumanlı səhərinin rütubətli havasını udduqca yatağımdan qalxmaq istəmirdim. Boğazıma qədər yorğana sarılaraq gəmiklərim qızındıqca nəşəli bir kəsalət içində gözlərimi qapayıb qulaqlarımın ucunda çınlayan həzin bir gurultunu dinləyirdim. Birdən-birə artırmadan: «Kür daş-mış, Kür daşmış»,-deyə ucalan heybətli səsdən dimdik qalxdım. Əlbəsəmi geyinər-geyinməz Kürə baxan uzun artırmaya qoşdum. Dəli Kür iki metrəyə qədər yüksəlmiş, sahilləri hiddətlə çeynəyən acıqlı boz dalğalar uzaq ormanlardan, bağlardan qoparıb gətirdiyi iri ağacları və sahildəki yoxsul taxta külbələri önünə qataraq qamçılaya-qamçılaya uzaq yerlərə götürüb

gedirdi. Bir çocuq hissi ilə bu amansız daşqının yapdığı fəlakətlərin seyr və tamaşasına dalmışdım...

Sahil boyu uzanıb gedən sarp qayalar, təpələr və hər tərəfdə gurultu qoparan tamaşaçılar, sevincindən hoppanıb-düşən çocuqlar bu mənzərənin gözəlliyini bir qat daha artırmışdı. Birdən-birə sahillərdən qopan müdhiş bir bağırtı qəlbimdə dərin həyəcan oyatdı. Nəhrin qaynağına doğru baxarkən suyun ortasında bir dəyirmançı külbəsinin qara dalğalarla çarpışa-çarpışa aşağı doğru axıb gəldiyini gördüm. İçindəkilər uzaqdan bir pişik yavrusu qədər görünürdü. Əllərini sahillərə doğru uzadaraq yardım istəyən bağırtıları hiddətli boz dalğaların gurultuları içində yayılıb gedirdi. Uzaqdan seyr edən tamaşaçılar bu müdhiş mənzərəyə çox acıdıqları halda kimsədə onları qurtarmaq arzusu yox idi. Kür nəhri təbii halında axdığı zaman tam ortasında kiçik bir adacıq görünürdü. Sellərin gətirdiyi ağaclardan bir neçəsi haman quruda dərin köklər atmış olduğundan yerləşib qalmışdır. Yay zamanı ora kiçik yaşıl bir ada kimi canlanırdı. Üzgüçülər çox vaxt üzə-üzə gedib dörd tərəfi su olan o quruda, o kiçik adacıqda dincəlirdi. Bu dəfə də sellərin ilk gətirdiyi bir neçə qol-budaqlı iri ağac o dayaz yerdə möhkəm yerləşib qalmışdı. Külbə get-gedə yaxınlaşır və nəhrin ortası ilə ağaclara doğru qoşurdu. Bu hal sahildə alay vuran tamaşaçıların qəlbində ümid nuru doğurmuş olduğundan hamı böyük bir maraq içində işin nəticəsini bəkləyib dururdu.

Külbə ağaclara yaxınlaşınca şiddətli bir dalğa çarparaq onu ağacların üzərinə atdı. Külbə şiddətlə ağacların arasına soxulub qaldı. Sahildəkilər bir vücud kimi birdən müdhiş bir çığırıq qopardı.

İçindəkilər artıq aydın görünürdü: ata, ana və iki çocuqdan ibarət idilər. Onlar hər iki sahilə doğru əllərini uzadıb «Yardım!»-deyə bağırırdılar. Hələ dəhşətin ağırlığını hiss etmiş olduğundan dam üzərinə atılmış pişiyin davamlı miyoltusu, artırmanın barmaqlığı yanında dalğalarda islanmış köpəyin qorxunc bir səslə hürməsi bu mənzərənin dəhşətini həyəcan içində həmin zühur edəcək müdhiş bir faciəni bəkləyib dururdu. Zira ki, bir

dalğanın o ağaclara doğru gətirdiyi iri, qol-budaqlı bir ağacı ikinci dalğanın ağzında sellərə qarışdığına dəfələrlə şahid olmuşdular. Külbəyə doğru ağzını açıb gələn hər dalğa yaxınlaşdıqca sahildəkilərin iztirab və dəhşətini artırırdı. Bu zaman bir gənc, divarı daşlarla hörülmüş bir həyətə qoşdu. Əlbəsə qurutmaq üçün bir-birindən fasiləli iri tut ağaclarına bağlanmış kəndirləri birər-birər açdı. Artırmalarda durub uzaqda tamaşa edənlər gəncin fikrini anlayaraq hər tərəfdən ona uzun kəndirlər atdılar. Gənc bu kəndirləri bir-birinə möhkəm caladı. Sonra o kəndirin bir ucunu ən yaxındakı tut ağacına, o biri ucunu da öz belinə bağladı. Tamaşaçılar onun təşəbbüs və fədakarlığına bir çılğın fədakarlığı kimi baxaraq: «Dəli ha olmamısan. Adam da özünü bu quduz dalğaların ağzına verərmi? Bu daşqındır, zarafat deyil, iti axan sellər ağzını əjdaha kimi açıb qurban istəyir. Oraya üzmək bu zaman mümkün deyil»-deyə, onu yapmaq istədiyi işdən mən etməyə çalışdılar. Fəqət gənc, inadında israr edərək özünü suya atdı və bir anda bir-birini qovan şiddətli dalğalar arasında qayib oldu. Hər kəs başdan-ayağa göz-qulaq kəsilərək işin gələcəyini bəkləyib dururdu.

Dörd-beş saniyə sonra gənc su üzündə göründü. Fəqət həmən onu qarşılayan quduz bir dalğanın boz dişləri arasında yenə qayib oldu. Sahildə duran üzgüçülərdən birisi: «Nəhrin üzündə çalxantı və dalğa qüvvətli, fəqət altında isə sakit olur. Bu adam sualtı üzərək özünü onlara yetirmək istəyir»-dedi. Doğrudan da, gənc böyük bir məharətlə onu udmaq istəyən azğın dalğaları yara-yara, çarpışa-çarpışa, bata-çıxa, min bir fəlakətdən sonra özünü külbəyə yetirdi. Külbədəkilər gənci böyük bir ümidlə qarşılayaraq sevindiklərindən onu duz kimi yalamağa başladılar. Gənc kəndiri belindən açıb külbəyə bağladı və sahildəkilərə «Çəkin!» əmrini verdi. Gəncin bu fədakarlığına heyrətlə tamaşa edən sahildəkilər dərhal həyətə axdı. Hər tərəfdən kəndirə sarılaraq bir ahənglə onu çəkməyə, çəkdikcə də onu ağaca sarımağa başladılar. Külbə yavaş-yavaş sahilə yaxınlaşırdı. İçindəkilərin bürüşmüş alınları, çatılmış qaşları, uçmuş

bət-bənizi açılmış, gözlərində qurtuluş və ümid qığılcımları uçuşurdu. Bir az sonra külbə sahilə yan aldı.

## CAMO CƏBRAYILBƏYLİ

***1887—1965***

## MEŞƏ NAĞARAÇISI

Bir dəfə müəllim bütün sinfi meşəyə aparmışdı. O, bizə meşədəki ağacların adlarını öyrədir, onların əhəmiyyətindən danışırdı. Biz meşənin içərilərinə doğru getdikcə, o tərəf-bu tərəfə uçan quşlara, rəngbərəng çiçəklərə qonan alabəzək kəpənəklərə rast gəlirdik. Müəllim bunlar haqqında da bizə məlumat verirdi. Uşaqlardan biri yoğun bir ağaca yaxınlaşıb üstündə cürbəcür cücülərin və qarışqaların gəzdiyini gördü. O, bir qədər düşündükdən sonra müəllimdən:

— Ağacların üstündə gəzən bu cürbəcür cücülər nə yeyib dolanırlar, harada daldalanıb yaşayırlar, bizə xeyri nədir?-deyə soruşdu.

Müəllim o saat uşaqları bir yerə toplayıb dedi: -Uşaqlar, bu ağacın üstündə gəzişən cürbəcür cücülər, tırtıllar və qarışqalar hamısı ağacların düşmənidir. Bunlar ağacın qabığını deşib gövdəsinə keçir və yumşaq hissəsini gəmirib yeyirlər. Qabığın altında, yeyilən yerdə boşluq əmələ gəlir. Cücülərin bir qismi, onların tırtılları həmin boşluqlarda daldalanıb həm orada yaşayır, həm də ağacı içindən yeyib xarab edirlər. Onların yuvalarını görmək istəyirsinizsə, gəlin əlimizdəki çubuqla ağacın qabığını döyəcləyək, görək nə səs verəcək.

Müəllim bu sözləri deyib əlindəki çubuqla ağacın hər tərəfini döyəcləməyə başladı. Ağacın bəzi yerlərindən bir cür, digər yerlərindən isə altı boş olduğu üçün başqa cür səs gəlirdi. Müəllim:

— Tapmışam,- dedi, ağacın qabığını sındırıb atdı. Qabığın altında ovulmuş yerdə o qədər böcək, tırtıl və xırda yumurta vardı ki, saymaqla qurtarmaq mümkün deyildi; hamısı qaynaşıb bir-birinə qarışmışdı.

Müəllim bizi başına yığıb belə bir izahat verdi:

— Uşaqlar, indi gördünüzmü, bunlar ağacların başına nə oyun gətirirlər? Biz həyatın yaraşığı ağacları və bütün bitkiləri bunlardan qorumalıyıq. Bunlar çox ziyankar heyvandırlar, ağacdan-ağaca keçib böyük bir bağı və meşəni xaraba qoya bilərlər. Məktəbimizin bağındakı ağacların gövdəsinə əhəng yaxdığımızın səbəbi də elə budur. Əhəng zərərli cücüləri tələf edir və buna görə də əhəng yaxılmış aqaca onlar yaxın gəlmirlər.

Biz müəllimin söhbətini dinləyərkən meşənin o biri tərəfindən «taq-taq-taq, taq-taq-taq» səsi gəldi, hamımız çevrilib o tərəfə baxdıq, amma heç bir şey görə bilmədik. «Taq-taq» səsi arabir dayanıb, sonra yenə davam edirdi.

Uşaqlar;

— Müəllim, o səs nədir?-deyə soruşdular.

İndi hamımız müəllimin cavabını səbirsizliklə gözləyirdik. Müəllim;

— Uşaqlar, bu səs lap yerinə düşdü!-dedi.-O «taq-taq»salan bir quşdur, ona bəzən «meşələrimizin nağaraçısı» deyirlər. Bu quş, ağacdələndir.

Bu halda cəh-cəh vura-vura alabəzək qanadlı bir quş sürətlə uçub yanımızdan keçdi və başqa bir ağacın gövdəsinə qondu. Bizim gözümüz quşda idi. Ağacdələn gövdənin üstü ilə fırlanaraq dimdiyilə ağacın qabığını döyəcləyirdi. Bəzən dayanıb nə isə iş görürdü, sonra yenə fırlanmağa başlayırdı.

Müəllim bizim diqqətlə fikir verdiyimizi duyan kimi dedi:

— İndi qulaq asın, sözümün dalını deyim. Bu gördüyünüz ağacdələndir. O dimdiyi ilə bayaq mən etdiyim kimi, ağacın üstünü döyəcləyir, altı boş yerini qopardır, uzun dilini ağacın qabığının altına uzadır, hər bucağını dili ilə yoxlayır. Dili yapışqanlı olduğu üçün böcəklər ona yapışır və dilini ağzına çəkib həşəratı udur. Bu quşun dilinin quruluşu çox qəribədir. Quş nazik və uzun dilini on-on iki santimetr çölə çıxara bilir. Onun ağac gövdəsi üzərində dolaşarkən başının yatıb-qalxdığını görürsünüz ki, bu da o, dilini ağzına çəkib-uzatdığı zaman olur.

Bu quşlar meşələrimizin yaxın dostlarıdır. Onlar meşələrimizə zərər verən həşəratı tələf edirlər Buna görə də quşun adı sizi qooxutmamalıdır. Adları «ağacdələn» də olsa, özləri «ağacqoruyandır».

## DOSTLARIMIZ

Evin qabağındakı bağçanın lap yaxşı vaxtı idi. Bir tərəfdə albalı gilələri yaşıl yarpaqların arasından öz qırmızı rəngilə gözləri oxşayırdı, bir tərəfdə isə al ləçəkli qızılgül hər yana ətir saçırdı. Çəpərə yaxın yerdə göy zanbağın tac şəkilli çiçəkləri keşikçi kimi sıraya düzülüb bağçada ağacdan-ağaca qonaraq nəğmə oxuyan quşları salamlayır kimi, başlarını əymişdilər. Alabəzək kəpənəklər çiçəkdən-çiçəyə qonaraq şirə çəkir və bəzən birdən-bir quşlar tərəfindən qapılıb quş balalarına yem olurdular. İsti hava, bol yem, qorxusuz yer tapdıqlarından quşlar özlərini lap yaxşı hiss edirlər...

Sarıköynəg ağacdan-ağaca uçaraq hər dəfə bir ağız nəğm oxuyur və tez-tez yuvasına doğru gedib oradakı yumurtalarını yoxlayır və ana sarıköynəyin yuvada olduğunu görüb geri qayıdırdı. Yumurtaların üstündə oturan ana ac qalmasın deyə, ata sarıköynək arabir ağzında bir kəpənək gətirib on verirdi.

Əjdər və Qafar evin yanında top-top oynayır və hərdənbir dincəlmək üçün hovuzun kənarında oturub bağçaya tamaşa edirdilər. Bu zaman onlar sarıköynəyin tez-tez qalınlıqdakı bir ağaca qonub, yenə də uçduğunu gördülər. Bu onları çox maraqlandırdı. Diqqətlə baxdılar və bir budaqda sarıköynəyin yuvasını gördülər. Uşaqlar həvəslənib ağaca dırmaşdılar. Ana quş onları görən kimi uçub qaçdı. Uşaqla yuvada beş dənə xırda yumurta gördülər. Yumurtalar o qədər xoşlarına gəldi ki, əllərini uzadıb götürmək istədilər. Bu halda ana quş o yan-bu yana qaçıb çığırır və az qalırdı ki, uşaqların üstünə şığısın. Yaxında həm uşaqlara, həm də ana quşa tamaşa edən qoca bağban:

— Əziz balalar, siz bu quşun yumurtalarına dəyməyin onlardan balaca, gözəl balalar çıxacaq və sizinlə bərabər bu yaraşıqlı və məhsullu bağçanıza

zərər verən kəpənəkləri və tırtılları tələf edəcəklər. Quşlar sizin dostunuzdur. Sizin bu gözəl bağçanızın düşmənlərini tutub məhv edirlər. Quşlar sizin dostunuzdur. Sizin bu gözəl bağçanızın düşmənlərini tutub məhv edirlər. Ananız sizi nə qədər sevirsə, o da öz balalarını o qədər sevir, siz onları incitməyin və gələcək balalarına yazığınız gəlsin. Sarıköynək köçəri quşdur. Yaz aylarında bizim yerlərə gəlib balalayır yayın axır ayında yenə Afrikaya və Cənubi Asiyaya qayıdır

Uşaqlar xəcalət çəkib yuvadan uzaqlaşdılar. Bu vax bir ana qaranquş ağzında bir kəpənək palçıqdan tikilmiş yuvasına qondu. Bunu görən kimi qaranquşun sarıdimdik balaları hamısı birdən ağzını açıb civildəyə-civildəyə yem istəməyə başladılar.

Bağban bunu görüb dedi:

— Uşaqlar, leylək, sarıköynək, qaranquş, bildirçin hamısı gəldi-gedərdir, köçəri quşlardır. Hər il payız gələn kimi isti və günəşli yerlərə gedirlər, amma sərçə yay, qış, payız, yaz həmişə bizimlə bir yerdə olur, baharın ləzzətini bizimlə bərabər çəkirsə, qışın soyuğunu, yayın istisini və payızın yağışlı, palçıqlı günlərini də bizimlə keçirir.

Uşaqlar:

— Bəs nə üçün o gün atamız deyirdi ki, bu sərçələrin qorxusundan darı əkə bilmirik?

Bağban dedi:

— Yox, sərçə o qədər də zərərli quş deyil, yediyi darı olduqca azdır, amma qırdığı zərərli cücülər çox-çoxdur.

— Bəs o gün babam deyirdi ki: «tut quşları» bağımızda olan tutların hamısını yeyib tələf etdilər, bu doğrudurmu?-deyə uşaqlardan biri soruşdu.

— Doğrudur, «tut quşları» ağaclarımızın tutunu yeyib zərər verirlər, amma onların böyük xeyri də vardır. O quşlara «çəyirtkə quşu», «murad quşu» da deyilir. Tarlalarımızı xaraba qoyan, taxıllarımıza çox-çox ziyan vuran çəyirtkələrin böyük-böyük dəstələrini onlar qırıb tələf edirlər. Quşların bir

çoxu bizim əsl dostlarımızdır,—deyə bağban cavab verdi və uşaqlar onun izahlarından razı qalıb getdilər.

## HANSI ÇİÇƏK DAHA GÖZƏLDİR

Yaz fəsli özünü yavaş-yavaş göstərməkdə idi. Tumurcuqlardan təzəcə körpə yarpaqlar görünməyə başlamışdı. Çəmənlər yaşıllaşır, rəngarəng çiçəklər açırdı.

Ağacdan-ağaca, koldan-kola qonan rəngarəng quşlar cəh-cəhlə ötüşür, yuva tikməyə və bala çıxarmağa hazırlaşırdı.

Bağın kənarıyla gəzərkən havanın ətri insana ləzzət verirdi.

Çəpərin bir yerində uzun budaqlarını xəndəkdən də bir xeyli kənara uzadan böyürtkən kolu elə durmuşdu ki, sanki «Yaxına gəlmə, ilişərsən», demək istəyirdi.

Kölgəlikdə başını aşağı əyib qəmli kimi görünən bənövşələr diqqətimizi cəlb etdi. Böyürtkənin tikanlı kollarını əlimizdəki ağaclarla o yan bu yana çəkib, bir neçə çiçək qopartdıq. Onun ətri o qədər xoş idi ki, iylədikcə iyləmək istəyirdik.

Söhbət bənövşə ətrafında başlandı. Uşaqlardan biri:

— Bu bitki kölgəsevən və daha çox dalda yerlərdə yaxşı əmələ gələn və faraş çiçəkləyən bitkidir,-dedi.

Bundan sonra qoca bağban İmran kişi danışmağa başladı:

— Deyirlər ki, vaxtilə bənövşə bu kiçiklikdə deyilmiş və daima qızılgüllə dostluq edirmiş. Bənövşə qızılgül kolunun dibində yaşayır və öz ətri ilə qızılgülü ruhlandırırmış. Qızılgül isə bənövşəni öz qucağında bəsləyib, ona yaşamaq imkanı verdiyi üçün fərəhlənirmiş.

Bir müddət bu cür yaşadıqdan sonra, qızılgül koluna bir bülbül qonaq gəlir. Bu gül ona o qədər xoş gəlir ki, ondan ayrılmaq istəmir. Gündən-günə onun başına dolanıb, «gül, gül, açıl» deyərək öz nəğmələrilə onu oxşayır. Bunlar o qədər mehribanlaşırlar ki, qızılgül bənövşəni yaddan çıxarır. Bənövşə də buna görə kiçilir, boynu əyilir, rəngi solğunlaşır və bir

müddətdən sonra özü də solub gedir. Ancaq bənövşə çox gözəl, çox da zərif, ətirli çiçəkdir.

Biz hər bitkinin öz mövsümü və bitməsi üçün ayrı-ayrı şəraitə ehtiyacı olduğu barədə söhbət edirik. İmran kişi də qulaq asıb:

— Əlbəttə, uşaqlar, mənim dediklərim nağıldır, müəllim deyən sözlər düzdür,-dedi.

Sonra, «görəsən çiçəklərin hansı daha gözəl və qəribədir» deyə ortaya bir sual atıldı. Hamı fikrə getdi. Yavaş-yavaş gəlib təpədə oturduq və yaxındakı dərənin şırıltı ilə axan suyunun gözəl «nəğmələrinə» qulaq asmağa başladıq.

—Mənə belə gəlir ki, gözəllikdə qızılgülə çatan çiçək olmaz. Qızılgül bütün çiçəklərin yaraşığıdır. Qızılgülün yanından keçərkən həm yaraşığı, həm də ətri insana ruh verir,-dedi.

Aran yerlərdə çox müddət aqronomluqla məşğul olan Cahangir üzünü İmran kişiyə tutub:

— Görünür, İmran dayı, göllərimizin suyu üzərində qar kimi ağaran iri, ağ pəri çiçəyini, nilufəri heç görməyibsən. Onun su üzündə bədirlənmiş ay kimi duran gözəlliyi səni heyrətə salmamışdır!-dedi.

Biostansiyada çiçəkçilik işilə məşğul olan Musa:

— Gorünür,-dedi, heç biriniz pəncəgüllə tanış deyilsiniz. Dağlıq yerlərimizin quzey tərəflərində bitən bu bitkini yazın ortalarında görərsiniz. Dəyirmi yarpağın arasından əvvəl açıq-ağ rəngli çiçəyin barmaq kimi uzanması, sonra isə açılıb kolun üstündə çətir əmələ gətirməsi çox qəribədir.

Məktəbin təcrübə sahəsində zanbaqlarla daha çox məşğul olan Kamal dedi:

— Heç zanbaqlardan danışanınız yoxdur. Çiçəklərin arasında ağ zanbaq, göy zanbaq, yaxud sarı zanbaq ən yaraşıqlı çiçəklərdir. Zanbaqsız bağçaların heç yaraşığı yoxdur. Bağçamızın kənarında sıra ilə düzülüb gözəl ətir saçan ağ zanbağın yaraşığı hansı çiçəkdə var?

— Məncə, qərənfilsiz heç bçr çiçəklik gözəl olmaz. Qərənfilin çətir kimi düzülmüş rəngarəng çiçəkləri, doğrudur, xırda olur, amma yaraşığa və ətrə qalanda o heç bir güldən geri qalmaz,-deyə uşaqlardan bir başqası dilləndi.

— Lakin bunların heç biri «saat gülü» deyilən çiçəyin yerini verə bilməz,-deyə müəllim dilləndi. -Bir dəfə Lənkərana getmişdim. Orada bir bağçaya getdik. Bağçada hər cür çiçək vardı. Bağça o qədər gözəldi ki, adam heç çıxmaq istəmirdi. Orada qəribə bir çiçək diqqətimizi cəlb etdi.

İlk dəfə gördüyümüz bu çiçəyin gözəlliyinə valeh oldum. Hətta bunun təbii bir çiçək olduğuna əvvəlcə şübhələndim də. Adını soruşdum, «saat gülü» dedilər. Adama elə gəlirdi ki, təbiət bu gül vasitəsilə özünün bütün gücünü göstərməyə çalışmışdır. Onu dərib götürməyə belə adamın əli gəlmirdi. Bu gülün rusca adı «kavaleriyskaya zvezda», latıncası Passiflora-dır.

Dediyim bağça, oradakı çiçəklər mənə o qədər təsir etdi ki, həm evimizdə, həm də məktəbdə o cür bağça salmağı özümə söz verdim.

Uşaqlar, siz də bu cür çiçəklik yaratmağa çalışın. Hər biriniz öz həyətinizdə, məktəbin, kolxozun, pioner evinin ətrafında bu cür çiçəklik salsanız, böyük, xeyirli iş görmüş olarsınız.

## QƏRİBƏ USTALAR

### 1

Müəllim bu gün də dərsdən sonra şagirdlər arasında sual-cavab müsabiqəsi təşkil etmişdi. Uşaqlar iki dəstəyə ayrılıb bir-birlərinə təbiətə aid sual verib cavab istəyirdilər. Cavab verməkdə aciz qalan dəstə «məğlub» olunmuş hesab edilirdi.

Dəstələr bir-birinə bu cür suallar verirdilər:

«O hansı bitkidir ki, boyu altmış metrə çatır?»

«O hansı bitkidir ki, nə kökü var, nə gövdəsi, nə də çiçəyi?»

«O hansı heyvandır ki, onun həzm borusu doqquz dəfə özündən uzundur?»

«O hansı heyvandır ki, qabaq dişləri adamın dırnağı kimi uzanır?»

Bir neçə bu kimi sual verildikdən və cavab alındıqdan sonra müəllim özü belə bir sual verdi:

«O hansı heyvandır ki, hər gün özü ağırlıqda yem yeyir?»

Uşaqlar əvvəl elə zənn etdilər ki, müəllim bu cür sual ilə onları çətinə salmaq istəyir. Lakin müəllimin üzündəki ciddi ifadəni gördükdə düşünməyə başladılar. Lakin nə qədər fikirləşdilərsə, heç bir nəticəyə gələ bilmədilər; çünki hər hansı heyvanı yadlarına salıb onun ağırlığını xatırladıqda qəribə nəticəyə gəlməli olurdular. Məsələn, bu hesabla üç yüz iyirmi kilo ağırlıqda olan bir inək gündə üç yüz iyirmi kilo (iyirmi pud) ot yeməli olardı. Odur ki, uşaqların hamısı müəllimin üzünə baxaraq məsələnin aydınlaşdırılmasını ondan gözləməli oldular. Müəllim isə gülümsəyərək cavab verməyə başladı:

— Deyəsən, uşaqlar, sual sizə çox qəribə gəldi, bəlkə də inanmaq istəmirsiniz? Yox, sizə çox da qəribə gəlməsin. Bu cür heyvan var. O, yer altında yaşayan qara yunlu, şiş burunlu, qabaq ayaqları kürək şəkilli və özünə olduqca qəribə yuva qazan, çox kiçik bir heyvandır. Adına köstəbək deyilir. Köstəbək torpağı eşə-eşə yerin altı ilə bir dəqiqə dayanmadan səhərdən axşama qədər hərəkət edir və tapdığı tırtıl, böcək, soxulcan və başqa xırda cücüləri yeyir.

Alimlərin hesabladığına görə hər bir köstəbək gündə təqribən özü ağırlığında yemək yeməlidir, yeməsə: acından ölər, çünki o bütün günü və qismən də gecələri bir dəqiqə dayanmadan torpağın altında işləyir.

Uşaqlardan biri:

— Bəs o heyvan nə cür görə bilir?-deyə soruşdu.

— Köstəbəyin gözləri çox xırdadır və yaxşı görmür,-deyə müəllim dilləndi.-Ancaq o, ovunu çox yaxşı iy bilən burnu və burnunun ucu ilə axtarıb tapır. Köstəbəklərin yer altında qurduqları yuvaları daha qəribədir. Onlar öz yuvalarını yerin çətin qazılan yerində əlli-altmış santimetr dərinlikdə, yer, divar altında, iri ağacların kötüklərinin yeraltı hissələrində qayırırlar. Günbəz şəkilli yuvalarını lağım ataraq yan-yana düzülmüş tağlardan əmələ gətirirlər. Bu günbəzin içində bir-birinə yolu olan çoxlu «gözlər» olur. Köstəbək təhlükə hiss edən kimi bu «gözlərin» birindən o birinə qaçıb gizlənə bilir. Belə dolaşıq şəkilli yuvadan yerin üzünə çıxmaq üçün bir-iki

yol açılır, bu yollar əyri-üyrü olur. Buraya düşən başqa heyvan çətinliklə çıxıb canını qurtara bilir.

Sonra müəllim köstəbəyin həm özünün, həm də yuvasının şəklini uşaqlara göstərdi və yuvanın kirəcək-çıxacaq yolları ilə onları tanış etdi.

**2**

Arıların mumdan şan qurduqlarını, quşların çör-çöpdən və yarpaqdan yuva tikmələrini, hörümçəklərin «tələ» qurduqlarını uşaqlar bilirdilər. Amma yer altında «imarət» tikən heyvanları hələ tanımırdılar. Ona görə müəllimin bu xüsusdakı söhbəti onları bərk maraqlandırmışdı.

Bu dəfə yenə sual-cavab müsabiqəsində Gülgəz müəllimdən başqa «mühəndis» heyvanların olub-olmadığını soruşdu. Bu cür suallara müəllim çox həvəslə cavab verirdi. O, uşaqların maraqlandığını görüb:

– Var, qızım, var,-dedi. -O heyvanın adı qunduzdur. Qunduzlar suya yaxın yerdə cüt-cüt, amma əlverişli və qorxusuz yerdə sürü ilə yaşayırlar. Suyun yaxınlığında qunduzlar bir neçə daxmadan ibarət «ümumi yaşayış mənzili» tikib bu mənzilin qabağında hündürlüyü iki-üç metr və boyu bəzən iki yüz metrə çatan bənd çəkirlər. Bəndi çəkmək üçün adam baldırı yoğunluğunda ağacları qüvvətli və isgənə kimi kəsici dişlərilə dib tərəfindən gəmirə-gəmirə o qədər yonurlar ki, ağac üzülüb yıxılır. Qabığını yeyib, ağacı yenə gəmirə-gəmirə uzunluğu iki-üç metr olmaq üzrə iki-üç yerə bölürlər və bu qayda ilə hazırladıqları dirəkləri yan- yana suyun dibinə sancırlar. Ağır və yoğun olan bu dirəkləri irəliyə doğru uzanmış dişləri ilə biri o başdan biri də bu başdan yapışıb asanlıqla qalxıza bilirlər. Suyun dibinə sancdıqları dirəklərin arasını çör-çöp, ya da qamışla hörüb üstünü gil ilə suvayırlar: suvağı hazırlamaq üçün mala əvəzinə enli quyruqlarını işlədirlər. Bu qayda ilə möhkəm bir divar əmələ gəlir.

Daxmalarını bəndin o biri tərəfində, suyun sahilində tikirlər. Bu daxmalar çoxlu ikimərtəbə gözlərdən ibarət olur və zahirən günbəzə oxşayır. Qamış, çör-çöp və gildən tikilmiş olan bu «ümumi yaşayış mənzilinin» içindəki

«otaqlardan» bəzisi yaşamaq, bəzisi ehtiyat üçündür. Hər «otaqda» bir cüt qunduz yaşayır. Anbarlara isə ağac qabığı, yarpaq və yumşaq tumurcuqlardan qış ehtiyatı toplayırlar. Qunduzlar yaxınında yaşadıqları suyun qabağına bənd çəkib, suyun həmişə eyni səviyyədə qalmasını təmin edirlər.

Onlar bəzən diametri qırx və yüz altmış santimetr olan ağacları gəmirib yerə yıxırlar. Bəzən bu yıxılan ağaclar çayın üstünə düşüb körpü təşkil edir.

— Müəllim, qunduz suda yaxşı üzür, ya quruda yaxşı qaçır?-deyə uşaqlardan biri soruşduqda müəllim cavab verdi:

— Quyruğu enli və barmaqlarının arasında pərdə olduğu üçün suda yaxşı hərəkət edir; quruda bir qədər çətinliklə yeriyir. Qunduzun qonur rəngli dərisi çox yaxşı qiymətə gedir, əti də yeməlidir.

Sonra müəllim həm qunduzun, həm də tikdikləri binanın şəklini göstərdi, qunduzun mənzili və bənllərinin qəribə quruluşu ilə uşaqları tanış etdi.

## SÜLEYMAN RƏHİMOV

(1900—1984)

## CEYRAN

Ovçu Pirim nəslindən bir ovçu Pirim də vardır. Kür qırağında öz dədə-baba yurdunda yaşayır. O neçə vaxtdır ki, peşəkar ovçuluğa əlvida elib, öz tüfəngini də dəyəsinin divarına söykəyibdir. Özü də nəvə-nəticəsinə bərk-bərk tapşırıb ki, uçarlardan şahin, laçın, tərlan, turac, kəklik, qırqovula; qaçarlarlan da maral, ceyran, əliyə dəyib dolaşmasınlar. Onları başa salıb, qulaqlarını doldurub ki, bəs görürsünüz nə vaxtdır mən siz əziz nəvə-nəticəmə bu adlardan yaraşdırıb qoymağa başlamışam. Olmaya-olmaya sizdən biriniz ovçuluğa qurşanasınız, adlarını yaraşdırıb sizə qoyduğumuz uçarlara, qaçarlara güllə atasınız, birinə bir cələ, yaxud tələ qurasınız, ya da qaç-qova salıb uçurumdan salasınız.

Elə bu tapşırıq zamanı sorğu-sual da başlayır:

— Niyə baba?

— Çünki balalarım, bizim bu Kür qırağında, o yan Mildə, bu yan Muğanda adlarını daşıdığınız uçarlar da, qaçarlar da tükənməyə başlayıbdır.

— İndi belə olanda əlacımız nədir, baba?

— Əlacımız qalanlarını göz bəbəyi kimi qorumaqdır. Gərək onların hər birisi vətənimizdə artsın, çoxalsın, gizlin-gizlin gəzən tazılı-tulalı namərd ovçuların da qabağına qanunlardan sədd çəkilsin.

— Demək, ovçu Pirim babamız buyurur ki, tələf edilməyi qadağan edilən uçarlara, qaçarlara qəsd edənləri tutub silahlarını əlindən alaq, özlərini də divana çəkib, bir müqəssir kimi qanun qabağında dayandıraq?

— Bəli, bəli, balalarım,-deyə Pirim baba göy damarlı əlini ağ saqqalına çəkdi, təkrar-təkrar tapşırıb nəql etdi ki, qədimlərdə ovçu pirimlər qayda-qanunla ova gedərlərmiş. Öz adət-ənənələrinə sadiq imişlər. Ovçuluqda namərdlik edənlərə, yumurta üstündə kürt yatan, cücə çıxaran uçarlara, bala gözləyən və ya bala gəzdirən qaçarlara əl qaldıran kəmfürsətlərə qarşı vuruşarlarmış. Onlar qışda, qar-qiyamətdə aclıq çəkən quşlara dən verib, heyvanlara ələf yetirərlərmiş. Yayın qızmarında qaçarların oylaqlarında quraqlıq baş verəndə nəmli yerlər tapar, qazıb çeşmə çıxararlarmış. Ovçu pirimlər uçarları, qaçarları məhv edən vəhşiləri-acgöz canavarları, hiyləgər tülküləri, marıqda duran, girəvə gözləyən çaqqalları qırarmışlar.

Pirim babanın nağıllarından nəvə-nəticəsi görürdülər ki, bəs onların ulu əcdadları necə də mərd ovçular olublarmış. Necə də ovda qayda-qanun yaradıblarmış, necə də vətən torpağını bəzəyən uçarların, qaçarların havadarları imişlər...

Soruşa bilərlər:-Bəlkə, onlar çölə əliboş çıxıb, evə də əliboş qayıdarmışlar? Belə olsaydı, onlara heç kim ovçu pirimlər deməzdi. Onlar ancaq vaxtına görə ovlayarmışlar, quşlayarmışlar. O, vaxt ki, uçarlar yerləri də, göyləri də doldurarmış. Qırqovullar turaclara, turaclar kəkliklərə

qarışarmış. Qaçarlara gəlincə ceyranlar marallara, marallar əliklərə qarışıb sürü-sürü otlayarmış, artımın haqq-hesabı olmazmış.

— Bəs indi necə, Pirim baba?

— İndi əbəs yerə mən ovçu Pirim ovçuluğa əlvida edib ov tüfəngimi bir qırağa qoymamışam.

— Bəlkə ovçu Pirim nəslinin qədimdən üzü bəriyə gələn ovçuluğu burada qurtaracaqdır?

— Yox, balalarım.

— Bəs bir də ovçuluq haçan başlayacaqdır?

— O zaman ki, bizim Kür qırağı, o yan Mil, bu yan Muğan, küllən bütün aranlı-dağlı Azərbaycan uçarlar, qaçarlarla dolacaqdır.

— Ona qədər nə etmək lazımdır, baba?

— Ona qədər olan ovları qorumaq, artırmaq, bəsləmək, indi görünən boşluğu doldurmaq gərəkdir.

Ovçu Pirim babanın bu nəsihətlərini nəvə-nəticəsi diqqətlə dinləyirdilər, bacardıqca can-başla bütün buyruqlarına əməl edirdilər. Onlar Kür qırağının meşələrində gözə dəyən uçarlara, qaçarlara qulluq edirdilər, dən səpib, yem qoyub gedirdilər. Beləliklə, get-gedə bu yerlərdə quşlar d heyvanlar da insanlardan qaçmırdılar. Adamlarla ülfət bağlayıb, az qala əhliləşirdilər. Görürdülər, ovçu Pirim tüfəngini o vaxt əlinə götürür ki, canavarlar, tülkülər, çaqqallar ceyran kimi biçarələrə hücum edir, parçalayıb tələf edirdilər. Bu qayda ilə əfsanəvi qoruq düzəlirdi. Başqa yanlardan qaç-qova salınan, gülləyə tutulan quşlar da, heyvanlar da bu qoruğa gəlirdi. Burada özlərinə sığınacaq tapırdılar. Bu qəribə əfsanəvi qoruğu Pirim baba da, onun nəvə-nəticəsi də bərk qoruyurdular. Get-gedə qoruq da genişlənirdi. Bəli ovçu Pirim baba yatmır, naxoşlamaq bilmir, qışda belə qalın kürkünə girmir, bacardıqca öz qoruğunu yadlardan qoruyurdu. Bir dəfə belə bir əhvalat baş verdi. Birdən bir yaralı ana ceyran qaça-qaça özünü güc-bəla ovçu Pirim qoruğuna çatdırdı.

Ovçu Pirim çoxdan qırağa qoyduğu tüfəngini götürüb qan izi ilə getdi. Bir də gördü ki, budur, iki nəfər yanları tazılı-tulalı, əlləri silahlı namərd üzü bəriyə cumur. Bu vaxt Pirim baba öz tüfəngini hərləyib, bu namərdlərin döşlərinə tuşladı. Namərdlər ayaq saxlayıb yerlərində mıx kimi durdular;

— Qoca, qudurmamısan ki?

— Quduran qanun pozanlardır.

— Nə qanun, qoca?

— Ovçuluq qanunu.

— Qanun kağız üstündədir, Kür qırağında deyil, əpriyən qoca.

— Qanun hər yerdədir, kəmfürsətlər... Qanun bizim torpağımızda tükənməkdə olan uçarları, qaçarları sizin kimi namərdlərdən qorumaq, bəzək-düzəyini itirən torpağımızın şöhrətini özünə qaytarmaq üçündür.

— Sən bir qanunpərəst qocaya bax,-deyə onlar istehza başladılar,-Özü də saç-saqqalından və bığından keçmşdəki sehrkar dərvişlərə oxşayır.

— Sehrkar dərvişlər indi sizin kimi yanı tazılı-tulalılar, azad uçarların, azad qaçarların qoruğuna əldə silah basqın edənlər, ana ceyranın qanını töküb bala ceyranı yetim qoyanlardır.

— Qoca, sən çox da təhqirə keçmə.

— Yoxsa nə olar, dələduzlar?

— Sənə çox baha oturar, qoca.

— Qoy baha otursun,-deyə ovçu Pirim əlini tüfənginin tətiyinə atmağa hazırlaşanda tulaları dallarına qısılan kəmfürsətlər kəkələdilər.

— B... iz də öz silahlarımızı işə sala bilərik, q...oca.

— Kim əl tərpətsə, bir göz qırpımında köpək kimi gəbərəcəkdir.

— Məgər sən buyuran qanun belə xüdsəranəlikdir?

— Bu qanun biz ovçu Pirimlərin daş kitabələrində yazılıbdır.

— Bəlkə, sən əfsanəsən, qoca?

— Yox, mən həqiqətəm, bu günəm.

— Sənin törəmələrin necə?

— Hamısı bu günün vətəndaşlarıdır.

— Bəs tərbiyələri?

— Məhz bu günün cavanlarıdır.

— Bəs biz haralıyıq, haradan gəlmişik?

— Hər haralı, hər haradan gəlmiş olsanız da bu günün qanunlarına qarşı çıxan tazılı-tulalı başı pozuqlarsınız.

— Pah attunan bu qocanın lap qarnı dolubdur ha.

— Mən bu qanı axan ana ceyranın da, bunun yetim balasının da yolunda kəmfürsətlərin qanlarını tökməyə hazıram.

— Demək, daha bizi bu qoruq səmtinə qoymayacaqsınız?

— Bu dörd həndəvərdən, ceyranı, turacı, kəkliyi, qırqovulu tükənən bütün bu torpaqdan öz ala-bula tazı-tulanızla birgə həmişəlik rədd olun gedin....

Pirim babanın səsini eşidib onun nəvə-nəticəsi, kimi əldə silah, kimi qədim sayaqda əldə yaba, balta, çomaq tökülüb gəldi. İşi belə görən namərdlər öz tazı-tulaları yanında bir yolluq cəhənnəmə rədd oldular.

Qanad-qanada verən quşlar, boyun-boyuna söykənən heyvanlar təhlükənin sovuşduğunu duyurmuş kimi minnətdarlıqla Pirim babanı dövrəyə aldılar... Elə bu zaman Ceyran adlı bir qız yetim bala ceyranın başını tumarlamağa başladı:

— Sənə süd verəcəyəm, körpə ceyran.

Pirim baba yetim körpə ceyranı görüncə gövrəldi, titrək əli ilə qırmızı qalstuklu qızın qumral hörüklərini tumarladı, alnından öpdü.

— Ceyran ceyranı sevməlidir, bəsləməlidir, çoxaldıb birə yüz artırmalıdır.

— Bəli, baba, mən də Ceyranam, bu da.

— Siz adaşsınız, qızım.

— Anam deyir ki, Ceyran adını sənə ovçu Pirim babanı özü qoyubdur.

— Düzü, balalarım, sizin adınızı bu uçarların, qaçarların adından özüm götürüb, özüm yaraşdırıb, özüm qoymuşam.

— Nəyə görə, axı, ay baba?

— Ona görə ki, mənim ceyran qızım, torpağımızın belə xeyir-bərəkətli qaçarlarıyla, uçarlarıyla qardaş-bacı olasınız, adaşlığın qədrini biləsiniz.

— Baba, mənim böyük bacım Turac da turacları sevir.

— Necə sevir, ceyran bala?

— O, turaclara dən-su verir.

— Bəs Kəklik bacın necə?

— Kəklik bacım da kəkliklərlə dostlaşıbdır, baba. Hələ Şahin oğlan da şahinlə, Tərlan da tərlanla dostlaşmağa başlayıb. Maral maralla bacılıq olub.

— Bəs bir-birləri ilə necə, ceyran qızım?

— Başa düşmədim, baba?

— Yəni Şahin, Tərlan turaclara, kəkliklərə daş atıb üstlərinə cummurlar ki?

— Pirim babanın qoruğunda uçarlarla qaçarlar qardaş bacı olublar.

— Ona görə ki, ceyran qızım, onlar yaman günün dostlarıdır. Bizim bu əfsanəvi Kür qoruğunda yerdə də, göydə də öz düşmənlərinə qarşı birləşiblər.

— Baba, izin verin bu ceyran balası həmişə mənimlə qalsın.

— Qalsın, qızım. Qoy doğma qızımız Ceyran bu körpə ceyranla qalsın. Ceyranlar bahəm ömür sürsünlər. Bir-birlərinə çox yaraşırlar. Qoy onun ovçu pirimlər nəslinin bütün ov qoruqlarını qorusun. Qoy barlı-bərəkətli Azərbaycan torpağı belə gözəl-gözəl uçarlarla, gözəl-gözəl qaçarlarla dolsun, dolsun...

## GÜNÜMÜZÜN NAĞILI

Bir gün Xəzər sahilində şırhaşırla geyə qalxan ağ fəvvarənin qırağında, yamyaşıl qol-budağını ağ köpüklü hovuza sallayan salxım söyüdün altında, əlvan rəngli skamyada tək-tənha əyləşib fikrə getmişdim... Birdən gördüm budur bir ağ göyərçin qanad çala-çala gəlib qarşımdakı söyüdün budağına qondu. Mən fikrimdən ayrılıb zəndlə göyərçinə baxınca, göyərçin də oynaq gözlərini gəzdirə-gəzdirə mənə baxdı:

— Səhv etmirəmsə gərək ki, siz yazıçı Salman babasınız?

— Bəli,-deyə mən uşaqlıqdan aludə olub sevdiyim, bir zaman yedirib-içirib bəslədiyim göyərçini süzüb cavab verdim.

— Mən yazıçı Salman babayam.

— Onda yazıçı Salman baba söyləsin görüm, neçə-neçə ildən bəriyə mənim adımı öz qanadlarında gəzdirən «Göyərçin»in baş qəhrəmanı kimlərdir?

— Əlbəttə, birinci sırada baba-nəvə.

— Sübut... siz nə ilə sübut edə bilərsiniz?

— Əgər siz adınızı iftixarla öz qanadlarında daşıyan «Göyərçin»in bütün nüsxələrini ta əzəl günündən bu günəcən oxuya-oxuya vərəqləsəniz, onda görərsiniz, əsasən «Göyərçin»in baş qəhrəmanları ağsaçlı baba ilə günəş gözlü nəvədir.

— Niyə?... Bəyəmləri ağsaçlı baba ilə günəş gözlü nəvə göydən-zaddan gəliblər? Daha dünya üzündə baba-nəvədən savayı «Göyərçin» üçün baş qəhrəman yoxdur?

— Niyə yoxdur?-Mən səbrlə cavab verdim.-«Göyərçin»in səhifələrində «Nəvə və nənə», «Ana və bala», «Ata və oğul», nə qədər desən başqa nağıl və əfsanə, şeir və nəğmə tapmaq mümkündür.

Mənimlə danışmağa girişən, ara-sıra ətrafa göz gəzdirib salxım söyüdün yaşıl budağında öz yerini daha da bərkidən ağ göyərçin davam etdi.-Bəs belə olan surətdə niyə də gərək «Göyərçi»in baş qəhrəmanları baba-nəvə olsun?

— Çünki «Göyərçin» məcmuəsinin gözəl, yaraşıqlı, şəkilli səhifələrində fəxri yer tutmaqda baba və nəvənin haqqı, əsası vardır.

— Necə haqqı, əsası?-Ağ göyərçin ağ tüklərini qabardıb ciddiləşdi.-Bəlkə, siz özünüz yazıçı baba olduğunuza görə tərəfgirlik edib, baba-nəvə tərəfində durursunuz?

Mən ağ əlimi ağ bığımın hər iki ucunda gəzdirə-gəzdirə gülümsündüm:

— Bəlkə də, belədir, göyçək göyərçin? Axı məcmuə öz qanadlarında sizin adınızı daşıyır. Necə deyər, ixtiyar sahibisiniz.

— Mən tərif yox, izahat istəyirəm.

— Demək, sizin tərif deyilən bəzək-düzəkli sözlərdən xoşunuz gəlmir?

— Gəlir, niyə gəlmir,-deyə Göyərçin kefinin kökəldiyini gizlədə bilmədi.-Mənim özümü nəinki bu gün, lap tarix boyu qədimdən bəriyə şairdən ədibə qədər az tərifləməyiblər. Nə qədər desən şənimə yazıb, musiqi qoşublar. Nağıllarda, dastanlarda məni dara düşmənlərin dadıma çatan xilaskar göstəriblər. Bir sözlə, olanı da, olmayanı da mənim adıma yazıblar.

— Ancaq siz indiyə qədər heç bir tərifnaməni üzü üstə geriyə qaytarmamısınız.

— Düzü... belə əhvalat yadıma düşmür.

— Onda məni baba-nəvə tərəfkeşliyində qınamayın.

Göyərçin mətləb üstünə gəldi:

— Sübut edin görüm niyə də gərək baba-nəvə «Göyərçin» üçün baş qəhrəman olsun?

— Mən ancaq öz mülahizəmi bildirdim, yoldaş Göyərçin.

— Buyurun, baba.

— Deyin görək baba-nəvəni ömründə savaşan, atlarını düz yerdən çıxarıb daşlığa, qayalığa sürən görmüsünüzmü?

— Görməmişəm.

— Mən bilən, bu dünya üzündə bu qəhrəmanların arasında dostluqdan savayı ixtilaf olmasın gərək.

— Sizcə, hikmət nədədir?

Göyərçinin inad etdiyini görüncə işin içindən çıxmaq üçün yenə də gülümsəyə-gülümsəyə cavab verdim.-Məncə, getdikcə baba uşaqlaşır.

— Bəs nəvə?

— Nəvə boy atıb kişiləşir.

Söhbətimizin bu yerində anasını da götürüb Xəzər sahilinə məni axtarmağa gələn, artıq böyüyüb on yaşına yetişən məktəbli nəvəm Elxan məni görər-görməz yüyürə-yüyürə yanıma gəldi. «Göyərçin»in son nömrəsinin əlimdən sürüşüb köpüklü suya düşdüyünə də fikir vermədi. O, qolunun artan qüvvətini sınayırmış kimi məni hop götürmək, öz gələcəyinin aşıb-daşan qüdrəti ilə çağlayan fəvvarə qırağındakı salxım söyüdün başından

da yuxarı atıb-tutmaq istədi. Bu zaman biz baba-nəvənin günlər deyil, illər həsrəti kimi mehribanlıqla görüşdüyünü görən ağ Göyərçin qanad çala-çala bizi alqışladı. Dalğalar da köksü üstünə qanad açan «Göyərçin» məcmuəsini götürüb, «Göyərçin»dən bixəbər olan, uşaq dastanını varaqlamayan başqa baba-nəvə üçün sovqat aparırdı...

## ƏLİ VƏLİYEV

(1903—1982)

## BALDIRĞAN SUYU

Yasəmənİn səkkiz yaşı vardı. Tez-tez böyük bacısı Nərgizlə kəndlərinin qabağındakı çəmənlərə, yoncalıqlara gəzməyə gedirdi. Bəzən «Qaynama bulağın» böyründən pencər yığırdılar. Buralarda o qədər göyərti, gül, çiçək vardı ki, adlarını saymaqla qurtarmaq mümkün deyildi.

Yasəmən özü üçün dəftərçə düzəltmişdi. Hər gün gördüyü təzə pencərlərin yarpaqlarını qoparıb, dəftərin arasına qoyur, böyründə adlarını qeyd edirdi.

Bir gün anası Çiçək Yasəmənin dəftərçəsinə yapışdırdığı pencərlərin adlarını oxudu. Qız yazmışdı: Kövşənlərimizdə bitən pencərlər: quşəppəyi, yemlik, quşquyruğu, qoyunqulağı, yarpız, quzuqulağı, dəvədabanı, şomu, kişniş, qazayağı, boyana, əvəlik, baldırğan, bulağotu, kəklikotu, kəvər, səbzi, yelqovan...»

Bu pencərlərdən hər il dəfələrlə yığıb xörəyə tökdüyünü, müxtəlif bişmiş hazırladığını, qurudub saxladığını xatırlayanda ana qızının işinə sevindi. Ancaq həmin gün çiçəyin sifətini kədər bürüdü. Yasəmən bərk öskürürdü.

Yasəmən həkimin yazdığı dərmanın acı olacağını fikirləşdikcə daha çox əsəbiləşirdi. Həkim Yasəmənə nə qədər təsəlli verirdisə, qız toxtamırdı. Fikri-zikri acı dərmanın yanında qalmışdı.

Nərgiz dərmanı alıb gətirəndə Yasəmən ağlaya-ağlaya anasını çağırdı. Çiçək qızının saçını tumarlayıb, mülayim-mülayim dedi:

— Hər gün kolların dibində eşələnib, otuz cür pencərin adını yazan, bütün dərslərində əlaçı olan qızın bir qaşıq dərman içməkdən qorxduğuna mən utanıram.

Yasəmən, anasına baxmasa da, sözlərinə diqqətlə qulaq asırdı.

Anası Yasəməni dilə tutmağa başladı:

— Dərman içməsən öskürəyin kəsməz, dərsdən qalarsan.

Yasəmən ağzını açdı, anası şüşədəki dərmandan bir qaşıq qızının boğazına tökdü. Yasəmən gözlərini yumub dərmanı dərhal içdi. Əsla acı deyildi. Hətta bir az da xoş təmi var idi. Yasəmən bu təmdə nə isə yemişdi. Qız xeyli fikirləşəndən sonra tapdı:

— Baldırğan. Sonra bərgdən anasını çağırdı:

— Ana, bu ki, baldırğan suyudur.

Bir neçə gündən sonra həkim Yasəmənin yanına gəldi. Qız xeyli yaxşılaşmışdı. Həkim Yasəmənin nəbzini yoxlayandan sonra söhbət eləməyə başladı. Bu zaman ana qızının dəftərçəsini həkimə göstərdi. Həkim Yasəmənin qızarmış yanağından gözünü çəkməyib dedi:

Dəftərçənə yapışdırdığın, adlarını yazdığın pencərlərin hər birisi neçə dərdin dərmanı, neçə yaranın məlhəmidir. İçdiyin dərman da baldırğan suyudur. Bizim kövşənlərdə bitən göy-göyərtinin hamısından dərman qayırıb xəstələri sağaldırlar.

Həkim pencərlər barədə şirin-şirin danışdığı zaman Yasəmən də fikirləşirdi ki, sağalandan sonra daha çox və yeni pencər yığıb herbari düzəldəcəyəm; rayondakı ölkəşünaslıq muzeyinə göndərəcəyəm...

O, fikrini anasına və həkimə dedikdə Çiçək qızının alnından öpdü, həkim isə: «Sağ ol, qızım!»-deyib ondan ayrıldı.

## QƏNİRSİZ GÖZƏL

Səni bu qədər sevdiyim səbəbsiz deyildir. Əlvan çiçəkli Cıdır düzündə axşamlar gəzməyə çıxanlar heç vaxt unutmazlar ki, havan loğmandır. Boy-buxunları müxtəlif, yarpaqları cürbəcür olan ağacları ilə vüqarlanan, İsa bulağı ilə öyünən, Xəlfəli meşəsində dincələnlər təsdiq eləyir ki, may-sentyabr aylarında ətrafın gülüstan qoxuyur, suyun şərbət dadır. Növbənöv quşların ürəkaçan mahnılarını dinləyənlər, Ərimgəldidə oturub Qarabağın aran tərəflərindən uzanan dolayı yollara göz dikənlər bilirlər ki, nə yüksək, nə ucasan, Şuşa. Uzanan dolayı yollara göz dikənlər bilirlər ki, Sarıbaba dağlarından saxsı tünglə çəkilmiş «Xan qızının suyu» ilə məşhurlaşmış bulaqlardan gələn su şəfa qaynağı, dərdlər dərmanıdır. Böyük və kiçik Yarmalardan adlayıb, Korun karvansarasında Zarıslı qaymağı yeyənlər, bir az dincələndən sonra Sağsağanlı yaylağında istirahət edənlər sözümə haqq verərlər ki, Turşsu təbiətin əvəzsiz nemətidir. Daşaltıya enib şah tutun nubarını eləyənlər, isti günlərdə çayda çimənlər, altdan yuxarı qalxan da kəklikotu dərənlər, qayanın başında dayanıb sənin həndəvərinə göz gəzdirənlər «Şuşa qalası» adı ilə səni tərif eləyənin sözlərini iqrar edərlər.

Mən səninlə tanış olanda azadlığın sorağı uzaqlardan gəlirdi. Şeytanbazara, Meydana, Çarsıbazara, Bazarbaşına çıxıb bazarlıq elədiyim zaman sövdəgərlər də, sənətkarlar da, xırda alverçilər də danışırdılar ki, Rusiyada Şura hökuməti qurulub, başçısı da Lenindir.

Evində muzdurluq elədiyim bəydən bu barədə heç nə soruşmurdum. Xəbər alsaydım da səmərəsi olmazdı, çünki muzdurları insan saymırdılar. Bir bəyin evində qonaqlıq düzəlmişdi. Qarabağ pambıq bəylərinin, demək olar ki, hamısı bu məclisdə isbat-vücud edirdi. Söhbət əsnasında onlardan birisi «Şura hökuməti fəhlə-kəndli hökumətidir, Lenin cümlə-cəhan füqərayi-kasibəsinin dostu, havadarı bolşeviklər firqəsinə rəhbərlik edir»,-deyəndə elə bil gözümü açdı, qoluma qüvvət, dizimə taqət, ürəyimə təpər verdi. O gündən Şura hökumətinin yoluna göz dikdim. Kommunistlərin

nə vaxt sənə qədəm qoyacaqları vaxtın aylarını yox, günlərini saymağa başladım.

Mənim nəzərimdə günlər il qədər, illər qərinə boyda uzandı. Əlim işdən soyuyur, ürəyim atlanır, oxumaq həvəsim gündən-günə artırdı.

Bəy balalarının (oğullu-qızlı) hamısı gimnaziya qurtarmış, realni bitirmiş, Peterbruqda ixtisas sahibi olub qayıtmışdılar. Hətta elələri var idi ki, üç illik məktəb bitirmişdi. Mən isə molla məktəbində beş-altı ay Quran höccələmiş, çətinliklə oxuyub-yazmaq öyrənmişdim. Gecə-gündüz fikrim-zikrim oxumaq, sənətə yiyələnmək, bilikli, mərifətli, mədəni insan olub xalqa fayda verməkdi.

1920-ci ilin mayında Bazarbaşında bolşeviklərin sözləri yanıqlı sinəmə sanki su səpdi. Yox, ürəyimə hərarət, şüuruma cəsarət aşıladı.

Lenini görmək mənə nəsib olmasa da, onun yaxın yoldaşı, sədaqətli silahdaşı Nəriman Nərimanovun böyük məsciddə danışdığına huş-guşla qulaq asdım. Əsil mən deyən adam idi. Ürəyimdən keçənlərdən söz salmışdı, fəhlələrin yaşayışından, kəndlilərin vəziyyətindən, muzdurların güzərənsız zindəganlığından söhbət eləyirdi. Sənin ağsaqqalların Nərimanovla görüşəndə o, çox mülayim və təvazökarlıqla hamıya əl verir, «Camaat, Şura hökuməti fəhlə-kəndli hökumətidir, müsəlmanların xilaskarı və rəhbəri Lenin yoldaşdan sizə salam gətirmişəm. Yaşasın Lenin yoldaş!»-deyəndə hamı bir nəfər kimi «ura-ura» sözlərini qışqıra- qışqıra təkrar eləyirdi.

Şura hökuməti, Lenin, bolşeviklər firqəsi, Qızıl Ordu sözlərini birinci dəfə səndən eşitdim- «Cümlə-cahan füqərayi kasibəsi, birləşin!», «Yaşasın yoldaş Lenin!» şüarını ilk dəfə qulağım səndə çaldı, Şuşa. Şərqin böyük rəhbəri, Leninin sadiq silahdaşı Nəriman Nərimanovu yaxından görüb ona əl verdiyim üçün səni hədsiz sevirəm.

Məktəb qapılarını üzümə açıb məni elm-ürfan qoynuna saldığın üçün çox razıyam. Təhsil kəsb elədikcə insanlıq hüququnu anladım, dünyanın bir çox qaranlıq nöqtələrini görməyə iqtidarım çatdı. Dostla düşməni, işləyənlə müftəxoru, çalışanla harını tanıdım.

Günlərdən ay, aylardan il düzəldikcə bütün məhəllələrini gəzdim. Küçələrini dörd dolandım. Gözəl yerlərini, görməli məkanlarını gördüm. Dahi bəstəkarımız Üzeyir bəyin «Arşın mal alan» əsərinə baxanda gördüklərimə təəccüblənir, «mən hara, teatr hara» deyib yerimdə otura bilmirdim. Mədəniyyətimizin fəxri sayılan Üzeyir Hacıbəyovu görmək, əsərinə baxmaq, musiqisini eşitmək xoşbəxtliyi mənə səndə nəsib oldu.

Aradan çox keçməmiş ürəkləri fəth eləyən, qəlblərə yol açan, səsləri ilə qulaq asanları məftun qoyub zövq verən Cabbar Qaryağdı oğlu ilə, bir az sonra əsil Bülbüllə tanış olduğuma görə sənə minnətdarlığımın hüdudu yoxdur.

Sənə Odlar yurdunun nəğməkarlar beşiyi deyirlər... Doğru sözə əlavə yoxdur. Üzeyir Hacıbəyovun «Leyli və Məcnun» əsərinə səndə baxdım. İstedadlı və sevimli aktyorumuz Hüseynqulu Sarabski kimi Məcnun rolunu oynayan yoxdur, bəlkə də olmayacaqdır. Məncə, istəkli sənətkarımız Sarabski səndə oynadığı Məcnunu heç zaman oynamamışdır. Dediklərimi ustad müğənni özü də «xatirələrində» təsdiqləyir.

Məşhur yazıçı, nəcib insan olan Əbdürrəhim bəy Haqverdiyevlə, Süleyman Sani Axundovla da səndə tanış oldum.

Molla Pənah Vaqiflə Xurşudbanu Natəvanın adı çəkiləndə sən yada düşürsən. Təsadüfi deyildir ki, doğma torpağımızın vurğunu olan Səməd Vurğun dəfələrlə səndə dincəlmiş, hüsnünü vəsf eləmiş, gözəlliyinə söz qoşmuş, «Vaqif» əsəri kimi əzəmətli sənət abidəsi ucaltmışdır. Adın ədəbiyyat və inçəsənətimizin görkəmli simaları ilə yanaşı çəkildiyinə görə sənə ömürlük borcluyam.

Müəllimlik elədiyim vaxtlar üç il dalbadal yay pedaqoji kurslarında təhsilimi davam etdirmək üçün sənə qonaq gəlmişdim. Cavanlıq ömrün bahar fəslidir deyənlər haqlı olsalar da, fikirləri bütün deyildir. Gənclik tülək tərlan çolpasıdır. Pərvazlananda qeydinə qalıb qədrini bilmək lazımdır. Yoxsa son peşmançılıq səmərə verməz. Bu sözü söyləməkdə məqsədim vardır.

Pedaqoji kursları qurtarana yaxın imtahana hazırlaşırdıq. Bir gün eşitdim ki, böyük dramaturqumuz Cəfər Cabbarlı sənin mehmanındır. «1905-ci ildə» əsərini yazmaq üçün Tuğ kəndinə getmiş, bir müddət orada qalıb azərilərlə, ermənilərlə söhbət etmiş, iki qardaş xalqın əsrlər boyu dostluq elədiyi barədə tarixi rəvayətlərə qulaq asmışdır. Kurs müəllimləri onu Bazarbaşındakı yeməkxanada gördülər. İki nəfərlə oturub yemək yeyirdi. Papirosu bir-birinin oduna yandırırdı.

İmtahana hazırlaşdığımız vaxt dan üzü yuxudan qalxır, sənin zümrüd sinənə sərilir, oxuyub yazırdıq. Səhər açıldıqca cavanların və uşaqların səsi quşların cəh-cəhinə qarışıb bizi valeh edirdi. Müəllim dostlarından birisinə üz tutub sual elədim:

– Nədəndir ki, Şuşadakı cavanların hamısı məlahətli səsə malikdir və gözəl oxuyurlar?

Dostum müxtəsər cavab verdi:

– Şuşanın suyu ilə havası səs üçün ən dəyərli dərmandır.

Hərçənd mən dostumun cavabından o qədər də razı qalmadım, ancaq bu sözdə həqiqət çox idi.

Səndən ayrılıb başqa yerlərə getsəm də, səndən böyük dəbdəbəli şəhərlər görsəm də, uca binalı, enli və uzun güçəli, qarğaşalı şəhərdə yaşasam da, əsla yadımdan çıxmırsan. Nəhayət, uzun ayrılıqdan, yəni otuz beş ildən sonra təkrar məni bağrına basdın.

Sanatoriyaları gördükcə, istirahət evlərinə baxdıqca, yeni binalara, təzə tikililərə tamaşa elədikcə sevinirdim. Hərdən təzə libas geymiş Qarabağ gözəlini xatırladırdın... Bununla belə kədərləndim.

Cıdır düzünə gəzməyə çıxdım, qalın basdırılmış ardıc kolları addım atmağa imkan vermədi. Bir zaman yay pedaqoji kursunda oxuyan dostuma burada rast gəldim. Narazılığımı sezib gülə-gülə dedi:

– Rayon təşkilatları Cıdır düzündə meşə zolağı salırlar.

Mən hiddətimi gizlətməyib bərkdən dilləndim;

– Əqilsiz hərəkətdir. Cıdır düzü kimi səfalı və nadir seyrəngahı bu hala salmaq ən azı təsərrüfatsızlıq və zövqsüzlükdür.

Çarsıbazarla gedəndə qəşəng, şümal sal daşlarından salınmış küçələrə asfalt döşənildiyini görəndə ürəyim qısıldı. Dostum yenə rişxəndlə dedi:

– Rayon təşkilatları abadlıq işləri görürlər.

Qədim şəhərin gözəlliyini xələldar edib sal daş döşənmiş küçələrin üstünə asfalt çəkməyə, bilmədim ki, nə ad verim.

Dostumla bərabər Xan qızının bulağına sarı getdi. Kranlar sınmış, novlar xarab olmuş, binanın divarları çatlamış, üstü sökülmüşdü. Eşitdim ki, şirin su hamamı bağlanmış, meydandakı bulağın suyu dəyişdirilmişdir.

Xan qızının evinin altında oturub üzüaşağı baxırdıq. Hava aydın və sərindi. Axşamüstü idi. Gələn maşınların, arabaların sayı-hesabı bilinmirdi.

İlin yay fəsli idi. Bu zamanlar səndə bir gün istirahət eləyənin ömrü azı bir il uzanır desəm, yanılmaram.

Söhbətimiz sənin barəndə idi. Birdən məlahətli səs diqqətimi cəlb elədi. Mən dərhal dostumu üstələməyə çalışdım:

– Yadındadırmı, yay pedaqoji kurslarında oxuyanda deyirdin Şuşanın suyu ilə havası xəstə üçün ən dəyərli dərmandır.

Dostum vüqarını pozmadan dedi:

– Mən sözümdən qaçmıram.

– Oxuyanın səsi xoşuna gəlirmi?

– Hədsiz dərəcədə.

– Özün gördün ki, Şuşanın suyu quruyub, ancaq havası qalıb. Demək səs üçün suyun əhəmiyyəti yoxdur.

Dostum üzümə mənalı-mənalı baxıb başını buladı:

– Səsi diqqətlə dinlə, sonra nəticə çıxart.

Mən cavab qaytarmayıb səsi şirin su kimi içdim. Dadı damağımda qaldı. Fikirləşdim, hey düşündüm, nəhayət, dostuma dedim:

– Hər kimdirsə, yaxşı səsi var, heyif ki, Bülbülü yamsılayır...

Bu zaman başqa bir səs də ucaldı. Eynən Cabbar Qaryağdıoğlu kimi zildən oxuyurdu.

– Bu da Cabbarı yamsılayır...

Dostum əlini çiynimə qoyub gülə-gülə dedi:

– Gözümün nuru. Əvvəlcə oxuyan Bülbül, indi oxuyan isə Cabbardır.

Mən səbirsizlik elədim:

– Mənim əzizim, Bülbüllə Cabbar həyatda yoxdur.

Dostum əllərini ölçə-ölçə davam elədi:

Cabbarla Bülbülün səsi həmişə eşidiləcəkdir. Vallara yazılmış bu səslər heç vaxt unudulmayacaqdır. Azəri xalqı yaşadıqca, Şuşa şəhəri durduqca, sevimli nəğməkarlarımızın səsi ölkəmizin hər guşəsindən ucalacaqdır. Əgər bəzi işçilər hələ də Şuşa şəhərini qiymətləndirib ona qayğı göstərmirlərsə, buna darılma. Hərgah Sarıbabadan çəkilən su dörd ildən artıqdır Şuşaya çatmırsa, günah bulaqlarda deyil, işi görən adamlardadır. Günlərini yubatmayıb vicdanla çalışsalar, bu müddətdə iki dəfə bu uzunluqda kanal çəkmək mümkün idi.

Dostuma ciddi nəzər salıb dedim:

– Sözlərinin hamısı doğrudur. De görüm Şuşadan yeni Cabbarlar, Bülbüllər çıxacaqmı?

Dostum qəmgin çöhrəsini yana çevirdi. Güclə eşidilə biləcək tərzdə cavab verdi:

– Məncə Xan Şuşa xanəndələrinin, yəni parlaq nəğməkarların son nümayəndəsidir.

Mən bir sual da verdim:

– Belə çıxır ki, daha şaqraq səsə həsrət qalacağıq?

– Mən o fikirdə deyiləm.

– Hərgah Sarıbaba suyu bu şəhəri sirab eləsə necə?

Dostum gözünü Xəlfəli meşəsinə zilləmişdi. Cabbarla Bülbülün səsi məni məst eləmişdi.

Başımız söhbətdən ayılanda yük maşınında istirahətdən dönən bir dəstə cavan gördük. İki oğlan «Qarabağ şikəstəsi»ni elə yanıqlı oxuyurdu ki... Mən dostuma baxanda o, əvvəlcə başını tərpətdi, sonra gülümsündü.

Mən azəri musiqisi üzüyünün bahalı qaşı olan nəğməkarları düşünür, ürəyimdə deyirdim: «Unudulmaz səs, unudulmaz söz, unudulmaz rəng təbiətin insanlara bəxş etdiyi ən qiymətli nemətdir...»

## MİGAYIY1 RZAQULUZADƏ

(1905—1984)

## XAN ÇİNARIN BİR YARPAĞI

Xan çinarın başı göyün bir qatındadır, kögləri-ana torpağın qoynunda.

Gün doğanda, ilk işıltıları alnından öpər xan çinarın. Al şəfəqdə işım-işım işıldar xan çinarın yarpaqları.

Quşlar yuva qurar, bala böyüdər xan çinarın qucağında.

Dan yelləri əsəndə, ilk civiltilərə qarışar, səhər nəğməsi kimi səslənər xan çinarın yarpaqları.

Gün qızanda, qayadan fışqıran buz bulaq suları kimi şırıldar, ürəkləri sərinlədər yarpaqların xışıltısı.

Xan çinarın yarpaqlarına zərli naxışlar çəkər batan günəşin son işıqları.

Anaların laylasına qoşular, körpələrə şirin yuxu gətirər yarpaqların nəğməsi.

Nənələrin nağıllarına qarışar, nəvələrə zər qanadlı pərilərdən, büllur saraylardan, div basan igidlərdən danışar yarpaqların pıçıltısı.

Zəhmətdən, hünərdən, döyüşdən, zəfərdən dastanlar söylər xan çinarın hər yarpağı nəsillərdən-nəsillərə.

Neçə-neçə küləkli-tufanlı payızlar, neçə-neçə qarlı-qışlar görmüş, amma dimdik durmuş, əyilməmiş xan çinarın vüqarlı başı, əyilməz də.

Payızlarda yarpaqları saralıb tökülmüş, qışlarda azğın boranlara sinə gərmiş şax budaqları; yazlarda yenə yarpaqlanmış-budaqlanmış daha da ucalmış dik başı xan çinarın...

Payızdır yenə...

Yarpaqlar tökülür, qanadı qırıq quşlar kimi havada axsaya-axsaya, büdrəyə-büdrəyə.

İliklərə işləyir dəli küləyin buz nəfəsi.

Göydə-boz buludlar qalaq-qalaqdır, yerdə-solğun yarpaqlar.

Öz hökmü var hər fəslin.

Neyləsin xan çinar?

Çıl-çılpaqdır, çıl-çılpaq...

Ancaq aşağılarda, alt budaqlarda bozarmış, saralmış bir neçə yarpaq var».

Bir qız durmuş xan çinarın altında, beş-altı yaşlarında bir qızcığaz.

Xan çinarı daim şax budaqlı, budaqlarını şux yarpaqlı, yarpaqlarını işım-işım işıldayan görmüş qızcığaz öz yaşından bəri.

Bəs indi bu nədir belə?

Yaranışın bu qəribə əyləncələrindən, doğum-ölüm oyunlarından qızcığazın nə xəbəri...

Yerə səpilmiş yaralı yarpaqları incitməmək üçün, ehmalca addımlayır qızcığaz,-bir neçə yarpağı qalmış budağa sarı.

Saralıb bozarmış bir yarpağa baxır qayğılı-qayğılı.

Tozdan belə saralıb-bozarmış bilir onu.

Uzadır xırdaca tombul əllərini.

Tozunu silmək istəyir nəvazişlə.

Qopub əlində qalır yarpaq.

Əlləri əsir, ürəyi uçunur qızcığazın, dolur gözləri.

Ağlamaq istəyir qızcığaz, hönkürə-hönkürə, hıçqıra-hıçqıra...

Bağrına basır yarpağı.

Qızcığazın körpə ürəyinin hərarətindən, ana südü kimi saf, təmiz məhəbbətindən sanki canlanır, dilə gəlir solğun yarpaq:

— Gözlərin dolmasın, bala can, dərd olmasın bu sənə...

Mən bu qocaman xan çinarın bir yarpağıyam, bala can, yalnız bircə yarpağı.

Biz yarpaqlar gəldi-gedərik, xan çinar sağ olsun, var olsun, bala can. Mən də bu solğun yarpaqlar kimi ana torpağın qoynunda günəşin hərarətinə, yağışın rütubətinə qarışacağam, yenə xan çinara qovuşacağam, bala can.

Bir gün yenə bahar gələcək, güllü-çiçəgli bahar...

Səhər-səhər gün işığında xan çinarın işım-işım işıldayan yamyaşıl yarpaqları içində məni də görəcəksən, balacan, görəcəksən.

Dan yelləri əsəndə, xan çinarın xışıldayan səsində, göylərə ucalan torağayın səhər nəğməsində, ana torpağın ətirli nəfəsində mənim də səsimi eşidəcəksən, nəfəsimi duyacaqsan, bala can, eşidəcəksən, duyacaqsan.

Bahar gələcək, güllü-çiçəgli bahar.

Xan çinar var olsun, bala can, yerli-yataqlı, şaxlı-budaqlı xan çinar...

## GÖZƏLLİYİN KEŞİYİNDƏ

**Kəsin eyşi-nuşu, gələnlər sussun,**
**Yorğanı dumandan, döşəyi yosun,**
**Bir yorğun pəri var,-bir az uyusun,**
**Uyusun dağların maralı Göy göl.**

***Ə. Cavad***

### 1

### Vurğun baxışlarla

Ucal gözlərinə inanmadı... Yerindəcə donub qaldı.

Bu nə gözəllikdi, bu nə möcüzə idi.

O, Göy gölün şəkillərini çox-çox görmüşdü. Ən adlı-sanlı rəssamların çəkdikləri lövhələrdə də, rəngli kino ekranlarında da, hətta konfet, şokolad qutularının və rəngbərəng şüşələrin üstündə də... Bütün bu şəkillərin ən

gözəlləri, hətta zərli çərçivələrə salınmış ən bəzəkli-düzəkliləri də bu mənzərənin qarşısında, günəş qarşısında şam işığı kimi görünürdü.

Bu nə gözəllikdi... Belə gözəl mənzərəni ancaq ən böyük ustad-ana təbiət yarada bilərdi.

Səhər şəfəqlərinin zərif göyümtül-bənövşəyi işığında dağların sərin nəfəsi gölün üzərindəki incə tül pərdəni ağır-ağır qaldırdıqca, güzgü suların qoynunda başqa bir aləm canlanırdı. Ən gözəl nağıllarda, ən şirin röyalarda canlanan əfsanələr aləmindən daha gözəl bir aləm...

Tünd-yaşıl məxmər ətəklərini göldə yuyan gözəllər kimi halay vurmuş cərgə-cərgə şam ağacları pillə-pillə ucalır, vüqarlı Kəpəzin yalçın qayaları sıyrılmış xəncərlər kimi bu gözəlləri, bu gözəlliyi sanki yadlardan-yağılardan qoruyurdu.

Gölün büllur suları, pənbə buludları, qızıl şəfəqləri yaşıl təpələri, qarı-qızıl qayaları qoynuna alıb ağır-ağır ləngər vurduqca, sədəf kimi min rəngə çalırdı..

Yox... yox... İndi Ucalın gözləri qarşısındagı bu mənzərəni təsvir etməyə nə rənglər, nə sözlər çatışmaz... Bu ucsuz-bucaqsız səmanın dərinliyini, bu dağ havasının ətirli sərinliyini, bu əlvan çiçəklərin, rəngarəng kəpənəklərin sayrışmasını, bu xırdaca quşların civiltisini, gölün qoynunda göy qurşağına bənzər ala balıqları hansı boyalarla, hansı sözlərlə təsvir edə biləcəksən...

Axı Göy göl təkcə su, meşə, çəmən-çiçək, səma, sərin hava, göydə süzən quşlar, suda üzən ala balıqlar deyil... Bunlar hamısı birlikdə Göy göldür,-Göy göl bunların hamısı deməkdir...

Ucal ilk dəfə gördüyü Göy gölü belə vurğun baxışlarla seyr edə-edə düşünürdü. Axı o, rəssam olmaq istəyirdi. O, məktəbdə yeddinci sinifdə oxuya-oxuya, Bakı Pionerlər sarayının rəssamlıq dərnəyinə də gedirdi. İndi bura, Göy gölə də, əslində baxsan, elə bu məqsədlə, həm pioner düşərgəsində istirahət etmək, həm də etüdlər çəkməg məqsədi ilə gəlmişdi. O, dərnəkdə yalnız şəkillər çəkmək, yalnız müəllimin göstərişlərini yerinə yetirməklə kifayətlənməyib, rəssamlığa dair kitablar oxuyur, əlavə çoxlu etüd çəkirdi.

Ucal yaxşı bilirdi ki, təbiət gözəlliyi də insan gözəlliyi kimi, yalnız zahiri deyildir. İnsan gözəlliyi yalnız qara gözlərdən, alma yanaqlardan, qələm qaşlardan deyil, əsl daxili aləmdən, insanın ağlından, kamalından, zəkasından, biliyindən ibarət olduğu kimi, təbiət gözəlliyi də onun sərvətlərindən, nemətlərindən ayrı ola bilməz.

Ucal Bakıda Abşeronun sərt havasında boya-başa çatmış, gah duzlu-sərin, gah da qan donduran dəli xəzrinin, yayda yandırıb yaxan, qışda qılınc kimi kəsən gilavarın ləzzətini dadmışdı. Bilgəhin, Qalagahın yalçın qayalı sahilləri, Pirşağının sədəf-qumsal çimərlikləri də, hətta Bayılın, Qaradağın, Sanqaçalın neft qoxuyan boz qayalıqları da onun nəzərində ayrı cür gözəlliklər idi. Göy göl, məsələn, «Yeddi gözəl» baletindəki rəqqasələr kimi incə, zərif bir gözəlliyə malidirsə, Abşeron da əlində silah, yalçın qaya başında sərhəd keşiyində duran cəsur əsgəri, nəhəng dalğalara sinə gərib dəniz buruğundan «qara qızıl» çıxaran mərd neftçini xatırladır.

Ucal düşərgə rəisinin və pioner baş dəstə rəhbərinin icazəsi ilə, gah səhər erkən, gah axşam gün batana yaxın, hətta hərdən aylı gecələrdə də Göy gölün sahilini gəzib saatlarla seyr edir və etüdlər çəkirdi. Gölün ümumi mənzərəsi o qədər çox çəkilib yeməkxanalardan asılmışdı ki, onu bir daha çəkmək maraqlı deyildi. Düzdür, hər rəssam eyni mənzərəni tamamilə özünəməxsus bir tərzdə, yeni orijinal bir əsər kimi yaradır. Amma Ucal hələ rəssam deyil, adicə həvəskar idi, bir də ki, bu qədər gözəl, rəngarəng mənzərələr ola-ola, çəkilmiş eyni mənzərəni təkrar etməyə nə ehtiyac vardı?...

Buna görə də Ucal gölün həndəvərində ən ucqar yerləri qarış-qarış gəzir, həm doyunca ləzzət alır, həm də çəkmək üçün ən maraqlı və gözəl mənzərələr seçirdi.

Əlbəttə, düşərgə rəisi və dəstə rəhbəri Ucalı ucqarlara tək buraxmırdılar. Vaxtları olanda özləri onunla gedir, olmayanda komsomolçu gənclərdən bir-iki nəfəri ona qoşurdular. Əvvəllər bu, Ucala bir qədər toxunurdu, etiraz edib deyirdi:

— Niyə zəhmət çəkirsiniz? Mən uşaq deyiləm ki... həm də bura Afrika cəngəllikləri deyil ki, vəhşi fillərə, kəllərə, gərgədanlara, aslanlara, qaplanlara rast gələm...

Düşərgə rəisi isə onu başa salıb demişdi:

— Düzdür, burada yırtıcı heyvanlar yoxdur, amma düşərgədə dincələn hər bir məktəbli üçün biz məsuluq. Ya gərək sən də yalnız rejimlə müəyyən edilmiş vaxtlarda, hamı ilə birlikdə çıxasan,-onda nə mənzərə seçməyə, nə də etüd çəkməyə imkanın olar,-ya da gərək adam qoşaq ki, səndən xatircəm olaq.

Ucal çarəsiz razılaşmışdı. O, bir neçə dəfə düşərgə rəisi və pioner baş dəstə rəhbəri ilə getmişdi. Amma belə hallarda o sıxılır, darıxır, onlara zəhmət verdiyi üçün, vaxtlarını aldığı üçün xəcalət çəkir və etüdü tez-tələsik qurtarmağa çalışırdı.

## 2

## TƏBİƏT AŞİQLƏRİ

Ancaq bir az sonra işlər düzəldi. Belə ki, düşərgədə iki nəfər gənc təbiət aşiqi də ona yoldaş oldu. Bunlardan biri rəssamlıq məktəbində oxuyan Qanbay, biri də bədən tərbiyəsi institutunun tələbəsi Elman idi. Hər ikisi düşərgədə pioner dəstə rəhbəri idilər. Qanbay həm də yaxşı idmançı idi. Oxuduğu məktəbin çempionu sayılırdı. Məktəblilər arasında keçirilən yarışlarda sambo güləşi üzrə birincilik qazanmışdı. Özü də fəal drujinaçı idi. Qanun-qayda pozanlarla mübarizədə milis orqanlarına yaxşı kömək etdiyi üçün dəfələrlə rəsmi təşəkkürnamə və drujinaçı nişanı almışdı.

Elman buralı olduğundan, Göy gölün qıraq-bucağına çox yaxşı bələd idi. Ucal etüd çəkməyə əsasən səhər tezdən, hələ düşərgə işə başlamamış və ya axşamüstü, düşərgədə əsas məşğələlər qurtardıqdan sonra getdiyindən, bu vaxt işdən azad olan Qanbay ilə Elman da onunla birlikdə gedə bilirdilər. Bu barədə düşərgə rəisinin razılığını almışdılar. Beləliklə, bir üçlük yaranmışdı ki, bunlara düşərgə yoldaşları zarafatca «bədii briqada» adı qoymuşdular.

Bu «briqada» düşərgənin ictimai həyatında fəal iştirak edir, cürbəcür şənliklərin, səhnəciklərin, divar qəzetinin və sair mədəni tədbirlərin bədii tərtibatına kömək edirdi.

«Briqada»nın işi çox yaxşı gedirdi. Ucal vəziyyətdən tamamilə razı idi. Qanbay çox sakit, utancaq bir oğlan idi. Başını aşağı salıb sakitcə etüd çəkər, hərdən Ucal soruşanda,ona da az-çox kömək edərdi. Elman isə, çox zirək, özü də şeir həvəskarı idi. Aşıqsayağı məzəli qoşmalar yazırdı. Bir dəfə göldə gəzən qayıqlardan ucalan Azərbaycan, gürcü, Ugrayna mahnılarını eşidib, Elman öz yoldaşlarına dedi:

– Yaxşı, siz mənzərə etüdü çəkin, mən də şeir etüdü... Bir saatdan sonra görüşək, görək kimin etüdü yaxşıdır.

Belə deyib, Elman «ilham almaq üçün» bir ağaca dırmaşdı. Bir azdan qayıdıb gəldi. O, məşhur «Göy göl» şeirinə belə bir bənzətmə yazmışdı:

Göy gölün qoynunda cəlala bir bax:

Gürcü, ukraynalı, moldavan, qazax...

Bizimçin əzizdir burda hər qonaq,

Olursa qoy olsun haralı, Göy göl.

Elmanın bu şeiri Ucalın həmin mənzərəni təsvir edən şəkli ilə birlikdə düşərgənin divar qəzetində çıxmışdı.

3

**Gizlədilmiş qayıq**

Ancaq Elmanın bir az dəcəlliyi də vardı. Gah görürdün yoldaşlarını zarafatla meşədə azdırıb, xeyli nigaran qoyduqdan sonra yenə də tapırdı. Gah gizlincə bir-iki ala balıq tutmaq, göldə çimmək kimi əyləncələr təklif edirdi. Bir dəfə belə bir dəcəllik az qala çox pis nəticə verəcəkdi.

Onlar gölün ucqar bir yerində ağacların arasında gizlədilmiş kiçik bir qayıq tapmışdılar. Elman həmin saat qayığı açıb, göldə üzməyi və gölün içindən sahilin görnüşünü çəkməyi təklif etmişdi.

Həmişə Elmanın dəcəlliklərinin qabağını alan Ucal bu dəfə aldandı. Axı təklif, doğrudan da, çox maraqlı idi. Bu vaxta qədər çəkdikləri etüdlər hamısı gölün sahildən cürbəcür görünüşləri idi. İndi göldən sahili çəkmək, doğrudan da, heç pis olmazdı. Buna görə də Ucal razılaşdı. Ancaq həm hava yavaş-yavaş bulanırdı, həm də qayıq çox kiçik idi, özü də görünür, su buraxırdı, çünki içində xeyli su vardı və onu boşaltmaq üçün əyri-üyrü, paslı bir konserv qutusu da qoyulmuşdu. Buna görə Ucal bir qədər çəkindi. Bunu görən Elman onu cırnatmağa başladı.

— Hə, a bakılı balası, deyəsən qorxursan? Bəs deyirdin ki, dənizdə dağ boyda dalğaların qoynunda üzürmüşsən...

Bu sözlər doğrudan da, Ucalı tərpətdi, ona toxundu. Bir qədər inadla dedi:

— Yox, heç nədən qorxub eləmirəm. Amma qayıq kiçik, özü də deşik. Qanbay minə bilməz. Mən də etüd qutumu aparmıram. İslanıb xarab olar. Eləcə bir azca gəzək, görək necədir. Bunu deyib qayığa sarı yönəldi. Elman da elə buna bənd idi. Tez xırdaca kürəkləri əlinə aldı. Ucal da tənəkə qutunu götürüb, qayığın içindəki suyu boşaltmağa başladı.

Onlar sahildən yüz metrə qədər uzaqlaşmışdılar. Doğrudan da, buradan sahil çox gözəl görünürdü. Aşağıdan yuxarı amfiteatr kimi ucalan qayalar çox əzəmətli və vüqarlı idi.

Ucal hər an dəyişən bu rəngarəng mənzərəni seyrə dalıb, qayığın suyunu boşaltmağı unutmuşdu. Birdən ayaqlarının islandığını duydu. Əyilib suyu boşaltmağa başlayacaqdı ki, qəfildən dəhşətli bir gurultu qopdu. hava bir anda qaraldı və qəribə uğultu səsi hər yeri bürüdü. Şiddətli dolu yağmağa başladı. Ömründə dolu görməyən Ucal özünü itirmişdi. Əvvəl xırda, düyü boyda yağan dolu, birdən-birə iriləşib fındıq boyda, hətta arada qoz boyda səpələnməyə başladı. İri dolu dənələri adama dəyəndə yaman bərk ağrıdırdı. Qorunmağa da heç bir şey yox idi.

— Ay aman! Bu nədir?-deyə Ucal pencəyinin ətəyini çətir kimi başı üzərinə çəkdi. Əvvəlcə Ucala gülüb sataşmaq istəyən Elman, özüdə dolunun çox şiddətləndiyini görüb, çaş- baş oldu və qayığı cəld döndərmək istədikdə,

kürəyin biri əlindən sürüşüb gölə düşdü. O, kürəyi cəld tutmaq üçün kəskin bir hərəkətlə suya əyildikdə, Ucal da yanı üstə yıxıldı. Xırdaca qayıq müvazinətini itirib çevrildi, ikisi də suya düşdü.

Bu, Ucal üçün o qədər gözlənilməz oldu ki, ilk anda başlarına nə gəldiyini bilmədi. Dənizin nisbətən ılıq və ağır duzlu suyuna öyrənmiş Ucal buz kimi soyuq və hava kimi yumşaq göl suyuna düşəndə, sanki bumbuz bir boşluğa yuvarlandı və başıaşağı düz suyun dibinə getdi. Elə bil ki, Ucal Bilgəhin sıldırım qayalarından Xəzərə atılıb balıq kimi üzən, suyun dibində mayallaq aşan, yarışlarda bütün yaşıdlarını ötən Ucal deyildi. Sanki əl-qolu bağlanmışdı. O, yalnız burnunda soyuq göl suyunun qıcıqlandıran qoxusunu duyduqda, qeyri-iradi çağırmaq istəyərkən ağzına su dolduqda, sanki özünə gəlib, gözlərini açdı və özünü göyümtül bir ala-toranlıqda gördü. Yuxarıdan nə isə, nəhəng bir kölgə üzüb ona sarı gəlirdi. Ucal əl-qol atmağa çalışanda, həmin kölgə ona çatıb, sıx qara saçlarından yapışdı və yuxarı çəkməyə başladı. Ucal əl-ayağı ilə bərk təkan vurub, kəskin bir hərəkətlə başını silkələdi və kölgənin pəncəsindən qurtarıb sürətlə suyun üzünə çıxdı.

Ucal ağzını açaraq bir neçə dəfə hava alıb fınxırdıqdan sonra Elmanın həyəcandan iri-iri açılmış gözlərini, bozarmış sifətini gördü, nigaran titrək səsini eşitdi:

— Ə, haradasan?.. Qorxma, əlini mənə ver.-amma gen dur, məndən yapışma ha... yoxsa..

Birdən Elman, sözünü yarıda qoyub:

— Ay aman,-deyə bir əlini başına apardı və həmin saat suya batdı.

Onun başına toz boyda bir dolu dənəsi elə dəydi ki, taqqıltısını Ucal da eşitdi, hətta bu vəziyyətdə onu gülmək də tutdu. Amma elə bu anda iki dolu dənəsi dalbadal onun da başına dəydi, o da qeyri-ixtiyari əlini başına aparıb ufuldaya-ufuldaya suya baş vurdu.

Bir an sonra ikisi də birdən başlarını sudan çıxardılar. Elman Ucalın da çox yaxşı üzdüyünü görüb, daha arxayın oldu. İndi ikisi də doludan qorunmaq üçün daha çox sualtı üzə-üzə sahilə yönəldilər.

Əlbəttə, bu hadisəni hər üçü hamıdan gizlin saxlayırdı. Çünki düşərgə rəisi və pioner baş dəstə rəhbəri bu dəcəllikdən xəbər tutsaydılar, onları bir də buralara qoymazdılar. Amma sonralar özləri öz aralarında həmin qayıq əhvalatını xatırlayıb gülüşür, bir-birinə sataşırdılar.

## 4

## Qum üzərində izlər

Ancaq bu qayıq əhvalatı yalnız belə əyləncəli bir macəra kimi qalmadı. İşin dalısı daha maraqlı oldu və ciddi bir hal aldı..

Həmin gün dolu birdən başladıqı kimi, birdən də kəsmişdi. Ucal ilə Elman hələ sahilə çatmamış, dolu ara vermiş, buludlar seyrəkləşmiş, gün çıxmışdı...

Onlar üst-başlarını qurudub, səliqəyə saldıqda, birdən-birə Elman fikirləşdi ki, bu qayıq burada hardandır və kimindir?

Göy göl və ətrafı dövlət qoruğu olduğundan, burada hər cür ov, o cümlədən balıq tutmaq da qəti qadağan idi. Bəlkə bu qayıq qanunsuz balıq ovlayanların qayığıdır? Axı Göy gölün xırdaca qırmızı-qara xallarla naxışlanmış, sədəf kimi rəngdən-rəngə çalan dadlı-ləzzətli məşhur ala balığı möhtəkirlər arasında yaxşı pula gedirdi.

Elman bu şübhəsini Ucala, Qanbaya da dedi. Onlar da bu fikrə şəriqa olub, qərara aldılar ki, burada pusqu qurub güdsünlər.

Qayığı əvvəlki kimi həmin yerdə ağacların arasında gizlədib getdilər.

Ertəsi gün yoldaşlar etüd çəkməyə gələndə, hər şeydən əvvəl qayığı yoxladılar. Qayıq yerində yox idi. Elman təəssüflə əllərini bir-birinə vurub dedi:

– Vay səni, hərifləri duyuq salmışıq. Yəqin qayığın yerindən tərpəndiyini biliblər, odur ki, yerlərini dəyişiblər. Bəlkə bir müddət buralara heç yaxın düşməyəcəklər... hayıf, hayıf...

Ucal da onunla razılaşdı:

– Elədir ki, var... həriflər izlərini azdırmaq istəyirlər.

Bu vaxta qədər dinməz-söyləməz duran və laqeyd görünən Qanbay diqqətlə yerə baxmaqda, sanki nəsə axtarmaqda idi. Hətta o, əyilib çöməldi, çox xırda bir şey itiribmiş kimi, barmağı ilə yeri qarış-qarış yoxlaya-yoxlaya, elə bil nəyi isə ölçüb-biçirdi. Bir neçə addım sahilə sarı gedib qayıtdı.

Birdən Qanbay başını qaldırıb dedi:

— Düzdür elədir ki var, üç nəfərdirlər...

Ucal təəccüblə soruşdu:

— Nə düzdür? Necə üç nəfər?

Elman da dilləndi:

— Ə, sən yuxulu kimi öz-özünə nə danışırsan?

Qanbay yerdəki ləpirləri onlara göstərə-göstərə başa saldı:

— Bax, bu üç ləpir bizimkidir. Bunlar da onlarınkı.. Bax, birinin ayağında altı dilik-dilik çəkmə var. Sol dabanı əyri, sağ dabanında nalın bir yanı sınıb... Birinin ayağında uzunburun çustsayağı köhnə bir qaloş var. Altının xovu gedib, sol tayı buruna yaxın deşilib. Birinin də ayağında altı xam göndən çust var, çarıq kimi dabansız...

Bax, bu qaloşlu ilə çəkməli sahilə gedib, qayığa miniblər, çustlu isə, gölün qırağı ilə kolların arası ilə yəqin ki, qayıdan baş onları qarşılamağa gedib…

Mənə belə gəlir ki, heç duyuq zad düşməyiblər, həriflər öz işlərindədirlər. Bax, bu çustlunun izi ilə getsək, onların ya özlərinə rast gələcəyik ya da gecikmişiksə, boş qayığı tapacağıq...

Ucal ilə Elman bir yerdəki izlərə, bir də bir-birinin üzünə baxıb qeyri-ixtiyari:

— Düzdür, elədir ki, var...-deyə həmin izlə getmək istədilər. Qanbay onları saxladı.

— Bir dayanın görüm, ay qoçaqlar. Hara belə? Bəs bilmirsiniz ki, ehtiyat igidin yaraşığıdır? Bu cür adamlardan hər şey gözləmək olar. Birdən cinayət başında onlara rast gəldik, nə eləyəcəyik?

Düzü, bu barədə heç kəs fikirləşməmişdi.

Doğrudan da, belə adamlarla üz-üzə gəlsəydilər nə edəcəkdilər? Həriflər elə əllərini qaldırıb bu uşaqlara təslim olmayacaqdılar ki. Axı dəfələrlə elə olmuşdur ki, qanunsuz quş, ceyran və balıq ovlayanlar lap əli silahlı qoruqçulara da müqavimət göstərmiş, hətta qan da tökmüşdülər...

Bunu fikirləşəndə, yoldaşların canlarına qorxu düşdü. Bir an duruxub qaldılar. Birdən Ucal əlini etüd qutusuna çırpıb sevincək dedi:

— Tapdıq... Deyərik ki, buralara gəzməyə çıxmışıq. İkimiz rəssamıq, birimiz də şair... Sizin qonağınızıq. O balıqlardan bir-ikisini pul ilə bizə satın. Tüfəngimiz yox, tapançamız yox, əynimizdə milis, ya qoruqçu forması yox. Bizi yeməyəcəklər ki... Gəlin gedək.

## 5

## Şübhəli sözlər

Onlar izi tutub getdilər. Yarım kilometrə qədər kolların, ağacların arası ilə getdikdən sonra iz yenə gölün sahilinə sarı dönürdü.

Birdən onlar addım səsinə bənzər su şappıltısı eşitdilər. Üçü də birdən yerində donub qaldı.

Nəfəslərini də qısıb dinləməyə və səs gələn tərəfə diqqətlə baxmağa başladılar. Araya elə bir sakitlik çökdü ki, onlar tez-tez döyünən ürəklərinin tappıltısını eşitdilər. Düzü, üçünün də ürəyi uçunurdu. Kim bilir nə olacaqdı...

Su şappıltısı yenə eşidildi. Birdən Qanbay şəhadət barmağını dodaqlarına aparıb, yoldaşlarına susmağı, gözləri isə, sahilə tərəf baxmağı işarə etdi. Onlar da həmin yerə baxdıqda gördülər ki, ana-bala iki əlik gölün qumsal sahilində dizə qədər suya girib, göldən su içir, tez-tez başlarını qaldırıb, qulaqlarını şəkləyə-şəkləyə boylanırlar.

Sübhün bənövşəyi şəfəqlərində ərimiş gümüş kimi donuq-donuq işıldayan suların fonunda, yarpaqların, budaqların incə şəbəkəsi arasından bu bir cüt

əliyin görkəmi o qədər gözəl, o qədər cazibəli, xəyali bir mənzərə idi ki, həqiqətdən çox röyaya bənzəyirdi.

Ucal yavaşca fotoaparatını tuşlayıb düyməsini basdıqda, əliklər diksinib, bir anda yerlərindən qopdular və kolların arasında gözdən itdilər.

Elmanla Qanbay ikisi də birdən heyfslənib səsləndilər:

— E- e-eh, neylədin... Qoymadın bir doyunca baxıb ləzzət alaq.

Ucal özü də təəssüfləndi;

— Neyləyim... axı, belə bir fürsət bir də ələ düşməzdi... Qorxmayın, rəngli fotolentlə çəkmişəm. Gərək lap yaxşı çıxa. Hərənizə böyük ölçüdə bir surətini bağışlayacağam. Onda doyunca baxarsınız...

Birdən yaxından boğuq bir partlayış, sonra da təşvişli hənirtilər eşidildi. Bir anda ətrafı tünd kimyəvi iy verən qatı tüstü bürüdü.

Yoldaşlar səsə və tüstü gələn tərəfə cumdular. Hamıdan irəlidə gedən Elman birdən durub əllərini yuxarı qaldırdı və yanlarına açdı. Qanbayla Ucal da yerlərində donub qaldılar.

Elman əli ilə irəlini göstərdi. Onlar qalın kolun budaqlarını yavaşca aralayıb, diqqətlə baxmağa başladılar.

## 6

## Cinayət başında

Gölün qoltuq kimi sahilə uzanmış kiçik bir parçasında iki nəfər həmin dünənki xırdaca qayığın içində durub partlayışın zərbəsindən keyikmiş, arxası üstə çevrilmiş ala balıqları kürəklərlə vura-vura sahilə doğru kürəyir, bir nəfər də qurşağa qədər suya girib, balıqları ikiəlli qamarlayıb sahilə atırdı.

Həriflərin başları «işə» elə bərk qarışmışdı ki, hər cür ehtiyatı tamamilə yaddan çıxarmışdılar. Görünür, bu peşə ilə çoxdan məşğul idilər və bu ucqar yerlərdə bu vaxta qədər onlara heç kəs mane olmamışdı.

Cinayətkarları güdən bu üç gəncin içində zahirdə hamıdan sakit görünən, dinməz-söyləməz hərəkət edən və ehtiyatlı olmağı məsləhət görən Qanbay

bircə anda tamam dəyişdi. O öz drujinaçılıq təcrübəsindən yaxşı bilirdi ki, bu cür oğru-əyrilər zahirdə hay-küy salsalar da, özlərindən deyib lovğalansalar da, əslində çox qorxaq olurlar. Belələrinə qarşı qəti hərəkət etmək lazımdı.

Belə düşünüb, Qanbay tez yoldaşlarına sarı döndü, yavaşcadan pıçıldadı:

— Heç qorxmayın, ardımca...

O, birdən sudakı caninin üstünə şığıyıb qartal kimi çiyninə qondu, qollarını arxaya burub, onu sudan qırağa çəkdi, yerə yıxdı. Arxadan yetişən Ucal və Elmanın köməyi ilə hərifin öz kəmərini açıb, qollarını, ayaqlarını möhkəm bağladı.

Bu əməliyyat o qədər ani oldu ki, qayıqdakı həriflər çaşıb qaldılar və insan səsindən çox heyvan böyürtüsünə bənzər səslərlə çığırışmaqdan başqa heç bir şey edə bilmədilər.

Onlar xırdaca qayığın içində tıxınıb qalmışdılar. Özlərini itirdiklərindən, hərəsi bir yana kürək çəkir, qayıq sərxoş kimi yırğalana-yırğalana, yerindəcə hərlənirdi. Nəhayət, biri ayağa qalxmaq üçün kəskin bir hərəkət etdikdə, qayıq çevrildi, həriflər ikisi də pal-paltarlı şappıltı ilə suya düşdülər.

Burada göl xeyli dərin idi. Biri çapalaya-çapalaya birtəhər özünü suda saxlayıb, sahilə doğru üzürdüsə də, o biri balta kimi elə birdən-birə suya batdı. Bir az sonra yöndəmsiz bir halda əl-qol ata-ata, başını azacıq sudan çıxartdı, boğuq xırıltılı səslə böyürdü:

— Vay... ba-a-at... a..a ı...

Elman cəld soyunub suya atıldı, baş vurub suyun altında onun ətəyindən yapışdı və çəkə-çəkə çıxardı.

Bu vaxt o biri hərif də zor-güclə üzə-üzə, tövşüyə-tövşüyə sahilə yaxınlaşırdı. Qanbay ilə Ucal onu layiqolduğu kimi qarşılayıb, yerə yıxdılar, əl-qolunu bağladılar.

Elmanın sudan çıxardığı adamın isə əl-qolunu bağlamağa heç ehtiyac yox idi. O, yarıboğulmuş, huşunu itirmişdi. Elman onu üzüqoylu yıxıb, qarnının altından tutub qaldırır, ciyərlərinə dolmuş yosunlu suyu boşaltmağa çalışırdı. Hər şeydən əvvəl onu ölümdən xilas etmək lazım idi.

Bir neçə gündən sonra, düşərgənin divar qəzetində Ucalın çəkdiyi rəngli fotoşəkil-sübhün bənövşəyi şəfəqlərində ərimiş gümüş kimi donuq-donuq işıldayan suların fonunda yarpaqların, budaqların incə şəbəkəsi arasında göldən su içən ana-bala bir cüt əliyin şəkli ilə yanaşı, həmin üç caninin də tələf etdikləri bir qalaq alabalıqla birlikdə şəkilləri verilmişdi. Bunlar üzərində iri hərflərlə belə bir başlıq yazılmışdı:

**GÖZƏLLİYİN KEŞİYİNDƏ**

Həmin hadisə barəsində verilən müxtəsər məlumat Elmanın yazdığı belə bir şer-şüarla qurtarırdı:

Bu gözəllik
bizə
ulu babalardan
yadigardır.
Ürəkdən sev,
qədrini bil,
nadanlardan qoru, artır.

## ƏBÜLHƏSƏN ƏLƏKBƏRZADƏ

(1906—1986)

### SAHİLDƏ

Dəniz dalğalı idi, elə bil müharibə oduğundan onun dibinə də müdhiş bir qığılcım düşmüşdü, onu köpdürüb qaynatmağa, daşdırmağa başlamışdı. Sahildə adam çox idi. Onları bura ehtiyacları sürüyüb gətirmişdi.

Bir neçə gün əvvəl yağan gur yağışlardan çaylar daşıb sellər əmələ gəlmişdi: bu sellər özləri ilə bərabər gətirib dənizə bol-bol ağac və kötük tögmüşdü. Arvad-uşaq bu kötüklərdən yığmaq üçün sahilə çıxmışdı. Meşəyə getmək üçün nə ipləri, nə ayaqqabıları, nə də kəsərtiləri olmayan arvad-uşaq üçün bu hazır odun tapılmış kimi idi.

Dəniz qalxıb dalğalanırdı. Buna görə də oduna gələnlər kənarda oturub gözləyirdilər; dalğa bir odunu, ya bir ağacı sahilə vurduqca suya girir, hərə öz səmtində düşən odunu ya ağacı alıb sudan çıxarırdı.

Arada avtomatlı alman soldatları hərlənirdi. Onlar yan-yörəyə göz yetirib, soyunaraq suya girənlərin pal-paltarına, çəkmələrinə baxır, amma dəyərli bir şey görmürdülər.

Lap suyun kənarında on iki-on üç yaşında olan zərif, qəşəng qızcığazla bir qarı oturub, dalğaların böyük bir ağac parçasını sahilə çıxaracağını gözləyirdilər. Dalğalar isə insafsızlıq edirdi. Onlar odundan çox, bu köməksiz adamlarla əylənirmiş kimi, odunu başlarına alıb sahilə doğru elə atırdı ki, odunun qumlara düşəcəyini güman etmək olardı. Nənə ilə nəvə sıçrayıb ayağa qalxaraq oduna tərəf cumurdular. Lakin elə o dəqiqə ağac parçası şiddətlə dala, bu dalğadan o biri dalğanın, o birindən daha o birisinin qucağına atıla-atıla sahildən uzaqlaşırdı. Qız nənəsinə, nənə qıza peşmanlıqla baxır, qayıdıb yenə otururdular. Bu acı, kədərli oyun beləcə bir də, iki də, üç də təkrar olunurdu: alman soldatları hər dəfə onlara hırıltı ilə gülür, qaş-göz eləyib, qıza söz atırdılar.

Nəhayət, qızcığaz, avtomatçıların hırıltısından, iyrənc mimikasından zinhara gəldi, nənəsinə qısılıb ağlamsına-ağlamsına,-dur gedək,-dedi,-dəniz sakit olanda qayıarıq.

Nənə buna etiraz etdi:-Yandırmağa bir çöpümüz də yoxdur. hələ axşama çox qalıb. Gözləyək, bəlkə...-bunu deyib hələ də onunla oynayan dalğalara ümidlə gözlərini dikdi.

Bir kənarda oturub nənə ilə nəvəyə həm də dalğalara baxan qoca kişi, yavaş-yavaş ayağa qalxdı. Onun qəsdi bu nənə ilə nəvəyə bir yaxşılıq etmək idi. Üzmək bildiyi üçün bu asan başa gələcəkdi.

Qoca axsaya-axsaya sahilin kənarına gəldi. Hələ şinelini çıxarmamışdı ki, birdən başının üstündə bir soldatın səsini eşitdi:

— Bravo, qoca... çimmək istəyirsən, belə havada?

Bunu deyib soldat nənə ilə nəvəyə, sonra da sahildən uzaqlaşan ağac parçasına baxdı. Onun gözlərində xain bir parıltı oyandı, dönüb ciddiyyətlə qocaya:

— Yox,-dedi,-səni qoymaram, dayan.

Onun qəti sözlərinin və buz kimi soyuq nəzərlərinin qabağında qoca üşüdüyünü hiss etdi. Bir ona yox, qızcığaza da, deyəsən, bu cəlladın sözü çox ağır gəlmişdi; o da üşümüş kimi çəkilib nənəsinə sığındı.

İndi soldat qarıya üzünü tutmuşdu. O, düşmənə yox, dostuna belə xoş gəlməyəcək sırtıqlıqla gülərək soruşdu:

— Gəzməyəmi çıxmısınız?

Qarı acı-acı gülümsədi:

— Gəzmək haradan; çıxmışıq bəlkə bir az odundan-zaddan yığaq.

Soldat qıza pis-pis! baxdı, soruşdu:

— Bəs niyə yığmırsınız?

Qız instinktlə bir az da çəkilib nənəsinə sığındı; cavab vermədi.

Onun əvəzində nənə dilləndi:

— Bu dalğada necə yığsın?

Qarı, düşmənin baxışlarından, suallarından aqibətin yaxşı olmayacağını duyaraq qalxıb oradan tələsik uzaqlaşmaq istəyirdi ki, alman:

— Xalt, stoy!-deyə onu saxladı. Diqqətlə həm qızın üst-başına, həm də qarının geyiminə baxdı. Sonra yenə gülümsəyərək soruşdu:

— Bu sənin nəyindir?

— Qarı könülsüz cavab verdi:

— Nəvəmdir.

— Qızın yoxdurmu?

— Yox.

— Nəvən elə budurmu?

Bu sualların dalında gizlənə biləcək dəhşəti görürmüş kimi qarının gözləri böyüdü. Nəvəsinin başını tumarlayıb onu özündən yana itələdi:

— Sən get evə...

Alman səsini qaldırdı:

– Xalt, xalt! hara gedirsən?-O, əl atıb qızın biləyindən tutdu. Onun başını tumarlamaq istəyib dedi:

– Yaxşı qızdır, gözəl nəvədir.

Qızcığaz başını çəkib nənəsindən o yana keçdi. Alman bu dəfə sağ əli ilə qızı tumarlamaq istədi, həyasız-həyasız irişərək, yaxınlaşan yoldaşına:

– Gözəl nəvədir, yaxşı şey olacaq,-dedi. Sonra da dönüb dalğalar arasında oynayan odun parçasını qarıya göstərdi:

– Amma, hər halda, qız üzə-üzə gedib qoca nənəsinə odunu gətirməli olacaq.

Qızın dəhşətli gözləri böyüdü. Rəngi qaçdı, qorxa-qorxa bir dənizə, bir də nənəsinə baxdı. Qoca arvadın gözlərində ədavət buludları oynadı. Nifrət ildırımları şığıdı. Nəzərlərində qeyz və kin fırtınaları coşdu. Lakin köməsizlik, çarəsizlik bütün bunları bir neçə damcı göz yaşına döndərdi. Qarı bu göz yaşlarını düşmənindən gizlətməyə çalışaraq dedi:

– Qız... üzmək bilmir... axı

Alman onun sözünü kəsdi. İndi o qədər uzaqda olmayan odunu göstərib dedi:

– Qorxma, bir şey olmaz.

O biri soldat buna etiraz edib, yoldaşını kənara çəkmək istədi:

– Hans, Hans, əylənməyə şey tapmırsanmı?

Hans isə əl çəkmirdi.

Qarı əlacsız qalıb oduna baxdı, bir az düşünüb dedi:

– Qoyun mən gedib gətirim.

Suya girmək istədikdə hans buraxmadı, qıza dönüb gülümsəyərək, təklif etdi:

– Soyun görək.

Qızcığaz bu dəfə də nənəsinə sığındıqda, Hans qolundan tutub onu özünə sarı dartdı:

— Pu-pu-deyə pistoletini çıxardıb əvvəl bir onun gözünün qabağında samballadı, sonra xəbər aldı;

— Belə oyuncaq görmüsənmi?

Qız, sahilə xeyli yaxınlaşmış oduna baxaraq, nənəsinə nə isə deyərək, soyunmağa başladı.

Onun zərif ayaqları suya dəyər-dəyməz dalbadal bir neçə dalğa vurub odunu sahildən uzaqlaşdırdı. Qız bunu görüb suyun dayaz yerlərindən qayıtmaq istərkən, alman onu hədələdi.

Dalğalar da elə bunu gözləyirmiş kimi hərisliklə qızcığazı qucaqlarına aldılar. İndi qız gedirdi. O, dalğalarla mübarizə etmək istəyirdisə də almanın qorxusundan özünü dalğalara təslim edirdi.

Alman onun geri qayıtmaq ümidini birdəfəlik puça çıxartmaq üçün avtomatını boynundan aşırıb dənizə xeyli güllə boşaltdı və suyun qırağında durub qeyzindən dodağını çeynəyən nənəyə dişini ağartdı:

— Bir neçə dəqiqəyə odunu alıb gələr, qorxma.

Qarı susurdu. O dəhşətlə susur, deyəsən nə isə ağır bir şey düşünürdü.

Qoca kişi, yana-yana, köpüklərin arasından əvvəl delfin kimi görünən, indi isə yavaş-yavaş gözdən itməyə başlayan qızın dalınca baxırdı. Bir tərəfdən ürəyindən qanlar axır, o biri tərəfdən isə bu cəlladın əlindən qızın həmişəlik qurtardığına sevinirdi.

Qarının ağır sükutu almana xoş gəlmirdi, onu danışdırmaq istəyirdi.

— Dedin, nəvən elə budur da?...

Qarı isə susurdu.

— Heç kəsin yoxdur?... Gözünün ağı, qarası bircə bu qızdır? Bəs niyə ağlamırsan? Yoxsa elə bilirsən o qayıdacaq, ona görə paltarını bərk-bərk saxlayırsan?

Nənə isə susurdu.

Düşmən sükutunun düşmən üçün nə qədər ağır və müdhiş ola biləcəyini ancaq indi dərk edirmiş kimi, hans pozulur, indi qətiyyən gülməyirdi. O, bu qarının qabağında aciz qaldığını hiss edirdi. Onun gözlərinin də ifadəsi indi

dəyişirdi. Deyəsən, Hans düşmən torpağında, düşmən içində olduğunu, ancaq indi var gücü ilə dərk edirdi. Buna görə də ehtiyatla yan-yörəsinə baxaraq arvaddan bir neçə addım uzaqlaşdı. Qarının şərindən qurtarmaq üçün tələsirmiş kimi dedi:

— Yoxsa dalınca gedib nəvəni gətirmək istəyirsən? Elə bil bu bir neçə söz qarını ağır sükut və dalğınlıq yuxusundan ayıltdı. O, suyun kənarına gəldi. Hans bayaqkı soldatla bərabər arvad-uşaq arasında dolanıb qarət etdiklərini bir-birinə göstərərək gülüşən bir neçə avtomatçını da səslədi.

— Rudolf, yaxın gəlin, görün bu qarı nə yaxşı üzəcək.

Bayaqkı soldat yenə də qınadı:-Ay sadist, burax o yazıqları bu yana gəl...

Lakin Hansın kefi gəlmişdi:

— Soyun görək, qarı. Qarının soyunmadığından xoşlanmayıb Hans onun üstünə əl atdı. Burada şinelli qoca axsaya-axsaya cumub onların arasına girdi, qarını bir təhər Hansdan aralamaq istədi. Qarı özü də elə müqavimət göstərdi. Bir müddət onlar çəkişdilər. Yoldaşları Hansa gülüb, it qısqıran sayağı bir yandan onu qarının üstünə qısqırdır, bir yandan da qınayıb,-əl çək yazıqdan,-deyirdilər.

Birdən nə oldusa Hansın boğuq qışqırığı eşidildi. Qarı tez oradan uzaqlaşdı. İri mətbəx bıçağını qoca, düşmənin boğazından çəkib çıxarmağa vaxt sərf etmədi. Tələsik şinelini çıxarıb özünü dənizə atdı. Sürətlə qızın dalınca üzərək sahildən uzaqlaşmağa başladı.

Ancaq onu dərhal avtomat atəşinə tutdular. Güllələr vıyıltı ilə suya tökülürdü. Qız artıq görünmürdü. Onu xilas etmək üçün dənizə atılan qoca sürəkli atəşin hədəfi olmuşdu. Dalğalar bu intiqamçı, namuslu qocanın cəsədini başlarına alıb uzaqlara, bəlkə də bizim sahilimizdə dəfn etməyə aparırdı. Gün batmağa meyl edirdi. Onun qızılı şəfəqləri sularda enli qan zolağı salmış kimi görünürdü.

## MİR CƏLAL PAŞAYEV

## (1908-1981)

## SÖYÜD KÖLGƏSİ

Dünyada hərənin bir həvəsi, bir marağı olar. Bostançı Salman əminin də adəti belə idi: ürəyi yandığı adama əlindən gələni əsirgəməzdi.

Bir gün bostanın qırağında yol ağzında dayanıb nəyi isə düşünürdü. Günorta yerinə qalxmış günəş düz onun açıq başına döyür, tunc kimi qırmızı alnı işım-işım işıldayırdı. O, nədənsə birdən-birə əli ilə gözünü günəşdən qorudu, xəyalına nə gəldisə dönüb yerə baxdı, bir şey itirmiş kimi, yolun o yan bu yanına gedib-gəldi; çarıqlı ayağı ilə bərk torpağı eşələdi də.

Onun səhərisi, hələ gün qalxmamış Salman əmi həmin yerdə bir çuxur qazıdı. Çox çəkmədi gətirdiyi iri bir söyüd qələmini basdırdı, kənarlarına da bir az tikan düzdü ki, mal-qara toxunmasın.

Salman əmi günorta ləklərin arasında işləyəndə, kürəyinə dəyən isti yay günəşindən təngişəndə, dəyəsinə qayıdıb dincəlirdi. Yolun ortasında belə bir kölgəliyə ehtiyac hiss edəndə, deyəsən, sakit bir səs içəridən ona tapşırırdı: «Burada bir ağac ək.»

Daşlıca azı kənddən beş verst kənarda, bağ-bağat yollarının ayrıcında bir yer idi. Ətraf əkin yeri idi. Ancaq nədənsə, bir kölgəlik yox idi. Salman əminin bostan yerinə yaxın Saz bulağı deyilən balaca bir bulaq da var idi. Yolçular yay günü bu bulaqdan içməmiş, əl-üzünü yumamış ötməzdilər. Di gəl ki, günün istisindən yayınmağa, bir hovur oturub nəfəs dərməyə daş kölgəsi də yox idi.

Salman əmi buna görə yol ağzında bir söyüd ağacı əkdi. Beş il ondan yaxşıca muğayat olub böyütdü. Cavan və tənha ağac qol-budaq atdığı kimi, çoxdan kök buraxıb, rişəsini suya yetirmişdi.. Bulaq suyundan içir, səhər günəşindən işıq, istilik alır, ildən-ilə canlanır, böyüyür, yaşıl budaqlarını

yasəmən salxımları kimi yolçuların başına sallayır, kölgəsi ilə çölün havasını sərinlədir, gəlib-gedəni salamlayırdı. Lap kənardan ötən, bulaqdan xəbərsiz yolçular da söyüd kölgəsində sərinlənməyə gedirdilər. Salman kişi bunu görəndə ürəyi böyüyür, könlü açılır, xələf övlad böyütmüş atalar kimi xoşhal olurdu.

— Gərək,-deyirdi,-yoxlayam, görəm bu ağacın qədrini bilən varmı, gəlib-gedən nə deyir?

Bu məqsədlə kölgəlikdə adam olan zaman, saymazyana gəlib dayanmaq, deyilənləri eşitmək istəyirdi.

Bu, dəfə iki atlı gəlib, söyüd altında düşdü. Salman əmi əlində bel, mərzi selləmək bəhanəsilə yol ağzına yanaşıb, atlılara qulaq verdi. Atlılar, geyimlərindən müəllimə, ya həkimə oxşayırdılar. Nə isə, oxumuş adam idilər. Atları kola bağladılar. Gülüşə-gülüşə bulağa enib, su içdilər. Sonra ağır-ağır qalxıb, kölgəlikdə, göy ot üstündə dirsəkləndilər.

Salman əmi sevindi, çünki onların çox arxayın və söhbət istəyən adam olduqları bilinirdi. Atlıların biri cibindən qutu çıxarıb, papiros bükdü; o birisi, nisbətən alçaqboy oğlan, çoxdan başlanmış, özü də mübahisəli bir söhbəti təzələdi:

— Səhvin var, sən adam tanıya bilmirsən.

Papiros çəkən də soyuqqanlı cavab verdi:

— Mən bir baxışda bilirəm bu nə yuvanın quşudur. Şirin dilə aldanmıram.

Atlılar kimin barəsindəsə deyişirdilər. O dedi, bu dandı; bu dedi, o rədd elədi. Onların söhbətindən bir mətləb çıxmadığını, görən bostançı məyus və peşman öz dəyəsinə qayıtdı.

İkinci gün Salman əmi kölgəlikdə uzanan bir şəhərlini dinləyirdi. Şəhərli, görünür ki, piyadalıq görmədiyindən, yol yorğunu olduğundan səssiz, hərəkətsiz uzanmışdı. Bir xeyli dayanandan sonra, Salman əmi çıxıb getmək istəyirdi ki, şəhərli dilləndi:

— Necə sözdü, ay dayı?

Salman kişi bu üzə döndü:

— Nə söz, a bacıoğlu?

Şəhərli qalxıb oturdu:

— Bu ağacı əkəni deyirəm ey; deyirəm tünbətün oğlu zəhmət çəkib əkirsən, meyvə ağacı əksənə; bir tut ağacı, ya armud ağacı əksəydin əlin topal olmazdı ki...

Şəhərlinin sözü Salman əmini bərk tutdu. Kişi heç bir cavab verməyib, başını aşağı saldı, qayıdıb dəyəsinə gəldi.

Üçüncü gün kölgəlikdə bir gəl arabası əyləndi. Arabaçı əlində bıçaq, söyüd ağacına dırmandı. Salman əmi yüyürüb, yaxın gəldi. Arabaçının samı qayırmaq üçün ağac axtardığını bilib, sakit oldu.

— Ay eloğlu,-dedi,-bəlkə bu ağac burada əkilməyəydi, samını haradan alacaqdın?

Salman kişi bu işarə ilə yaxşı söz eşitmək istəyirdi. Arabaçı başıaşağı budağın qabığını yontalaya-yontalaya etinasız dedi:

— Zalım oğlu, bunun yerində qarağacdan, çinardan bir möhkəm şey əkə bilməzdimi? Söyüdün samıya nə davamı olacaq. Əlacsızlıqdan yonuram. Bilirəm ki, hədərdi...

Salman əmi ona da cavab vermədi.

Dördüncü gün havanın lap bürkü vaxtında ki, nəfəs almaq olmurdu, bir dəstə biçinçi Saz bulağına töküldü. Onlar yaxın tarlaların birində işləyirdilər. Söyüd kölgəsində nahar eləməyə gəlmişdilər. Yetirən kimi xurcunu açıb, süfrə sərdilər, torbadan süzmə çıxartdılar, bulaqdan su götürüb ayran elədilər-çörək, soğan, xiyar doğradılar. Ağac qaşıqları əllərinə alıb, iştaha ilə yedilər.

Salman əmi istədi onları bostan tərəvəzinə qonaq eləsin. Sonra fikirləşdi ki, kənarda dayanıb, dinləmək lazımdır: görək bunlar xeyir işi görürlər, ya yox?

Biçinçilər süfrəni yığdılar, əllərini başları altına çataqlayıb, söyüd kölgəsində uzandılar.

— Rəhmət içində olasan, ay ağac əkən kişi.

Salman əmi diqqət yetirəndə, lap kənarda uzanan qara saçlı oğlanın danışığını seçdi. Bir başqası onun sözünə qüvvət verdi:

— Bu düzün ortasında söyüd kölgəsi dünyalara dəyər. Var olsun bunu əkən əllər.

Salman əmi özünü saxlaya bilmədi. Mərzin dibindən qalxıb, kölgəliyə tərəf yeridi və dilləndi:

— Var olsun qədirbilən igidlər.

Biçinçilər ağac əkən kişini tanıdılar. Qarasaçlı oğlan dikəlib oturdu:

— Əmi, bu saat sənə rəhmət oxudum, bağışla məni.

— Nə olar, oğul, rəhmət diriyə də lazımdır. Siz ki, mənim əməyimi bilir, haqq-sayımı deyirsiniz, bundan yaxşı rəhmət olmaz.

Salman əmi bir əlini toqqasına keçirtdi, bir əlinin şəhadət barmağı ilə söyüd kölgəsini göstərib ürək sözünü dedi:

— Burada çoxları oturub, çoxları gəlib-gedib, çoxları da ağac əkənin ata-babasını söyüb gedib. Bu qulağımla eşitmişəm, dinləmişəm, çünki onlar öz mənfəətlərini güdürdülər. Dünyada, bacıoğlu, hər sifətdə insan var. Mən bilirdim ki, bu kölgənin qədrini bilənlər, mənə «Sağ ol!»-deyənlər olacaq. Dünya xali deyil. İndi budur, sizin rahatlandığınızı görəndə, söhbətinizi eşidəndə bütün ağrılar canımdan çıxır. Özümü anadangəlmə bilirəm, dünyada borcumu ödəmiş oluram...

Biçinçilərdən biri Salman, əminin sözünü kəsdi:

— Zər qədrini zərgər bilər, əmi, biz özümüz də zəhmət adamıyıq.

— Oğul, mənim zənnimcə, dünyada xeyir iş görməyən adam bir heç məqamındadır. Niyə ki, it də başını dolandırar. Biz insanların gərək dünyada izi qalmasın, yaxşı işi, əl yerisi qalsın.

Salman əmi üzünü aşağıya çevirdi, qucaqlamaq istər kimi, qollarını açdı:

— Budur ey, üzüaşağı görürsünüz, hamısı bağdı, bostandı. Atalar, babalar əkiblər, tər töküb becəriblər, xeyrini biz görürük. Biz də gərək əkək, yetirək

ki, xeyrini balalar görsün. Yoxsa hamı ancaq yemək qeydinə qalsa, onca ildə dünya xaraba qalar.

Biçinçilər bir ağızdan Salman əminin sözünü təsdnq elədilər. Onlar qalxıb gedəndə söyüd ağacı cavan, yaşıl təmiz yarpaqlı budaqlarını dalğa kimi tərpədir, ipək kimi zərif, xışıltılı səsi ilə Salman əminin fikrincə sanki: «Bəli, bəli»-deyirdi.

## GÜLBƏSLƏYƏN QIZ

Bağ-bağat içində, güllük əhatəsində tikilmiş ağ daş binanın ikinci mərtəbəsində geniş bir eyvanda istirahətdə idim. Həkimlər əsəb sakitliyi üçün buranı münasib bilib mənə məsləhət görmüşdülər.

Hər səhər tezdən eşitdiyim ilk və ən munis musiqi suyun şırıltısı idi. Bu səs gah leysanı andırır, gah da seyrəlib xışıltıya dönür, sonra da kəsilirdi. Təbiətin sədasını eşitmək-suyun, küləyin, yağışın səsini dinləmək nədənsə həmişə mənə xoş idi. Çünki bu səslər məni boğulub təngə gəldiyim düşüncələrdən, intizar və çətinliklərdən xilas edir, anamız təbiətin qoynuna çıxarır.

Dediyim kimi səhər tezdən eşitdiyim ilk musiqi suyun şırıltısı idi. Dərhal yatağımdan qalxıb bayıra çıxır, rəngdən-rəngə, ahəngdən-ahəngə düşən, gah enən, gah qalxan bir təbii simfoniyanı dinləmək, haradan gəldiyinə tamaşa stmək istəyirdim

Görürdüm ki, ayağı yalın, qol dirsəyə qədər çirməkli, başı ağ ləçəkli bir qız əlində rezin şlanq gül kərdilərini sulayır. Gah da susəpəni götürüb güllərin yarpaqlarını ehtiyatla yuyur, güllər isə sərin bahar suyunu içdikcə sanki quş kimi göyə baxır, səmaya qalxmaq istəyir. Mən ürəyimdə deyirdim:

– Ay təbiətin gözəl məxluqu, niyə səmaya baxırsınız?- Sizə su və həyat verən göydə deyil, yerdə, yanınızdadır. Yanınızdakı gözəl qıza baxın. Səf-səf düzülün, budaqlarınızı onun qarşısında hörmətlə əyin-ətrinizi onun gənc və sağlam vücuduna səxavətlə səpin. Onun kimi sizin yolunuzda

zəhmət çəkən, şirin səhər yuxusuna haram qatan, ana kimi hər gün sizi yemləyən, qayğınıza qalan kimdir, kim ola bilər?..

Gün əyiləndən, kölgələr sallanandan sonra, yük maşını qapıda dayanır, əli səbətli adamlar ləklərə daraşır, gülləri dərib toya, təvəllüdə, məclislərə, pişvazlar, təbriklər yerinə aparırlar. Bunlardan heç kəs gülbəsləyən qızı soruşmur, yoxlamır, bəlkə də tanımırdılar. Qız da bunlara məna vermir, öz vəzifəsini vaxtında, ləyaqətlə ifa edir.

Bir gün özümü saxlaya bilmədim. Eyvandan düşüb gül dərənlərin yanına gəldim, salam verib xahişimi bildirdim:

– Qardaşoğlu, olarmı, mən də bu gözəl güllərdən dərib dəstə bağlayım?

Gül dərənlər hamısı bir ağızdan hörmət və ehtiramla:

– Bu nə sözdür, buyurun, hörmətli filankəs, bunlar sizin üçün, sizin səhhətiniz, əsəblərinizin sakitliyi üçün deyilmi? Nə qədər istəyirsiniz, hansından deyirsiniz, dəstə bağlayaq, siz buyurun...

Mən, əlbəttə ki, onlara öz minnətdarlığımı bildirdim:

– Mən indi buyurmaq istəmirəm. Sabah bu güllərdən özüm dərib, özüm də əlvan dəstə bağlamaq istəyirəm.

– Çox əcəb, çox gözəl, haçan istəyirsiniz, necə istəyirsiniz buyurun.

– Mən səhər tezdən, üfüqdən günəşin ilk şüaları işaranda gələcəyəm...

– Buyurun gəlin, gülümüz çoxdur. Səkkiz yüz qırxdan çox gül növümüz var, indi hamısının açan vaxtıdır, hansı sizin zövqünüzü oxşayır, buyurun. İşçilər də sizə kömək edərlər.

– Yox, əziz olasınız. Özümün gül dərməyə həvəsim var, özü də ləklər arasında...

– Buyurun, buyurun. Biz çox sevinirik ki, bağımızın məhsulu sizin kimi hörmətli yoldaşların diqqətinə layiq olub.

– Minnətdaram.

Sabahısı günü suyun səsini eyvandan yox, həyətdə lap yaxından eşidirdim. Gülbəsləyən qız gülləri sulayanda mən də ləkləri gəzir, gül dərirdim. Əlbəttə, hər gülü yox, xoşuma gələn gülləri dərirdim. Dərirdim,

özü də çalışırdım elə budaqlar, kollardan dərim ki, ləklərin görkəmi pozulmasın. Dərdiyim güllərdən səliqə ilə, yaraşıqlı bir dəstə də. bağlayır, qıyax yarpağı ilə sarımağa çalışırdım. Düzəltdiyim iri dəstədə məxməri gül, nərgiz, mixəkgülü, dağçiçəyi, xətmi, söyüd çiçəyi, nargülü, qızılgüldən tutmuş süsən-zanbağa, nilufərə, Çin gülünə qədər hamısından var idi. Özü də çalışırdım bu güllərin rəngi, xalçada vurulan dairəvi naxışlara oxşasın, hər halda qarma-qarışıq yox, yaraşıqlı olsun...

Gülbəsləyən qız öz işində idi. Bağ boyu uzanan, xalça döşənmiş toy məclisi kimi əlvan görünən ləkləri tez sulayıb əldən çıxarmaq iş paltarını soyunub dərsə getmək fikrində idi.

Hər halda bu qız məni görməmiş, seçməmiş deyildi. Doğrudur, hər gün, ya günaşırı bu bağdan səbət-səbət gül dərib maşına yükləyənlər olur. Gülbəsləyən qız onların kim olduğunu, gülləri hara apardıqları ilə maraqlanmır. O bilir ki, hər kəsin öz vəzifəsi, işi var.

Qızın bağa girməyimi sezmiş olduğunu ondan bildim ki, o, məni görən kimi şlanqı yerə qoyub üst-başını çırpdı, iş paltarının ətəyini bir qədər açıb uzatdı, qamətini düz tutub başı ilə salam verdi. Sonra yenə şlanqı əlinə aldı, işinə davam etdi. Qız ləklərdən gül dərdiyimi, dəstə bağladığımı da görürdü. Güman edirdi ki, mən də hər gün buradan, səbət-səbət gül dərib təntənə yerlərinə aparanlardan biriyəm. Yəqin ki, bu düzəltdiyim dəstəni xarici qonaqlara, vəzifəli yoldaşlardan kiminsə hüzuruna, ya da gözəl xanımların hansına isə təqdim etməyə hazırlaşıram.

Mən onun fikrindən keçənləri etəri və ürkək baxışlarından oxuyurdum və öz aləmimdə də deyirdim: «Yanılırsan, qızım, tamam yanılırsan. Mən sən deyənlərdən deyiləm».

Gül dəstəsini zanbaq yarpaqları ilə dairələyəndən, bağlayıb qurtarandan, diqqətlə bir də nəzərdən keçirəndən sonra mən də gülbəsləyən qız kimi üstümü çırpdım, yavaş, mütərəddid addımlarla qıza yaxınlaşdım.

Qız əvvəl fikir vermədi. O elə bildi ki, buradakı ləklərdən də gül dərmək istəyirəm. Balıqqulağı səpilmiş mərzlərlə ləklərə yox, düz ona yaxınlaşdığımı görəndə dayanıb mənə tərəf döndü:

— Deyəsən dəstə bağlayırsınız?

— Bəli, dəstə bağlayıram, görüm bəyəniləcək, ya yox.

— Güllərə söz yoxdur, bizim güllük mahalda məşhurdur.

— Məşhurdur, mən istəyirəm ki, güllər əsil sahibinə təqdim olunsun.

Bunu deməyimlə dəstəni qıza təqdim etməyim bir oldu:

— Bu dəstəni sizin üçün hazırlamışam, qız.

Qız bunu görüb çaşbaş qaldı, ikrah elədiyi bir şeydən uzaqlaşmaq istəyənlər kimi geri-geri çəkildi:

— Nə deyirsiniz, özünüzə lazım olar. Mən buna layiq deyiləm.

— Qızım, bu güllərin əsil sizə, sizin də bu güllərə ləyaqətiniz var. Torpağın dərin qatlarından bu əlvan çiçəklərin pərvəriş tapıb çıxması ancaq sizin o gənc və qüdrətli əlləriniz sayəsindədir.

Mən neçə gündür buradayam, sizin güllərə çəkdiyiniz zəhmətin və qayğının şahidiyəm. Mən görürəm ki, siz böyük səylə güllərə qulluq eləyirsiniz.

Vətənimizin hər guşəsini belə laləzara çevirmək üçün əməyini, istirahətini, gəncliyini əsirgəməyən qızlara bir ata, bir vətəndaş minnətdarlığımı bildirmək istəyirəm. Bu səmimi ifadəyə sizin öz əllərinizlə bəslədiyiniz əlvan və ətirli güllərdən əziz və layiqli hədiyyə tapmamışam. Qızım, al bu dəstəni mənim əlimdən, al.

Mən bu sözləri bir qədər həyəcanlı və həm də böyüklərin övladına etdiyi bir əmr ahəngi ilə ucadan qətiyyətlə dedim. Qız pul kimi qızardı, əlacı kəsildi. Gül dəstəsini alıb əlində əmanət kimi saxladı. Həyadan, ismətdən göz qapaqları endi, sanki yalın ayaqlarına baxa-baxa bunu deyə bildi:

— Çox sağ olun!

## MEHDİ HÜSEYN

(1909—1965)

## MARAL ƏFSANƏSİ

Meşədə boğuq bir güllə səsi eşidildi. Sahil boyunda ağacların xırdaca budaqları titrəşirdi. Saralıb solmuş yarpaqlar bir müddət havada qanad çalaraq, yerə səpələnirdi. Bu anda elə bil ağaclar arasında saysız-hesabsız kəpənəklər uçuşurdu. Sonra hər tərəfə qərib, əsrarəngsiz bir sükut çökdü.

Meşəni gümüş xəncər kimi iki yerə bölmüş Kür çayı sakit-sakit axırdı. Arabir xəfif külək əsir, xəzan yarpaqlarını xışıldadırdı. Ətrafın dərin sükutunu pozan bu xışıltı birdən qüvvətləndi və çox keçmədi ki, güllə səsi gələn tərəfdən bir maral çıxıb özünü sahilə verdi. Hündür palıd ağaclarının arxasında yavaş-yavaş gizlənən axşam günəşi də sarımtıl bir rəngə çalırdı. Maral sahilə endiyi zaman artıq Kür suları da sapsarı olmuşdu. Maral yüyürdükcə, tez-tez büdrəyir, şax-budaqlı buynuzları ağaclara toxunurdu. Yenə də xəzəllər uçuşaraq, yerə qonurdu. Maralın keçib gəldiyi yerdə sarı yarpaqlar üzərinə qan damlaları çilənirdi. Bu qan, maralın döşündən axırdı. Birdən maral buynuzlarını bir az da yüksəyə qaldıraraq, ürkək nəzərlərlə ətrafına boylandı. Onun yaşla dolmuş iri qumral gözlərində bütün ümidləri puça çıxmış yazıq bir insan baxışının qəmgin ifadəsi vardı. Onun göz yaşları da günün ziyasını əks edib sarıya çaldı.

Təbiət nə üçün saralmışdı? Bəlkə bu, həyatın əbədi qanunu idi. Maralın göz yaşları daha da çox parıldadı. O, səssiz-səmirsiz dayanaraq, bir neçə an ətrafı dinlədi. Xəfifcə xışıldayan xəzəllərdən başqa heç nədən səs çıxmırdı.

Maral çoxdan bələd olduğu cığırla suya endi. Od içində yanan dodaqlarını Kürə söykədi. Bir xeyli müddət içdi. Yalnız bir kərə dərindən nəfəsini dərib yenə suya döşəndi. Onun sinəsindən axan iri qan damlaları sakit dalğalara qarışır, bir göz qırpımında su rənginə dönüb görünməz olurdu.

Birdən maralın sağ tərəfindən bulanıq sular arasından bir tısbağa başını çıxarıb onu salamladı.

– Xoş gördük, maral qardaş,-dedi,-səndən nə əcəb, bu gün belə tez gəldin? Hələ ki, şər qarışmayıb.

Yarasının sızıltısını indi daha çox hiss edən maral, həmişəki qürurunu pozmadı. Çoxdan tanıdığı bu tısbağaya gönülsüz bir cavab verdi.

– Heç... Bu gün hava çox isti oldu...

Tısbağa sudan büsbütün çıxdı. Sahilin payız otlarına sürtündü.

– Maral qardaş,-dedi,-mən bir az bundan əvvəl yenə sudan çıxıb günəşdə qızınırdım. Güllə səsi eşidib suya atıldım... Ovçu uzaqdadırmı?

Maral dinmədi. Bu sözlər bir azca könlünə toxundu. İnsanları sevməsə də, onların tısbağaya güllə atmadığını yaxşı bilirdi.

Birdən tısbağanın gözləri maralın döşünə zilləndi. O. təəccüblə baxdı və qorxudan titrəyərək, bir neçə kərə udqundu:

– Bu nədir, maral qardaş? Deyəsən yaralanmısan...

Maral yenə də qürurla cavab verdi:

– Bəli,-dedi,-çox ağır yaralanmışam. Ovçu məni dörd gündən bəri izləyirdi. O, məni çox axtardı. Dünən axşamüstü məni itirib Kürün o tayına, kəndə qayıtdı. Bu gün mən arxayın olub talaya çıxdım. Səhərdən rahatca otlayırdım ki, birdən güllə açıldı. Mən başımı qaldırıb baxdım, atan həmin ovçu idi. Düz sinəmə nişan almışdı.

Tısbağa marala daha yaxın gəldi. Diqqətlə onun yarasına baxdı.

– Eh,-dedi,-bilmirəm bu ovçu gözü tökülmüş sən maralnan mən maraldan nə istəyir?

Bu sözü eşidərkən, məğrur maralın dizləri büküldü. İndiyədək damcı-damcı axan qanı birdən fəvvarə vurmağa başladı. Maral yerə yıxıldı.

Tısbağa ona daha da təəccüblə baxdı:

– Nə oldu, maral qardaş?-dedi.

Maral dərindən köksünü ötürdü və artıq qürub etmiş payız günəşinin son şüalarına həsrətli bir nəzərlə baxaraq dedi:

– Zalım ovçunun gülləsindən mən ölməzdim. Amma sənin sözün məni öldürdü.

## ÇİNAR

...Siz buna nə üçün təəccüb edirsiniz? Mən küçəmizi də, evimizi də, çinarımızı da sevirdim. Bu sizə çox qəribə görünür, çünki indiyəcən bizim şəhərimizdə olmamısınız, küçəmizi görməmisiniz eyvanımızda, çinar kölgəsində oturub çay içməmisiniz. Əgər hələ çinarlarımız kəsilməmişdən bizə yolunuz düşsəydi, inanıram ki, mənə haqq verərdiniz. Axı Füzuli küçəsi şəhərimizin gözü idi. Evdən çıxıb bir yana gedəndə, həmişə addımlarımı yavaşıdırdım, illah da isti günlərdə başqa küçəyə burulmaq istəmirdim. Öz-özümə deyirdim ki, nə olaydı, küçə gec qurtaraydı. Səhər- səhər yuxudan qalxıb eyvana çıxanda, küçə uzunu qabaq-qabağa, düz cərgələrlə əkilmiş bu çinarlara baxanda, adamın ürəyi nə isə qəribə bir iftixar hissi ilə döyünürdü. İstər-istəməz düşünürdüm ki: «Ah, ey çinar, xan çinar... Sən nə qədər gözəl, nə qədər əzəmətlisən...».

Bir zaman xaricdən gələn qonaqlara bizim küçəmizi göstərərdilər. İlk dəfə buraya ayaq basan adamlar, bizim çinarlarımızı görüncə, heyrət eləyirdilər; «Biz dünyanın heç bir yerində belə nəhəng ağaclara rast gəlməmişik...»-deyirdilər. Özü ilə fotoaparat gəzdirənlər yalnız küçəmizin panoramanı yox, ayrı-ayrı çinarların da şəklini çəkirdilər. Xüsusən bizim çinarımıza baxarkən, təəccüb içində donub qalırdılar. Soruşursunuz ki, niyə? Axı bizim çinar dörd evin üstünə kölgə salırdı. Gövdəsi o birilərindən azı üç dəfə böyük idi. Günlərin birində tələbə yoldaşlarımızla bəhsə girdik. Üçümüz əl-ələ tutuşub "çinarın dövrəsini ölçdük, dördüncü yoldaşımızı da çağırmalı olduq...

Yay günlərində şəhərimizə bərk isti düşür. Amma biz evdən eşiyə çıxmayanda bunu hiss eləmirik. Sanki çinar istini udur, yarpaqları ilə evimizin daş divarlarını yelpikləyib sərinlədirdi...

Arada gəzirdi ki, bizim küçəmizdəki çinarları kökündən qoparıb, yerində söyüd ağacları əgəcəklər. Başqalarını deyə bilmərəm, amma mən bunu eşidəndə, qulaqlarıma inanmadım. Düşündüm ki, yüz illərdən bəri şəhərimizə gözəllik verən xan çinarı yerindən tərpətməyə heç kimin əli

gəlməz. Buna inanmaq mümkün deyildi. Lakin mən arada gəzən şayiənin tez-gec həqiqətə çevrildiyini az görməmişdim. Anam mənim nə üçün qəmgin olduğumu soruşdu. Mən əvvəlcə onun qanını qaraltmaq istəmədim. «Heç, yorğunam»-dedim. O, mənim üzümə şübhəli-şübhəli baxdı: «Yox, qızım, dərdini məndən gizlətmə»-dedi. Mən eşitdiyim təzə xəbəri ona söyləyəndə arvadın gözləri doldu. Bir xeyli sükut eləyib, dinmədi. Atamın ölüm xəbəri gələndə də bax, beləcə hərəkətsiz ayaqüstündə quruyub qalmışdı. Nə dinib-danışır, nə də ağlaya bilirdi. Sonradan-sonraya nə isə daxili bir qüvvətlə iradəsini ələ alıb soruşdu:

— Axı niyə, qızım? Çinar kimin yerini dar eləyir?

— Nə bilim, ana?-dedim.-Guya hamısı qocalıb, daha işə yaramır...

Anam gözünün yaşını sildi, yəqin ki, nahaq kövrəldiyini duyub, sərt bir görkəm aldı:

— Yox,-dedi.-Düşmən də bu çinarlara qıymaz. Əgər qocalmaq ayıbdısa, onda gərək məni də diri-diri tabuta qoyub aparalar.

O gündən sonra anamın qaşqabağı açılmırdı. Durub-oturub deyirdi ki, mən bu gün-sabahlığam, istəyirdim ki, atanın yurdu sahibsiz qalmasın, kimə ərə getsən onu bizə gətirəsən, elə buradaca yaşayasınız. Bir halda ki, çinar olmayacaq, daha ondan sonra bu ev nəyə gərəkdir?

Arvadın qəddi günbəgün əyilirdi. Axı onun ən əziz xatirələri bu evlə, bu küçə ilə, pəncərəmizin qabağında yaşıl bir çətir kimi açılmış xan çinarla bağlı idi. Atamla birgə yaşadığı illər onun ən böyük təsəllisi idi. Hər dəfə eyvanda, çinar kölgəsində oturub çay içəndə, çörək yeyəndə atamı xatırlayırdı. Mən hələ balaca ikən, atam məni eyvana çıxarıb oynadarmış, əlimdən tutub yerimək öyrədərmiş, dostlarını başına yığıb nərd onayarmış, təhsil-tərbiyədən danışarmış. Atam o qədər tələbə oxudubmuş ki, küçəyə çıxanda hər addımda öz yetirmələrinə rast gəlirmiş. Bütün şəhər əhli ona «Qədir müəllim»-deyə hörmətlə baş əyirmiş... Tələbələrdən biri şəhər sovetinə sədr keçəndə, atama üç otaqlı bir mənzil verdirir, ancaq o,

mənzildən boyun qaçırıb deyir: «Mən çinarımızın kölgəsini şah sarayına da dəyişmərəm».

Müharibə başlananda, atam cəbhəyə könüllü gedir. Bir azdan sonra alay komissarı olur. Neçə dəfə yaralanır. Hər dəfə də sağalıb, yenə cəbhəyə qayıdır.

Berlinin alınmağına cəmisi ikicə saat qalmış vurulur. Anam onun axırıncı məktubunu hələ də saxlayır. Həmişə də son cümləsini kövrələ-kövrələ təkrar eləyir: «Gün o gün olsun ki, dava qurtarsın, sağ-salamat qayıdıb, səni də qızımı da görüm, ailəliklə eyvanda, çinarın kölgəsində oturub məxməri çay içək. Belə bir gün gələcək, Səyyarə...»

Siz elə düşünə bilərsiniz ki, bu, o qədər də böyük arzu deyil. Ancaq mən bu cümlənin arxasında bir stəkan çayı yox, daha yüksək arzuları görürəm: ailə səadəti, əmin-amanlıq, məktəb, tərbiyə barədə qızğın mübahisələr, doğma şəhərin havası...

Xülasə, bu cür gözəl xatirələrlə bağlı çinarımız indi qocalmışdı, onu kökündən qoparıb, söyüdlə əvəz eləmək istəyirdilər.

Dövlət imtahanı başlananda çinar əhvalatını unutmuşdum. Hər gün səhər tezdən kitablarımı götürüb, çay qırağına gedir, şair Səhhətin tunc heykəli qoyulmuş bağçada xəlvət bir guşəyə çəkilib dərs oxuyurdum. Dünyada hər şeyə biganə idim. Elə bil ikicə addım o yandan axıb gedən çayın ürək açan şırıltısını belə eşitmirdim. Bağçanın o biri başında oynaşan balaca uşaqların səs-küyünə isə fikir vermirdim. Sanki həyatda mənim yeganə həmdəmim yalnız kitablar, yalnız qeyd dəftərim idi. Günlər sürətlə gəlib-keçirdi. Yenə çinarlar barədə şayiələr gəzməyə başladı. Doğrusu, bu dəfə fikrim alt-üst oldu. Elə bil içərimdən bir səs mənə deyirdi: «Niyə dayanmısan? Get şəhər sovetinə, dürüst bir xəbər bil, əgər deyilənlər doğrudursa etiraz elə, başa düşməyənləri başa sal, şəhərdə görüləsi ayrı iş yoxdurmu?»

Şəhər sovetinin təzə sədri Asəf Kərimovu pisləmək üçün əlimdə heç bir əsasım yoxdur. O, iş başına gələli xeyli təzə bina tikdirib, küçələri abadlaşdırıb. Çay kənarında,. səkilərdə, kolxoz bazarında səliqəyə fikir

verir, körpünün yanında gözəl bir pavilyon tikdirir, nə isə camaatı özündən razı salmağa çalışır. Ancaq mən o vaxt heç başa düşə bilmirdim ki, bu çinarlardan nə istəyirdi?

Mən kitablarımı qoltuğuma vurub, düz onun idarəsinə getdim. Dedilər ki, kabinetdə oturmaqla arası yoxdur, yəqin haradasa işə nəzarət yetirir. Nişan verdikləri yerə getdim. Şəhər bağının köhnə hasarlarını sökdürüb, təzəsini saldırırdı. Özü də fəhlələrə qoşulub daş daşıyır, palçıq qayırır, hamını həvəsləndirirdi. Mən kənarda, skamyada oturub, bir xeyli onlara tamaşa elədim. Təzə hasarın tikilib qurtarmış hissəsi çox xoşuma gəlirdi. Köhnəyə nisbətən həm yaraşıqlı, həm də bir qədər alçaq idi. Bunun mənasını başa düşmək çətin deyildi. Köhnə hasar qala səddini xatırladırdı, elə bil onu bağı kiminsə hərbi hücumundan qorumaq üçün tikmişdilər.

Asəf Kərimov əlinin palçığını təmizləyib, cibindən papiros çıxaranda, mən fürsətdən istifadə eləyib ona yanaşdım, salam verdim. Onun düşüncəli baxan sakit ala gözlərində mehriban bir ata nəvazişi vardı.

— Ay qızım, sən kimsən?-deyə yumşaq bir səslə soruşdu.

Mən adımı, familimi söylədim. O, çiyinlərini çəkdi, bununla da məni tanımadığını bildirdi. Atamı nişan verdim.

— Hə, hə,-dedi,-yaxşı tanıyıram. Orta məktəbdə mənə tarixdən dərs deyib... Buyur, qızım..-O, yenə eyni mehribanlıqla məni dinləməyə hazırlaşdı.

Onun əlindən acıqlı olsam da, belə mülayim, mədəni rəftarını görəndə, səhərdən bəri deməyə hazırladığım sözləri uddum.

— Bir məsələni sizdən xəbər almağa gəlmişəm,-dedim.

— Nəyi, qızım?-deyə o, mənə lap yaxın gəldi, papirosunun tüstüsünü yana tərəf üfürdü, yenə üzünü mənə tutdu, bir azca da başını aşağı əyib, qulağını mənə yaxınlaşdırdı, deyəsən söhbətimizi başqalarına eşitdirmək istəmirdi.

Mən çinar əhvalatını soruşdum. O, başını qaldırıb saldı.

— Doğrudur. Elə bir fikrimiz var.

— Axı nə üçün?-Mən özüm də fərqinə varmadan səsimi ucaltdım və hirsimi boğa bilmədim.

O, əgsinə bir az da mehribanlaşdı:

— Ona görə ki, qızım, həmin çinarlar yavaş-yavaş quruyurlar... Yaxşı olmazmı ki, şəhərimizin yaraşığı pozulmasın, hər tərəf yaşıllıq olsun.

— Bizim çinarların quruduğunu sizə kim deyib?

— Heç kəs deməyib. Özüm görürəm.

— Yox, görə bilməzsiniz...

— Nə üçün? Kor deyiləm ki?

— Mən sizə kor demədim. Yəqin siz orijinal görünmək istəyirsiniz. Ona görə də şəhərimizin rəmzini məhv eləyirsiniz...

Sədrin üst dodağı qaçdı. O gülə-gülə əlini çiynimə qoydu.

—Yanılırsan, qızım,-dedi,-mən heç nəyi məhv eləmək fikrində deyiləm. Mən bu şəhərdə doğulmuşam. Buranın hər bir daşı, hər bir kərpici mənim üçün əzizdir.

—Daşı, kərpici bəlkə də əzizdir... Amma çinarı...

— Elə çinarı da əzizdir.

O, nə qədər səmimi danışırdısa da, bir o qədər də mənə yabançı görünürdü. Mən dedim:

—Əgər fəhlələri göndərib bizim çinarları kəsdirmək istəsəniz, bütün Füzuli güçəsi ayağa qalxacaq.

Sədr dedi:

— Ayağa qalxıb neyləyəcək?

— Etiraz eləyəcək.

— Kimə?

— Sizə.

— Axı məni şəhər sovetinə özünüz seçmisiniz.

Mən özümü saxlaya bilmədim:

— Yanılmışıq... Bizim çinarımızı istəməyəndən sədr olmaz.

– Acıqlanma, qızım... Söyüd ağacları həm tez böyüyür, həm də daha çox sərinlik gətirir.

– Bəli, tez də quruyur...

Mən hirsimdən qızdırmalı kimi uçunurdum. Görünür Asəf Kərimovun mənə yazığı gəldi, o, daha dinmədi. Amma yenə də gülümsəyirdi. Əlini çiynimdən götürmür, tez-tez qanrılıb, hasar tikən fəhlələrə baxır, elə bil hər bir daşın düz qoyulub-qoyulmadığına diqqət yetirirdi.

Mən ondan ayrılıb evə gəldim. Əhvalatı anama danışdım. Anam mənim etirazımın faydasız olduğunu söylədi.

Bir neçə gündən sonra fəhlələr bizim də küçəmizdə göründülər. Çinarlardan birini qazdılar. Budaqlarını doğrayıb, maşınlara doldurdular, hara isə apardılar. Yerində söyüd ağacı əkdilər.. Küçənin bir yanı sanki xarabaya döndü. Anamın da, mənim də ürəyimdən qanlar gedirdi. Sabah da, biri gündə bizim də çinara növbə yetişəcəkdi. Anama dedim:

– Gəlsənə yuxarılara şikayət yazaq?

Anam mənimlə razılaşmadı:

– Asəf Kərimovu fikrindən döndərmək olmaz.

Söhbətimiz hələ qurtarmamışdı ki, Fazil əmi bizə gəldi. Eyvanda oturub, anamdan çay istədi:

– Səyyarə, bacım,-dedi,-Asəf haqlıdır. İnsan kimi çinarın da ömrü məhduddur, onun da vaxtı tamam olanda, gərək öz yerini cavan ağaclara təslim eləsin...

– Söyüd ağacına?-deyə anamla mən birağızdan soruşduq.

Fazil əmi çay içə-içə, nə isə çox qəmgin və fikirli bir tövrlə bizə baxdı:

– Söyüdü nahaq əkdirir,-dedi.-Asəf çalışqan adamdır, iş biləndir, amma bir böyük qüsuru var, həmişə istəyir ki, gördüyü iş tez gözə çarpsın...Axı söyüdün böyüməyi üçün çox vaxt lazım deyil... Eh, daha gecdir... Çinarın kölgəsində bir də çay içməyəcəyik...

O getdi. Mən də, anam da Fazil əmini heç bir zaman belə tutqun və kədərli görməmişdik.

Bizim də çinarımıza növbə yetişdi. Onun budaqlarını doğramağa başlayanda, mən uşaq kimi ağladım. Anam təsəlli verir, deyirdi:

— Olacağa çarə yoxdur, qızım...

Xan çinarımızın yıxılmağı mənə böyük dərd oldu. Dörd evin üstünə kölgə salan bir nəhəngin yerində söyüd çubuğu... Bundan da ağır bir dərd olardımı?

Aylar keçdi. Yaz açıldı. Mən bu vaxt şəhərimizin iki kilometrliyində kolxoz aqronomu işləyirdim. Gündüzlər tarlada çalışır, axşamlar evə qayıdırdım. Anamın saçları ağarmış, gözləri dərin çuxura batmışdı. Həmişə durub- oturub hey deyirdi:

— Ay qızım, indi mənim bircə arzum var. Sənin xoşbəxtliyini görsəydim, o dünyaya rahat köçərdim. Mənim üçün təfavütü yoxdur, burada oldun, ya başqa evə köçdün... Təki insan balası olsun...

Mən onun sözünü həmişə cavabsız qoyurdum.

Söyüd ağaclarından bir neçəsi göyərdi, amma çox keçməmiş hamısı quruyub sıradan çıxdı...

Günlərin birində yenə Asəf Kərimova rast gəldim. O, göhnə tramvay yolunu sökdürüb, trolleybus üçün xətt çəkdirirdi. O, gecəli-gündüzlü işləyir, şəhərin abadlığı üçün can yandırırdı. Məni görən kimi tanıdı, amma qəsdən üzünü o tərəfə çevirdi. Mən yaxınlaşdım, salam verdim.

— Hə, bilirəm, mənimlə dava eləməyə gəlmisən,-dedi. Amma bu dəfə əvvəlki kimi gülümsəmədi. O saat bilinirdi ki, söyüd ağaclarının tutmamağı onun qanını yaman qaraldıb. Bunu etiraf eləməyi mənim hirsimi soyutdu. Lakin mən yenə öz sözümü dedim:

— Bəli, gəlmişəm. Çinarların hayıfını yerdə qoymayacağam.

O, təəssüflə başını buladı;

— Belə görünür ki, vaxtında əkməmişik, dedi.-Ancaq mən də asanlıqla inadımdan dönən deyiləm. Sən darıxma, qızım. Bir gün gələcək ki, özün mənə afərin deyəcəksən...

Mən onun qəmgin-qəmgin yerə baxdığını görəndə, tamam yumşaldım. Bu dəmdə atamın bir məsləhəti yadıma düşdü: «İnsan gərək həqiqətə göz yummasın».

— Asəf dayı, siz çox çalışqan adamsınız,-dedim.-Bunu görməyən kordur. Siz şəhərimizi, doğrudan da, sevirsiniz. Özünüzdən sonra nə isə yaxşı bir xatirə qoyub getmək istəyirsiniz. Belə adamlara hörmət eləmək bizim borcumuzdur. Amma...

O, yenə mehribanca gülümsədi və gözlərini qaldırıb mənə baxdı. Tərifdən həzz aldığını gizlədə bilmədi:

— Amma nə?-deyə məndən bir də ağır söz eşidəcəyini düşünür kimi qalın qaşlarını çatdı.

— Amması odur ki, xeyirxahlıq etmək istəyən adam hər vaxt xeyirli iş görə bilmir...

— Nə üçün,-deyə Asəf Kərimov mənə cavab vermədən çox mənim bundan sonra deyəcəyim sözlə maraqlanıb soruşdu.

— Onun üçün ki, çinarı aparıb şimal qütbündə əksən, sənə gülərlər.

Söhbətimiz uzun çəkdi. Heç birimiz fikrimizdən daşınmadıq.

O günün sabahısı yenə Fazil əmi bizə gəldi. Hələ keçib oturmamış, məni sevindirmək istəyib, təzə bir xəbər söylədi.

— Qızım, Zərifə, dünən axşam şəhər sovetində bərk mübahisə oldu. Axırda mənim təklifimi qəbul elədilər.

— Nə təklif, Fazil əmi?

— Bu il küçənizdə yenə çinar əgəcəklər.

Doğrudan da, əkdilər. Tamaşaya çıxan çox idi. Asəf Kərimov özü də fəhlələrin arasında dayanıb, hər şeyə diqqət yetirir, təzəcə gətirilmiş ağacların kökünü bircə-bircə yoxlayırdı...

Yazın oğlan çağında, səhər işə gedəndə, axşam evə qayıdanda cavan çinara gözümü zilləyib baxır, ilk yarpaqların açılmağını səbirsizliklə gözləyirdim. Elə bil mənim gələcək səadətim o ilk yarpaqlardan asılı idi. Deyəsən tək mən yox, anam da, qonşularımız da həyəcan keçirirdilər.

Nəhayət, bir səhər evimizin qabağında, xan çinarımızın yerində əkilmiş ağaclarda açıq-yaşıla çalan zərif yarpaqlar gördüm. Gözlərim doldu.

Yolda Fazil əmiyə rast gəldim. O, az qala məndən muştuluq istəyəcəkdi.

– Görmüşəm,-dedim.-Ancaq o böyüyənə kimi bizimki bizə dəyəcək. Gözləməkdən gözümün kökü saralacaq.

Fazil əmi dedi:

– Qəm yemə, qızım. Ata-babalarımız da belə cavanını əkiblər, yüz il, iki yüz il keçib, böyüyə-böyüyə axırda o boyda olub... Qoy bizdən sonra gələn nəsillər də bizə rəhmət oxusunlar...

Çinarlarımız hər il boy atır, Füzuli küçəsinə yavaş-yavaş rövnəq verməyə başlayırdı. Artıq mən inanırdım ki, hələ ömrümün ən gözəl çağları irəlidədir, bir zaman çinarlar hər yana qol-budaq atıb, əvvəlkindən də gözəl olacaq, bizdən sonra gələn nəsillər onun kölgəsində rahat nəfəs aldıqca, bizi anacaqlar...

## MİRZƏ İBRAHİMOV

(1911)

## GÖYƏRÇİNLƏRİM

### *1*

Seyran quşların aşiqidir. Uçan quş gördümü, dayanacaq, iri qara gözlərini göyə zilləyib duracaq, quş gözdən itənə qədər dalınca baxacaq. Mavi boşluqlarda, buludun, dumanın içində quşun qanad çalmasından, gah yuxarı, gah aşağı süzməsindən ləzzət alır. Yolu Bakıdakı quş dükanının yanından düşəndə, dükan açıq olsa mütləq içəri girəcək, olmasa, vitrinin qabağına durub qəfəslərdəki ala-bəzək quşlara tamaşa edəcək. Quşu o qədər sevir ki, hətta anasının nifrət etdiyi boz sərçələr də eyvanlarının dirəyinə qonub civildəşəndə işini yarımçıq qoyub onlara baxacaq. Belə hallarda anası deyir:

— Ay Seyran, bu üzünü mürdəşir yumuş sərçələrdə baxmalı nə var, gözünü zilləyib durmusan? Zəhləm səslərindən gedir.

Seyran bir söz demir, çünki anasının sərçələrə nifrət etməsinin səbəbini bilir, hətta ürəyində onu haqlı sayır. Bilir ki, anası sərçələrin əlindən zardır, başına yüz oyun gətiriblər. Seyrangil Bakının Dağlıq adlanan hissəsində olur. Yəni o hissədə ki, orada, hər gün bir şey sökülür, bir şey tikilir. Onların yaşadığı yarısı ikimərtəbə, yarısı birmərtəbə ev də sökülməyə namizəddir. Lakin hələ ki, sökülmür, yerində durub və Seyrangil də burada rahatca ömür sürürlər. Həmin evin dörd tərəfindən qapalı balaca həyətində, kim bilir, əlli il, altmış il əvvəl əkilmiş bir meynə var, qara şanıdır. Seyranın ağlı bir şey kəsən gündən görmüşdü ki, bu meynə gəlib-gedənlərin ayağı altında tapdaqdır. Ona top, daş, təpik qalmamışdı dəyməsin. Əyri- üyrü çatdaq qara kötüyü qabıq verirdi, saysız-hesabsız qarışqa yuvası idi. Həyətin uşaqları bu yana da keçəndə əlini atıb, yarpağını, təzəcə zoğlarını qırar, qayış kimi möhkəm, köhnə çubuqlarını dartıb sındırardılar. Meynə isə bütün bunlara öyrənmişdi, nə quruyub məhv olurdu, nə də uzanıb artırdı.

Bir dəfə axşamüstü idi. Seyranın atası işdən qayıdıb əl-üzünü yumuş çörək yeyərək eyvanda oturub çay içirdi. Birdən gözləri uşaqların top zərbələri altında titrəyən qoca meynəyə sataşdı. Qaşlarını çatıb fikirləşdi və dedi:

— Mən bu qoca meynəni dirildəcəyəm, cavanlaşdıracağam, hətta sizə üzüm də verəcəyəm.

Atası eyvandan həyətə düşdü. Seyranı da çağırdı. Bu zaman məktəb yoldaşı Səfər də onlarda idi. O da Seyranla aşağı endi. Atası haradansa dəstəyi sınıq bir bel tapdı, meynənin dibini belləyib açdı, iki-üç qarış dərinləşdirib lək düzəltdi. Həyətin divarları dibinə tökülmüş daşları uşaqlara yığdırıb lakin qıraqlarını tikdi. Meynəni ayaqaltı olmaqdan qurtardı, sonra mişarla onun qara kötüyünü, gömgöy nazik çubuqlarını kəsdi. Üstündə yeganə yetişib saralmış çubuq saxladı.

— İndi su gətirin,-dedi.

Seyrangil həvəslə ataya kömək edirdilər. Qaçıb evdən vedrə gətirdilər, doldurub meynənin dibinə tökdülər. Su bir anda qupquru torpağa hopub gedirdi. Onlar torpağı doydurana qədər su daşıdılar.

— İndi gəlin, talvar düzəldək, qara şanı talvarı sevir,-deyib atası həyətin küncünü onlara göstərdi. Kimin əlinə nə gəldi bu küncə atdığından bura dəmir-dümürlə, taxta parçaları və sairə ilə dolu idi.

— Seçin, az-çox yararlı taxta parçalarını və məftilləri zir-zibildən ayırın,-deyə atası göstəriş verdi. Seyrangil həvəslə işləyirdilər.

İyirmi dəqiqə keçməmiş, onlar xeyli yararlı taxta və məftil ayırdılar. Atası talvar düzəltməyə başladı. Seyran və Səfər ona kömək etdilər. Talvar hazır olanda ata çubuğu qaldırıb məftilə ilişdirdi. Meynənin ağzını yuxarı verdi.

— Bircə ilə bütün həyəti basacaq, həm kölgə salıb bizi yayın istisindən qoruyacaq həm də dadlı şanıya qonaq edəcək.

Bu zaman Seyranın anası da eyvana çıxmışdı. Həmişə atanın evdə gördüyü işlərə inamsız baxdığından bu dəfə də ona güldü.

— Şkafı, stulları, çayniki xarab elədin, indi də meynəyə əl atmısan? Get, bacardığın işdən yapış.

— Bir il sonra baxarsan,-deyib Seyranın atası halını pozmadı. Atasının özünü ağır saxlaması Seyrana xoş gəldiyindən həmişə onun tərəfində olurdu.

— Anam belədir, bizə inanmır,-deyib atasına havadar çıxmaq istədi.

— Yaxşı, az danış, ağzın yekə olar,-deyib ata gülə-gülə Seyrana baxdı,-yaxşısı budur, siz bekar durmayın, küncdəki zir-zibili küçə qapısının dalına daşıyın, maşın gələndə aparar...

Doğrudan da, o biri ili gəlib yaz açılanda, xüsusən may girib havalar qızanda meynə qol-budaq verdi. Çox keçməmiş talvarı tutdu, yamyaşıl və iri yarpaqları ilə zontik kimi həyəti örtüb günəşin yandırıcı şüalarını aşağı buraxmadı. İyun ayının ortalarında isə noxud boyda göy gilələrlə dolu salxımlar talvardan aşağı sallandılar. Ata canlanmış meynəyə və bu salxımlara baxıb qürurla deyirdi:

— Hə, gördünüz ki, qara şanı necə şeydir. Əmək itirən deyil, bir versən on dəfə artığı ilə qaytaracaq.

Lakin demək olar ki bu qədər salxımdan biri də onlara qismət olmadı. Salxımlar yetişər-yetişməz gilə-gilə dənələnib yoxa çıxırdılar. Seyrangil gecə salxımı nişanlayıb yatırdı, səhər ayılıb görürdülər ki, heç şey qalmayıb. Onlar başa düşmürdü ki, salxımı boşaldan kimdir, böyük bir sirrin qarşısında qalmışdılar. İşin tərsliyindən o günlər atası kəndlərə getmişdi, bir ay fermalarda olacaqdı. Buna görə də onlar salxımların başına nə gəldiyini müəyyən edə bilmirdilər. Ancaq necə deyərlər açılmayan sirr yoxdur. Təsadüf bu sirrin də üstünü açdı. Seyran görürdü ki, meynə talvara qalxıb pardaxlanandan həyətlərindən sərçə səsi kəsilmir. O, əvvəlcə belə düşünürdü ki, yəqin hava isti olduğundan yazıq sərçələr gəlib meyənin kölgəsində sərinlənirlər. Ancaq diqqətlə baxdıqda gördü ki, onlar hənirti duyan kimi qaçıb damın tinində, ya da dirəklərin, məftillərin üstündə günün lap altında oturaraq civildəşirlər. Adam içəri çəkilən tək qoşun kimi yenidən özlərini yarpaqların arasına vururlar, yetişmiş gilələri acgözlüklə dimdikləyirlər. Özləri də elə görürlər ki, yarpaqların altında, lap qalın yerlərdə də sulanmış salxımları uzaqdan seçir, fürsət tapan kimi üstünə cumur, bir an içində gilələri dimdikləyib zay eləyirlər. İki-üç belə hücumdan sonra baxırsan ki, böyük bir salxımdan heç nə qalmayıb. Sərçələr belə şeydir.

Qara şanıya toy tutduqları gündən Seyranın anası onlara nifrət edir, elə onda:

— Sərçə nə quşdur, qadam ağzına, nə yaraşığı var, nə faydası,-deyib tənzifdən balaca torbalar tikdi. Seyrana verdi,-ayağının altına kətil qoy, talvara çıx, qalan salxımları sal torbaya, ağzını bağla, görüm necə dimdikləyəcəklər.

Seyran talvara çıxdı, lakin meynənin hansı budağını qaldırdısa, üzüm tapmadı. Hamısını sərçələr aparmışdı. Vur-tut ikicə salxım qalmışdı, onların da zədələnməmiş giləsi yox idi. Anası acığından dedi:

– Sal torbaya, qoy çürüsünlər, sərçəyə qismət olmasınlar. Ananın nifrətini duymuş kimi sərçələr də ondan əl çəkmədilər, intiqam almağa başladılar. Bir dəfə necə olmuşdusa, anası aynabənddə yarma sərib pəncərəni açıq qoyaraq qonşuya getmişdi, qayıdanda nə görsə yaxşıdır? İki kilo yarmadan yarım kilo da qalmayıb. Bundan sonra ana işlərini ehtiyatlı tutsa da sərçələr çıxıb getmədilər. Hətta payız gəlib meynənin yarpağı tamamilə töküləndə də damın qırağından, talvardan onların cib-cibi kəsilmədi.

Sərçələrin vurduğu zərərə və anasının nifrətinə baxmayaraq Seyran onları da görəndə bir sevinc duyur, tutub oynatmaq, dən və su vermək istəyir.

Seyrangil yaşayan evin yastı damının üstünə qır döşəyiblər. Bu isə Seyrana xoş gəlmir. Qara qırlı dama baxanda ürəyi sıxılır. Lakin sərçələr damın divarına düzülüb civildəşəndə, bu qara dam da Seyranın gözünə xoş və şən görünür. Hətta bəzən anasından gizli pəncərədən sərçələrə dən və çörək qırıntıları da atır.

Bu il qış sərt gəlmişdi. Tez-tez xəzri əsir, yağış və qar yağırdı. Görünür, sərçələr yeməyə bir şey tapmırdılar. Damın tinində oturub hey eyvana baxaraq cib-cib edirdilər. Seyran anasının evdə olmadığından istifadə edib pəncərənin bir tayını yarı açdı, eyvanın döşəməsinə bir ovuc yarma atdı. Pusquda durdu. Fikri bu idi ki, sərçələr eyvana dolan kimi pəncərəni örtsün və onları tutub saxlasın. Lakin sərçələr çox bic tərpənirdilər. Yarmanı götürən kimi özlərini çölə atırdılar. Bu zaman Səfər də gəlib çıxdı. Seyranın fikrini bilib güldü:

– İstəyirsən, özünü öldür, sərçə adama öyrənməz. Bir də ki, sərçə nə quşdur, onu saxlayırsan da?... Gəl sənə bir cüt göyərçin bağışlayım. Quş deyəndə göyərçindi. Həm göyçəkdir, həm də ki, dünyanın hər yerində onu sevirlər. Anam deyir ki, hansı evdə göyərçin yuva salıb, bala çıxarsa, o evə xoşbəxtlik gələr.

– Mövhumatdır,-deyib Seyran Səfərə güldü,-xoşbəxtliyi adam mübarizədə qazanır. O gün müəllim deyirdi.

— Göyərçin sülh quşudur. Buna ki, bir söz deyə bilməzsən. Sabah iki dənə gətirim?

— Gətir,- deyib Seyran razılıq verdi.

**2**

Lakin göyərçin məsələsi evdə söhbətə səbəb oldu. Atası eşidən kimi qaşları çatıldı:

— Get özünə sənət tap, quşbazlıq nədir? Texnika dərnəyinə gedirsən, bəsdir. Bu azdırsa, çalmaq öyrən, oxumaq öyrən, yoxsa quşbazlıq?

Seyran atasının niyə belə danışdığını bilirdi. Məhəllələrində quş üstündə neçə dəfə dava-dalaş olmuş, hətta deyilənə görə keçmişdə adam da öldürmüşdülər. Bakıda «quşbaz» adlanan adamlar işini-gücünü buraxıb xüsusi göyərçin saxlayarmışlar. Onlar qumara öyrənən kimi quşa öyrənər və özünə də, qonum-qonşuya da zərər verərmişlər. Başqasının göyərçinlərini şirnikdirib öz həyatinə oturdar və geri buraxmazmışlar. Quş üstündə araya ədavət düşərmiş. Buna görə də «quşbaz» sözü atasının ağzından nifrətlə çıxıpdı.

— Ata, arxayın ol, mən quşbazlıq etməyəcəyəm. Bilirsən ki, dərslərdən əlaçıyam və əlaçı olacağam. Texnika dərnəyinə gedirəm və yenə gedəcəyəm. İnan ki, quşların səsini eşidəndə dərsə də, texnikaya da həvəsim artır.

— Ay kişi, uşağın quşdan xoşu gəlir, qoy saxlasın. İki göyərçin saxlamaqla quşbaz olmayacaq ha...

— Bir az sonra iki dönüb olacaq dörd, dörd olacaq səkkiz, başı qarışacaq onlara, bir vaxt görəcəksən ki, qiymətləri düşüb aşağı, gözünə də quşdan başqa şey görünmür.

— Söz verirəm, ata, heç vaxt elə olmayacağam, heç başa düşmürəm, necə ola bilər ki, quşa görə hər şeyi unudasan? Elə adamların yəqin ağlı yoxdur,-deyib Seyran atasını inandıra bildi ki, quş onu nə dərslərdən, nə də texnika dərnəyindən soyuda bilər. Məktəblərində xüsusi zoologiya kabinəsi olduğunu, quşların həyatını öyrəndiklərini atasına xatırlatdı.

— Quşbazlar göyərçinə başqa cür baxırdılar, biz başqa cür baxırıq,-deyib dərin məna ilə əlavə etdi,-axı biz zoologiya dərsində quşları da öyrənəcəyik.

Yeganə oğlunun və arvadının təkidinə qarşı dura bilməyən atası;

— Yaxşı, görərik necə baxırsınız,-deyib yarıkönül razılıq verdi.

Sabahısı dediyi kimi Səfər ona iki göyərçin gətirdi. İkisi də ağ idi. Ancaq dişi göyərçin tamamilə ağappaq olduğu halda, erkəyin boynuna elə bil sarı halqa salınmışdı. Onun ayaqları da çox qəribə idi. Sanki göhnə zabitlər kimi uzunboğaz çəkmə geyib bəzənmişdi.

Seyranın ilk gözünə dəyən və xoşuna gələn bu oldu ki, göyərçinlər bir-birilə çox mehribandır. Heç zaman bir-birindən ayrılmırdılar. Qəribədir, bu iki quş o qədər bir-birini sevir ki, bir an da ayrı durmur, hey «qur-qur» edərək bir-birini oxşayır. Havada uçanda da bir-birindən çox uzağa getmirdilər. Hansı əvvəl damın qırağına ensə, dayanıb o birini gözləyirdi, o gələndən sonra ikisi bir yerdə eyvana öz yerlərinə qayıdırdılar. Bir ay keçməmiş onlar dimdiklərində xırda çör-çöp gətirməyə və qutunun bir gözündə yuva tikməyə başladılar. Yuva hazır olar-olmaz, Seyran bir səhər orada balaca çil-çil yumurta gördü. Yumurta ikiləşəndə göyərçinlər daima növbə ilə onların üstündə otururdular. Düz on səkkiz gün sonra bu yumurtalardan bir cüt bala çıxanda Seyranın sevincinin hüdudu yox idi.

Doğrudur, balalar çox çirkin idi, lüt, qotur, sarımtıl ət parçasına oxşayırdı. Ancaq bu ət parçası həyat kimi isti idi, tərpəşirdi, titrəşirdi, ananın və atanın hənirtisini duyan kimi ağzını açıb onların boğazlarında hazırlayıb verdiyi südlü sıyığa oxşar həlimi dərhal udurdu. Balalar çox sürətlə artırdılar. Üç həftə sonra artıq onlar göyərçinə oxşayırdı.

— Ana, bir bax, gör necə gözəldir, necə yaraşıqlıdır,-deyib Seyran böyük bir həvəslə hər gün anasının qolundan tutub onlara tərəf çəkirdi. Hətta bir dəfə cəsarət edib atasını da göyərçinlərin yanına gətirmək istədi.

— Ata, elə maraqlıdır ki, bir gör necə artırlar.

— Axı bunların nə xeyri?-deyib atası ona məhəl qoymadı.- Boş yerə vaxt itirməkdir.

— Yox, ata,-deyib Seyran özünü unudaraq etiraz etdi.-Göyərçin çox faydalı quşdur, özlərinin də çox maraqlı həyatları var.

Seyran göyərçinlərin növlərindən- poçtalyonluq edən, əti yeyilən və sair göyərçinlərdən danışanda atası heyrətlə ona baxdı.

— Bunları haradan bilirsən?

Onda Seyran quşlar haqqında Azərbaycan və rus dilində axtarıb taparaq oxuduğu kitabları ona göstərdi:

— Çox maraqlı aləmdir, ata,-dedi.

Atası bığının altında «hımm» eləyib susdu, Seyran nə qədər düşündüsə bu «hımm»ın mənasını anlaya bilmədi; bilmədi atası onun hərəkətlərini təqdir edir, yoxsa, yenə ondan narazıdır. Lakin daha böyük həvəslə göyərçinləri bəsləyib artırmağa qurşandı.

3

O qədər qurşandı ki, bir gün texnika dərnəyinin məşğələsinə getməyi unutdu. Atası bundan xəbər tutanda acıqlandı:

— Dedim ki, quşbazlığın axırı yoxdur.

— Mən quşbazlıq eləmirəm,-deyib Seyran yavaşca etiraz etdi.

— Bəs dərnəyi niyə buraxmısan? Bu gün dərnəkdən soyuyarsan, sabah dərsdən. Yox, belə olmaz. Məktəbə gəlib direktorunuzla danışacağam...

Atası otağına çəkiləndən sonra, Seyran göyərçinlərilə tək qaldı. Artıq onlar xeyli artmışdı. Eyvandan havaya birdən-birə on göyərçin qalxırdı. Özü də müxtəlif rənglərdə. Bunların heç biri kənardan gəlmə deyildi, Seyranın səyi nəticəsində Səfərin verdiyi iki göyərçindən doğub törəmişdi. Bunu hiss etdikcə Seyran həm sevinir, həm də kədərlənirdi. Kədərlənirdi ki, niyə atası göyərçinləri sevmir. Atasının məktəbə gəlmək fikri onun həyəcanını bir az da artırmışdı. Ona görə yox ki, Seyran pis oxuyurdu və ya məktəbdə kölgəli bir işi vardı. Yox. O yenə də əlaçı idi və yaxşı şagirdlərdən hesab olunurdu. Onu qorxudan o idi ki, atası müəllimləri də öz tərəfinə çəkər, hamısı birləşib onu göyərçinlərdən, sevdiyi quşlar dünyasından ayırarlar..

Sabahısı, üçüncü dərsdən sonra, tənəffüs zamanı Seyran məktəbin dəhlizində yoldaşları ilə söhbət etdiyi yerdə gördü ki, atası yavaş-yavaş pillələri qalxır. Kişi çox qaşqabaqlı olmasa da fikirli idi. Seyran tez onun qabağına qaçıb salam verdi, qarşıladı. Atası:

— Məni direktorun otağına apar,-dedi.

Seyran qabağa düşdü. Kabinetin qapısındaca dərs hissə müdiri onlarla üzbəüz gəldi.

Seyran, bala, kimi axtarırsan,-deyib gur qara saçlarına yenicə dən düşən müəllim ana nəvazişilə dolu iri qara gözlərilə Seyranı süzdü.

— Müəllim, atam direktoru görməyə gəlib,-deyərək Seyran atasını göstərdi.

Dərs hissə müdiri dərhal onun atasına müraciət etdi:

— Gəlməkdə çox yaxşı etmisiniz,-dedi,-yəqin maraqlanırsınız ki, Seyran baladan razıyıq, ya yox? Çox razıyıq. Hamımız razıyıq. Gül kimi baladır. Çalışqandır, gözüaçıqdır, tərbiyəlidir. Uşaqların çoxu bu yaşda öz istedadlarını büruzə verə bilmirlər. Bu gün bir şeyi sevirlər, sabah başqa şeyi, Seyran bala isə indidən bildirir ki, gələcəkdə böyük zooloq olacaq.

— Müəllim eyni mehriban gözlərini ani olaraq Seyranın üzündə gəzdirib yenə atasına baxdı,-yəqin siz də hiss etmişsiniz ki, onda quşlar aləminə böyük həvəs var. Biz məktəbimizdə «Quşları sevin!» adlı guşə düzəltməyi və bu işi Seyrana tapşırmağı qərara almışıq. Bu barədə onun çox gözəl fikirləri var. Hamısını yerinə yetirsə, məktəbimiz lap quşlar parkına çevrilər.

Müəllim həvəslə danışdıqca, Seyran gah ağarır, gah qızarır və gözünü atasından çəkmirdi. Görünür ki, bu sözlər atanın da xoşuna gəlirdi, getdikcə onun rəngi açılmaqda, gözləri işıqlanmaqda idi. Nəhayət, dərs hissə müdiri dedi:

— Sizi dəhlizdə çox saxladım, bağışlayın, sizə görə demirəm, öz aramızda da biz Seyrandan çox danışırıq. Buyurun içəri, direktor maarifə gedib, gərək indicə gəlsin. Vacib söhbətiniz var?

— Elə bir sözüm yoxdur,-deyib atası müəllimin əlini sıxdı,-çox sağ olun. Elə belə gəlmişdim, məni arxayın saldınız. Deməli, göyərçinlər dərsinə mane olmur?

— Əksinə, kömək edir,-deyib müəllim qətiyyətlə təsdiq etdi,-sağlıq olsa, göyərçinin qanadlarında Seyran uzaqlara, çox uzaqlara uçacaq...

Zəng çalındı. Seyran sinfə qaçdı. İçəri girəndə dönüb bir də dala baxdı. Atası ilə müəllim bərk-bərk bir-birinin əlini sıxıb ayrılırdı. İndi Seyranın bütün narahat duyğuları və həyacanları sevincə, çalışmaq həvəsinə çevrilmişdi.

## MUROVDAĞIN ƏTƏYİNDƏ

### 1

Ayazın on iki yaşı keçən il may ayında tamam olub. Özü ilə 32 nömrəli məktəbin V sinfində oxuyur. Lakin kənardan baxan elə bilir ki, on yeddi yaşı var, azı onuncu sinfi qurtarıb. Ayaz əvvəldən sümüyü iri uşaqdır. Sinif yoldaşlarının hamısından canlı-gövdəli və boy-buxunludur, həm də diribaş, zirəkdir.

Ata-anasının bircəsi olduğuna baxmayaraq, Ayaz şıltaq və ərköyün deyil, üzüyoladır, mülayimdir. Məktəbdə də, evdə də yaxşı ad çıxardıb. Ancaq necə deyərlər, hər gözəlin bir eybn olan kimi, Ayaz da eyibsiz deyil. Onun hələ ki, sağalmaz bir azarı var: «Kitab oxumaq azarı». «Bu, necə azardır?-deyib təəccüb etməyin, -kitab oxumaq ki, yaxşı şeydir».

—Düzdür, yaxşı şeydir, bu şərtlə ki, yerinn və vaxtını bi- ləsən. Ayaz kitabı əlinə aldı, yerə qoyan deyil,— dərsdə də, tənəffüsdə də, süfrə başında da oxuyacaq. Anası:

— Bəsdir, ay bala, kitabı bük, dərslərini hazırla, sonra oxuyarsan,-deməkdən cana gəlib. Anası bircə adamın yanında Ayaza söz deməz. O da Ayazın babasıdır. Bəlkə elə buna görə də babası onlara gələndə Ayaz üçün toy-bayram olur. Sevincindən atılıb-düşür. Az qalır evin altını üstünə çevirsin. Əslinə baxsan anası ondan ikiqat artıq sevinir-o, həm

babanın gəlişinə, həm də Ayazın sevinməsinə şadlanır. Fərəhli, gülən gözləri ilə qaşaltı babaya baxıb deyir:

– O qədər gəlmirsən ki, uşaq səni görəndə bilmir neyləsin...

Anasına elə gəlir ki, Ayazın bu qədər sevinməsinin səbəbi babanın kənddə yaşaması və onlara az-az gəlməsidir, yəni uşağın baba üçün darıxmasıdır. Lakin Ayaza görə əsil səbəb heç də bu deyil-axı, babadan da uzaqda yaşayan və ondan da az gəlib-gedən qohumları var ki, onları görəndə Ayaz bu cür sevinmir. Soruşsalar ki, «Ayaz, niyə babanı bu qədər sevirsən?»-donub qalır.

– Necə yəni niyə? Babanı da sevməmək olar? Bir uşaq tapılar ki, bir dəfə mənim babamı görə və ömürlük sevməyə? Tapılmaz...

**2**

Ayazın babasını bu qədər sevməyi təsadüfi deyildi. Bu məhəbbət anasından ona keçmişdi. Çünki gözünü açan gündən tez-tez anası onu divardakı şəklin qabağına gətirər «baba, çiçə baba» deyə papaqlı, bığlı-saqqallı kişini göstərərdi. Dil açanda isə anası da, atası da ona üç söz öyrətmişdi: baba, Bakı, Yanşaq...

Niyə bu sözləri öyrətmişdilər? Aydındır niyə-baba babadır, evin ən əziz adamıdır. Bakı- yaşadıqları şəhərdir, Yanşaq da-babanın olduğu kənd.

Əlbəttə, bu üç sözdən əvvəl Ayaz iki söz də bilirdi; Ana və ata... Bu sözləri nə vaxt öyrənmişdi, deyə bilməz. Ona elə gəlirdi ki, bu sözlər anadan onunla birlikdə doğulmuşdur. Çünki o, atasını da, anasını da çox sevirdi. Lap elə birinci gündən sevir. Bircə dəqiqəliyə siz də uşaqlığınızı yadınıza salın: kim sizə atadan yaxın, anadan mehriban olub? -heç kim. «Ata gəldi»,-desən, hansı uşaq ayağı dolaşa-dolaşa qapıya qaçmaz?

Ayaz da həmişə ata və anasını çox istəyib, onun nəzərində ana və ata hər şeydir. Yatmaq istəyəndə, acanda, üşüyəndə qorxulu bir şey görəndə başqa uşaqlar kimi, o da həmişə anasının sinəsinə sıxılmış, atasının yanına qaçıb ona qısılmışdır. O indi də belə düşünür ki, anasının sinəsindən isti beşik, atasının sinəsindən möhkəm sığınacaq yoxdur. İndi də anasının, danışdığı nağıllardan doymur. Atası ilə gəzməyə çıxanda elə bilir ki, dünyanı ona

bağışlayırlar. Bəli, «ana və ata» -sözlərini Ayaz çox tez anlayıb. Lakin baba, Bakı və Yanşaq sözlərini bip az çətin və geç başa düşüb. Hətta körpə vaxtlarında babasından qorxub ürgərdi də. Çünki elə o zamanlarda da babası onlara az-az gəlirdi. Ayaz onu yad adamlardan seçə bilməzdi. İndi də bəzən anası şəklin qabağında durub fikrə gedir və Ayaza baxaraq:

— Qorxurdum ki, böyüyəsən, babanı tanımayasan,-deyib gülümsəyir.

— Heç elə şey olar? Babamı hamıdan çox istəyirəm.

— İndi istəyirsən, çünki ağlın kəsir. Onda isə görpə idin, ağlın kəsmirdi. Mən səni şəklin qabağında saxlayıb, «baba, baba» deyə öyrədirdim. Şükür ki, babana belə tez mehr saldın.

Ayaz anasından «mehr saldın nədir?» -deyib soruşmur. O, anasının bu cür şirin və şəhər yerində az-az işlənən sözlərinin mənasını tez duyub anlayır.

— Ana, babam da məni çox istəyir ey,-deyib anasını daha da razı salmağa çalışır.

— Əlbəttə, istəyir. Sənin üçün ürəyi bir tikədir.

Beləliklə həm «baba» sözü, həm də baba özü Ayazın xəyalında və ürəyində yaşayır. Anasının dediyinə görə Ayaz əvvəllər Bakı sözünün mənasını daha qəribə şəkildə anlayarmış.

— Soruşardım: Ayaz biz harada oluruq? Deyərdin Bakıda.

— Bəs Bakı hanı, balası? Bakını göstər görüm.

O zaman Ayaz toppuş əlini uzadıb yaşadıqları evi göstərərdi. Çünki onun uşaq xəyalında Bakı ancaq yaşadıqları evdən ibarət idi. İndi anası bu əhvalatı nəql edəndə Ayaz inanmır, elə bilir ki, bunlar hamısı nağıldır, ana özündən düzəldir ki, Ayazın ürəyi açılsın. Axı necə ola bilər ki, bu boyda Bakını balaca evdən seçməyəsən? Hər halda Ayaz indi yaxşı bilir ki, Bakı böyük şəhərdir: burada onların yaşadığı dördmərtəbəli evdən başqa saysız-hesabsız böyük evlər, uzun güçələr, meydanlar, bağlar, kino-teatrlar, məktəblər, bulvar, Dağüstü park, stadion, cürbəcür fabriklər və zavodlar var.

Yanşaq sözünü başa düşməyi də məzəli olub. «Hanı Yanşaq?»-deyib soruşanda o nədənsə şirin-şirin gülərmiş. Ayaz buna adət etmişdi. «Yanşaq»

sözünü dilinə gətirəndə özü də gülərdi, qulaq asanları da güldürərdi. İndi isə bu söz onun ürəyini qızdırır, indi bilir ki, bu sözdə gülməli bir şey yoxdur. Bilir ki, babası Yanşaq kəndində yaşayır. Evlərinə təzə adam gələndə o ilk tanışlıqdan sonra mütləq divardakı şəkli göstərəcək:

— Babamdır, Yanşaqda olur... Bilirsiniz Yanşaq necə yerdir? Cənnət kimi. Kiçik Qafqaz sıra dağlarının başındadır. Lap hündür dağların təpəsində.

— Ayaz, bəsdir, az təriflə Yanşağı, qonağı yorma, -deyib, anası söhbətə qarışanda belə Ayaz əl çəkmir.

— Yanşağın mənası bilirsən nədir?

— Sənin kimi çox danışan,-deyib anası gülür.

— Heç də yox. Əsl mənası söz qoşub, saz çalan aşıq deməkdir; hə, babam özü deyir...

Ayaz hələ indiyə qədər Yanşağı görməyib. Babası neçə dəfə istəyib ki, onu özü ilə kəndə aparsın. Ancaq anası və atası razı olmayıb. Gözlərindən qoymaq istəməyiblər, qorxublar ki, soyuq dəyər və ya başqa bir hadisə baş verər.

Yanşağa getmək üçün Ayazın ürəyi əsir. Babası və anası kəndin gözəlliyindən o qədər danışırlar ki, o, çox zaman kəndi yuxuda görür. Babasının sözünə görə dünyada hələ bu cür səfalı bir yer yoxdur, Yanşağın dörd tərəfi uca dağlar, qalın meşələrdir. Ətrafında çaylar, bulaqlar şırıldayır... Ayaz Yanşağın, deyiləndən də gözəl olduğuna inanır. Çünki ondan söz düşəndə anasının üzü işıqlanır, gözləri dolur, az qalır ağlasın. Axı anası Yanşaqda doğulub, uşaqlığını orada keçirib... Ancaq neçə ildir ki, gedə bilmir, neçə ildir ki, dağlarından kəklikotu yığmayıb, bulaqlarından su içməyib, odur ki, ürəyi darıxıb. Yox, anası «darıxıb» demir, başqa söz deyir. Ayaz bu sözü əvvəl dəftərinə yazmışdı. İndi əzbərdən bilir.

— Anamın ürəyi kənd üçün nisgil bağlayıb.

İndi Ayaz atasının otağında divardan asılmış Azərbaycan xəritəsində Yanşaq kəndini tapıb anasına göstərəndə o, gülümsəyir, əlini oğlunun başına çəkir. Ayazı inandırmağa çalışır ki, körpəlikdə onun üçün Yanşaq

anlaşılmaz, lap xəyali bir şey imiş. Ayaz heyrətlə anasına baxsa da, mübahisə etmir. Çünki elə indinin özündə də Yanşaq onun nəzərində doğrudan da, xəyali bir şeydir. Məlikməmmədin divlərlə vuruşduğu tilsimlər kimi, Koroğlunun dəliləri ilə birlikdə sığındığı dağlar kimi, xəyalidir. Bir neçə dəfə Yanşaqda olmadığına baxmayaraq, Ayaz onu çox sevir. Təəccüb edirsiniz, hə? Görmədiyin bir yeri necə sevmək olar? Lakin Ayaz sevir. Çünki Yanşağı çox yaxşı tanıyır. Anası, babası Yanşaqdan o qədər danışıblar ki, onu evlərinin içi kimi tanıyır və sevir. Ayaza elə gəlir ki, babasını sevdiyi gündən Yanşağı da sevməyə başlayıb.

Ayazın yadında qalan odur ki, babasını birinci dəfə beş yaşı olanda görüb. Elə o gündən də babasına qanı qaynayıb, ona mehr salıb, əlbəttə babası əvvəllər də onlara bir neçə dəfə gəlib-gedib, kənddən sovqat da gətirib. Hətta Ayazı qucağına alıb gəzməyə də aparıb. Ancaq bunlar Ayazın yadında deyil. Yadında qalan o gəlişdir ki, onu Ayaz birinci hesab edir və yəqin ki, heç zaman unutmayacaq...

...Payız idi. Axşam yenicə düşmüşdü. Bakıya məxsus xəzri küləyi birdən başlayaraq, pəncərələri, qapıları titrədirdi, toz-torpağı göyə sovururdu. Karvan-karvan qara buludlar gəlib şəhərin üstünü almışdı. Xəzərin mavi suları da qara rəngə çalırdı.

Uşaqlıqdan Ayaz xəzrini sevmir. Çünki xəzri əsəndə anası tutqun olur, hey pəncərə qabağına gedib nigaran gözlərini dənizə tərəf zilləyir. Axı, Ayazın atası neftçidir, dənizdə işləyir. Şiddətli külək başlayanda anası istər-istəməz ayazıyıb bikef olur. Belə hallarda Ayazın da kefi pozulur.

Yenə anasını dalğın görən Ayazı birdən yuxu basdı, əsnəmə tutdu:

— Ana, mən yatıram...

— Tezdir, oğlum. «Şəngülüm»ü gətir, otur yanımda, oxuyum, qulaq as.

— Mən yatmaq istəyirəm, -deyib Ayaz inad etdi. Anası otağın ortasında durub təəccüblə ona baxdı. Çünki Ayaz heç vaxt belə tez yatmazdı. Elə bu zaman qapının zəngi çalındı. Ana yerindən tərpənib qapını açanda, Ayaz diqqətlə baxırdı ki, görsün gələn kimdir. Uzun ağ saqqalı sinəsinə tökülmüş

ucaboylu, motalpapaqlı bir kişi içəri girdi. Onu görən kimi anası «ah» eləyib doluxsundu və tez:

— Dədə, xoş gəlmisən-deyib əl-ayaqa düşdü. Kişi ağzına qədər dolu xurcunu çiynindən aşırıb dəhlizin bir küncünə qoydu və Ayaza döndü, iki qolunu da açdı:

— Gəl babaya, -dedi. Qocanın məhəbbətlə dolu iri qara gözləri Ayazı çağırırdı. Bu gözlər qaranlıq gecədə parlayan ulduz kimi işıqlı idi. Ayaz hələ də mat-mat qocanı süzürkən, qoca geri döndü, xurcunun bir gözünü açdı. Oradan iki balaca bardaq, bir neçə başqa şey çıxarıb yerə qoydu. Anaya baxıb başı ilə «yığışdır» işarəsi verdi. Sonra xurcunun o biri gözünü açdı, onu da boşaltdı. Lap axırda, balaca bir qutu çıxardı, qutunu açdı:

— Ayaz, tut, -deyib nə isə yerə buraxdı.

Ayazın birdən yuxusu qaçdı. Pişik balası boyda xırda ağ tüklü bir heyvan əvvəlcə düşdüyü yerdə qısılıb qalmışdı, sonra tərpəndi, hoppana-hoppana özünə xəlvət guşə axtarmağa başladı. Qaçıb dəhlizdəki stolun altına girdi:

— Dovşan balasıdır, sənə gətirmişəm,-deyib baba Ayaza cürət verdi,-tut, məktəbə apararsan.

Ayaz tez stolun altına əyildi və bala dovşana baxdı. Onun burun pərəkləri aramsız qalxıb-enir, gözləri qırmızı mərcan kimi yanırdı. Ayaz qorxa-qorxa əlini uzadıb onun yumşaq, ağ tüklü dərisinə toxundu, sonra çürətlənib qucağına aldı:

— Sağ ol, baba,-deyib, otağa keçmiş babasının dalınca getdi. Onun dizi üstündə oturdu.

Bala dovşanı xeyli oynadıb yorulduqda, Ayaz babasının göstərişi ilə stulu ayaqları yuxarı qoydu, dörd tərəfinə pərdə çəkdi, dovşana orada yer hazırladı. Qabağına bir nəlbəki süd gətirdi. Onu rahatladıqdan sonra, özü babasının yanında divana uzandı. Babası Ayaza Yanşaqdan, dovşanı necə tutduğundan, ceyran, cüyür, pələng, ayı ovundan danışmağa başladı. Gecə yarıdan keçənə qədər Ayaz babasının nağıla oxşar şirin və maraqlı söhbətinə qulaq asdı. Yavaşdan ona cürbəcür suallar verdi. Babası meşələrlə örtülmüş

sıldırım dağlardan, qış-yay qarı əskik olmayan hündür və çılpaq dağ zirvələrindən, qoynunda şırıl-şırıl çaylar axan, yaxasında şəlalələr şırıldayan dərələrdən həzin-həzin danışdıqca, xəyal Ayazı görmədiyi, bilmədiyi cazibədar yerlərə aparırdı...

Yuxusunda da o, meşələri, dağları, dərələri görür, gah dovşan, gah kəklik, gah da ceyranlarla oynayırdı...

Ayazın babasını sevməyinin tarixi belədir.

3

O zamandan illər gəlib keçdi. Ayaz çanta götürüb məktəbə getdi. Birinci sinfi qurtardı. İkidə, üçdə, dörddə oxudu. Həmişə bir sinifdən o birinə əla qiymətlər alaraq, ata və anasını hədsiz dərəcədə sevindirərək keçdi. Siz bilirsinizmi övladın yaxşı; əməlini görəndə ana ürəyi necə dağa dönür? Ayazın anası valideynlər iclasına, pioner yığıncaqlarına alnıaçıq, üzügülər gəlib-getməyə, başını dik tutmağa haqlı idi. Ayazdan bütün müəllimlər razılıq edirdi. Ayazın da üzü həmişə açıq olardı. Adama baxanda iri qara gözləri xoş təbəssümlə işıqlanardı.

Bu gün də Ayaz məktəbdən evə şad qayıtmışdı. Qapını açan kimi çantasını mizin üstünə atıb tövşüyə-tövşüyə:

– Ədəbiyyatdan yazı işi oldu, beş aldım, -deyə tez-tez danışdı.

Anası onun tələsik hərəkətlərinə və danışığına adət etmiş olsa da, barışa bilmirdi, hey çalışırdı ki, onu təmkinli danışmağa, təmkinli oturub-durmağa eyrətsin. Lakin bu gün kefinə dəyməyib «tələsmə, yavaş danış»,-demədi. Ayaz yüngülcə nahar edib otağa keçdi. Anası mətbəxdə qaldı. Bu gün o, ağ önlüyü bağlamış, qollarını dirsəyə qədər çırmamışdı. Ayaz başa düşdü ki, anası mətbəxi əsaslı surətdə yığışdıracaq. Bütün qab-qacağı, bütün ləmələri, döşəməni və tavanı yuyacaq, silib təmizləyəcəkdir. Deməli, saatlarla mətbəxdən çıxmayacaqdır. Buna görə də "Spartak" romanını əlinə alıb arxayınca oxumağa başladı. Saatların nə vaxt gəlib keçdiyini bilmədi. Bir də onda ayıldı ki, qaranlıq düşüb, şəhərin işıqları pəncərələrdə əks edir, anası başının üstünü almışdır:

— Bircə bük bu kitabı. Mən də deyirəm dərslərini öyrənir, səsi çıxmır, bük.

Ayaz yerindən tərpənmədi:

— Ana, izin ver buracan oxuyum, duraram,-deyib barmağını kitabın arasına qoydu.

— Anası qəti eəslə:

— Dur dedim, dur. Gün-gündən dərsə az baxırsan.

— Qiymətlərim ki, əladır,-deyib Ayaz anasını razı salmaq istədi.

— Yuxunun bahasına əladır,-deyib anası da sözündə israr etdi.-Sabah naxoşlayanda, bir yerin ağrayanda qalacağıq yana-yana. Bük, dur ayağa. Birdəfəlik sırğa elə as qulağından-əvvəl dərs, sonra nağıl, roman. Saat onda da zəhmət çək, gir yerinə.

Ayaz yenə də kitabı əlindən yerə qoya bilmədi. Romanın ən maraqlı yerini oxuyurdu. Spartak qladiatorları başına yığıb ilk vuruşa hazırlaşırdı.

— Sözü kimə deyirəm, Ayaz,-deyib anası əl çəkmədi,-axı belə yaxşı deyil, atan evdə olsaydı, çoxdan kitabı büküb qoymuşdun bir kənara. Atanın yanında bir cür, dalda başqa cür? Belə olar?

Ayaz bir anlığa gözünü kitabdan çəkib anasına baxdı. Özünü də fikir apardı, doğrudan da, axı deyəsən yaxşı olmur. Atası evdə olanda Ayaz qeyri-ixtiyari olaraq əvvəlcə dərslərini hazırlayır, sonra başqa işlərlə məşğul olur. Nə qədər maraqlı kitab olsa da, saat on olar-olmaz büküb bir kənara qoyur, soyunub yerinə girir. Atası olmayanda isə, belə. Bu ani fikir Ayazı utandırdı, lakin marağını öldürə bilmədi. Kitabı büküb qoltuğuna aldı. Ayağa durdu. Anasının qabağına gəldi:

— Xahiş edirəm, ana, yarımca saat icazə ver. Elə şirin yerindəyəm ki.

— Elə hünər də odur ki, şirin yerində kəsəsən durasan ayağa, vacib işi görəsən. Kitab qaçmır ki...

Ayaz çar-naçar kitabı bükdü:

— Eh, babam burada olsaydı, qoymazdı məni bu qədər inçidəsən,-deyib, kitabı stolun üstünə qoydu. Gündəliyi açdı.

**4**

Ayaz məktəbə hamıdan erkən gəlmişdi. Əlində sarışın çantadan başqa, səliqəli bir bağlama da vardı. Bağlama qırmızı lent ilə ortadan çarpaz bağlanmışdı. Lentin ucları düyünlənməmiş, ilgək salınmışdı ki, asanca açmaq olsun. Ayazın gözlərindən sevinc qığılcımları çıxırdı. O hələ məktəbin uzun dəhlizində pəncərə qabağında durub yoldaşlarını gözləyirdi Nəhayət, uşaqlar gəlməyə başladılar.

— Bu nədir?-deyib hər şeylə maraqlanan balaca boylu Nadir Ayazın əlindəki bağlamaya bir yumruq vurmaq istədi. Lakin Ayaz tez bağlamanı yana çəkdi.

— Eyy, olmaz... Bir az yavaş...

— Bu nədir ey?- deyib Nadir soruşdu.

Ayaz demək istəmədi.

— Tap görüm, nədir?

Nadir bic-bic güldü:

Aha... a... bildim, baban gəlib. Dağdan sənə mərmər gətirib.

— Bilmədin, -deyib Ayaz məktəb formasını səliqə ilə ütüləyib geymiş Gülzara döndü. -Sən tap, görüm nədir?

Gülzar qızardı və yavaşca:

— Kəklikdir,- dedi.

— Ha... ha... ha... Kəklik... kəkliyə bax, aa... -deyib Nadir ucadan güldü və yenə də bağlamaya toxunmaq istədi. Yenə Ayaz qoymadı.

— Yavaş, əzərsən.

— Yumurtadır, nədir bu belə?-deyib Nadir güldü.

Bu zaman zəng çalındı, uşaqlar hay-küylə siniflərə doluşdular. Ayaz da sirli bağlaması əlində gedib üçüncü cərgədə öz yerində oturdu. Ayazın əlindəki bağlamanı və üz-gözündəki qeyri-adi ifadələri görən botanika müəllimi dedi:

— Ayaz, göstər görək baban kabinetimiz üçün daha nə gətirib?

Ayaz müəllimin bu həssaslığından çox razı halda bağlamanı təntənə ilə gətirib stolun üstünə qoydu, qayıdıb yerində oturdu. Müəllim ilgəyi dartaraq

bağlamanı açanda uşaqların maraq dolu gözləri onun əlinə dikilmişdi. Müəllim tələsmədən bağlamadan açdığı ağ kağızın qatlarını düzəldərək səliqə ilə bükür və güman edirdi ki, bağlamadan qurudulmuş bir qartal cəsədi və ya cüyür başı çıxacaqdır. Lakin o birdən heyrət edib duruxdu, uşaqların marağı daha da artdı. Dərhal hamı stolun ətrafına toplandı, uşaqlar bir-birinin çiyninə söykənərək boylanmağa başladılar. Bağlamadan, tükü yumşaq və sapsarı, dişləri sədəf kimi ağappaq, gözünün giləsi isə almaz parçası kimi parıldayan bir pələng başı çıxmışdı. Uşaqlar heyrətlə ona baxırdılar, xeyli baxdıqdan sonra geri döndülər və gözlərini Ayaza dikdilər. Ayaz məğrur halda:

— Babam özü vurub,-dedi,-söz verib məni də dağa aparacaq. Ova gedəcəyik.

Uşaqlardan kim isə dedi:

— Mən də gedəcəyəm, atam icazə verər...

— İndi danış görək baban bunu necə ovlayıb?-deyərək müəllim Ayaza müraciət etdi.-Uşaqlar, oturun yerinizdə, qulaq asın.

— Müəllim, hələ babam onu mənə danışmayıb, bu gecə danışacaq.

—Yaxşı, diqqətlə qulaq as. Gələn dərs sən də bizə danışarsan,-deyib müəllim dərsə başladı.

**5**

Lakin Ayaz gecə nə qədər çalışdısa, babası pələngi neçə ovladığı barədə bir kəlmə də danışmadı. Bu dəfə kişi çox fikirli görünürdü. Dağlar, bulaqlar, qarlı zirvələr və pələng haqqındakı sualların hamısına bircə cavab verirdi.

— Daha böyük oğlansan, sağlıq olsa, apararam, özün görərsən.

Bu dəfə babası ən çox üzünü böyüklərə tutub, onları maraqlandıran məsələlər barədə söhbət edirdi:

— Dədə, işiniz-gücünüz necədir, güzaranınız xoş keçirmi?-deyib Ayazın anası soruşanda, baba əlini saqqalına çəkdi, qeydli gözlərlə qızını süzüb dedi:

— Qızım, yaman çətinliyə düşmüşük. Heç bilmirik necə edək?

— Nə olub, əmi?-deyərək adət üzrə gözucu qəzetə baxaraq babanın söhbətlərinə qulaq asan ata da maraqlandı və qəzeti kənara qoydu,-heç səni belə buludlu görməmişəm.

— Necə buludlu olmayım, bala? Heç bilmirik malı, heyvanı qışdan necə çıxardacağıq. Şaxta-boran başımızın üstünü alıb. Köhnə pəyələrimiz damır, dörd tərəfi sınıq-salxaq. Təzə tikdiyimiz damın da üstünü örtməyə şifer tapmırıq. Beş ay qabaq söz verib arxayın salıblar, indiyəcən əldə bir şey yoxdur.

Birinci dəfə idi ki, Ayaz babasından şikayət eşidirdi. Nəyinsə qabağında aciz qalıb qüssələndiyini görürdü. Buna görə də ona ürəyi yandı. Təsəlli verməkdən artıq, çarə tapmaq qəsdilə:

— Baba, sabah dərsdən gələrəm, bir yerdə gedərik nazirin yanına,-dedi,-şifer alarıq. Pəyələrin üstünü örtərsən.

Babası həm sevinc dolu, həm də istehzalı bir təbəssümlə gülümsəyib, nəvəsinə baxdı, heç bir söz demədi. Atası isə ciddi səslə:

— Fikir eləmə, əmi, gecənin xeyrindən gündüzün şəri yaxşıdır, deyiblər. Dur yat, səhər bir tədbir tökərik...

Yatmazdan əvvəl baba üzünü böyüklərə tutdu:

— Bu dəfə kəndə qayıdanda Ayazı da özümlə aparacağam. Yekə kişidir, qoyun isti-soyuğa öyrənsin... Qış tətilindəsə dağ havası udsun.

Babası bu sözləri elə dedi ki, heç kəsdə etiraz etməyə cürət qalmadı-anası və atası mat-mat bir-birinə baxıb durdular. Ayaz isə babasını qucaqladı:

— Sağ ol, baba. İndi yoldaşlarım deyə bilməz ki, bəs necə oldu, neçə ildir eşidirik dağa gedirsən? Gedəcəyəm, hələ Nadirə bir sovqat da gətirəcəyəm...

## 6

Qırmızı rəngli avtobus dağ döşlərinə dırmaşaraq, meşənin içində o tərəf-bu tərəfə burularaq, çay qırağı yollarda şütüyərək yorulmadan irəliləyirdi. Ayaz üzünü pəncərə şüşəsinə yapışdırıb tanımadığı yerlərin

bir-birini əvəz edən maraqlı mənzərəsinə həvəslə tamaşa edirdi. Yanında oturmuş babası ona hər meşə zolağının, hər dağın, hər dərənin adını deyirdi. Yanından ötüb keçdigləri xırda kəndlər haqqında məlumat verirdi. Hər 50-60 kilometrdən bir yolçuların dincəlməsi üçün tikilmiş düşərgələrdən danışırdı. Bu düşərgələrdən təzə dəmlənmiş çay, qovrulmuş ət iyi gəlirdi. Xüsusən, Mardakertdən sonrakı meşələrin və Tərtər çayının sahilindəki dağların mənzərələri Ayazı valeh etmişdi. Burada yol tez-tez o tərəf-bu tərəfə buruları, dolama pillələr kimi gah dağ zirvələrinə qalxır, gah da sıldırım qayaların altından keçirdi. Bəzən bu qayalar əzəmətli nəhəng bir qalxan kimi yolun üstünə sallanır, bəzən də geri qalxıb nizə kimi göylərə sancılırdı. Ayaza elə gəlirdi ki, hər dağ, hər dərə, meşələrdəki hər ağac eşitmədiyi bir nağıldır. Onlar hərəsi bir şərqi deyirdi, həvəslə oxuyaraq yoldan ötəni səsləyirdi. «Gəl, ey cavan yolçu. Beləcə ötüb getmə, əylən, bizimlə söhbət elə, sonra get.»

— Ay baba, nə gözəl Vətənimiz var,-deyib Ayaz bir anlığa babasına tərəf döndü və yenə üzünü pəncərə şüşəsinə yapışdırıb geri qaçan dağların, təpələrin tamaşasına daldı.

— Hələ bu nədir, əsl gözəllik qabaqdadır, -deyib babası uşaq sevincilə köksünü ötürdü...

Bir az sonra Ayaz gördü ki, babasının sinə dolusu ah çəkməsi nahaq deyilmiş. Avtobus şose yolunun ortasındakı körpünü keçib dayandı. Onlar xurcunu və iki böyük çamadanı daşıyıb yerə düşürdülər. Avtobus hərəkət edib Kəlbəcərə getdi. Ayazgil şeyləri yolun kənarına qoyub başqa bir minik gözləməyə başladılar, onlar burdan sağa gedəcəkdilər.

— Atdan, maşından bir şey düşər, otururıq, aparar bizi kəndə,-deyib babası Ayazın əyninə nəzər saldı.-Üşümürsən ki?

Dağların sərin havası Ayaza xoş gəlirdi. Nəfəsi havada buxarlandıqca ayrıca ləzzət alırdı. Canı balaca gizildəsə də, babasının yanında özünü o yerə qoymadı;

— Soyuq deyil, baba...

Babası gözlərini qıyıb Kəlbəcərdən üzü aşağı enən yük maşınına baxdı, əlini qaldırdı, lakin maşın dayanmadı. Gəlib onların yanından birbaş Bakı yolu ilə ötüb getdi. Ayaz düşündü ki, nə olaydı, heç maşın gəlməyəydi, piyada yola düşəydilər. Meşədə gecələyəydilər. Tonqal qalayıb isinə idilər. Canavar və çaqqal uğultusuna qulaq asaydılar.

Babası onun xəyala getməsini darıxmaq kimi başa düşüb fikrini bir şey ilə məşğul etmək istədi. Bütün günü axarına qarşı gəldikləri çayın iki kiçik çaydan yarandığını söylədi:

— Bax, bu Tərtər çayıdır,-deyib yolun sağ əlində qranit kimi möhkəm qayaların, sal qaya parçalarının altından şırıltı ilə axan və göz yaşı kimi dumduru çayı göstərdi.

— Bu biri isə Lev çayıdır. Murovdağ tərəfdən gəlir. Arada sarı torpaqlı düzənlikdən keçdiyi üçün belə bulanlıqdır. Biz Lev çayının boyu gedəcəyik. Onda görərsən necə yerlər var.

Doğrudan da, kolxozun Kəlbəcərdən qayıdan yük maşınına oturub sağa buruldduqları andan hər addımbaşı dəyişən və daha gözəl, daha əzəmətli olan mənzərələr Ayaza nağıl kimi qəribə görünürdü. Yanşaq yolunun üstündəki qalın meşədən keçərkən artıq günəş qərb tərəfdəki dağların dalına yatmışdı. Dağların, meşələrin kölgəsi qatılaşmağa başlayırdı:

— Baba, tülkü,-deyib Ayaz maşında atılıb-düşdü. Kolluqdan boylanıb tezcə gizlənən boz rəngli şələquyruğu babasına göstərdi.-Sabah ova gedirikmi, baba?

— Yağış-yağmur olmasa yəqin gedərik,-deyib babası cavab verdi, onu arxayın salmaq üçün sal buludların parçalandığı qərb üfüqündəki qızartılara baxıb əlavə etdi:

— Yağana oxşamır.

Ayaz da o tərəfə baxdı, nə gözəl mənzərə. Qarşıdakı böyük silsilə dağların aşağı hissələrini çılpaq qalın ağaclar, yuxarı hissəsini isə qar örtmüşdü. Dağın boz qayalardan ibarət olan ortası enli bir kəmər kimi qaralırdı.

Yuxarıda qarlı zirvələrdə batmaqda olan günəşin qıpqırmızı son işıqları ərimərkdə idi...

– Hə, Yanşağa az qalıb, bir azdan çatarıq,-deyib babası yenə bir dağ silsiləsini göstərdi. Lakin Ayaz nə qədər baxdısa, qabaqda ucalı-alçaqlı dağlardan başqa bir şey görmədi. Artıq ona elə gəlirdi ki, bu dağların axırı yoxdur. Maşın yoxuşu qalxıb bir dağın üstünə çıxmamış, o biri dağ qabağı kəsirdi... Dibi görünməyən dərələrin birini adlayıb keçməmiş, o biri görünürdü. Sayı-hesabı olmayan dağ silsilələri bir-birini əvəz edirdi. Ayaz dağların bu nəhayətsizliyi, bu gözəlliyi, dağ mənzərələrinin bitməz-tükənməz rəngarəngliyi haqqında düşünməyə başladı. Xəyal onu uzaqlara apardı. Bu zaman sanki lap dağların ürəyinin içindən qaynayıb qalxan bir mahnı eşitdi:

Məni binadan bəslədi

Dağlar qoynunda, qoynunda...

Tülək tərlanlar səslədi

Dağlar qoynunda, qoynunda.

Bu mahnını oxuyan babası idi. Onun ağ tüklərlə örtülmüş nurani üzü bir az da işıqlanmışdı, gözləri dağ zirvələrindəki qartal gözü kimi açılaraq, uzaqlara dikilmişdi. Ayaz ürəyində coşan məhəbbət duyğusu ilə onu qucaqlayıb öpmək istədi. Lakin mahnısını pozmaq istəməyib özünü saxladı...

**7**

Maşın Yanşağa girəndə artıq qaş qaralmaqda idi. Dağlara, meşələrə gözəl bir axşam enirdi. Yanşağın günbatan tərəfini böyük bir dağ kəsdiyindən kənd tez qaranlıqlaşır. Evlər dağın döşünə, dərə və təpələrə səpələnmişdi. Bu evlərdən ətrafa yayılan işıqlar sanki adamı çağırırdı.

– İndi qarı yaman sevinəcək,-deyib baba artıq daxmasını, ev-eşiyini fikrinə gətirdi.

Ayazın da ürəyi titrəyib əsdi. Axı o, nənəsini ömründə ikinci dəfə görmüşdü. Arvad kənddən aralanmağı sevməzdi. Xəyalına gəldi ki, nənəsi necə qabağına qaçacaq, qarış- qarış titrək əlləri ilə necə boynunu qucaqlayıb öpəcək,-«ay ağrın alım, ay sən gələn yollarda güllər bitsin, nə yaxşı gəlibsən»,-deyib onu duz kimi yalayacaqdır.

Lakin onlar birdən-birə evlərinə gedə bilmədilər. Maşın birmərtəbəli üçgözlü bir binanın qabağında duran kimi bir dəstə adam onları əhatə etdi:

— Ay baba, xoş gəlmisən.

— Şəhərdə nə var, nə yox?

— Bir düş aşağı gəl idarəyə, qarı qaçmır, gedərsən.

— Bu kimdir, ay baba?-deyib kim isə Ayazı göstərdi.

— Nəvəmdir...

— Aaa, göz dəyməsin, Koroğludur lap. Xoş gəlib. Girin içəri görək...

Ayaza qəribə gəldi ki, heç kəs babasını adı ilə çağırmır, hamı ona «baba» deyirdi. Eyni zamanda, ürəyində məğrur bir duyğu oyandı-hamı babasına hörmət edir, onu böyük yerinə qoyur.

Onları içəri, balaca otağa apardılar. Uzunboğaz çəkməli cavan bir oğlan stolun dalından çıxıb babanı qucaqladı:

— Xoş gəlibsən, ay baba. Hamı yollardan sağlıqla...

Ayaz bildi ki,-bu kolxoz sədridir. O, babanı yanındakı divana oturtdu. Özü də onunla üzbəüz oturdu:

— Baba, bircə məni rahat sal görüm, şifer düzəldi, ya yox? Deyən qış yaman sərt gələcək.

Baba adəti üzrə cavab verməyə tələsmədi. Öz istədiyini soruşdu:

— İnəklər döl atırmı?

— Cinslərin üçü ekiz doğdu, baba,-deyərək sədr sevinclə xəbər verdi.

— Yerləri də istidir.

— Babanın rəngi açıldı. Saqqalını tumarladı:

— Fikir eləmə, şifer də verdilər,-dedikdə sədr yerindən qalxıb onu bir də qucaqladı:

— Sağ ol, ay baba...

Bu zaman o biri otaqdan baba kimi yaşlı bir kişi başını içəri saldı:

— Ay sədr, gəl gör bu radio niyə səsini kəsdi. Xan ağzını təzəcə açmışdı, şirin yerində xırp dayandı.

Onlar o biri otağa keçdilər. Bu, nisbətən böyük otaq idi. Ortada uzun stol qoyulmuş, üstünə qəzet, jurnal səpələnmişdi. Güncdəki dəyirmi stolun üstündə radiotutan vardı. Bir dəstə kolxozçu onun ətrafına toplanmışdı. Babanı və sədri görən kimi hamı kənara çəkildi. Baba ilə görüşüb sakit dayandılar.

— Bəs klub müdiri haradadır ki,-deyib baba soruşdu, radionuz oxumur?

— Rayon mərkəzinə gedib. Sabah qayıdacaq.

Sədr üzünü hamıdan cavan olan bir oğlana tutdu:

— Qardaş, lətifəsi sənə gəlməsin, deyirlər ki, itin böyüyü ol, qardaşın kiçiyi olma. Hamıdan kiçiksən, qaç Kərim kişinin oğlunu çağır, bu radionu düzəltsin.

Ayaz tərəddüd və həyəcan içində bir babasına, bir sədrə baxdı. Axı o, radiotexniki dərnəyə getmişdi, radiotutanlardan başı çıxırdı. Eyni zamanda, qorxdu ki, buradakını düzəldə bilməyə, elə birinci gündən Yanşaqda özünü biabır edə. Birdən içərisindən bir səs ona cəsarət verib dedi:-«Qorxma, Kərim kişinin oğlu gəlməmiş keç irəli düzəlt».

— Baba, olar, mən baxım?-deyib titrək səslə soruşdu.

Hamı Ayaza baxdı. Kim isə:

— Gəl, qoçaq oğlan,-deyib ona ürək verdi.

Ayaz radiotutanın dal qapağını açdı, həyəcan və iztirabını boğmağa çalışaraq səliqə ilə yoxlamağa başladı. O yan-bu yana əl gəzdirdi, gördü ki, bir lampası yanıb, tez lampa istədi, alıb dəyişdi. Bir az sonra radio xırıldamağa və yavaş-yavaş işləməyə başladı. Ayaz sevincək halda Bakını tutdu. Xanın kəsmə şikəstəsi otağa dolduqca hamını fərəh bürüdü:

— Sağ ol, var ol, belə oğul,-deyib yer-yerdən səsləndilər.

Sədr isə əlini Ayazın çiyninə qoydu:

— Səni şəhərə-zada buraxan deyiləm, qal babanla kolxozda işlərsən...

Ayaz sevincindən qanadlanıb uçmaq isətəyirdi.

8

Ayazın kəndə gəldiyi üç gün idi. Amma hələ də ova çıxmamışdılar. Birinci gün babasının dediyi kimi hava «ov havası» olsa da, Murovdağa getmək mümkün olmadı. Çünki kolxoz sədri hələ axşamdan xəbər göndərdi ki, sabah iclas çağırıb, babanın orada olması vacibdir, «onsuz keçinə bilmərik». Ayaz bu sözü eşidəndə bir yandan sevindi ki, babası kənddə bu qədər lazımlı adamdır, onu sevirlər. O biri yandan ürəyində kolxoz sədrinin dalınca deyindi: «Bu da iclas çağırmağa vaxt tapdı». İkinci gün ov dəsgahını axşamdan hazırladılar. Babası beşaçılan ov tüfəngini yağladı, fişəngləri yoxladı, göz qabağında olsun deyə meşin çantanı qapının ağzındakı mıxdan asdı, nənəsi soyutma ət, bir neçə yumurta bişirib dəsmala bükdü, duz qoydu. Termosa çay doldurdu. Xoruzların ilk banında babası tərpənən kimi Ayaz da yerindən qalxdı:

— Baba gedirik?

— Qoy görüm, bala, hava necədir?-deyib kişi qapını açanda həyət-bacanı qar basdığını gördü,-yox, ov havası deyil, bala, cığırı-izi qar tutub, dağa qalxmaq olmaz.

Üç gün beləcə keçdi, hava açılmadı. Ayaz kənd uşaqları ilə dostlaşdı. Gündüzlər onlarla kolxozun balaca mlubunda şahmat, nərd, domino oynadı, həyətdə qar topasına çıxdı. Səhəngi dalına alıb bulaqdan nənəsinə su gətirdi. Ot tayasının dibində toyuqlara dən verdi. Kitabxanaya baş çəkdi, saatlarla kitab oxudu. Yenə də artıq vaxt qaldı. Ona elə gəlirdi ki, kənddə, şəhərə görə vaxt birə on yavaş keçir, gün bitib qurtarmaq bilmir.

Ova çıxmaları isə tamamilə gözlənilməz və qəribə oldu. Axşamüstü babası hündür bir divar kimi şimal üfüqlərini tutmuş Murovdağa tərəf baxıb dedi:

— Hə, Ayaz, hazırlaş, sabah ov havasıdır.

– Nədən bilirsən, baba? —deyib Ayaz maraqlandı.

– Murovun üstü açılır, deməli qar-yağış gözləmə. Gəl yataq. Gözümüzün acısı getsin, alaqaranlıqdan düşək yola...

Ayaz dağ kəndinin hər şeyini, lap ilk axşamdan yatmaq adətini də sevməyə başlamışdı. Başını yastığa qoyub zil qaranlıq içərisində ətrafa qulaq asırsan; necə sirli, necə pozulmaz bir sükut kəndi bürüyür. Ancaq dağın dibindəki axan çayın şırıltısı eşidilir. Bu şırıltı özü də sanki sükutun içində əriyib gedir. Ara-sıra itlər qalın, boğuq, davamlı səslə hürərək, bu sükutu pozurlar, adamın canına soyuq bir üşütmə salırlar-axı itlər boş-boşuna hürmür, ya toyuq hininə yaxınlaşan çaqqalın, tülkünün, ya da qoyun-quzu aparmağa gələn ac canavarların iyini alırlar. Səhərki ovun həvəsi ilə itlərin təkbir hürməsinə və babasının həzin xorultusuna qulaq asdığı halda Ayazı yuxu apardı.

Həyətdə səs eşidəndə ona elə gəldi ki, bir saat yox, iki saat yox, on saat, on beş saat yatmışdır. Tez qalxıb yerində oturdu və qaranlığın içindən gələn danışığa qulaq asdı:

– Nə var, bala?-deyib babası kimdənsə soruşdu.

– Ay baba, Mərcan gecə yarısından çapalayır, gəl, bəlkə bir əlac eləyəsən, -deyən bir uşaq səsi cavab verdi.

Baba deyinə-deyinə qayıdıb içəri girdi:

– Ağzından süd iyi gələn uşağa ferma tapşırmaq olar?-deyib qaranlıqda geyinməyə başladı.

Ayaz dərhal yerindən sıçradı:

– Baba, mən də gedirəm.

Babası pıçıltı ilə danışdı:

– Yaxşı. Ehmalca geyin, qarı oyanmasın, yoxsa burnumuzdan tökər. Qoymaz belə erkən evdən çıxaq...

Tələsik və çox ehtiyatla hərəkət etmələrinə baxmayaraq, qaranlıqda Ayazın ayağı kətilə ilişdi. Kətilin üstündəki fincan gedib taxtın ayağına dəydi. Qarıdan səs çıxmadığını görən baba yenə pıçıltı ilə dedi:

— Hə, yaxşı qurtarmışıq, Ayaz, qarı oyanmadı, gəl çıxaq.

Tüfəngi, çantanı, termosu götürdü. Otaqdan çıxanda səs eşidərək ikisi də yerində donub qaldı.

Qarı nənə qapıda durub, nə isə Ayaza uzatdı:

—Al, bala, başlığı da götür. Dağa etibar yoxdur. Çovğuna-zada düşərsən.

Həyətdən çıxanda baba nənəyə dedi:

— Dovşandan da ayıq yatırsan, ay imansız.

Baba bu sözləri elə məzəli dedi ki, Ayaz da, malabaxan gənc də uğunub getdilər.

Şaxtalı gecə idi. Göy üzündə seyrək ulduzlar sayrışırdı. Ay girdə, büllur ayna kimi dağın təpəsindən asılmışdı. Malabaxan Ayaz yaşda bir yeniyetmə idi. O, babanın yuxusuna haram qatdığı üçün, günahını yumağa çalışaraq deyirdi:

— Baba, gecə gözü heç kəsin qapısına gedə bilmədim. Dedim dünyagörmüş adamsan, bir çarə taparsan... Nə doğana oxşayır, nə də naxoşa. Dörd-beş saatdır zarıyıb durur...

Artıq, baba yumşalmışdı:

— Yaxşı eləmisən ki, mənim qapıma gəlmisən. Boğaz inək çox yazıq heyvandır. Gərək vaxtında halına qalasan...

Oğlan kəndli uşaqlarına məxsus utancaqlıqla cavab verdi:

—Dədəm axşamdan nənəmi götürüb Mərzli kəndindəki xəstəxanaya aparıb, gərək indiyəcən qayıdıb gələydi. Nə oldusa ləngidi. Mənə deyib ki, mallara yaxşı baxım...

— Nənənə nə olub?

— Sətəlcəmdir, baba...

— Sağalar, fikir eləmə,-deyib baba uşağı arxayın saldı.-Yetim böyüyər, yamanlıq əzrayıla qalar, inək də doğacaq, nənən də sağalacaq, heç fikir eləmə...

Onlar uzunsov, alçaq damlı mal tövləsinə girəndə, isti heyvan nəfəsi və mal iyi Ayazı vurdu. Lakin o, geri çəkilməyib babasının dalınca yeridi.

Qabağa getdi. Malların bəzisi mışıltı ilə yatmışdı, bəzisi tövşüyürdü, bəzisi axurdakı quru otun qalıqlarını yeyirdi. Ayrıca bir gözdə iri gəvdəli, boz rəngli, alnında ağ qaşqası olan ərcan yatmışdı. O, ayaqlarını uzatmış, quyruğunu yana atmışdı, ağır-ağır nəfəs alır və gücənirdi.

Baba hələ uzaqdan:

– Mərcan, Mərcan, sənə nə olub?-deyərək böyük bir məhəbbətlə oxşaya-oxşaya inəyə yaxınlaşdı. Başını, boynunu sığalladı, o tərəf-bu tərəfinə baxdı:

– Doğacaq,-dedi.-Birinci balasıdır, ağır gedir. Özü də pis yatıb. Sağ ayağı gör necə bükülüb. Bu saat düzəldərik.

Baba Mərcanın sağrısından yapışıb qaldırdı. Sağ ayağını altından çıxarıb düzəltdi, yenə yumşaq isti sağrısını, alnını sığalladı. Mərcan sanki bu mehribanlıqdan isinib dirçəldi. Gözünü qaldırıb babaya baxdı və gücəndi. Baba daha artıq bir hərəkətlə Mərcanı oxşayır, orasını-burasını sığallayırdı...

Bir qədər sonra eynən anasına oxşar qaşqa bir buzov Mərcanın qabağında uzanmışdı.

Mərcan yatdığı yerdəcə bütün qüvvəsilə onu yalayır, yalayırdı. Ana nəfəsinin ılıq hərarəti ilə onu qurudur, ona həyat verirdi...

Ayaz heyrət və maraq içində Mərcana və onun körpə balasına baxmaqdan doymurdu...

– Baba, bu, ovdan da ləzzətli oldu,-deyib babasına baxanda qoca da sevinclə gülər gözlərini nəvəsinə çevirdi.

– Yox, bu gün ovumuz da uğurlu olacaq-deyib qapıya yollandı.

## 9

Onlar Murovdağa çatanda səhərin gözü yenicə çırtlayırdı. Ayaz hündürlüyü dörd min metrdən artıq olan bu əzəmətli dağa tamaşa etdikcə ürəyi dağa dönürdü. Necə nəhəng, necə böyük bir dağ! Ayaz onun ətrafındakı saysız-hesabsız xırda dağlara, dərələrə və təpələrə baxırdı, baxdıqca da ürəyi qəribə bir sevinclə dolurdu. Qar qalaqları ilə dolu dərələrdə, sıldırım buzlaqların altında dumduru bulaqlar və çaylar şırıldayırdı. Öz nəhəng

görkəmi ilə başqa dağlardan seçilən Murov nə əvvəli nə də axırı olan uca, qalın qranit külçələrdən əmələ gəlmiş sədd kimi günçıxandan günbatana tərəf uzanıb gedirdi. O, nəhəng-nəhəng qayalardan, saysız-hesabsız qara, qırmızı, sarı və boz rəngli sal qaya parçalarından yaranmışdır. Çox yerdə bu qayalar bülöv kimi hamar, ülgüc kimi itiuclu idi. Babanın dediyinə görə ən yaxşı atlar da bu qayaları aşa bilmir, onların zirvəsinə dırmaşıb keçə bilmir, üstündə dırnaq tökürlər. Bu açıq, bu buludsuz qış səhərində də Murovun zirvələri bulud və duman içində itmişdi. Döşlərini qalın qar layları örtmüşdü. Yalnız orta hissələri açıqdı. «İt yolu» adlanan cığırın solundakı qara, qumsal və daşlı-çınqıllı cənub yamacları da çılpaq idi. Bura o qədər sürüşkən və sıldırım idi ki, qar da dayanmayıb aşağı dərələrə süzülürdü...

Baba böyük bir qayanın dalında gizləndi, qabaqdakı sıldırım dağın belindən qara zolaq kimi burulub keçən balaca, dar cığırı Ayaza göstərdi:

— Sürü oradan gəlib bulağa ötəcək, səsini, cınqırını çıxarma, gözlə.

Ayaz da, baba da diqqət kəsilərək gözlərini cığıra dikmişdilər. Soyuq-şaxta onların yadından çıxmışdı. Gözləri, yanaqları yanır, ürəkləri həyəcanla döyünürdü...

Səhərin çəni-dumanı seyrəkləşib hava azca açılar-açılmaz, təkə cığırda göründü. Onun iti, gözəl buynuzları alnından xeyli yuxarı çıxaraq, çarpazlaşmışdı. O, iri gövdəsini şax dartaraq çevik hərəkətlə bərədən adlayıb sivrim uclu qayanın arxasında gizləndi. Təhlükə olub-olmadığını bilmək üçün ayıq gözlərilə ətrafı süzdü. Qorxulu bir şey görməyib arxayınlaşan kimi irəlilədi. On-on iki dişidən ibarət sürü qayaların kölgəsindən çıxdı, təkənin dalınca hərəkət etdi. Təkə irəlidə gedir, arabir dayanaraq dörd tərəfə göz yetirir, yenə sürünün ağzını dərəyə «güzgü» bulağa tərəf çəkirdi. Təkə ayaq saxlayan kimi, sürü qayaların dalında gizlənib, onun işarəsini gözləyirdi.

Təkə isə ehtiyatlı, ayıq gözlərlə dərələrə, sıldırım qayaların dalına baxıb sürünü irəli aparırdı. Ayaza elə gəldi ki, dağ keçilərinə başçılıq edərək, hər an ez həyatını təhlükə altına atan bu heyvan qəribə bir qürurla yeriyir və məhz buna görə də, babanın gözü ondadır, sanki məğrurları vurub yıxmağın

ayrıca ləzzəti varmış. Bir anda Ayazın özünü də ehtiras bürüdü: «Nə yaxşı da buynuzları var. Lap məktəbimizin dəhlizindəki böyük divardan asılmalıdır. hamının ağzı açıla qalacaq...»

Təkə qayaların dalında batıb-çıxaraq, boylana-boylana və çox ehtiyatla irəliləyirdi. Artıq sürünün dərədəki bulağa yaxınlaşmasına iki-üç keçid qalmışdı. Babanın gözləri yanmağa başlayırdı, yanaqları allanmışdı, səbirsizliklə sürünün bərəyə yaxınlaşmasını gözləyirdi. Hətta acığı da tuturdu ki, niyə təkə belə yavaş tərpənir. Ayaz da darıxırdı. Ən maraqlı dəqiqənin-sürüyə atəş açacaqları dəqiqənin tez gəlib çatmasını istəyirdi...

Budur, dərəyə yaxın böyük bir qayanın dalından təkənin başı göründü və göz yumub-açınca yox oldu. Təkə çox təcrübəli idi. Qorxulu yerlərdən cəld və ehtiyatla keçirdi. Sürünü axırıncı keçidə yaxınlaşdırdı. Burada cəmi beş-altı metrlik düz bir yer var idi. Lakin bu yerdə vurulan ov heç olurdu. Çünki keçilməz bir uçurum aranı kəsmişdi. Təkə oranı da bir anda sıçrayıb gözdən itdi. Sürü eyni hərəkətlə təkənin dalınca gedirdi. Sürünün içində iri bir keçi Ayazın diqqətini cəlb etdi. O, öz gözəlliyi ilə bütün sürüdən seçilirdi: nazik beli tarım çəkilmişdi. Qarnının altında alası vardı, boynunu, belini şax tutub yeriyirdi. Tamamilə özünə bənzəyən balası da yanından ayrılmırdı. Onun da beli çəkik və qarnının altı ala idi. O, bir dəqiqə anasından kənar düşmür, gah sağına, gah soluna keçib onunla yanaşı gedirdi. Ayazın başına ani olaraq bir fikir gəldi: «Nə olaydı, balanı diri-diri tutaydıq.»

Təkə son keçiddə dayanıb dörd tərəfə boylandı. Hətta Ayazgilin daldalandığı qayaya tərəf də baxdı. Lakin pusquda duranları görməyib tez yoluna davam etdi. Adəti üzrə iti sürətlə bərədən qarşıdakı keçidə sıçradı. Baba «-Ay kafir, yaman zirəksən»,-deyib barmağı tüfəngin tətiyində, sürünün bərəyə gəlməsini gözlədi. Bu qərara gəldi ki, qabaqda yeriyən bir-ikisini buraxsın, sürünün ortasına atəş açsın, O zaman şübhəsiz ki, ikisini, üçünü vura biləcəkdir. Babanın bu qəsdini anlayan Ayaz düşündü ki, yəqin ana və onun gözəl balası da keçiddə vurulacaq...

Düşündü və kədərləndi-qəribə idi. O, nə bu gözəl balanın, nə də onun gözəl anasının ölməyini istəmirdi. Elə bu an bala başını bu tərəfə çevirdi, gözəl gözləri ilə məlul-məlul Ayaza tərəf baxdı. Ürəyində baş qaldıran qəribə bir duyğudan Ayazın canına üşütmə düşdü. Sanki kim isə qulağına pıçıldayıb dedi: «Bu nə işdir? Xəlvətcə bir daşın dalında yat, dağların yaraşığı olan bu gözəl heyvanlara hər an, hər dəqiqə ölüm hazırla. Nə qədər insafsız, nə qədər amansız bir iş». Yalnız indi, barmağını tüfəngin tətiyinə bircə dəfə basmaqla heyvanlardan hansınınsa yaralanıb öz qanına bulanacağı dəqiqədə Ayaz bu hərəkətin bütün amansızlığını duydu və anlaya bilmədi ki, babası kimi yumşaqürəkli, mehriban bir adamın belə işə necə də ürəyi gəlir.

– Hə, hazırlaş, lap bərəyə yaxınlaşırlar, ikisini, üçünü vuracağam,-deyib baba pıçıldadı və tüfəngi sinəsinə sıxdı, əlini tətiyə qoyub gözünü qıydı.

Ayaz gördü ki, onun geniş alnındakı, çıxıq yanaqlarındakı nazik damarlar qızarıb. Qırış-qırış əlləri belə başqa rəngə çalır. Bu əllər tüfəngi bərk-bərk sinəsinə sıxmışdı. Baba bütün vücudu ilə atəş açmağa hazır idi. İki-üç dəqiqə keçməz ki, səhər suyuna gedən bu gözəl heyvanlardan biri bəlkə də bir neçəsi al qanına bulanar. Sürü təkənin dalınca bərədən adlamaq istəyəndə ana keçi öz balası ilə güllə mənzilinə yaxınlaşdı. Hətta bala yazıq gözlərlə yenə Ayaza tərəf baxdı. Bu zaman baba barmağını tətiyə basdı. Ayaz qeyri-ixtiyari olaraq ildırım sürətilə babasının sinəsindəki tüfəngin lüləsindən yapışıb havaya qaldırdı. Nagahani gurultu dağları sarsıdanda sürü bir anın içində qayaların arasına səpələnib gözdən itdi...

Ayaz tüfəngin lüləsini yuxarı qaldıranda az qala arxası üstə yıxılıb dərəyə uçacaqdı. Qoca ani sürətlə nəvəsinə çəpəki bir nəzər saldı:

– Nə qayırırsan, dəli-zad olmamısan ki?-deyib özü də hiss etmədən əsəbi hərəkətlə nəvəsinin sinəsindən itələdi.

Ayaz səndələdi və bir anda sıldırım qayaların altındakı dərənin dibini görər kimi oldu. Gözləri qaraldı, boğazı qurudu. Uçuruma yuvarlanmamaq üçün qeyri-iradi bir cəldliklə yandakı sivrim qayadan yapışdı, ayağını kəsik

qaya parçasına söykədi. Lakin qaya ayağının altından qaçdı, əli boşa çıxdı, müvazinətini itirdi. Bir anda sanki bütün dağlar başına fırlandı. Əl-qolu havada, üzüaşağı yumbalanan yerdə gözünə ilişəcək dəydi, pişik kimi sürətlə arxadakı qaya parçasını qucaqlaya bildi. Bütün ağırlığı ilə onun üstünə düşdü. Artıq ovçuluq ehtirası soyumuş və nəvəsinin başının üstünü alan təhlükəni duymuş qoca da özünə gəlmişdi. Gözucu aşağıdakı uçurumun dərinliyinə baxdı-bircə an qaya parçasını gec qucaqlasa Ayazın həmin uçurumun təkində olacağını anladıqda gözlərini yumub dodaqlarını dişlədi. Tüfəngi bir tərəfə atıb nəvəsini uçurumun ağzından bu yana çəkdi və bağrına basdı.

Ayaz onun hələ heyrət və sual dolu gözlərinə baxdıqda dedi:

— Baba, bir də ceyrana, keçiyə güllə atma...

Bu bir cümlə sanki qoca ovçu ilə ömründə toyuq başı da kəsməmiş balaca nəvənin arasındakı soyuq uçurumun dərinliyini ifadə edirdi...

Baba cavab verməyib dağdan enməyə və yavaş-yavaş kəndə tərəf yeriməyə başladı.

Baba qabaqda, tüfəngi ağzı aşağı çiynindən asıldığı halda yavaş addımlarla irəliləyirdi. Nəvə ondan on beş-iyirmi addım geridə yeriyir, ayaqlarının altında parıldayan qarın xırıltısına qulaq asaraq düşunürdü ki. yəqin baba məni aciz-avara bir şey hesab edir... Bu düşüncə onu əzir və ürəyində tezliklə şəhərə, anasının yanına qayıtmaq həvəsi oyadırdı.

Baba isə başı aşağı, heç bir söz demədən uçurumların, dərin dərələrin ağzından keçdikcə, dar cığırlarla ehtiyatla irəlilədikcə sanki doxsan illik ömür kitabını vərəqləyir və doğru yaşayıb yaşamadığını düşünürdü. Yalnız kəndə girəndə o, qayıdıb nəvəsinin dağ havası ilə qızarmış üzünə baxdı, açıq və işıqlı alnından öpdü.

— Sən haqlısan, bala,-dedi,-haqlısan.

Baba ilə nəvə arasında açılmış uçurum bağlandı.

Ayazın üstündən elə bil ki, bir dağ götürdülər...

İndi o, kəndə gəldiyinə nə qədər sevinirdi. İndi onun sinəsində anasına, məktəb yoldaşlarına deməli bir kitab söz vardı.

## ƏNVƏR MƏMMƏDXANLI

(1913)

### BUZ HEYKƏL

Qırx birinci ilin qışı. Şaxtalı bir gecə. Elə bil canlı-cansız ətrafda nə varsa, donub buz bağlamışdır, hava cingildəyir, islıq çalır, daş çatlayır, ağac çıqqıldayır, torpaq çatırdayır, nəfəs tıxanır, tikan kimi boğazda qalır.

Və indi ağappaq bir zülmət içində, günçıxana tərəf ucsuz-bucaqsız qarlı çöllərlə tənha bir kölgə hərəkət edir.

O, gənc bir anadır, körpəsini bağrına basmışdır, yurdunu tapdayan yırtıcı düşmən əlindən baş götürüb qaçmışdır, namusunu qara əllərdən xilas eləmişdir, özünü və ciyər parasını bu rəhmsiz gecənin ağuşuna atmışdır.

Və indi ağappaq bir zülmət içində, günçıxana tərəf üz tutub Böyük torpağa doğru gedir.

Qarşıda sahilləri meşəli böyük bir çay var, cəbhə xətləri o çay yaxasından keçir və zaman-zaman oradan gələn top gurultuları gecələr dağlardakı qar uçqunlarının çoxmərtəbəli nəriltiləri kimi şaxtalı gecəni titrədib lərzəyə salır.

Və ana tələsir, hava işıqlanmamış o özünü cəbhə xəttinə yetirməlidir, körpəsini çayın o tayına-azad torpağa keçirməlidir, sinəsi üstündəki uşaq həyatını yenidən ocaq istisi, gündüz işığı, günəş ziyası ilə isindirməlidir.

Ana nəfəsini dərmədən gedir, yıxılır, qar içində batıb qalır, çırpınır, qar içindən ayağa qalxır, amma nə qədər yol gedirsə, elə bil zaman da bu gecə donub hərəkət eləmir, saniyələr yerində sayır, irəli getmir və qarlı çöllərin sonsuzluğunda bir qarış tükəniş əlaməti görünmür.

Ana taqətdən düşür, şaxta zəhərlə suvarılmış qılınç kimi kəsir və anaya elə gəlir ki, bu qılınc indi onun qucağındakı körpənin həyatına qəsd edir və

ananın alacalanmış gözləri daldalanmaq üçün bir bucaq, pənah gətirmək üçün bir sığınacaq axtarır.

Bir az irəlidə qoşa bitmiş bir cüt ağcaqayın ağacı iki ağ sütun kimi göyə ucalmışdır, ana o ağaclara doğru gedir. Qucağındakı körpəsiylə o ağaclara söykənib dayanır, indi ayaq üstə dayanmaq üçün, nəyə isə istinad etmək üçün bu sonsuz qarlı çöllərdə bu bir cüt çılpaq ağcaqayın ağacından savayı ana üçün digər bir istinadgah yoxdur...

Şaxta isə buzlu bir alov kimi ananın üz-gözünü qarsır və ana, ürəyində qıvrılan bir qorxunun ağladığını, şivən qopardığını eşidir-körpə donur, körpə donacaq, qolları arasındagı kövrək bir nəfəs sönəcək, sinəsi üstündə buz bağlamış bir dünyanın ağırlığı çökəcək..

Lakin ana ürəyində ağlayan qorxuya üsyan eləyir-qoy dünya buzlağa dönsün, həyat yer üstündən qaçıb yer altına köçsün, yenə də ana ürəyinin hərarəti sönməyəcək və rəhmsizliyi ilə bədheybət olan heç bir kor qüvvə kiçik bir həyat fidanını ananın sinəsindən qoparda bilməz.

Və ana kəskin bir hərəkətlə əynindən yun jaketini çıxardır və bərk-bərk körpəsini büküb bürkələyir, amma şaxta qızmar bir dəmir kimi ananın üz-gözünü dağladıqca, iliklərinə işləyən soyuqdan vücudu tir-tir əsib titrədikcə, anaya yenə elə gəlir ki, bu donan, bu titrəyən körpəsidir və ana bu dəfə başından qalın şalını da qopardır və yenə körpəsini büküb-bürmələyir, özü isə yalın əyni ilə şaxta qarşısında müdafiəsiz qalır.

İndi o hiss edir ki, donur, şaxtanın buzlu kəməndindən qurtuluşa gümanı yoxdur və istinadı yalnız budur ki, söykəndiyi bu bir cüt ağcaqayın ağacı onu tutub ayaq üstündə saxlamışdır və ana yenə bir əlilə əynindən nə isə qopardır və bir əlilə əynindən nə qopardırsa hamısını bir-bir körpəsinin üstünə qalaqlayır və titrəyən son nəfəsini, eşidilməyən son sözünü də körpəsinin üstünə örtür-qorxma, tifilim, qorxma, uşaqcığım, son nəfəsimin istisi də sənindir...

Sonra ana susur, beynində batqın bir uğultu qopur, qulaqları dibində sınıq cingiltili mis simlər gərilir və gərilən bu simlər bir-birinin ardınca

qırılır, ananın göz qapaqları kilidlənir, nəfəsi çilik-çilik olub ayaqları altına tökülür və ana şaxtanın buz zənciri ilə qoşa ağacqayın ağaclarına bitişib hərəkətsiz qalır.

Və indi göydə ulduzları cingildəyən amansız bir qış gecəsi anaya başqa bir don biçir, başqa bir örtük geyindirir və şaxtanın buz barmaqları dayanmadan ana üçün büllur naxışları ağ ulduzlu yeni bir libas toxuyur...

Ovxarlanmış bir qılınc tiyəsi kimi kəskin işığıyla göz qamaşdıran şaxtalı bir səhər açılmışdır.

Və iki ağ sütun kimi göyə ucalan qoşa ağcaqayın ağacları qarşısında çiyinləri ağ xalatlı üç nəfər dayanmışdır.

Onlar gecə kəşfiyyatından qayıdan üç nəfər gənc döyüşçüdür, indi hər üçü başlarını açıb, yerlərindən qımıldanmadan, gördükləri bir mənzərə qarşısında donub qalıblar və onlar bütün ömürləri boyu qarşısında dayandıqları bu mənzərəni unutmayacaqlar...

Bu, donmuş gənc bir qadının buzdan tökülmüş buz heykəlidir.

Və onlar, üç nəfər gənc döyüşçü, müqəddəs bir mehrab qarşısında dayanmış kimi nəfəslərini udublar. Nə vaxtdan bəri gəlib burada dayanıb durduqlarını unudublar və daş kimi ürəklərindən asılan hissin ifadəsi söz xaricində qaldığı üçün, susublar.

Nəhayət, onlardan biri yerindən tərpənir, nə isə bilinməz bir qüvvə çəkib onu irəli aparır, yaxınlaşır, donmuş qadının buz heykəli qarşısında dayanır və bir an tərəddüddən sonra hansı bir sevgi-təbii hissin və daha artıq dəlicəsinə bir ümidin təlqini ilə ananın qolları arasındakı üstü buz bağlamış düyünçəni yoxlayır, həyəcandan titrəyən barmaqları ilə qarı çırpır, dırnaqları ilə buz təbəqəsini qəlpə-qəlpə qopardır və ürək döyüntüsülə buz altındakı örtükləri çözür, açır, dağıdır və birdən... Ordan, düyünçənin dərinindən kiçik bir varlığın baxışları gözlərinə zillənərkən, bütün gözlədiklərinə və gözləmədiklərinə rəğmən bu anasızın körpə baxışından səksənir, döşündən itələnmiş kimi bir addım geri sıçrayır və sonra dönür,

tələş içində ona baxan yoldaşlarına, susub durmuş bu sonsuz qarlı çöllərin səssizliyinə və donmuş, buz bağlamış bütün bu dünyaya üz tutub qıy vurur:

— Körpə sağdır, uşaqlar, eşidin, körpə sağdır və qoy bütün dünya eşitsin, körpə sağdır...

Və o vaxt ki, hər üçü baş-başa verib ana qucağındakı körpənin üstünə əyilir, baxırdılar, gözlərinə inanmırdılar, baxırdılar, boğazlarında düyünlənən qəhərdən heç biri heç bir söz deyə bilmir; səhər işığından gözləri qamaşan körpə isə donmuş ana qucağından heyrətlə onlara baxır və gülümsəyir-dəfələrlə od-alov içindən keçmiş üç gənc döyüşçünün gözlərində yaş durmur və hər üçü əllərinin tərsilə gözlərini silirlər.

Sonra başlarını qaldırırlar, yenidən ananın buz heykəlinə baxırlar və yerə kimi səcdə edərək, son dəfə ananın buz heykəli qarşısında baş əyirlər.

Vaxtdır-geri dönməlidirlər və hər üçü bir-biri arxasınca sıraya düzülüb geri dönürlər və körpəni növbə ilə bir-birindən alıb sinələri üstə aparırlar və hər dəfə körpə kimin qucağında gedirsə, digər ikisindən biri öndə, biri arxada körpənin keşiyində mövqe tutub addımlayır.

Və indi gənc ananın buz heykəli artıq onlar üçün tuncdan tökülmüş əbədi bir heykəldir ki, ana ürəyinin ölməz şücaətini təcəssüm etdirən ən möhtəşəm bir abidə kimi həmişə xəyalında həkk olub qalacaqdır...

## İLYAS ƏFƏNDİYEV

(1914)

### OVÇUNUN NAĞILI

Yayın son günləri idi. Meşəni ov üçün çox gəzib yorulmuşdum, həm də çox acmışdım. Bir tərəfdən də axşam düşürdü. Yerdə yatmaq, əlbəttə, qorxulu idi, buna görə də armud ağacına çıxdım. Yetişmiş armudlardan doyunca yedim. Sonra ağacın qalın bir yerində yerləşib uzandım. Belimdəki möhkəm qayış kəmərlə özümü ağaca bağladım. Məni yuxu tutdu.

Gecənin bir vaxtı elə bil ki, məni oyatdılar. Gözlərimi açdım. Arxa tərəfdən hənirti gəlirdi. Çevrilib baxanda qorxudan donub qaldım. Budaqda oturmuş böyük bir ayı mənə armud uzatmışdı. «Ayı mənə armud verir, bu necə işdir?»-deyə təəccübləndim.

Mən nəfəs çəkməyə qorxurdum. Əgər əlimi, budaqdan asmış olduğum tüfəngimə atsaydım, o məni dərhal parçalayacaqdı. Ayı armudu ağzına qoyub yedi. Sonra başqa birini dərib yenə mənə tərəf uzatdı. «Mən bunu da almasam, yəqin onu hirsləndirəcəyəm»,-deyə düşünüb əlimi armuda uzatdım və özümü tamam itirmiş olduğum üçün bərkdən: «Sağol» dedim. Söz ağzımdan çıxar-çıxmaz ayı diksindi və ağacdan birbaş yerə hoppandı. Lakin o, yıxıldığı yerdən bir daha qalxmadı. Mən səhərə qədər oyaq qaldım. Bütün bu müddətdə ayı kiçik bir hərəkət belə etmədi.

Hava işıqlandı. Mən ağacın bir qədər aşağısına enib, yerdə uzanmış ayıya diqqət etdim. O ölmüşdü. Ağac çox uca olduğundan, yerə tullananda yəqin ki, beli sınmışdı. Sonralar qoca ovçular söhbət zamanı məni başa saldılar ki, «heç sənin orada olmağından ayının xəbəri yox imiş. O, armudu sənə vermirmiş, işığa tutub baxırmış ki, görsün yetişib ya yox; çünki ayı kal armud yeməz».

## CEYRAN OVU

Babam ancaq ceyran ovuna gedirdi, bu işdə onun məharəti vardı.

Ceyran çox iti qaçan və həssas heyvandır. Buna görə də ceyran ovu başqa ova bənzəməz. Bizim yerlərdə, yəni Qarabağda məşhur ceyranqovan atlar var. Onların boyları uca, ayaqları incə, başları kiçik olur. Qaçmaqda heç bir at onları keçə bilməz.

Kəndimizdə yaxşı at minənlərdən biri sayılan babamın ceyran ovunu bu qədər çox sevməsi, bəlkə də, buradan doğurdu.

Bir gün o, haramıdan ömründə birinci dəfə olaraq əliboş qayıtdı və o gündən sonra daha ceyran ovuna getmədi. Biz bunun səbəbini soruşduq. O

uzun zaman susub cavab vermədi. Bir gün sonra qaşlarını çataraq dərindən nəfəs aldı və bizə belə bir hekayə nağıl elədi:

— Bu yaz haramıda ot qurşaqdan idi. Hər çiçək bir rəngə çalırdı. Elə bil ki, yaşıl otların üzərinə brilyant, yaqut, firuzə səpilmişdi, elə bil ki, onlar günəşdən od tutub yanırdı.

Mən kəhər ürgəmi yedəyimə alıb yavaş-yavaş irəliləyir və ovdan çox dünyanın bu gözəllikləri haqqında düşünürdüm. Birdən lap yaxında bir ceyran gördüm.O, otların arasından görünən uzun boynunu burub mənə baxırdı. «Niyə qaçmır,-deyə təəccüb etdim,-bəlkə yaralıdır?» Mən əlli ildən artıq idi ki, ceyran ovuna gedirdim. Bu əlli ildə başımın tükü sayı ceyran ovlamışdım. Lakin yorulub yolda qalan, ya da yaralı olan heyvana güllə atmamışdım. Ona görə də qəsdən bərk öskürdüm ki, ceyran ürküb qaçsın, sonra güllə atım. Ancaq heyvan yerindən tərpənmədi. Mən ceyranı nişana götürdüm. Bu zaman ceyranın gözəl qara gözlərində bir yalvarış gördüm. Elə bil ki, o: «Görürsən ki, mən qaça bilmirəm, atma»,-deyirdi.

Mən qəsdən çaxmağı şaqqıqıldatdım. Onun qara gözlərinin bulağında bir damla göz yaşı parladı. Qollarım boşalıb yanıma düşdü. «Bu nə sirdir?»-deyə ona yaxınlaşdım. Ceyran yaralı deyildi. Lakin onun yanında bir cüt körpə quzusu var idi.

Gözlərim yaşardı. Bir də heç zaman ana ceyrana güllə atmayacağıma and içdim.

## YASƏMƏN AĞACI

Məktəbimizin bağçasında ucaboylu, cavan bir yasəmən ağacı vardı. Yaz gələndə bütün ağaclar kimi o da çiçək açardı. Onun açıq-bənövşəyi gülləri salxım-salxım olub sallanırdı.

Məktəbimizin bağçasındagı ağ, çəhrayı çiçəklər alça, armud, şaftalı və ərik ağacları arasında bu yasəmən ağacının qəribə bir gözəlliyi vardı.

Kəndimizdə yasəmən olmazdı. Məktəbimizdəki yasəməni isə Aslan müəllim əkmişdi. O, hər səhər bu ağacın yanına gələr, budaqları əyib salxım gülləri iylər və dayanıb ağacın gözəlliyinə tamaşa edərdi.

Aslan müəllim ucaboylu, qarabəniz, zəhmli bir adam idi. Alnında sərt qırışlar vardı. Lakin o, yasəmən ağacını seyr edərkən üzünün nə qədər incə, mehriban və xülyalı ifadə aldığını bircə görsəydiniz...

Bir gün dərsdə mənimlə bir skamyada oturan yoldaşım Cəfər əyilib qulağıma pıçıldadı:

– Müəllimin yasəmən ağacında bir bülbül yuva salıb.

Bu sözü eşitcək səbirsizliklə dərsin qurtarmasını gözlədim. Zəng vurulan kimi Cəfərlə bərabər yasəmən ağacının yanına qaçdıq.

Cəfər düz deyirmiş: salxım-salxım sallanan güllər arasında çör-çöpdən və palçıqdan qayrılmış bir yuva gördüm. Mən düşünmədən birbaş ağaca dırmaşdım. Elə yuvaya yenicə çatmışdım ki, onun içindən pırıltı ilə bir bülbül uçdu və ağacın gövdəsi ağırlığıma davam gətirməyib şaqqıltı ilə sındı. Mən yıxıldım, yuva da uçub töküldü.

Ətrafıma toplanmış uşaqlar çığır-bağır salmışdılar. Ayağa qalxanda Aslan müəllimin yanımda durduğunu gördüm. Kürəyimin arasından soyuq bir şey keçdi. Bu halı müşahidə edən uşaqlar da susdular. Aslan müəllim heykəl kimi qımıldanmadan, qəddi qırılmış yasəmən ağacına baxırdı.

Bu zaman birdən bülbül qanadlarını başımız üzərindəki alma ağacının çiçəklərinə çırpıb həyəcanla səsləndi. Aslan müəllim başını qaldırıb kiçik bir budaq üzərində oturmuş bülbülə, onun uçmuş yuvasına və mənə baxdı.

Sonra dinməzcə dönüb getdi.

Zəng vuruldu. Mən peşman olmuşdum. Mən Aslan müəllimdən məzəmmət və cəza gözləyirdim. Lakin o, mənə nə bir söz deyir, nə də üzümə baxırdı. Bu isə mənim üçün hər şeydən ağır idi. Mən istəyirdim ki, o məni danlasın, cəza versin, lakin o, susurdu.

Bir gün Aslan müəllim məndən keçən dərsi xəbər aldığı zaman onun baxışlarında elə soyuq bir ifadə hiss etdim ki, özümü saxlaya bilməyib cavab əvəzinə ağladım.

O, əvvəlki kimi sakit və təmkinli səslə mənə: «Əyləş!»-dedi və başqa bir şagirdi qaldırdı.

Mən ağlayırdım. O isə elə bil ki, bunu görmür, sakitcə dərsini keçirdi.

Zəng bayıra vurulanda Aslan müəllim işarə ilə məni çağırdı. Biz birlikdə bağçaya endik. Heç bir söz danışmadan yasəmən ağacının yanına gəldik. İndi onun yerində başı hamar kəsilmiş kötük qalmışdı. Mən gözlərimi endirdim.

Aslan müəllim bir neçə saniyə ağaca baxandan sonra mənə tərəf döndü və:

— Biz dünyaya, onu daha da gözəlləşdirmək üçün gəlmişik,-dedi. Biz onun gözəlliklərini məhv etmək üçün doğulmamışıq.

Mən onun üzünə baxmadan:

— Məni bağışla, müəllim,-dedim.

...Gələn bahar yasəmən ağacının kötüyündən yeni pöhrələr qalxdı. Mən indi həmin pöhrələrə sevə-sevə qulluq edir, onları qoruyuram.

Axı doğrudan da, biz dünyanın gözəlliklərini məhv etmək üçün doğulmamışıq...

## QILMAN MUSAYEV

(1914)

## BAHAR TÜSTÜLƏRİ

Mən kəndimizdən çoxdan çıxmışdım. Ali məktəbi bitirdikdən sonra on ilə qədər başqa rayonlarda müəllimlik elədim. Axırda elə gətirdi ki, yenə öz kəndimizə qayıtmalı oldum. Həkimlər məsləhət gördülər ki, dağ rayonu mənim səhhətim üçün daha yaxşıdır. Bizim kənd də o zamanlar yaylaq hesab olunurdu; dəniz səthindən xeyli yüksəkdə idi. Baharı xüsusilə çox səfalı keçirdi. Yaxşı suyu, soyuq bulaqları vardı. İndi təsəvvür eləyin ki, on beş il öz doğma kəndindən ayrılandan sonra təkrar oraya qayıdarkən, adam nə cür

həyəcan keçirir. Kəndə qədəm qoyarkən, düzü əvvəl gözlərimə inanmadım, çaşıb qaldım: uşaqlıqda gündə azı on-on beş dəfə qaçdığım palçıqlı küçələrdən, yovşanlı təpələrdən heç bir iz görmədim. Təzə daş binalar günün işığında ağarırdı.

Məktəb binası təpənin lap yuxarısında tikilmişdi. İkimərtəbəli ağ bina idi. Elə əvvəllərdə də məktəb binası burada yerləşirdi. Köhnə, üstü küləşlə örtülmüş yastı-yapalaq bir dam idi. İndi isə bu damdan ancaq həzin bir xatirə qalmışdı. Burada dəyişməyən ancaq bir şeydi: məktəb həyətində əkilmiş alma və şaftalı ağacları. Yaxşı yadımdadır, bu ağacları biz o zaman öz əlimizlə basdırmışdıq, mənim basdırdığım alma ağacı lap kənarda, günbatan tərəfdə idi Onu bir skamyada oturduğum Vüsalla birgə əkmişdik. O zaman beşinci sinifdə oxuyurduq. Bərk dost idik. Yeddincini bitirdikdən sonra biz ayrıldıq. hərəmiz bir sənətin dalınca getdik. Mən müəllimliyin, o isə aqronomluğun.

Mən Bakıya gəldim. Vüsal Gəncəyə yollandı. Uşaqlıq dostluğumuz da bununla bitdi. Bu dostluqdan ancaq bir şey yadigar qaldı-alma ağacı.

Məktəbin həyətinə girən kimi ötən, bir daha geri qayıtmayan uşaqlıq illərimi xatırladım. Bu xatirələr elə bil gizli, sehrkar bir qüvvə kimi məni qabağına qataraq deyirdi: «Get, get, on beş il bundan qabaq öz əlinlə əkdiyin sənin yolunu gözləyir, sənin intizarındadır». Mən də getdim. Budur, iri şaxəli budaqlarından qırmızıyanaq almalar sallanan alma ağacı. Bəli, o idi. Zəhmətimin barı. Sevincimdən boğazım qəhərləndi. Şirəli almalar da elə bil mənə baxıb utancaq qızlar kimi sevinirdilər. Mən Vüsalı xatırladım: «Görəsən o indi haradadır? Heç olmazsa bir anlığa gəlib mənimlə yanaşı duraydı, bu qırmızı yanaqlı almalara ikilikdə baxaydıq. On beş il qabaqdakı kimi. O zaman duyduğumuz ləzzəti təzədən bir də duyaydıq, o zamankı hadisəni bir daha xatırlayaydıq».

Hansı hadisə? Bu saat deyim: bu, baharda, birdən-birə düşmüş şaxtalı günlərdə olmuşdu.

Alma ağacı hələ körpə idi. Çəhrayı çiçəkləri yenicə tökülmüş, yarpaqları arasında xırdaca yaşıl düyməciklər görünməyə başlayırdı. Alma ağacının ilk nübarı idi.

Ancaq birdən gözləmədiyimiz halda havalar soyudu, axşama yaxın şaxta düşməyə başladı. Ağaclarımız qüssəli-qüssəli durub bizə baxır, sanki bizdən kömək istəyirdilər. Biz, beşinci sinif şagirdləri qərara gəldik ki, səhərədək qalıb bağçanın qoruğunu çəkək...

Təzə basdırdığımız ağaclardan xeyli aralı tonqal yandırdıq. hər tərəfi tüstü bürüdü, çatırtı ilə yanan ocaqlar sübhədək şöləlendi, bahar yuxusuna getmiş kəndin üstünü işıqlatdı. Bəli, o gecə səhərədək yatmadıq. Gülünü yenicə tökmüş ağacları şaxtadan qoruduq. Səhər yenə gün boylandı, torağaylar yer-yerdən səsləndi. Vüsalla mən alma ağacının yanında durub baxırdıq: hər şey öz qaydasında idi, ağacımızı şaxta vurmamışdı...

İndi həmin bu məktəbə müdir təyin olunmuşdum. Top-top oynadığım, dəcəllik etdiyim məktəb həyətində indi mənim şagirdlərim fərəhlə o yan-bu yana qaçışırdılar.

Buraya gəldiyimin üçüncü günü, məktəbin arxivini qaydaya salarkən köhnə bir şəkil tapdım. Bu, beşinci sinif şagirdlərinin məktəb müdiri ilə birlikdə çəkdirdikləri şəkil idi. Ürəyim sevinclə döyündü. Sağ tərəfdə, kənarda duran oğlan Vüsal idi. Həmişə olduğu kimi, yenə də gülümsəyirdi, yumşaq saçları üzünə tökülmüşdü: onun yanında da mən durmuşdum. Görünür ki, gülmək istəmişəm. Ancaq dodaqlarımı dişləyib özümü zorla saxlaya bilmişdim. Yaxşı yadımdadır, şəkil çəkdirəndə Vüsal məni tez-tez dümsükləyib güldürmək istəyirdi, ancaq bacarmırdı.

Bunu və başqa şəkilləri arxivdən götürüb albomun içinə qoydum.

Bir neçə gündən sonra Vüsalın qohumlarından birinə rast gəldim. Onun haqqında xəbər aldım. Dürüst bir şey deyə bilmədi. Gah dedi ki, Bakıda işləyir, gah da dedi ki, Moskvaya oxumağa gedib. Axırda təəccüblə mənə baxıb soruşdu:

Bəs sən oğlunu məktəbdə görmürsən?

Vüsalın oğlunu?

— Bəli.

— Adı nədir?

— Gərək ki, Çinardır.

Bundan çox sevindim. Ertəsi gün səhər altıncı sinifdə dərs zamanı sinif dəftərinə baxırdım, Çinar adını axtarırdım: budur, tapdım Veysəlov Çinar.

Ona baxmaq üçün uşağı yazı taxtasına çağırdım; vurulmuş yumşaq tüklərini sol əli ilə yana itələyən qaraşın bir oğlan yerindən qalxıb mənə yaxınlaşdı. Mən elə bil Vüsalı gördüm. O da elə bu cür, saçlarını sol əli ilə üzündən yığardı, yerişi də elə bil atasının yerişi idi.

Arada imkan tapıb soruşdum:

— Atan harada işləyir?

— MTS-də.

— Nəçidir?

— Baş aqronom.

Dərsdən sonra onu müəllimlər otağına çağırdım. Albomu açıb atasının şəklinin göstərdim.

— Tanıyırsanmı?-dedim.

Çinar diqqətlə baxdı, sonra başını yırğaladı.

— Bəs, MTS-in baş aqronomunu tanımırsan?- dedim.

O, bu sözümdən sonra elə bil qızaran kimi oldu. Çəkinə-çəkinə bir də şəkilə baxdı.

— Yaxşı, indi de görüm, o haradadır?

— Moskvada, bir illiyə oxumağa gedib. Baharda gələcək.

Bir il çox uzun çəkdi. Dost yolunu gözlərkən günlərin elə bil ikiqat uzandığını kim bilmir ki?

Bahar yaxınlaşırdı, uşaqlar məktəbyanı təcrübə sahəsində çoxlu bitki əkmişdilər. Bu işdə dostumun oğlu daha həvəslə çalışırdı. Məktəbyanı təcrübə sahəsi bir hektardan çox olardı. Burada becərilən bir neçə bitki sınaqdan çıxdıqdan sonra kolxoz onu əkməyə başlayacaqdı.

Budur, yenə may ayında birdən-birə şaxtalar düşdü.

Bu, gecə yarısı gözlənilmədən olmuşdu, tüstüyə yuxudan ayıldım. Pəncərələrin şüşələrində qırmızı kölgələr oynaşırdı. Vahimə içərisində ayağa qalxdım. Mənə elə gəldi ki, məktəb binası yanır. Tez çölə çıxdım. Tüstü aşağıdan, təpənin ətəyindən qalxırdı. Havanın şaxtasını hiss edib hər şeyi başa düşdüm. Sakitləşdim.

Uşaqlar gecə ikən şaxta düşdüyünü duymuş və təcili tədbir görmüşdülər. Aşağıda təcrübə sahəsinin hər tərəfindən qatı tüstü qalxırdı. Mən doğrusu pərt oldum. «Necə olub ki, xəbər tutmamışam?».

Aşağı endim. Uzaqda ala-qaranlıqda tüstünün içində qara kölgələrin o yan-bu yana hərəkət etdiyini görürdüm. Bunlar mənim şagirdlərim idi. Birdən Çinar yanımdaca elə bil qaranlıqdan baş vurub çıxdı. Onun qucağı çırpı ilə dolu idi.

— Müəllim, deyəsən sizi narahat etdik. Atam da buradadır...

— Vüsal?-deyə təəccüblə soruşdum.-Bəs hanı?

— Orada, uşaqların yanındadır.

Mən tüstü burulğanı içindən keçib aşağı tərəfə üz qoydum. Birdən kimsə qolumdan yapışdı Qarşımda enlikürək, ucaboy bir adam durmuşdu.

— Vüsal!

— Mənəm,-deyə o, boynuma sarıldı.

Gözçıxaran tüstüyə baxmayaraq, biz dinməz-söyləməz bir-birimizi qucaqlaya-qucaqlaya durduq.

Həyəcanla soruşdum:

— Nə vaxt gəlmisən?

— Elə bu axşam... Gecə yarısı qapının səsinə oyandım. Çinarın geyinib getdiyini gördükdə təəccübləndim. Müxtəsər, mən də geyinib gəldim. Belə oğuldan danış, uzaq yoldan gəlmiş atasını evdə tək qoymaq istəmişdi.

Bunu deyib o, bərkdən güldü və soruşdu:

— Üşümürsən ki?

— Yox,-dedim.

— Elə isə oturaq.

Biz nəm otluğun üstündə oturub, uşaqların hərəkətləririnə tamaşa edirdik. Birdən Vüsal mənə tərəf qanrılıb:

— Yadındadırmı?-deyə soruşdu.

Mən onun nə demək istədiyini başa düşdüm...

— Yadımdadır, çox yaxşı yadımdadır,-dedim. -Elə biz də bu cür, sübhədək yatmadıq. Bahar tüstüləri ilə əlimizin zəhmətini qoruduq.

Vüsal bir köynəkdə oturmuşdu, mən yay paltomu çıxarıb hər ikimizin çiyninə saldım və üfüq qızaranadək oturub söhbət etdik.

Aşağıda ocaqlar çatırtı ilə tüstülənirdi. Ağ tüstülər burula-burula yuxarı qalxır, bozarmağa başlayan bahar səmasına yayılırdı. Dan yeri söküldükcə gözlərimiz xumarlanır, xatirələr bizi uşaqlıq illərinin daha dərinliklərinə çəkib aparırdı.

Biz çiyin-çiyinə oturmuşduq. Vüsal gözlərini aşağılara dikib susmuşdu.. O, uşaqlığında olduğu kimi yenə qaradinməz idi. Lakin üzü həmişəki kimi gülümsəyirdi. Doğruur, xoş sifətinin cizgilərində uşaqlığından heç bir iz qalmamışdı. Lakin yumşaq saçları əvvəlki kimi üzünə tökülürdü.

Sübh açılırdı. Yanımızdan ötən bir uşaq qoltuğuna vurduğu uzun quru budaqları sürüyə-sürüyə aparırdı. Ala-qaranlıqda dərhal onu tanıdıq. Çinar idi.

## FIRTINA, İNSAN VƏ VAXT

Dəniz. Açıq-mavi səma. Ağ bulud karvanları. Uçuşan qağayıların çığırtısı. Dəniz sakitdir. Sular mürgüləyir, burula-burula içərilərə soxulan dəmir estakadaların üstündə həyat qaynayır. Dəniz şəhərinin küçələri ilə gənc oğlanla bir qız irəliləyir. Onlar tələsirlər. Oğlanın əlində çamadan var. Qız yay paltosunu qolunun üstünə atmışdır. Xəfif külək onun saçlarına daraq çəkir. Hər ikisi fərəhlidir. Bir qağayı quşu onların lap başı üstündən uçur. Qız şıltaq bir hərəkətlə əlini uzadıb onu tutmaq istəyir. Əli çatmır. Gülüşürlər. Qarşıda geniş meydança görünür. Vertolyot qalxmağa hazırlaşır. Oğlanla qız addımlarını yeyinlədir. Kimsə onların arxasınca yüyürür.

Meydançanın girəcəyində onlara çatır. Həyəcanlı halda nə isə deyir. Vertolyotun gurultusu onların danışığını eşitməyə qoymur. Qızın üzündə narazılıq duyulur. O, çantasından biletləri çıxarıb göstərir. Onların arxasınca gəlmiş adam çiyinlərini çəkir. Gənc isə fikrə gedir. Gözlərini qaldırıb qıza baxır. Qız həyəcanlıdır. Sanki oğlanın razılıq verəcəyindən qorxur. Oğlanın qaşları çatılır. Qız üzünü yana çevirir. Oğlan qəti və inamlı bir hərəkətlə qızın qoluna girib, onların arxasınca gəlmiş adamla geri qayıdır. Onlar, indi, demək olar ki, yolu qaçırlar. Qız arada düşüb arxaya-havaya qalxan vertolyota baxır və köksünü ötürür.

Estakadanın aşağısında, dənizdə motorlu qayıq yırğalanır. İçərisindəki adamlar kimi isə gözləyirlər. Yuxarıda estakadanın üstündə gənc oğlanla gənc qız görünür. Oğlan qızdan evə getməyi xahiş edir. Qız könülsüz gedir. Oğlan qayığa enir.

— Nə olmuşdur?

— Kəmər partlamışdır.

Suyun üzündə neft görünür. O, sanki aşağıda qaynayıb suyun üzünə çıxır. Qayıqdakı adamlardan biri deyir:

— O biri dalğıcların heç biri burada yoxdur. Təzə estakada qurmaqla məşğuldurlar. Səni də məzuniyyətdən saxladıq.

Oğlan əlini çırpır:

— Eybi yoxdur.

O, tez soyunmağa başlayır. Dalğıc kostyumunu geyir, skafandrı başına möhkəmlədirlər. O, suyun dibinə çökür. Qağayı quşları həyəcanla çığırışırlar. Hava qaralır. Birdən-birə qopan külək dənizin sinəsini qabardır.

Ala-qaranlıq otaq. Tənha qız. Divar saatı.

— Tiq-taq...

Əqrəblər saat səkkizi göstərir. Bayırda fırtına güclənmişdir. Qız pəncərədən baxır. Otaqda gəzişir. Boyaboy qalxan ləpələr qayığı yırğalayır. İçindəki adamlar gərgin vəziyyətdə gözləyirlər. Onlardan biri ağzını trubkaya yaxınlaşdırıb soruşur:

— Hə, orada necədir?

Trubkada gəncin səsi eşidilir.

— Üç yerdən partlamışdır. Birincini qurtarıram.

Otaqda qız vurnuxur. Küləyin uğultusu onun əsəblərini pozur. Saat «tiq-taq» işləyir. Külək pəncərələri titrədir. Ləpələr qalxaraq qayıqdakıların üstünə səpələnir. Aşağıda suyun altında qaynaq şəraraləri. Yenə qız, yenə saat tıqqıltısı. Yenə coşmuş dəniz. Qayıqdakılar. Həyəcanlı üzlər. Trubkada gəncin səsi: «İkinciyə başlayıram». Otaqda gəzişən qızın addım səsləri. Saata dikilmiş həyəcanlı gözlər. Suyun altında qaynaq parıltıları. Bir-birini qovalayan, polad dirəklərə dəyib parçalanan ləpələr. Qayığın üstünə hücum çəkən quduz dalğa. Bir anda görünməz olan qayıq və onun içindəkilər. Yenə başdan-ayağa islanmış adamlar. Beşik kimi yırğalanan qayıq. Suyun altında sönmək bilməyən şəraraləər. Trubkada səs: «Qaldırırıq». «Yox, lazım deyil, ikincini qurtarmağa az qalıb». Saata dikilmiş həyəcanlı qız gözləri. İki saat keçmişdir. Üzüntülü və həyəcanlı «tiq-taq». Ləpələrin quduz ulaşması. Stola düşmüş qız başı. Ehmalca atılan çiyinlər. Qaranlıq. Coşğun dəniz. Uzaqlarda ulduz kimi kirpik çalan işıqlar. Bir işıq, iki işıq, üç işıq... Qalxıb-enən ləpələrin arxasında görünən çıraqlar dənizi. Yırğalanan qayıqdan parıldaşan gözlər. Sualtı qaynaq şəraraləri. Parovoz səsi. Qalın şam meşəliklərinə soxulan surət qatarı. Vaqonun kupesi. Gənc oğlanla gənc qızın fərəhli sifətləri. Qız: -Sevirsənmi? Oğlan; -Sevirəm. Qız:-hansımızı çox. Məni, ya dənizi? Oğlan: -hər ikinizi. Dəhşətli bir gurultu. Qaranlıq otaq. Sərasimə yerindən qalxmış qız. Eyni ahənglə eşidilən «tiq-taq». Bir anlığa nura qərq olmuş dəniz. İldırımla parçalanan göy. İşıqlanmış otaqda saat əqrəbləri. Üç saat keçmişdir. Trubkada səs: «Niyə dinmirsən?, «Üçüncüyə başlayıram», sanki bu sözdən diksinən qız. Şiddətlə çırpınan qapı. Evdən hövlnak bayıra atılan qız. O, estakadanın üstü ilə qaçır. Külək ona hücum çəkir. Qız polad sürahilərdən yapışa-yapışa gedir. Ləpələr onun üstündən aşıb keçir. Qızın qarşısına çıxan işgüzar adamlar. Hamıda narahatlıq; haraya isə gedirlər, haradansa qayıdırlar. Qız çətinliklə qayığın durduğu yerə çatır. Polad

sürahidən tutub aşağıya, qayığa baxır. Aşağıdan yuxarı zillənən gözlər. Amiranə bir səs: «Evə gediniz, orada durmaq xatalıdır». Qız tərpənmir, dinmir, səs təkrar eşidilir: «Mən sizə əmr edirəm, evə gediniz». Könülsüz hərəkət edən ayaqlar. Onlar saatın əqrəbləri ilə əvəz olunur. Üç saat yarım keçmişdir. Sualtı şərarələr. Skafandrın içində oğlanın başı. Üzündə yorğunluq. Tərləmişdir. Yuxarıdan səs: «Bəsdir, qaldırırıq». Cavab: «Tələsməyin, bir az gözləyin». Coşan dəniz. Çaxan ildırım. Qulaqbatırıcı göy gurultusu. Yenə alaqaranlıq otaq. Tənha qız. Vurnuxan ayaqlar, aramla eşidilən «tiq-taq». Qız kitab şkafının qabağında durur. Əli uzanır, kitab vərəqlənir. Şairin səsi eşidilir: «Biz cəsurların igidliyinə eşq oxuyuruq». Sualtı şərarələr. Gəncin yorğun sifəti. «Tiq-taq». Əqrəblər dörd göstərir. Kitab qızın əlindən yerə düşür. Oturduğu yerdə gözləri yumulur. Şiddətlə açılan qapıdan diksinir. Gənc astanada durmuşdur. Qız ona tərəf yüyürür:

— Laçın!

Qaranlıq. Bayırda dəniz yenə uğuldayır. Yenə də yorucu, usandırıcı «tiq-taq». Birdən bu səs də kəsilir.

Suların dalından günəş boylanır. O çox iridir. Qızıl tabaq boyda. Onun qırmızı işığında yorğun düşmüş dəniz tənbəl-tənbəl dincəlir. Gecəki qaranlıq otaq da işıqlanmışdır. Lakin «tiq-taq» eşidilmir. Saat da yorulmuşdur.

Qızla oğlan isə estakadanın üzərinə irəliləyir. Onlar tələsirlər. Qız fərəhlə oğlana baxıb gülümsəyir, yenə başının üstündən uçan qağayı quşunu tutmaq istəyir. Əli çatmır. Gülüşürlər. Dəniz də gülümsəyir.

## BAYRAM BAYRAMOV

(1918)

## GÖYÇƏK

Dağların sinəsindəki qar hələ yenicə yumşalıb əriyir, üzülmüş ətək kimi dilim-dilim olurdu. Düzənlərdəki çalaların qarı göz-göz olur, altdan əriyir, getdikcə yatıxıb gözdən itməyə başlayırdı. Qonaq gəlmiş quşların səsi

ağacların tumurcuqları pul-pul olmuş budaqlarından eşidilməkdə idi. Bunlar haradan gəldilər, bunları kim gətirdi?..

Hələ fevral ayında, qışın oğlan çağında Mürsəl gül-çiçək toxumu satılan dükana getdi. Müştəri olmadığına görə, közərmiş manqalın yanında aram-aram mürgü vuran saqqallı dükançının yuxusuna haram qatdı:

— Dayı, mənim üçün ən gözəl, ətirli nadir güllərin toxumundan ayrı-ayrı çək.

Dükançı yuxulu gözlərini döyə-döyə başını tərpətdi, biganə bir tərzdə mızıldandı:

— Çilingər qardaş traktorların təmirini qurtardı?

— Mən gül-çiçək toxumu istəyirəm, dayı. Nərgiz, bənövşə, zanbaq, ətirşah... Dedim ki, ən ətirli, ən gözəl çiçəklərin toxumunu verəsən.

— Hələ vaxta qalır, mən də dedim ki, maşınları təmirdən çıxardasan, onacan yaz gələ, vaxt-vədə çata. Bir də ki, gül-çiçək əkib-becərmək çilingər işi deyil. Vədəsi çatanda deyərsən, gəlib özüm bağçanı cənnətə döndərərəm.

Mürsəl mazutlu, qabarlı əllərinə baxdı, döş-döşə dayandığı kişidən bir boy hündür olan, necə deyərlər, qollu-budaqlı öz gövdəsinə nəzər saldı. Nədənsə ürəyindən incə bir gizilti keçdi.

— Gümanım var ki, özüm də bacararam. Sən toxumları seç.

— Vaxtı-vədəni bilmədiyin üçün gül becərə biləcəyinə də şübhə edirəm. Hər şeyin öz vaxtı var, ay oğul, vaxtsız əkilən gül şaxtaya düşər, borana düşər, bitməz, zəhmətin hədər olar. Bizim yerlərin qışı sərt olur, aprelə qədər torpağın donu açılmır.

«Vaxtsız əkilən gül şaxtaya düşər, borana düşər...»-deyə Mürsəl ürəyində bir neçə dəfə təkrar etdi.

Dükançı saqqalını sığallayıb gülümsündü, gözünü Mürsəldən ayırıb sönməkdə olan manqala baxdı. Əllərini qabaq-qabağa gətirib kürkünün qollarına saldı.

— Nə fikrə getdin, çilingər qardaş?

— Əgər vaxt-vədə deyilsə, dükanı bu soyuqda nə işə açırsan?

— Qulluq borcumdur.

— Toxumları seç ver.

— Deməli, sözümə baxmırsan?

— Tələsirəm, kişi, tez elə.

— Məndən deməkdir.

Kişi əvvəlcə taxta narçasını götürüb güllənmiş manqalı yellədi, gül qalxıb onun başına ələndi, saqqalına töküldü. Sonra o, dolu torbaları bir-bir gətirdi. Hərəsindən bir üskük götürüb kağıza bükə-bükə adlarını dedi: bu-nərgiz..., bu-ətirşah..., bu-filan...

Mürsəl həyətə gəldi. Bir il bundan əvvəl fəsilin bu çağında, həyətin həmin bu yerində dayanıb qonşu evin eyvanına boylanmışdı. O, buraya qonşu gələn gündən həmin eyvana, həmin qıza diqqət yetirmiş, üççə gün sonra müəlliməyə eşq elan etmişdi. Dərhal da buz kimi soyuq, şaxta kimi kəskin bir cavab almışdı. Mürsəl indi həmin yerdə torpaqı qazımağa başladı. Belə kar görmədi, külüng gətirdi, şaxtalı torpağı çapdı, əzdi, mümkün qədər yumşaltdı. «Lap indi əkəcəyəm, becərəcəyəm, gül də açacaqdır...» Ləkləri düzəltdi, toxumları səpdi, üstünü torpağın yumşağı ilə birtəhər örtdü. Su da tökdü. Həmin gecə don necə vurdusa toxumlar şaxtaya düşdü. Mürsəl gözlədi, günlər ötdü, aylar keçdi, heç bir şey çıxmadı. O, hər gün sübh çağı güllərin cücərib cücərmədiyini yoxlamağa çıxanda qonşuda yaşayan müəllimәni həmişə eyvanda gördü...

Mürsəl yer üzünə hərarət gələn vaxt torpağı eşələdi, toxumlar tamam çürümüşdü... Qoca dükançının sözlərini yada saldı: «Vaxtsız əkilən gül şaxtaya düşər, borana düşər...»

Aprel gəldi, quşlar gəldi. Mürsəl yenə də onlara baxa-baxa dilləndi: «Bunlar haradan gəldilər? Bunları kim gətirdi?»

O, yenidən toxum aldı. Sinəsinə hərarət gəlmiş yumşaq torpağı bellədi, toxum səpdi, su verdi. Vaxt çatan kimi ləklər göyərdi. Vaxt yetən kimi ləklər rəngdən-rəngə düşdü, güllər açıldı.

Mürsəl hər səhər işdən əvvəl ləklərə baş çəkib boy verən, ləçəklənən çiçəkləri tanıyır, adını deyirdi; bənövşə açdı. Bu da ətirşah, yarpaqlandı. Bax bu gün də zanbaq çiçəkləyib. Nəhayət, hər ləçəyə yeddi rəng verən ətirli, rayihəli bir gül açdı. Mürsəl nə qədər diqqət yetirdi, nə qədər fikirləşdi onun hansı çiçək olduğunu tapa bilmədi.

O, qonşu eyvana baxdı, müəlliməni gördü. Soruşsunmu? Cəsarət eləmədi... hər nə isə göyçək çiçəkdir.

Mürsəl həmin gülə «Göyçək» dedi, çiçəyin adı da onun təsəvvüründə «Göyçək» qaldı...

Çöldə işlər qızışdı, günlər isindi, güllərin qayğısı artdı; alağını çəkmək, suvarmaq, daha çox baxmaq lazım idi. Bəzən Mürsəl iki-üç gün işdən evə dönə bilmirdi. Nigaran qalırdı, ancaq həyətə dönəndə çiçəkləri suvarılmış, həyəti sahmanda görürdü. O görürdü ki, «Göyçək» qol-budaq atıb, daha göyçək güllər açıb.

Bir axşam işdən dönüb güllərə baş çəkəndə qonşunu eyvanda gördü. İndi onun nəzərləri uzaqlara deyil, həyətə, güllərə dikilmişdi... Mürsəl «Göyçəy»in güllərindən dərdi, bir dəstə bağladı. Qonşunun eyvanına yaxınlaşdı. Gülü qızın qarşısına, məhəccərin üstünə qoyub tez qayıtmaq istədi, elə bu an hərarətli bir səs eşitdi:

– Çox sağ ol.

– Özünüz becərmisiniz, dəyməz.

– Bu gülün adı nədir?

– Əsil adını bilmirəm, özüm ad qoymuşam: «Göyçək».

Müəllimə güldü:

– Bir həyətdə Göyçək bir olar, iki yox.

– Bizim həyətdə «Göyçək» ancaq bu güldür.

Göyçək müəllimənin ürəyi çırpınsa da sözünü dedi:

– Gülün adını dəyiş, Mürsəl, onun öz adını tap.

– Bəs onda bizim həyət Göyçəksiz qalmazmı?

– Qalmaz...

Mürsəl iş üstünə güllərdən arxayın getdi. Ancaq qoca dükançının sözlərini unuda bilmirdi... «hər şeyin öz vaxtı var, ay oğul, vaxtsız əkilən gül şaxtaya düşər, borana düşər».

## İSMAYIL ŞIXLI

(1919)

### SƏHƏRİ GÖZLƏYİRDİK

1

Mən hissəni yoxlamaq məqsədi ilə uçuq qazmadan çıxdığım zaman, payızın son yaşıllıqlarına bürünmüş xırda təpələri sarımtıl şəfəqlərinə qərq edən günəş uzaqdagı dağların dalında gizlənməyə tələsirdi.

Dünən yerləşdiyimiz balaca kənd darmadağın edilmişdi. Yanan evlərin kərpic bacaları ucalır, bəzi daxmalar isə hələ də alov içində qovrulurdu. Tısbağa kimi yöndəmsiz halda yanı üstə çevrilmiş tanklar tüstülənirdi.

Hava ağır idi. Göyə sovrulmuş torpaq və barıt tüstüsü bir-birinə qarışaraq, qara duman kimi ətrafa yayılırdı. Nəfəs almaq çətinləşir, barıtın kəsif qoxusu boğazları qıcıqlandırırdı. Ölü sükut hər yeri bürümüşdü. Hamı, hətta səhərdən fasiləsiz olaraq yeri-göyü titrədən silahlar belə susmuşdu. Yaralılara yardım edən, onları nisbətən təhlükəsiz yerə aparan şəfqət bacılarından başqa heç kəs yerindən tərpənmir, ya da ki, mərmi çuxurlarında uzanaraq sükut edirdilər. Dəniz tərəfdən əsən soyuq külək isə barıt tüstüsünü yavaş-yavaş qovur, sanki bizə rəhm edərək havanı təmizləyirdi. Vəziyyətimiz ağır idi. Düşmən bizi sıxışdırıb dənizə tökmək istəyirdi. Əlimizdəki sahə lap kiçilmişdi. Dənizlə bizim aramızda ikicə kilometr məsafə qalmışdı. Arxadan kömək ala bilmirdik. Qüvvələrimiz zəifləmişdi. Lakin biz bu bir parça torpağı əlimizdən verməməli, onu nəyin bahasına olur-olsun saxlamalıydıq. Çünki bu bir parça torpaq Krımın taleyini həll

edəcəkdi. Bura ləpələri yararaq Kerçə gələcək desant gəmilərinin sahilə yan alması üçün ən əlverişli sahə idi.

Mən döyüşçüləri bir-bir yoxlayırdım. Onların üzünü tük basmışdı. Üst-başları toz-torpağa bulanmışdı. Neçə gün idi ki, üzlərini də yuya bilməmişdilər. Mühasirədə olduğumuz ay yarım müddətdə saçlarına qayçı dəyməmişdi. Ruhi gərkinliklərindən üzləri qırışmış kimi idi. Hətta deyəsən bir çoxlarının saçı da ağarmışdı.- Rama, -deyə kimsə qışqırdı.

Hamı göyə baxdı. Uzaqda, zəfəran rəngli bulud layları arasında bir qaraltı görünürdü.

Boğuq-boğuq uğuldayan motor səsi getdikcə aydınlaşdı. Düşmənə bir şey sezdirməmək üçün heç kəs tərpənmədi. Kəşfiyyatçı bizə yaxınlaşdı. Başımızın üstə bir neçə dövrə vurdu. Birdən-birə təpəsi aşağı şığıdı. Havaya ağ şeylər səpələndi.

Dəqiqələr keçdi. Onlar aşağı endi. Kiçik ağ nöqtəciklər böyüdü və nəhayət, kağız parçalarına çevrilərək ətrafa töküldü. Mən birini götürdüm. Əllərim titrəyə-titrəyə, ürək çırpıntısı ilə oxudum: «Rus, sabun və paltar hazırla, sabah dənizdə çiməcəksən».

Əsəbiləşdim. Kağızı ovcumda sıxıb əzişdirdim. Dənizin havası bədənimi üşütdü. Mən geri dönüb sarımtıl ləpələrə baxdım. Onlar hirslə çırpınır, sahili yalayır, bəzən də şırıltı ilə qayalara toxunub, minlərlə damlalara parçalanaraq havada parıldayırdı.

Dəniz yaxında idi. Ləpələr az qalırdı ki, ayağımızı yalasın. Mən əlimizdə olan yarımdairəvi sahəni xeyli gözdən keçirdim. Pulemyotçu Gamranla qarşılaşdım. O, matros pencəyinin yaxasını açmışdı. Saçı üzünə dağılmışdı. Paltarı enli kürəyinə dar gəlirdi. Vərəqləri bıçaqla doğrayıb cibinə yığırdı. Dodaqlarında həmişəki kimi istehzalı təbəssüm var idi. Məni görcək:

Kapitan,-dedi,-papiros çəkməyə kağızım yox idi. Frisin vərəqləri yaman yerdə köməyə çatdı.

Mən onun gülləsi olub-olmadığını soruşdum.

Köksünü ötürüb üzümə baxdı:

— Azdır.

Mən ona heç nə demədən yoluma davam etdim. Qarşıma çıxanlardan vəziyyəti öyrənir, bəzi əmrlər verir, yenə də irəliləyirdim. Onların hamısı sükut edirdi. Bu sükutdakı dərin mənanı anlayırdım. Mən səngərləri hərləndikcə müxtəlif baxışlara, sifətlərə rast gəlirdim. Onlar mənim gözümün içinə dik baxır və sükut edirdilər. Mən bu baxışlarda düşmənə qarşı qəzəbli, kinli bir qəlbin ifadəsini oxuyurdum.

2

Göy üzünə səpələnmiş ulduzlar tez-tez göz qırpır, səhər yelinin dalğalandırdığı çəmən çiçəkləri kimi titrəşirdi. Dəniz uğuldayaraq narahatlıqla çırpınır, sahil qumlarını öz köpüklü dilləri ilə yalayırdı. Nəmişli hava insanı üşüdür, çiyinlərimizdəki plaşlara gümüşü tozcuqlar səpələnirdi. Göylərin əbədi səyyahı olan ay ağır-ağır irəliləyirdi, laqeydcəsinə kainata tamaşa edirdi. Uzaqda dağlar ayın donuq işığı altında mürgüləyirdi. Lakin bizim dörd yanımız yanırdı. Sanki ətrafımızda yarımdairəvi halda tonqal qalamışdılar.

Gecə keçir, ay dolanır, ulduzlar sayrışırdı. Səhər, həm də odlu-alovlu bir imtahan səhəri yaxınlaşırdı. Bizim isə düşməni susduracaq qədər döyüş sursatımız yox idi. Nədənsə bu gün yardım qüvvəsi gecikirdi. Hər axşam bizə ərzaq və döyüş sursatı gətirən gecə qırıcıları üfüqdə görünmürdü. Arabir havaya atılan düşmən fişəngləri əyri qövs cızaraq sönür, bir anlığa ətrafa sarımtıl işıq saçırdı. Düşmən pulemyotları yolçuları narahat edən it kimi bir-iki ağız hürüb, yenə susurdu. Hər şey yenidən sakitləşirdi. Yalnız Qara dəniz çırpınaraq çalxalanırdı. Sanki hamı yatmışdı. Əslində isə gözlərdən yuxu qaçışdı, ürəklər səbirsizliklə döyünür, səhərin açılmasını gözləyirdi.

Qolumdakı fosforlu saatın əqrəbi üçü göstərirdi. Mən yenə də səngərləri dolaşmağa, vəziyyəti yoxlamağa başladım. Hamı sükut edirdi. Ətraf isə yanırdı. Səhərə az qalmışdı.

— Kukuruznik,-deyə kimsə sevinclə dilləndi.

Mən dayandım.

Dəniz tərəfdən bir-birini təqib edən gecə şahinləri bizə yaxınlaşırdı. Bir azdan sonra başımızın üstə dolaşmağa başladı. Dəqiqələr keçdi. Yerə ərzaq və döyüş sursatı atıldı. Təyyarələr gəldikləri səmtə üz tutub qayıtdılar.

Gözlənilmədən düşmən projektorları rəqsə başladı. Havanı çalın-çarpaz doğrayıb təlaşla sağa-sola qaçışdı. Onlar getdikcə yüksəldi. Sanki ulduzların arasını axtarmağa başladılar. Lakin əllərinə bir şey keçmədi. Kökündən kəsilmiş ağac kimi yerə sərildilər.

3

Ətrafa səpələnmiş ərzağı və döyüş sursatını toplamaq üçün müəyyən dəstə ayırıb sahilə göndərdim. Özüm də arxalarınca getdim. Sürünə-sürünə dənizin sahilinə qədər endik. Ay işığından istifadə edib, hər yeri, çuxurları, çökəkləri diqqətlə yoxlamağı, bir dənə də şey itirməməyi döyüşçülərə tapşırdım.

Dənizin soyuq havası üzümü yaladı. Başım ağrıyırdı. Üzümü yumaq istədim. Sahilə endim. Əlimi suya uzatdım. Lakin ləpələr mənimlə zarafatlaşırmış kimi geri çəkildi. Mən bir az irəlilədim. Ləpələr indi də mənə hücum edib ayağımı islatdı. Lakin mən onlara əhəmiyyət vermədən ovcumu su ilə doldurub üzümə çırpdım. Üzümü yuduqdan sonra özümü bir qədər yüngül hiss etdim. Sanki yorğunluğumu sular özü ilə apardı.

Geri döndüm. Sahildən on beş metrə qədər aralandım. Nazik və iniltili bir səs eşidib ayaq saxladım. Kimsə zarıyırdı. Sahili nəzərdən keçirdim. Sol tərəfdə, qumlar üstə bir şey tərpənirdi. Ehtiyatla qaraltıya yaxınlaşdım. Sahibini sürüyən paraşüt sulara doğru qarınlanmışdı. İrəli atıldım. Paraşütü yaralının belindən açdım. Yaralı inildəyib qumluğa sərildi. Ləpələr onun ayağını yaladı. Mən onu kənara çəkib başını dizimin üstünə qoydum. Ayın sönük ziyası onun sifətini işıqlandırdı.

Bu bir qız idi. Başındakı şlem geri düşmüş, qara qıvrım saçı alnına tökülmüşdü. O, su istədi. Mən verdim. Əllərim titrəyə-titrəyə yaxasını

açdım. Yaralı olub-olmadığını yoxlamaq istədim. Bu zaman o, gözlərini açdı. Üzümə xeyli baxdı. Səsi titrədi:

– Heç nə lazım deyil, sinəm ağrayır. Qorxmayın... səhər...

O, fikrini tamamlaya bilmədi. Qollarım arasında çırpındı. Dodaqları astadan tərpəndi:

– Ah, Zümrüd...

Onun pıçıltısı ləpələrin şırıltısına qarışdı. Mən eyni zamanda iki tərəfdən ağır zərbə almış adamlar kimi nə edəcəyimi bilmədim. Başım hərləndi.

Yanıma gələn döyüşçülərə onu dəfn etməyi əmr edib, geri qayıtdım.

Saat beş idi.

Səhəri gözləyirdik. Sakitlik idi. Lakin mənim qəlbim aramsızlıqla çırpınırdı. Təyyarəçi qızın son sözləri bir köz kimi ürəyimin başına yapışıb göynədirdi. «Ah, Züm- rüd...» Bəlkə bu, o idi? Bəlkə o mənim Zümrüdüm haqqında danışırdı? Zümrüd gözüm qarşısında canlandıqca xəyal qanadlanır, məni uzaqlara, Qafqaz dağlarının o üzünə, doğma kəndə aparırdı...

Pəncərəni açıram. Dağlar qoynundakı evimə səhərin xəfif küləyi daxil olaraq, alnımdakı qara qıvrım saçımı oynadır. Çəmənlikdəki yaşıl otlar üzərində parlayan şeh məni özünə doğru çəkir. Evdə darıxıram. Ayaqyalın, başıaçıq bayıra çıxıram. Ta uşaqlıqdan səhər-səhər şehli otlar üzərində gəzməyə adət etmişəm. Çənli-çiskinli dağların otları arasında dolaşdıqca, yarpaqların şehi ayağımın üstə tökülüb, bədənimə sərinlik yayır. Sərinlik bütün əzalarımı dolaşaraq ürəyimə keçir və onu tel-tel edir. Dan yeri qızarır. Üfüq şərq tərəfdə qırmızı rəngə boyanır. Ağ buludlar belə bu qırmızılıqdan yaxa qurtara bilməyib, ona tabe olur. Mən bir körpə kimi təbiətin ağuşunda gəzir və səhərin havasını uduram. Sonra da dolama cığırlarla bulaq başına gedib, oradakı palıd ağacının dibində olan bir qayanın üstündə otururam. Onu gözləyirəm. Biz yay tətilində həmişə onunla burada görüşərdik.

Mən onu bütün varlığımla sevirdim. Əsən səhər küləyi sarışın tellərini üzünə dağıdıb oynatdıqca, mən ona baxıb həzz alardım. O həmişə şad idi.

Kənd yerində yetişmiş, həyatın heç bir acısını dadmamış bu körpə maral saf vücudlu bir məxluq idi.

Biz həmişə dan yeri qızaranda onunla gəzməyə çıxardıq. Bu- laq başında oturar, yaşıl otların arasından sivişib şı- rıltı ilə axan suların ətrafındagı yarpızların qoxusunu duyaraq, söhbət edərdig. O, ayağını yerə basdıqca, otlar öz şəbnəmlərini onun ağ, yumşaq dərili ayağının üstə səpib üşüdürdü. O isə lalə dodaqlarını büzərək «Oh, nə yaman soyuqdur, ayaqlarım üşüdü»-deyə ufuldayır və mənim qolumdan yapışırdı. Mən isə: «Zərər yoxdur, ürəyin təzələnir»-deyər və onun telini oxşayırdım. Sonra da gətirdiyi su qabını şırıl-şırıl axan bulağın diş göynədən suyundan doldurub, dolama cığırlarla evlərinə gedirdi. Mən isə uzun zaman onun arxasınca baxırdım.

Bir iyun səhəri yenə də onunla görüşdüm. O, kədərli idi. Çöhrəsində qəm buludları dolaşırdı. Mən də tutqun idim. Yaş onu boğurdu. Mən adətim üzrə onun saçını sığallamaq istəyəndə boynuma sarıldı. Birdən-birə meşəni qalın kölgə bürüdü. Mən diksinərək qərbə doğru baxdım. Qara buludlar səmada toqquşur, şimşəklər çaxırdı. Yarpaqları göyə sovuran külək meşədə uğuldadı. İri bir palıd ağacı xarıltı ilə yerə yıxıldı. Zümrüd qorxudan qoynuma qısıldı.

Bu saat hər şey mənə qəmli və əsəbi görünürdü. Dağ çayı hirslə çağlayıb, köpüklü suları qayalara çırpır, meşələr əsəbiliklə uğuldayır, buludlar çaxnaşır, günəş onları dağıdaraq xilqətə boylanmaq istəyir, çöllərin naxışı olan şehli otlar isə parlaq ziya üçün boylanır, titrəşərək işıq axtarırdı. Doğrudan da, səmada qara buludlar oynaşırdı.

Mən həm əsəbi, həm də mehriban halda, əllərim titrəyə-titrəyə onun saçını sığalladım:

– Zümrüd, biz ayrılmalıyıq.

O diksindi. Gözlərimin içinə baxdı. Mən bu mehriban gözlərdə qəzəbli bir fırtına gördüm.

– Yox, səni buraxmaram.

Mən bilirdim ki, ceyran-cüyür oylağı, turac-kəklik məkanı yaşıl çəmənlərimizin, çöllərimizin, qayalı yamaclarımızın saralıb-solmaması, əlvan çiçəklərə qan çilənməməsi üçün biz ayrılmalıyıq.

O, boynumu buraxaraq, yel dağıtmış saçını gözünün üstündən geri elədi. İslaq yanaqlarının yaşını sildi:

— Müharibə bizi yaman yerdə yaxaladı. Bilirəm, sən getməlisən. Ancaq mən səni tək buraxmayacağam.

Biz ayrıldıq.

Müharibə məni uzaqlara, dumanlı dağlara, sonsuz çöllərə, bəzən narın-narın dalğalanan, bəzən də hirslə çırpınan dənizlərə, qalın meşələrə apardı. O isə məni unutmadı. Həmişə məktub yazır və tezliklə yanıma gələcəyini söyləyirdi. On gün bundan əvvəl isə Kerç ətrafındakı gecə qırıcı batalyonun birində qulluq etdiyini yazırdı.

**4**

Üfüq şərqdə süd kimi ağardı. Səba nəsimi otları, çiçəkləri yuxudan oyadaraq ötüb hara isə uzaqlara getdi. Səmada ilk şəfəqlər oynaşdı. Göz qamaşdıran bir şəffaflıqla parıldayan dəniz ayna kimi büllurlaşdı. Bax bu zaman şirin yuxu hələ gözlərdən qaçmamış, alatoran bir səhər çağı, onlar səssiz-səmirsiz hücuma keçdilər. Nə bir top dilləndi, nə də ki, bir güllə atıldı. Onlar cərgə ilə ayaq üstə, heç şeydən çəkinmədən, dəstə-dəstə üstümüzə axışdılar.

Bu məni daha da hirsləndirdi. Bizi tapdalamaq istəyən bu lovğa hariflərə qarşı qəlbimdəki qəzəb məni titrətdi. Gözlərimi Kamrana tərəf çevirdim. O, pulemyotun arxasında sakitcə uzanaraq irəli baxırdı. Mən ona yaxınlaşdım. Bunu hiss edən Kamran halını pozmadan:

— Görünür, şeytan bizi onların gözünə balaca göstərir,-dedi, -hariflər yanılıblar. Bizi əzilmiş bilib psixi hücuma keçirlər. Eybi yoxdur, cücəni payızda sayarlar.

O yenə pulemyotun dəstəyini sıxdı. Azca tərpənərək yerini möhkəmlətdi. Hər şey sükutda idi.

Ürəyim narahatlıqla çırpınırdı. Aramızdakı məsafə azalmışdı. Ayaq səsləri yavaş-yavaş güclənirdi.

— Vaxtdır,-—deyə Kamrana işarə etdim.

O, baş barmaqları ilə tətiyi irəli verib, dəstəyi sıxdı. «Maksim» şiddətli qəhqəhəyə başladı.

İlk cərgə-kərənti biçmiş ot kimi yerə sərildi. Bu gözlənilməz əks-hücum onları çaşdırdı. Əvvəlcə bir şey anlamadıqlarından duruxdular. Bir an nə edəcəklərini bilmədilər və birdən pərakəndə halda ətrafa səpələndilər.

Mən gülləyə qənaət etmək məqsədi ilə atəşi dayandırdım. Onlar da susdular. Sükut xeyli çəkdi. Birdən ayağa qalxıb irəli şığıdılar, ancaq yenidən geri çəkilməli oldular. Bu hal bir saat davam etdi. Almanlar irəliləməyin mümkün olmadığını başa düşüb geri süründülər. Mən əlimizdə olan dörd topdan atəş açmağı əmr etdim. Topların səpələntili yaylım atəşi onların yolunu kəsdi. Düşmən özünü daha da itirdi. Mən minasaçanlara da əmr verdim ki, atəşə başlasınlar. Düşmən arakəsməyə alındı. Onların nizamı pozuldu. Bundan əlverişli vaxt ola bilməzdi.

Mən tüfəngi qaparaq səhər şəfəqində parlayan süngünü irəli uzatdım. Səngərdən çıxıb qabağa atıldım. Bütün cəbhəni «Ura!» səsi bürüdü. Ara qarışdı. Heç nəyi ayırd etmək mümkün olmadı. Süngülər parıldaşdı. Dəmirlər cingildədi. Yerə sərilən meyidlər ayaqlandı. Əllərini yuxarı qaldıran almanlar yalvarmağa başladılar. Biz heç nəyə əhəmiyyət vermədən irəlilədik. Düşmən təlaşla qaçır, canını qurtarmağa çalışırdı. Onlar bizə köməyə yeni qüvvə gəldiyini zənn edib daha da çaşmışdılar. Mən düşmən mövqeyini ələ keçirmək, müdafiə üçün əlverişli olan təpələri tutmaq əmrini verdim. Çox irəli getmək təhlükəli idi. Onlar sonradan bizi əzə bilərdilər...

Elə bu zaman, biz dayanmaq istədiyimiz anda, yer, göy titrədi. Başımızın üstündən vıyıltı ilə keçən mərmilər uzaqda, düşmənin arxasında partladı. Toz dumana qarışdı. Artıq topların səsini ayırd etmək mümkün deyildi. Haradansa, sahilə yaxın bir yerdən ağ tüstü zolaqları ucaldı. Başımızın üstündən keçən mərmilər fışıldadı.

— Katya... Katyuşa...-deyə Kamran qışqırdı. Dönüb sahilə baxdım. Papaqlarının lenti yellənən qara pencəkli matroslar bizə yaxınlaşırdılar. Sahil tüstü-duman içində idi. Gəmilər od püskürürdü.

Şiddətli dağ seli kimi axışıb gələn matroslar bizi ağuşuna aldı. Biz onlarla birləşdik.

Mən əsir alınmış alman generalının arxaya aparılıb lazımi yerinə təhvil verilməsini əmr etdikdən sonra onun qərargahını yoxlamaq, lazımi sənədləri ələ keçirmək üçün qazmaya girdim. İçəridəki döyüşçülər dönüb mənə baxdılar. Zəif işıqlanmış qazmada onların çöhrəsindəki kədəri gördüm.

Onlar nəyi isə əhatə etmişdilər. Heç kəs dinmirdi. Mən irəli yeridim, onlar mənə yol verdilər.

Torpaq döşəmədə kim isə uzanmışdı. Mən yenə dayanıb onları süzdüm. heç kəs dinmədi. Hansı bir duyğudansa qəlbim bərk döyündü. Dizi üstə çöküb uzanmış adamın üzünə baxdım. Qəflətən ilan çalmış adam kimi dik atıldım. Başım hərləndi. Ətrafımdakılar gözlərimdə getdikcə balacalaşıb kiçildi və bir-birinə qarışaraq dumana büründü. Gözüm torlandı. Dizlərim taqətdən düşdü. Özümü onun üstünə salıb, bircə gəlmə: «Zümrüd!»-dedim. Yoldaşlarımın geməyi ilə onu bayıra çıxartdım. Əsən külək onun üzünə dağılmış saçlarını oynatdı. Solğun çöhrəsinə azacıq qan gəldi. Qurumuş dodaqları tərpəndi. Mən onun ətrafı qaralmış iri, qapalı gözlərinə, saralmış yanaqlarına, qansız dodaqlarına baxırdım. Nəfəs alması güclə seçilir, sinəsi titrəyirdi. Əlini ovcuma almaq istədim. İnildədi. Dayandım. Nəfəs alarkən azacıq aralanan dodaqlarına, solğun simasında artmaqda olan qızartılara baxıb, gözlərini açmasını gözlədim.

Birdən tərpəndi. Gözlərini güclə açdı. Qara gözlər durğun sular kimi hərəkətsiz dayandı. Mən onu narahat edəcəyimdən qorxaraq nəfəs belə almadım. Üzümə xeyli baxdı. Qaş-qabağını turşudub gözlərini qapadı və başını yana çevirdi.

— Zümrüd, mənəm, gözlərini aç.

Səsimi eşidən kimi tərpəndi. Qalxmaq istədi. Sinəsi qalxıb-endi.

— Şahin?

Yenidən sustaldı. Qolundan tutub azacıq qaldırdım. Gözlərini güclə açaraq dənizə zillədi. Uzaqlardan, dənizin ortalarından baş alıb gələn ləpələr şıltaqlıqla bir-birini sahilə qədər qovur, günəşin zərrin ziyaları altında parlayırdı. Səhərin sərin küləyi sahildəki otları dalğalandırır, çiçəklər öpüşürdü. Zümrüd əlini güclə tərpədib otlara toxundu. Dodaqları titrədi:

— Şehli otlar...

O, tövşüyərək susdu. Mən başa düşdüm ki, onun son nəfəsidir. Başını dizim üstünə qoydum. Zümrüd gözlərini sonsuz boşluqlara zillədi. Ağır-ağır gedən bombardmançı təyyarələr günəşin qabağını alıb, yerə kölgə salırdı. Uzaqlarda toplar guruldayır, ətrafımızdan maşınlar ötür, hər şey irəli cumurdu.

Zümrüd süstləşib tərpənməz oldu. Külək ətrafımızda çırpındı. Şehli otlar aşağı əyilib göz yaşlarını sıxdı. Dəniz uğuldadı.

Mən onu ehtiyatla yerə uzadıb ayağa qalxdım. Yaşarmış gözlərim irəli zilləndi.

Tozlu-dumanlı yollarda böyük bir ordu irəliləyirdi. Başım üstündən ötüb keçən polad quşlar yeri-göyü titrədirdi. Atışma uzaqlaşırdı.

Əsəbilikdən titrəyən barmaqlarım tapançanın dəstəyini hirslə sıxdı. Arxamdan gələn izdiham məni öz qoynuna alıb, qərbə doğru apardı.

## HÜSEYN ABBASZADƏ

**(1922)**

## XEYBƏR ƏMİNİN GÜLLƏRİ

May ayının bazar günlərindən biri idi. Səhər yenicə açılmışdı. Jurnalistika fakültəsinin tələbəsi Zöhrab yataqxanada, çarpayısına uzanıb düşünürdü, necə eləsin ki, bu gün vaxtı yaxşı keçsin. Radioda şəhər xəbərləri verilirdi. Digtor bildirdi: «Dənizkənarı parkda Bakının həvəskar bağbanlarının

bitirdiyi qızılgüllərin sərgisi açılmışdır. Təşkilat komitəsi qızılgül həvəskarlarını sərgiyə dəvət edir».

Otaq qonşusu Zöhraba dedi:

– Yerimizdə ağnadıq bəsdir. Dur həyətə düşüb top oynayaq.-

Zöhrab cavab vermədi. Fikri qızılgül sərgisinin yanında qalmışdı. Gözləyirdi ki, diktor bu haqda geniş danışar. O isə hava haqqında məlumatı oxumağa başladı.

Yoldaşı Zöhrabdan bir də soruşdu:

– Bizimlə oynamağa getmirsən?

– Yox. Bu dəfə mənsiz oynayın.

«Qızılgül həvəskarlarını sərgiyə dəvət edirlər».

Zöhrab o qədər də gül həvəskarı deyildi, amma öz rayonlarında qızılgül plantasiyasında ikicə il işləmişdi. Plantasiyaya bəxtəvərlikdən getməmişdi. Orta məktəbi bitirəndən sonra universitetə daxil olmaq üçün Bakıya gəlmiş, birinci imtahanı verəndə yazıdan kəsilmişdi. Universitetə girmək üçün o biri il gəlib imtahan vermiş, bu dəfə balı çatmadığına görə müsabiqədən keçməmişdi. Zöhrab təhsildən aralı düşsə də bekar qalmamışdı, rayonlarının şöhrəti sayılan qızılgül sahələrində işləmişdi.

O hələ məktəbdə şagird olanda və fəhləlik eləyəndə rayon qəzetinə məqalələr göndərirdi. Düzdür, onlar redaksiyada çox ixtisar olunurdu. Ancaq hər halda yazıları çap edilirdi.

Qızılgül sərgisi...

Nə vaxt idi ki, Zöhrabın əlləri qızılgüllərə dəymirdi, nə vaxt idi ki, onların zərif ətri ilə sinə dolusu nəfəs almırdı. İmtahanların başlanmasına lap az qalmışdı. O, kitabxanaya gedib hazırlaşmalıydı. Ancaq Zöhrab özü ilə bacarmadı. Nə olursa-olsun sərgiyə getməyi qərara aldı.

İri pavilyon. Onun iki tərəfi şüşə olan keçidi, uzunsov dəhlizi, hətta binanın qarşısındakı yastı daş döşənmiş meydança belə güllüyə çevrilmişdi. Burada hər yerə bəzəkli vaz və dibçəklərdə qızılgül düzülmüşdü. Onların hərəsi bir rəngə çalırdı. Uzaqdan pavilyona yaxınlaşanda adamı gül ətri

vururdu. Yaşıl və hündür ağacların arasında itmiş sərginin yerini başqalarından xəbər almadan güllərin ətrafa yayılan qoxusu ilə gəlib tapmaq olardı.

Zöhrab pavilyona gələndə günün ikinci yarısı idi. O, sərgidəki gülləri görüncə gözləri qamaşdı. Sanki bura adi pavilyon yox, müxtəlif növlü qızılgüllər əkilmiş xudmani bir bağdı. Güllər elə səliqə və zövqlə düzülmüşdü ki, rənglər rəsm lövhəsində olduğu kimi bir-birinə calanıb gözəl ahəng yaradırdı. Hər gülün üstündəki xırdaca ağ kağızda hansı növdən olması və onu bəsləyən bağbanın adı, familiyası yazılmışdı. Hara baxırdın adamlar ikibir, üçbir dayanıb güllərə tamaşa eləyirdi. Hamının üzü gülürdü. Sanki bu zərif bitkilərin gözəlliyi sərgiyə gələnlərin baxışlarına keçmişdi.

Salonun gözəgörümlü yerində-qapı ilə üzbəüzdəki uzun taxtın üstündə bir-birinə bənzəməyən, bir-birindən qəşəng xeyli qızılgül yığılmışdı. Güllərin yuxarısında divara kağız lövhə bənd edilmişdi. Lövhədə yazılmışdı:

«Bu gülləri Xeybər Qurban oğlu yetişdirib».

Xeybər kişi üçün salonda xeyli yer ayrılmışdı. Onun güllərinin qabağında dayananlar o birilərindən çox idi. Zöhrabın boyu uca olduğu üçün tamaşaçıların arasında durub baxırdı. O, qabaq cərgədə dayanmış iki qoca gişinin güllərə tamaşa edə-edə danışdığını eşitdi:

— Mən keçənilki sərgiyə də gəlib baxdım. Keçən il də Xeybər Qurban oğlunun gülləri elə bu guşəyə qoyulmuşdu. Bəstəboylu, arıq, qoca kişidir. Onunla burda görüşüb söhbət elədim.

— Çox güman, bizim kimi o da pensiyaçıdır. Mehrini güllərə salıb.

— Xeybər kişi köhnə buruq ustasıdır. Pensiyaya bir-iki il əvvəl çıxıb. O vaxt burda görüşəndə ünvanını verib, məni bağına dəvət etdi. Buzovnaya getdim.

— Siz onun bağında olmusunuz?

— Bəs necə, mənə gül şitilləri də bağışladı. Faydalı məsləhət verdi. Şitilləri gətirib əkdim. İndi onlar gül açıblar.

Zöhrab sərkiyə diqqətlə tamaşa elədi. Bütün güllərə baxdı. Heç biri Xeybər kişinin gülləri kimi ona xoş gəlmədi.

Pavilyonun küncündəki stolun üstündə təəssürat kitabı qoyulmuşdu. Tamaşaçıların bəziləri bura qeydlər eləyirdilər. Zöhrab təəssürat kitabını vərəqlədi. Səhifələrdə müxtəlif xətlərlə yazılmış, bir-birinə bənzəməyən xeyli rəy vardı. Yazıların əksəriyyətində Xeybər Qurban oğlunun adı çəkilirdi. Onun güllərinin qəşəngliyinə heyran olduqlarını bildirirdilər.

Biri belə yazmışdı: «Qızılgüllərin arasında ömür sürməkdən gözəl nə ola bilər? Hörmətli Xeybər Qurban oğlu, mən sizə qibtə edirəm». Ancaq bir yazı başqalarından fərqlənirdi. O, Zöhrabın yadında qaldı. «Qızılgül təbiətin yetirdiyi minlərlə güllərin içində ən gözəli, ən zərifi və ən ətirlisidir. Onu becərən insan ondan gözəldir».

Zöhrab pavilyondan çıxdı. Dənizkənarı parkda dincələnlər çoxalmışdı. Sərginin ətrafında xeyli adam var idi. Bəziləri içəridən çıxıb təəssüratını danışırdı. Bəziləri də sərgiyə düşmək üçün bayırda növbə gözləyirdi.

Zöhrab sahilə qalxdı. Lap suyun qırağındakı skamyaların birində boş yer tapıb əyləşdi. Təmiz bahar havasından udub mavi Xəzərə baxa-baxa fikrə getdi, «Sərgi barəsində məqalə, ya reportaj yazsam necə olar? Bildiyim sahədir, pis təsvir eləmərəm. Bəlkə elə Xeybər Qurban oğlundan bir oçerk yazım? Buruq ustasıdır, gülçülüklə məşğul olur, hə, yazacağam. Mütləq yazıb respublika qəzetlərindən birinə verərəm».

Bu həvəs Zöhrabın fikrini elə cəlb elədi ki, hətta qəzetdə dərc olunmuş oçerki və onun altında yazılmış imzanı da gözlərinin qabağına gətirdi.

Zöhrab təxirə salmadan, elə bu dəqiqə Buzovnaya getməyi qət elədi. Buzovna stansiyasında elektrik qatarından düşən çox oldu. Onların əksəriyyəti Bakıda yaşayanlar, istirahət günü Buzovnadakı bağlarına qulluq etməyə gələnlər idi.

Qatar getdi. Stansiya seyrəkləşdi. Zöhrab bilmirdi ki, Xeybər kişinin evini hayanda axtarsın. O, ilk dəfə idi ki, Buzovnaya gəlmişdi.

Zöhrab dikdiri endi. Yol üstündəki köhnə evlərin birinin qapısını döydü. Qolları dirsəyə kimi çirmənmiş bir kişi qapını açdı. Zöhrab, Xeybər Qurban oğlunun evini axtardığını dedi. Qoca buruq ustasını kənddə tanımayan yox idi. Kişi hara, necə getməyi Zöhraba başa saldı.

Daşdan hörülmüş hasarı əhənglə ağardılan alaqapılı ev Xeybər Qurban oğlununku idi. Hasarın üstünü əncir və iri tut ağacının budaqları örtmüşdü.

Alaqapının böyründəki uzunsov skamyada sürməyi kostyum geymiş cavan bir oğlan əyləşmişdi. Zöhrab fikirləşdi ki, yəqin bu oğlan Xeybər kişinin övladlarındandır. O, soruşdu:

– Xeybər Qurban oğlu burda yaşayır?

– Düz gəlmisiniz,-deyə oğlan gülümsünə-gülümsünə Zöhrabı süzdü.

– Yəqin siz də evlənirsiniz?

– Evlənirəm? Nədən belə nəticə çıxarırsınız?

Zöhrabın baxışlarındakı təəccübü hiss edən oğlan dedi:

– Sualım sizə qəribə gəlməsin. Xeybər əmi qayda qoyub. Buzovnada hər kəsin xeyir işi, ya şənliyi olursa, gəlib bağından pulsuz-parasız gül aparır. Bu axşam nişanımdır. Qardaşımla gül aparmağa gəlmişəm. O içəridədir, mən burda gözləyirəm.

Zöhrab oğlanın əlini sıxıb təbrik etmək istəyirdi ki, alaqapının bir tayı açıldı. Həyətdən qucağında iri qızılgül dəstəsi tutmuş bir oğlan çıxdı. Qara çarqat bağlamış qoca bir arvad onu xeyir-dua ilə yola saldı:

– Qoşa qarısınlar, oğul-uşaqları ayaqlarına dolaşsın.

Bəy ayağa qalxıb minnətdarlıq əlaməti olaraq əlini döşünə qoydu:

– Çox sağ olun, Ziba xala.

– Siz də sağ olun, ay balalar. Həmişə toyda, şənlik içində olasınız.

Qapını örtmək istəyən Ziba xala Zöhrabın kənarda durduğunu görəndə əl saxladı:

– Ay oğul, sən də bizə gəlmisən? Keç içəri, utanma. Utananın oğlu olmaz deyirlər. Keç, güllərə bax. Hansını xətrin istəyirsə göstər, sənə bir yaxşı dəstə bağlayım.

Zöhrab içəri keçəndə dedi:

– Mən başqa iş üçün gəlmişəm, Ziba xala. Qəzetə Xeybər əmidən yazmaq istəyirəm.

– Hər nədən ötrü gəlmisən, nə təfavütü var, xoş gəlib, səfa gətirmisən, öz evindir.

Zöhrab həyətə göz gəzdirdi. Ətrafdakı gözəllik və səliqə onu heyran qoydu. Qızılgül kolları cərgə ilə əkilmişdi. Hər kolun üstündə xeyli gül açılmışdı. Başqa-başqa növlərdən olan bu ağacların gülləri neçə rəngə çalırdı. Onların ətri bir-birinə qarışmışdı. Zöhrab bağa diqqətlə baxdı. Bura əsil qızılgül səltənəti idi...

O, həyəti seyr edə-edə yazısı üçün başlıqlar axtarırdı. «Qızılgüllər arasında keçən ömür». Yox, bu bir təhər səslənir. «Bağ-sərgi». Bu heç münasib deyil. «İnsan və qızıl- güllər» necə?..

– Ay oğul, eyvana qalx. Əgər bağa baxmaq istəyirsənsə, oradan daha yaxşı görünür.

Zöhrab yerdən təxminən bir metr hündür olan eyvana qalxdı. Doğrudan, buradan baxanda üstlərində güllər sayrışan kollar daha qəşəng görünürdü.

Ağacların arasında dalı eyvana sarı bir nəfər boz köynəkli nə iləsə məşğul idi. Zöhrab elə bildi ki, Xeybər əmidir. Birdən ağacların arasında işləyən adam ayağa qalxıb Zöhraba baxdı. Onun əlində bir çəngə alaqotu vardı. On dörd-on beş yaşlarında oğlan idi. Eyvana gəlib Zöhrabla salamlaşdı.

Ziba xala dedi:

– Oğul nəvəmdir, atası buruq ustasıdır, Hindistana yollayıblar. Onlara neft çıxarmağı öyrədir. Gəlinim də oğlumla gedib. Fuad mənim yanımda qalıb, həyət-bacada nənəsinə kömək eləyir.

Qapısı eyvana açılan otaqda telefon zəng çaldı. Fuad gedib cavab verdi və geri qayıdaraq, Ziba xalaya dedi:

– Nənə, mədəndən zəng çalıblar. Soruşurlar ki, gəlib gülləri aparmaq olar?

– Gör necə yadımdan çıxıb, sənə tapşırmamışam ki, onlar üçün gül dərib hazırlayasan. Axı bu gün mədəndə istirahət axşamı keçirəcəklər. Nə pis

oldu... Fuad, zəng çalan hər kim sə ona de ki, bir saatdan sonra gəlib gülləri aparsınlar. Biz onlara yaraşıqlı dəstələr bağlayarıq.

Fuad telefonda gözləyənə cavab verib həyətə düşdü. Zöhrab Ziba xaladan soruşdu:

— Bəs Xeybər əmi haradadır? Tez gələcək?

Qarı qonağı elə qəribə baxışla süzdü ki, Zöhrab özünü itirən kimi oldu:

— Ona görə xəbər alıram ki, əgər tez gəlməyəcəksə, mən gözləməyim. Başqa vaxt gələrəm.

— Eşitdim, oğul, eşitdim,-deyə Ziba xala kədərlə qımışdı;

— Xeybər əmi səkkiz aydır vəfat eləyib.

Zöhrab tutuldu, pərt oldu. Bir söz deyə bilmədi.

— Necə olub ki, oxumamısan, ay oğul? Qəzetdə yazmışdılar ki...

Ziba xala otağa keçib dörd qatlanmış bir qəzet gətirdi. Xəcalətdən pörtmüş Zöhrab qəzeti açıb baxdı. Dördüncü səhifədə yuxarıda Xeybər Qurban oğlunun şəkli və respublika Neft Sənaye Nazirliyinin nekroloqu çap edilmişdi. Nekroloqu oxudu. Zöhrab öyrəndi ki, Xeybər kişi kəndli oğludur. Yeniyetmə vaxtından mədəndə işləməyə gəlib. Qara fəhlə olub. Bolşevik qəzetini yaydığına görə həbsə alınıb. İnqilabdan sonra adlı-sanlı usta yeni neft yataqlarının istifadəyə verilməsində fəal iştirak edib. Buzovnada ilk buruqlardan birini o qazıb.

Zöhrab qəzetdən gözünü ayırıb dedi:

— Ziba xala, məni bağışlayın. Xəbərim yox idi... Sərgidəki güllərin üstündə Xeybər əminin adını görüb elə bildim ki, sağdır.

— Səndə günah yoxdur, oğul. Kişini tanımayanların hamısı sərgiyə baxıb belə zənn edirlər ki sağdır. Bağbanlar ondan məsləhət almaq üçün bizə zəng eləyirlər. Özümüz sərgidəki güllərin üstünə onun adını yazdırdıq. Xeybərdən sonra biz hor şeyi onun sağlığında olduğu kimi eləyirik.

Günortadan keçmişdi. Zöhrab elektrik qatarında pəncərə qabağında əyləşmişdi. Şəhərə qayıdırdı. O, bayıra tamaşa eləyirdi. Daşdan tikilmiş yastı damlı alçaq evlər, bağlar arxada qaldı.

Qarşıdakı skamyada əyləşən sərnişinlər isə Zöhrabın qucağındakı gözəl qızılgül dəstəsinə baxır, baxırdılar.

## ALTAY MƏMMƏDOV

(1930)

## YADİGAR BULAQ

**(İtmiş oğullar)**

Yoldur, dağ yolu. Aşağıda, lap aşağıda, dərənin dibi ilə, başlanğıcını çeşmələrdən alan çay qıjıldayır, yuxarıda, lap yuxarıda, uca dağın boynuna sarılmış dolay-dolay yol ağarır. Yolun sağ əlində ağ daşlardan hörülmüş ikigözlü bulaq görünür. Gözlərdən güclü su axır. Daşlara üzü qara şirəli yazı həkk olunmuşdur:

«Ey yoldan keçən, ürəyinin yanğısını söndürəndə müharitbədə itkin düşmüş oğullarımız Aşotu və Cəmili yada sal».

Bulağın üst tərəfində üzüyuxarı, yaşıl rəngli iki «Volqa» dayanmışdır. İki cavan oğlan qabaqdakı maşının kapotunu qaldırıb qurdalanır. Onlar itmiş oğulların qardaşlarıdır. Bulağın yanında iki gəlin samovara su tökür. Onlar itmiş oğulların qardaş arvadlarıdır. İki qoca kişi bulağın səkisində oturub siqaret tüstülədir. Onlar itmiş oğulların ataları-Mürsəl əmi və Setrak dayıdır. On-on iki yaşlı iki oğlan döşdə kəklikotu yığır. Onlar itmiş oğulların qardaş uşaqlarıdır. İtmiş oğullar indi ata olan qardaşlarını bu uşaqlar boyda qoyub gediblər. Yolun solunda, bulaqla üzbəüz şaxı yenicə açılmış kilim üstə, saçları ağarmış iki arvad oturmuşdur; başlarında ağ yelənli qara kəlağayı, əyinlərində qara şaldan qədimi don. Birinin gözləri aladır, o birininki zil qara. Alagözlü Siran xaladır, Aşotun anası, qaragözlü Xurşid xaladır, Cəmilin anası. Anaların məhzun gözləri. Dərin gözlər, Hər biri altmış il dərinliyində, diri gözlər, yorğun gözlər, dərdli gözlər, mehriban gözlər, evladları itkin düşmüş anaların gözləri. Ana gözləri bulağın gözlərindən

axan və günəş işığında bərq vuran sulara zillənmişdir. İtmiş oğullar düz on beş ildir sərin suya, şirin suya, büllur kimi şəffaf suya dönüb bulaqdan axırlar. İtmiş oğullar gecələr ay olub göydən baxırlar. İtmiş oğullar analarının bəzən şirin, bəzən dəhşətli röyalarına dönürlər. İtmiş oğullar uzaqlaşırlar, itmiş oğullar yaxınlaşırlar.

Hanı itmiş oğullar, haradadır itmiş oğullar?

İki gözdən axan gur sulara cüt ana gözü zillənmişdir. Sular titrəşir, sular canlanır, Cəmil görünür, Aşot görünür. Sular ağ lövhəyə dönür, ana gözlərinin qırx il dərinliyində göyə qaldırılan iki lüt uşaq görünür, oğlan uşaqları -Aşot, Cəmil. Müqəddəs ağrıdan sonra analar bihuş uzanırlar. Qırx illik uzaqlıqdan iki körpənin çığırtısı eşidilir, anaların döş giləsi indi də sancır. İki uşağın gülüşü gəlir, anaların dodağı qaçır. İki uşaq çinarlı güçədə yüyürür, iki uşaq Gəncə çayında çimir, iki uşaq çanta götürüb məktəbə gedir. Analar fərəhlənir. İki uşaq qalstuk bağlayır, iki oğlan komsomol nişanı taxır, iki oğlan orta məktəbi qurtarır. Anaların sinəsi qabarır.

İki gənc ali məktəb əvəzinə cəbhəyə gedir. On doqquz il uzaqlardan qərbə doğru yol açan içi dolu qatarın təkərlərinin aramsız taqqıltısı indi də eşidilir. Anaların ürəyində yara qövr edir. Cəbhədən məktublar... Cəbhədən məktublar kəsilir. İztirablı gecələr... İztirablı gündüzlər...

Eyni rəngli iki zərf, eyni məzmunlu iki cavab: «Cəmil itkin düşüb», «Aşot itkin düşüb». Kişilər dərdi kişi kimi, analar ana kimi çəkirlər. Gözləri dolğun Mürsəl əmi, Setrak kişi öz dərdlərini papiros tüstüsünə qatırlar, analar yanırlar. analar özləri tüstülənirlər.

— Ay Siran.

— Can.

— Deyirəm, bəlkəm, anaları ölmüşlər yesir düşüblər...

— Təki sağ olsunlar, can Xurşid.

— Ay Siran.

— Nədir?

– Deyirəm, bəlkəm elə yaralıdırlar ki, əl boyda kağız yazmağa heyləri çatmır.

– Təki sağ olsunlar... Bircə nəfəsləri gəlsin.

– Ay Siran.

– Can.

– Deyirəm, bəlkəm, dilim-ağzım qurusun...

Susurlar, qəhərlənirlər, hıçqırırlar...

– Bəlkəm, partizandırlar...

– Bəlkəm də, Mürsəl demiş, düşmənin mansırasındadırlar...

– Bəlkə...

– Bəlkə..

«Bəlkələr» anaları sakitləşdirir. Ay keçir, il keçir, oğullar tapılmır. İllər keçir, oğullardan soraq gəlmir. Ay keçir, il keçir, dava qurtarır. Oğulları itmiş analardan ötrü bu dava qurtarırmı bəyəm? «Əgər dava tamam qurtarıbsa, hanı bizim oğullarımız?»

Anaların göz yaşları qurumur. Anaların göz yaşları quruyur.

– Ay Siran.

– Bəli.

– Deyirəm, uşaqlara bir ehsanlıq düzəldək.

– Düz deyirsən elə, Xurşid bacı. Bulaq çəkdirək dağ yoluna. Anası ölmüşlərin xoşladıqları çeşməni çıxartdıraq yola...

Oğlanlarının toyuna yığdıqları xırım-xırdalar sandıqlardan çıxarılır, düyünçələrdən açılır. Siranın Setrakın doğulduqları, iki ailənin hər yay istirahət etdikləri dağ kəndinin yolu qırağında bulaq tikilir.

«Ey yoldan keçən, ürəyinin yanğısını söndürəndə müharibədə itkin düşmüş oğullarımız Aşotu və Cəmili yada sal».

Analar canlarının hövüllərini bundan çıxırlar. Oğullar yada düşəndə yanırlar. Sərin sulu ehsanlıq bulağı xatırlayanda sakitləşirlər.

İllər keçir. Yenə «bəlkələr».

– Bəlkə oğullarımız əsir düşüb xarici diyarlara aparılıblar.

— Bəlkə İtaliyadadırlar.

— Bəlkə Fransada...

— Bəlkə əsir düşdüklərindən Vətənə qayıtmağa utanırlar.

— Axı beləlıəri hələ var.

— Bəlkə də...

— Bəlkə də...

Analar bulağa baxır. Oğulların getməsindən on doqquz il keçir.

«Hanı bizim balalarımız? hanı Cəmil, hanı Aşot?»

Hanı anaların itmiş oğulları?..

On səkkiz il uzaqlarda tikanlı məftillər görünur. Zindan kimi ağır uzunboğazlar yeri tapdalayır, şappıldayan sulu torpaq elə bil dilə gəlib fəryad edir, soldat çəkmələri ana torpağa əziyyət verir. Meyit rəngli insanlar görünür, əsirlər, sağ qalmalarına peşman olan əsirlər...

...Həbs düşərgəsi, faşistlərin həbs düşərgəsi... Çuxura düşmüş gözlər, qarğıya dönmüş bədənlər, sümüyü çıxmış üzlər. həbs düşərgəsi, tapdalanmış insanlıq. Ölüm, zülmət, əzab, işgəncə. Faşistlərin həbs düşərgəsi-anaların ahı, naləsi, çeşmə kimi qaynayan göz yaşları. Xirosimada atom bombası partlarkən yanıb yoxa çıxmış bir qadının kölgəsi divara həkk olunmuşdur. Bu, ölümün kölgəsidir. Ey faşistlərin həbs düşərgəsi, ey milyonların qəbirsiz qəbiristanlığı. Sənin əzab və işgəncələrin səndən salamat qurtaranların üzünə o qadının kölgəsinə bənzər kölgə salmışdır.

...Uzun barakdan qapqara saqqalı sinəsinə sallanan, beli bükülmüş qoca kişi çıxır. Yox, o, qoca deyil, cavan oğlandır, cəmi iyirmi yaşı var. Cəmildir, özüdür. Xəstəlikdən yenicə durub, yığdığı tütünü çörəyə dəyişmək istəyir. Havasızlıqdan, aclıqdan yanaqları saralmışdır, əynində cındır şinel, başında günlüyü qopmuş, ulduzu çıxarılmış şapka, ayağında yırtıq patava, əlində kiçik bağlama, on-on beş əsirin toplaşdığı yerə-düşərgə «bazarına» gedir. Biri əlindəki yüz qram çörəyi siqaretə dəyişir, biri nimdaş ayaqqabılarını iki yüz qram çörəyə verir. Cəmil «bazara» sol tərəfdən girir. Sağ tərəfdən

«bazara», əlində üç parça çörək, qoca bir kişi yaxınlaşır. Bu qocanın da iyirmicə yaşı var. Aşotdur, çörəyi tütünə dəyişmək istəyir.

«Bazarda» iki satqın, iki xain gəzir, qulaqları şəklidir. Əsirlərin fikirlərini, arzularını oğurlamaq üçün əlləşirlər. Düşmən düşməndir, satqın isə min dəfə dəhşətli.

Tütün və çörəyi dəyişmək istəyən qaralmış əllər bir-birinə uzanır, eləcə də quruyur. Ala və qara gözlər bir-birinə zillənir, danışmaq xatalıdır, tanış çıxmaq xatalıdır, görüşmək, qucaqlaşmaq, öpüşmək xatalıdır: bu yerdə hünərin varsa, sus. Amma gözlərln donu açılır, gözlərə bahar gəlir, gözlər görüşür, gözlər danışır: «Qaçaq», «qaçacağıq».

Nəhayət, kilidlənmiş dodaqlar açılır.

– Aşot...

– Cəmil...

Sual da bu sözlərdə, cavab da bu sözlərdə. Sevinc də bu sözlərdə, kədər də bu sözlərdə, xatirələr də bu sözlərdə, arzular da bu sözlərdə. Nüvə kimi ağır sözlər.

Alver bəhanəsi ilə kənara çəkilirlər:

– Çörəyi saxla, Aşot, tütünsüz keçin.

– Sən də tütünü çörəyə ver... Çörəksiz çətin olar.

– Yaxında meşə var.

– Duman gəlsin.

– Amma bizsiz getməsin.

– Aşot, bizim baraka müsavatçı gəlmişdi, yanında da molla.

– Bizə də yanı keşişli daşnak gəlmişdi.

– Təklif eləyirdilər ki, millətin xilası yolunda, həzrət Abbas naminə «legiona» yazılaq.

– Bizə də eyni təklifi həzrət İsa yolunda elədilər.

– Nə dedin, Aşot?

– Dedim ki, qoyun fikirləşim.

– Necə fikirləşim?

– Mən «yox» desəm, şübhə altında olaram.

– Mən qəti «yox» demişəm.

– Bir də gələcəklər, sən də de «qoy fikirləşim».

– Bir balaca da dizimiz bərkisəydi.

– Sən necə fikirləşirsən?

–Ağac kəsməyə gedəndə duman gələn kimi çay tərəfdə meşəyə çəkilərik, düz şərqə.

–Deyirlər cəbhə Mozdoka çatıb.

– Yalandır, faşistlərin uydurmasıdır.

– Cəmil, adamın inanmağı gəlmir.-Aşot gözlərini Cəmilin şapkasının ulduz yerinə zilləyib.-Bura bax. Elə et ki, şübhələnməsinlər. De ki, «qoyun fikirləşim». Elə deyənlərin üzərinə nəzarətçi də qoymurlar.

– Baxarıq.

– Tez əkilək, qabaqdan qış gəlir, qar yağsa, batdıq.

– Harada batırıq bataq, burada yox.

– Hələlik, Cəmil.

– Hələlik, Aşot.

Ayrılırlar.

Meşədən mişar səsi gəlir. Şam ağaclarının üzərinə duman qonur... Aşotu, Cəmili qucaqlayır, öz qoynuna alıb çəkilir. Ağaclar qalır, cavanlar gedir. Həmişə nifrət etdikləri dumanı əllə tutmaq mümkün olsaydı, Cəmil də, Aşot da onu qucaqlayıb öpərdi. Ağcaqayınlar onlara yol göstərir. Sevimli ağcaqayınlar. «Qadanızı alım, ağcaqayınlar, siz nə işıqlısınız». Ayaqları altında xəzəl danışır. Duman xilaskar simruq quşu kimi çəkilib gedir, meşə qalır, Aşot qalır, Cəmil qalır.

Meşədir, şam və ağcaqayın meşəsi. On səkkiz il uzaqlarda cındır paltarlı iki adam yüyürür; qəribə yürüşdür, uşaq hoppanışına bənzər yürüş, ayaqların yerə dəyməsi ilə qalxması bir olur, elə bil çəkisini itirmiş adamlar ayda yüyürürlər. Bu yürüşdə qorxu var, sevinc var, ümid var, xilas olmaq ümidi. Uşaq oyununa bənzər bir yürüş. İki qarasaqqal kişi yüyürür. Arxadan

avtomatın iblis qəhqəhəsi qopacaqmı? Arxada qorxu var, öndə xilas olmaq ümidi. «Meşə, sən niyə seyrəksən? Ağcaqayınlar, siz niyə belə işıqlısınız? Bizi düşmənə göstərirsiniz. Ey şam ağacları, gövdəniz niyə belə budaqsızdır? Tərsinə bitsəydiniz, bizi gizlədərdiniz. Ey vəfasız duman, sən niyə belə tez çəkildin? Ey günəş, niyə batmırsan? Qoy şəvə kimi qaranlıq gəlsin, qara məxmər kimi gəlsin. Ulduzsuz gəlsin, aysız gəlsin, bizi qucaqlasın. Bat, ey günəş, çəkil, ey işıq».

Gecənin xilaskar əli gənclərin boyunu oxşayır. Dayanırlar. Azacıq baxışırlar. Qucaqlaşırlar. Saqqallar bir-birinə qarışır. Hönkürtü bir-birinə qarışır. Cavanlar bir-birinə qarışır. Nəm torpaqda otururlar. Hisslərin donu açılmışdır. Bəlkə bu, yuxudur. Yuxu olsa da, gözəldir. Hər nə olursa-olsun, biz azadıq. Göz yaşları icazə almadan axışır.

— Niyə ağlayırsan, Cəmil?

— Bilmirəm. Bəs sən niyə ağlayırsan?

— Bilmirəm, amma rahatlanıram.

— İnsan bəzən gülmək istəyəndə ağlayır.

— Amma ağlamaq istəyəndə gülmür.

— Aşot, mən kişilərin bir ağızdan ağladığını görmüşəm. Bizi qabaqlarına qatıb qərbə tərəf gətirəndə yolüstü gecələməkdən ötrü bir anbara yığdılar. Ayaqlarımız şişmişdi, uzanmaq istəyirdik, amma yer yox idi. Birtəhər, yanı üstə uzanmağa çalışırdıq. Mənim böyrümdə arxa-arxaya uzanan iki kişi deyişirdi:

— Ə, qardaşoğlu, bir balaca kənara çəkil.

— Əmi, yer yoxdur.

— Onda qurdalanma.

— Nə təhər qurdalanmayım?

— Adam kimi.

— Ay əmi, niyə məni təhqir eləyirsən?

— Ə, nə qanmazsan, qoy bir hovur dincələk.

— Əmi, mənə niyə qanmaz deyirsən?

– Vay sənin, işə düşmədik. Ə, de görüm haralısan?

– Nəyinə gərəkdir?

– Yox, görüm sənin kimi sital haradan çıxıb?

– Kəlbəcərdən.

– Ə, məni dolama.

– Vallah, Kəlbəcərdən.

– Ə, hansı kəndindənsən?

– Çıraqlıdan.

– Ə, məni dolama.

– Vallah, düz deyirəm.

– Həsənalını tanıyırsanmı?

– Hancarı tanımıram, mənim dədəmdir.

– Ə, məni dolama.

– Vallah, düz deyirəm.

– Ə, adın nədir?

– Cumalı.

Cavab gəlmədi. Kişi bir az dayandı. Zorla durub dizi üstə çökdü.

– Ay oğul, bir üzümə bax görüm.

Oğlan da durdu. Bizim kimi iki qarasaqqal xeyli baxışdı. Birdən kişi qışqırdı:

– Ay camaat, oğlumu tapmışam. Kişi oğlunu qucaqlaya bilmirdi:

– Ay camaat, oğlumu tapmışam.

Anbardan bir uğultu keçdi. Bu sözü tərcüməsiz də hamı başa düşdü: rus da, ukraynalı da, latış da hamı ağladı: komandirlər də, siyasi rəhbərlər də, qocalar da, cavanlar da.

Mən həmişə həmin anı xatirimə salanda camaatın ağlamasının səbəbini düşünürdüm. Sonralar dərk etdim ki, həmin anda hərə öz istəklisinə qovuşmuşdu. Həmin anda müharibə qurtarmış, toplar susmuş, bombaların ulartısı kəsmiş, hər şey həmin ana sığışmışdı.

– Ay camaat, oğlumu tapmışam.

Əsirlərin gümanı nəyə gəlirsə-çörək, maxorka yığıb onlara verirdilər. Sonralar mən onları itirdim. Susdular.

– Qaranlıqda qaçaq, Cəmil.

– Azıb faşistə rast gələri. Yataq.

– Yaxşı. Yataq, səhərə güc toplayaq.

On səkkiz il uzaqlarda ağcaqayın və şam meşəsində iki qarasaqqal gənc qucaqlaşıb, nəfəsləri ilə bir-birini qızdıra-qızdıra yuxuya gedir.

Aşot alaqaranlıqda, soyuqdan dişləri bir-birinə dəyə-dəyə oyandı. Canında sızıltı vardı. Harada olduğunu kəsdirə bilmədi. Cəmilin qara saqqalını görən kimi hər şeyi xatırladı. «Qaşları lap Xurşid xalanınkıdır». Xurşid xalanı xatırlayan kimi öz anası və Vətən yadına düşdü. Əyildi. Cəmilin alnından iki-üç dəfə öpdü. Cəmil də ayıldı. Aşotu görən kimi hər şey ona yuxu kimi gəldi. Gözlərini iki dəfə yumub açdı.

– Biz azadıq!

– Biz azadıq!

Öpüşdülər.

– Biz azadıq!

– Biz azadıq!

Bədənlərinin keyini açmaq üçün atılıb-düşdülər.

– Biz azadıq!

– Biz azadıq!

Oturdular. Cəmilin gözlərinə qara bir kğlgə düşdü. Həmin kölgə Aşotun da üzünü bürüdü.

– Aşot.

– Can

– Fikirləşirdim ki, dərimi soyub ya əlcək tikəcəklər, ya da portfel. Deyirdim: «Cəmil, sənin dərin faşistə qulluq göstərir». Fikirləşirdim: sümüyümü üyüdüb gübrə kimi torpağa verəcəklər. Torpağa qurban olum, torpaq çox yaxşıdır. Amma deyirdim: «Bir gün gələcək buğda olacağam, çörəyə dönəcəyəm, faşistlər məni yeyib başqalarının dərisini soymaq,

başqalarını gübrəyə döndərmək üçün güc toplayacaqlar. Ya da ki, bir gül olacağam, adamyeyən bir faşist məni bir fahişəyə bağışlayacaq. Deyirdim nə çörək olum, nə gül. Qoy, heç olmasa, zəhər olum».

— Mən düşərgə ölümündən qorxurdum, Cəmil. Bu ən iyrənc, ən dəhşətli ölüm olardı. Mən uşaq vaxtı yalnız quyuda boğulub ölməkdən qorxurdum. Xurşid xala bir dəfə anama bir kankanın boğulmasını danışmışdı, gözlərinin hədəqədən çıxdığını söyləmişdi, nədənsə həmin kankanın gözləri uzun vaxt yadımdan çıxmır, yuxuma da girirdi. Amma düşərgə ölümü mənə ondan iyrənc, ondan qorxulu gəlirdi.

— Aşot, mən tikanlı məftilin içərisində ölmək istəmirdim. Hər gecə qət edirdim ki, səhər açılan kimi faşistlərin gözü qabağında tikanlı məftili adlayacağam. Arxamda avtomat şaqqıltısı, kürəklərimdə güllə qatarı duyurdum.

— Mən də, Cəmil can...

— İstəyirdim ki, qanım yaşıl otlara çilənsin, qıpqırmızı, saf qan...

— Ya da ki, dümağ qarda şırıltı ilə axıb iz salsın.

— Bu, düşərgə ölümündən min dəfə yaxşı olardı. Amma səhər açılanda məndə bir ümid oyanırdı; deyirdim, döz, səbr elə, Cəmil. Gecə isə yenə özümü danlayıb deyirdim; «Qorxaq qoyun». Aşot, insanın qəlbində həm qoyun var, həm şir. Biri yatanda biri oyanır; mən istərdim ki, şir qoyunu yeyib tək qalsın.

— Cəmil, sən əsirlərin yandırıldığını bilirdinmi?

— Bilirdim, Aşot, çoxları tüstüyə döndü, külək onları qovub Vətənə -analarının, bacılarının, oğul və qızlarının yanına apardı.

Göyə baxdılar. Səma açıq idi. Kölgə gözlərindən çəkildi.

— Yolçu yolda gərək.

— Haydı.

Yenə park kimi səliqəli meşə ilə şərqə tərəf yüyürürlər. Bəlkə də meşənin seyrəkliyi onları xilas edir. Faşistlər seyrək meşədən şübhələnmirlər. Sıx meşədən qorxurlar.

Uzaqlarda səliqəli bir latış kəndi görünür.

— Aşot.

— Can.

— Bəlkə burada bir az çörək tapaq.

— Gedək.

Ensiz kənd yolunda avtomobil təkərli bir at arabası. Qozlada sarısaçlı, südüzlü bir qız. Yaxınlaşırlar. Qız onları görən kimi arabanı saxlayır. Təəccüblə saqqallı oğlanlara baxır .Əsirlikdən qaçdıqlarını duyur. Qamçının ucu ilə kəndi göstərir;

— Getmək olmaz... Faşist var.

Cəmil dillənir:

— Ay qız, russanmı?

— Latış...

Aşot dillənir:

— Adın nədir?

— İnqvelda.

Qız gülümsəyir. Ata bir qamçı vurur.

Yenə kənd. Yenə faşistlər. Gecələr... meşələr...

Yolda bomba dağıtmış bir maşının yanında konserv tapırlar. Dizlərinə qüvvə gəlir.

— Cəmil.

— Can.

— Deyirəm bir təndir əppəyi olaydı.

— Ay olaydı, ha.

— Təndir əppəyi dedim. Xurşid xala yadıma düşdü. Mənə elə gəlirdi ki, həmişə Xurşid xaladan təndir əppəyi ətri gəlir.

— Bu saat bir təndir olsaydı, Aşot.

— Xurşid xala ərsinlə üstü xaşxaşlı çörəkləri bir-bir çəkəydi, həm də qışqıraydı: «Aşot, isti çörək götür».

– Mən küt getmiş çörək istəyirəm, güllü, başdan ayağa qazmaq, yeyəndə xırıltısından qulaq tutulsun.

– İsti əppəyin arasında kərə yağı, şor.

– Motal pendir.

– Sonra da lobya qovurması.

– Yox, təndir salınan gün nə lobya...

– Yadıma düşdü Xurşid xalanın qulplu küpəsi.

– Yetimdoyduran.

– Mürsəl əminin qəssab Həsəndən aldığı erkək əti.

– Piti.

– Yağlı piti.

– Sarıköklü piti. Anam qoysun təndirin dibinə, yanlarını gülləsin.

– Biz də ayaqlarımızı sallayaq təndirə. Soyutma lobya.

– Yenə lobya?

– Bəs nə?

– Qovrulmuş fındıq.

– Bəh-bəh.

– Dədəm Setrak əmiylə işdən gələndə küpə təndirdən çıxsın, süfrə salınsın. Setrak əmi padvaldan qırmızı çaxır çıxarsın.

– Anam da lobya turşusu.

– Bax indi lobyanın yeridir. Bəh-bəh...

– Mürsəl əmi qarmonu götürüb oxusun:

Cəmilim, ay Cəmilim.

Ağıllı ol, ay gülüm.

– Sonra da qıpqırmızı çay.

– Eh, söhbətin şirin yerində müsəlman gəldi ki, çay içək.

– Erməni də gəldi ki, lobya yeyək...

– Cəmil, ayaqqabıların tamam yırtılıb. Bircə kəndə çatsaydıq, çörək ələ keçirsəydik, bircə kömbə bizi düz cəbhəyə qədər aparardı.

– Çoxu iki-üç saata cəbhə xəttinə çatarıq.

– Bilmək olmaz. Çörəksiz yeriyə bilmərik.

– Cəbhəyə az qalıb, Aşot.

– Cəbhəni adlaya bilsəydik, təptəzə paltar, ulduzlu papaq, isti ayaqqabı.

– Mən təzə paltar istəmirəm, Aşot. Sanobrabotkadan çıxmış köhnə paltar, buğlana-buğlana, geyim.

– Düz deyirsən, birinci döyüşdən üzüağ qayıdandan sonra təzə paltar, kerz uzunboğaz, ulduzlu papaq.

– Mənə elə gəlir ki, bir-iki saatdan sonra yaylım top atəşi eşidəcəyik.

– Mən cəbhə xəttini ömrümdə indiki qədər arzulamamışdım. Qoy topların amansız gurultusu gəlsin.

İki saat yox, iki gün yol getdilər. Cəbhə xətti görünmədi. Hava soyuyur. havadan qar iyi gəlir. Qarın ac, yeriməyə taqət yox. «Biz iki nəfərik. Yeddi gündür yol gedirik. Kəndlər qorxuludur. Çörəyimiz yoxdur. Ayağımıza su keçir. Biz özümüzünkülərə çatmaq, doğma səs eşitmək istəyirik. Biz iki nəfərik -Cəmil, Aşot».

Ağcaqayının dibində yerə çökürlər. Yer donubdur. Ayaqları gizildəyir.

– Cəmil.

– Can.

– Gərək o latış qıza deyəydik bizə çörək gətirəydi.

– Ə, onun gözəlliyindən adamın gözü qamaşırdı. Elə qızdan çörək yox, su istəmək olar.

Aşot gülümsəyir.

– Cəmil.

– Nədir?

– Onuncunu qurtarana yaxın birinci sinfə bir müəllim gəldi. Məzuniyyətə çıxan Aşxen müəllimənin yerinə. Ortaboylu qız idi. Yumrusifət. Saçları da boynunun dalından kəsilmişdi. Əvvəlcə müəllimə olduğunu bilmirdim. Elə ona baxırdım. Hara gedirdi gözlərimi də aparırdı. İri qara gözləri var idi. Yanaşmaq, bir söz demək istəyirdim, nə deyəcəyimi bilmirdim. Məktub yazmaq istəyirdim, nə yazacağımı bilmirdim. Eşidəndə ki, müəllimdir,

ümidim tamam üzüldü. Yaşıd kimi görünsə də, mənim şagirdliyimlə onun müəllimliyi arasında uçurum var idi. Özümü danladım. Amma bir-iki gündən sonra hiss etmədən gördüm ki, o dərs deyən sinfin pəncərəsi önündəyəm. O, nəyi isə uşaqlara izah edir, lövhəyə yazırdı. Tənəffüsdə müəllimlər otağına qədər gözlərimlə onu ötürdüm. Üçüncü gün uşaqlar pəncərədən mənə baxmağa başladılar. O, bunu sezdi. Məzəmmət dolu gözləri ilə baxdı. O gözlər həm danlayır, həm oxşayırdı. O gözlərdə bir doğmalıq var idi. Mən isə gözlərimi yerə dikdim, həmin gündən ondan uzaq qaçmağa çalışdım. Amma məktəb həyatində rastlaşanda hiss edirdim ki, mənə baxır. Attestatımı alan gün rəqsə getmişdim, parka. Sən o vaxt Hacıkənddə idin. Skamyada oturmuşdum. Gördüm dümağ ipəkdonlu bir qız mənə yaxınlaşır. Baxam görəm o. Həmişə məktəbə qara kostyumda gəlirdi. Yanımda oturdu.

— Necəsiniz?-dedi.

Dilim-dodağım qurudu.

— Sağ olun,-dedim.

Söhbət elədik. Məlum oldu ki, texnikumda oxuyur. Əlaçıdır. Odur ki, sinfi ona etibar eləyiblər. Dərs deməsinə baxmayaraq, məndən də bir yaş kiçik imiş. O gecə doyunca vals oynadıq. İlk vals «Mancuriya təpələrində» idi. Gündüz yenə parkda görüşdük. Mən onun üzünə baxa bilmirdim. Əllərinə baxırdım, süd kimi ağ əllərinə. Cəmil, bu saat o əlləri öpərdim. Mən onu öpmədim. Təkcə bir dəfə o, sağ əlini saçlarımın arasında gəzdirdi. Cəmil, bax, bu dəqiqə onun mehriban əli saçlarımın arasındadır. O əlləri tuta bilsəydim, duz kimi yalayardım...

— Aşot.

— Bəli.

— Mən dədəmgilə çörək aparanda həmişə bir mavi gözlü qıza rast gəlirdim. Elə hey mənə baxırdı. Gözəl, duru, aydın mavi gözləri ilə.

— Amma heç mənə baxmırdı.

— Elə hamı sənə baxası deyildi ki.

— Düzdür, iki yerə baxmaq olmaz.

— O mavi gözlər lap həbs düşərgəsində də yuxuma girir. Di...

— Yolçu yolda gərək.

— Haydı.

İndi yenicə qar yağmış bir düzlə irəliləyirlər. Nəhayəti görünməyən bir düz. Uzaqlarda bacalarını və damlarını qar örtmüş kənd görünür. Yeriməyə taqət yox, kəndə kirmək də qorxuludur. Cığırla əynində tütün rəngli sırıqlı olan yun şallı bir qadın addımlayır. Qadın heç bir söz demədən yaxınlaşır.

— Kənddə çörək tapa bilərikmi? -Aşot dillənir.

— Kənddə faşist var,-deyə qadın kədərlə cavab verir. Partizanlar haradadırlar?

— Partizanlar haradadırlar?

Qadın çiynini çəkir.

— Biz acıq.

Qadın qoltuğunun altından bağlama çıxarır.

— Bizim kənddə bir şey yoxdur. Mən qonşu kənddən bacımgildən gəlirəm.-O, bağlamanı açır. Orada bir neçə soyutma kartof var. -Yarı bölə bilərəm.

— Lazım deyil. Yəqin sizin uşaqlarınız acdır.

— Əgər yarısını götürməsəniz, yerə qoyub gedəcəyəm. Götürün.

Cəmil və Aşot hərəsi iki kartof götürür.

— Xalacan, bizə partizanları göstər.

— Bilmirəm haradadırlar...

Qadın kiçilmiş bağlamasını büküb şalın altında gizlətdi. Bir neçə addım atdıqdan sonra geriyə döndü. Əli ilə şərqə işarə etdi.

— Meşəyə gedin. Meşə sizi xilas edər.

Ayazlı və ulduzlu bir gecə. Cəmil və Aşot hər ikisi donur.

— Aşot.

— Nədir?

— Bax, bu göydəki milyonlarla ulduzun hamısı bir yerdə günəşin milyonda biri qədər istilik vermir.

— Elədir, Cəmil.

Ayazlı bir gündüz. Nəhayətsiz görünən bir düz.

— Cəmil.

— Can.

— Daha mən yeriyə bilmirəm. Göydə günəş yoxdur, amma mən elə istiyəm ki...

Cəmil əli ilə onun alnını tutur:

— Qızdırmısan, Aşot. Gözlərin də qızarıb. Bir az da qeyrət göstər. Meşə yaxındadır.

— Sən get, mən yeriyə bilmirəm.

Sonsuz bir düz. Saqqallı bir kişi, çiynində saqqallı bir adam, qarın üstü ilə ağır-ağır addımlayır.

Uzaqlarda, lap uzaqlarda meşə görünür. Çılpaq bir meşə. Ümid qığılcımı.

Qarlı bir düzdə iki saqqallı kişi oturmuşdur. Qaranlıq gecə. Ulduzsuz, aysız bir gecə.

— Cəmil.

— Bəli.

— Bizim məktəbimiz, beynəlmiləl məktəbimiz.

— Zəng səsi düz evimizə gəlirdi.

— **O** qarasaqqal yəhudi Rəfaelin şövqlə çaldığı zəng. Bizim saqqalımız lap onunkuna oxşayır.

— Cəmil, deyirlər məktəbimiz qospitaldır.

— Mən yaralansaydım orada yatmaq istərdim.

— Suren müəllim yadıma düşdü.

— Fərrux muəllim də.

— Şövkət müəllim də.

— Bizim məktəbimiz, beynəlmiləl məktəbimiz...

Bir azdan Aşotun sinəsindən xırıltı eşidilməyə başladı.

— Sinəm sancır. Cəmil. Yanıram. Əlini alnıma qoy.

Cəmil onun alnını ovdu. Aşot yanırdı. Bir azdan sonra o, gözlərini yumub sayıqlamağa başladı.

— Cəmil.

— Nədir, qadan alım?

— Əlini uzat göydən iki ulduz qopart. Papaqlarımıza tax. Mən anamın yanına ulduzsuz getmək istəmirəm.

— Baş üstə. -Cəmil deyə bilmir ki, göy ulduzsuzdur.

— Cəmil.

— Can.

— Ulduzların lap parlağını seç. Lap Marsın özünü qopart.

— Baş üstə.

— Cəmil.

— Hə, can.

— Ehmal ol, gözlə əlini yandırmasın.

— Arxayın ol, Aşot.

— Cəmil.

— Bəli.

— Mars lazım deyil, deyirlər o, qədim romalıların müharibə tanrısı olub. Onu tulla göyə, getsin öz yerinə... Yox, yox, tullama. Əvvəlcə əl-qolunu bağla o müharibə tanrısının. Sonra da fırlat lap uzaqlara. Qoy yerdən heç görünməsin.

— Baş üstə.

— Onun əvəzinə Veneranı qopart. Sanc mənim şapkama. Özünə də Marsdan başqa hansını istəyirsənsə seç.

— Baş üstə.

— Əgər ulduzsuz getsək, bizə nifrətlə baxarlar.

— Elədir.

— Cəmil.

— Can.

— Cəmil, sən get.

– Yox. Aşot can.

– Heç olmazsa, sən xilas ol. Get, sanobrabotkadan yenicə» çıxmış isti əsgər paltarı gey. Yenə qərbə get. Bu dəfə papağında ulduz olsun, əlində avtomat. Sən müharibənin özünü güllələ. Hara getsən məni də apar. Dava qurtarandan sonra qayıt. Xurşid xalanın qara gözlərindən mənim əvəzimə də öp. Anamı da öp. Atamı da, qardaşımı da. Bacarsan o cavan müəlliməni də tap, deginən ölüm ayağında mən onun əllərindən öpdüm. Deginən xoşbəxt olsun. Cəmil, o arvad rus idi? Bizə kartof verən arvad.

– Ana idi, Aşot.

– Mənə elə gəlir ki, o ya mənim anam idi, ya da Xurşid xala.

– Ana beynəlmiləldir, Aşot.

– Düz deyirsən, ata da.

– Oğul da.

– Qız da.

## YUSİF SƏMƏDOĞLU

(1935)

**(Qartal)**

Ovçu əlində tüfəng boz bir qayaya daldalanıb pusquda durmuşdu. Qıyılmış gözlərini göyə dikərək hikkəsindən dodaqlarını gəmirirdi. O, qartal axtarırdı. Qartalsa görünmürdü. Yox, yox... Qartal görünmürdü desək düz olmaz. Qartal yenə öz məkanında uçurdu. Hüdudsuz səmaları yarır, topa buludların arasında süzür, çaxan ildırımların üstünə şığıyıb guruldayan göyün dərinliklərindən sıldırım qayaların üstünə enirdi. Lakin ovçu qartalı görə bilmirdi. Çünki ovçunun gözləri işıqsız, səma geniş, qartal isə güclü idi.

Ovçu yanırdı. Kindən, qəzəbdən, acizliyindən yanırdı. Ovçu nifrət edirdi. Qartalı gizlədən buludlara, onu geniş köksünə alan sıldırım qayalara, nəhayət, onun qanadlarına qüvvət, gözlərinə işıq verən günəşə nifrət edirdi.

Axı niyə? Qartal ovçuya nə etmişdi?

Çoxdan bəri idi ki, ovçu bütün təbiətdə hökmran bir şöhrət qazanmaq arzusu ilə yaşayırdı. O, çiynində tüfəng, ayağında vaxtilə təsadüfən öldürdüyü bir pələngin dərisindən uzunboğaz çəkmə, sinəsini qabağa verərək son dərəcə özündən razı bir görkəmlə dağların, qayaların arasında gəzə-gəzə təbiətdə hər şeyə -dağlara, daşlara, insanlara, heyvanlara özünün böyüklüyünü və məğlubedilməzliyini göstərmək istəyirdi. Lakin ovçu tüfəngini şikarına tuşlayan kimi şikarı qaçırdı.

Bunu edən qartal idi.

Ovçu tüfəngini su üstə gələn körpə ceyrana, qayalığa çıxıb özünü günə verən xınalı kəkliyə, kolluqda yem axtaran turaca tuşlayanda qartal göydən aşağı şığıyır, ovçunun ovunu hürküdüb qaçırırdı.

Qartal ovçunu qan tökməyə qoymurdu.

Ovçunun qartala kin-küdurəti o qədər idi ki, indi o, tüfəngini lap bir addımlıqda belə qabağına çıxan turaca, kəkliyə tuşlamır, yalnız qartalı axtarır, ondan intiqam almaq istəyirdi.

Ovçu nələr çəkmirdi. O, qartalın ölüsünü görmək üçün öz ölümünə razı idi. O, qartalın parçalanmış cəsədini görmək üçün öz əlləri ilə öz ürəyini parçalamağa hazır idi.

Bəs qartal? Qartal ovçudan qorxmurdu? Yox... Axı qartal tək deyildi. Məgər qarlı dağlar, hüdudsuz səma, qüdrətli günəş, sakit gecələrin sehrli laylası, sıldırım qayaların arasında qaynayan bulaqların sərin suyu göydə dəliqanlı igidlər kimi oynaşan ildırımlar-məgər bunlar hamısı qartalı ovçunun hiyləgər niyyətindən, onun amansız gülləsindən qorumurdumu?

Bəs ovçu? Axı necə olursa-olsun, düşmən yenə də düşməndir. Bir neçə gün qabaq, nəhayət, ovçunun gülləleri qartalı yaralamışdı. Qartal sinəsindən üç yara almışdı. Bu anda da vətən təbiəti ona gömək əlini uzatmışdı: bulaqlar onun yuvasına su, əsən küləklər isə sərinlik gətirmişdi. Göydən yağış gəlmiş, onun yaralarını yumuşdu, çiçəklər, otlar məlhəm olmuşdu. Qartal qanadlarında mətanət, gözlərində işıq hiss etmişdi. Sabahı günü o, ovçunun

gözləri qarşısında yenə də məğrur bir görkəmlə qanadlarını gərərək hüdudsuz səmaları yara-yara ağla gəlməyən hündürlüklərə qalxmışdı...

Lakin ovçu da təslim olmamışdı. Amma indi o, tüfəngini açıq gəzdirməyə qorxurdu. Təbiətin üsyanından qorxurdu. Çünki artıq bütün təbiətə məlum idi ki, qartalı yaralayan ovçudur. Ovçu həmin boz qayadan əl çəkmirdi. Yenə boz qayaya daldalanıb saatlarla qartalın pusqusunda dururdu. Yenə vicdansız məqsədini yerinə yetirmək üçün münasib məqam axtarırdı.

Beləliklə, aylar, illər ötürdü. Mübarizə davam edirdi...

Ah, zalım qocalıq. Sən qartal qanadlarının vaxtından tez sarsılmasına, onun ürəyinin əvvəlki kimi alovlu bir ahənglə vurmamasına necə qıydın?

Ah, zalım qocalıq, zalım qocalıq... Sənə qarşı bir dərman yoxdur. Sənin gəlişini gecikdirmək mümkün olsaydı...

Qartal günbəgün, saatbasaat gücdən düşürdü. Ovçuya elə bil yeri-göyü vermişdilər. Onun güllələri qartalı yıxmadısa, həyatın qanunlarından biri onun mənfur arzusuna əməl etdi. Qartal artıq hər gün yuvasından uçmadı, hər gün buludlar arasında süzmədi, hər gün bulaq üstə enmədi. Ovçu sevindi, toy-bayram etdi.

Vaxt gəldi, qocalığın ən yaxın sirdaşı-ölüm qartalın qanadlarını tamam taqətdən saldı. Hər yerə-dağlara, daşlara, əngin səmalara müdhiş bir xəbər yayıldı:

— Qartal... can üstədir...

...Bu kədərli xəbərdən hamı qəhərləndi, bulaqların, çeşmələrin suyu bulandı, günəş də buludlar arasında gizlənib sanki işığını, istisini təbiətdən əsirgədi.

Ovçu isə qartalın son gününü gözlədi.

Qartal saralmış gözlərini açıb ətrafa nəzər saldı: təbiət nə qədər gözəl idi. Qartalın yadına cavan vaxtları düşdü. Qıy vurub qalxmaq istədi. Təbiətdə hər şeyi-dağları, daşları, topa buludları bağrına basıb duz kimi yalamaq istədi. Lakin qanadları qalxmadı. Gözləri yaşardı. Elə bu an qulaqları ovçunun addım səslərini eşitdi. Yox, yox, ovçu qartalın belə ölümünü görməməli idi...

Qartal yerindən oyandı, qıy vurub birdən göyə qalxdı. Sanki təbiət də bunu gözləyirdi. Ürəklər sevindi, bulaqların, çeşmələrin suyu duruldu, günəş də buludlar arxasından boylanıb bütün camalı ilə təbiətə baxdı.

Təbiət qartalın belə ölümünü istəyirdi.

Ovçu isə sarsıldı, gözlərinə inanmadı. Qəzəbindən ürəyi sıxıldı, boğazı qurudu. Göydə möhtəşəm bir görkəmlə hündürlükləri fəth edə-edə irəli uçan qartalın dalınca yerlə qaçmağa başladı. Qartal uçdu, ovçu qaçdı. Ovçu qaçdı, qartal uçdu. Ovçunun dizləri daşa dəyib qanadı, ürəyi sanki köksünü yarıb bayıra tullanmaq istədi.

Birdən qartal səmtini dəyişib uzaqda görünən dik bir qayaya tərəf uçmağa başladı. Ora çatan tək ağır bir daş kimi qayanın zirvəsinə düşdü. Qanadları gərildi, son dəfə təbiətə baxıb gözlərini yumdu. Qartal öldü.

Ovçu, zirvəsi buludların içində görünməyən qayaya baxdı. Ora insan qalxa bilməzdi. Ora quş quşluğuynan uçsaydı qanad salardı. Ovçunun əlacsızlıqdan dizləri büküldü, üzüqoylu torpağın üstünə sərildi...

Qartalın ölüsünə do ovçunun əli çatmadı...

## ƏKRƏM ƏYLİSLİ
(1938)

## QARA DƏNİZ

**Oğlum İlyas üçün**

Tərlansan, göydən enməzsən,
Torpaqlarda sürünməzsən.
Mən dönsəm də, sən dönməzsən,
Yaşa könül, yaşa könül.

*Mikayıl Müşfiq*

Bir tərəfdən dağın döşündə Niyaz müəllimin evi. O tərəfdə-kəndin ortasında məktəb binası. Ortalıqda gün işığı ilə dolu bir küçə vardı və yazda, çiçəklər açanda o küçə daha işıqlı görsənərdi.

Bu dünyada haçansa bir yaz, iki ağac uzaqdan-uzağa bir-irinə baxardı; iki ağac uzaqdan-uzağa bir-birini görərdi: biri Niyaz müəllimin həyətində, biri məktəbin həyətində; biri heyva ağacıydı, biri alma ağacıydı...

Heyva çiçəyi ağ olur, mənim balam, almanın çiçəyi qırmızı olur. Və həmin o ağ çiçəkli heyva ağacının dibində hər səhər Niyaz müəllim oxuya-oxuya əl-üzünü yuyardı, sonra küçə gün işığı ilə dolardı və ağappaq, tərtəmiz köynək geyib məktəbə dərs deməyə gedən Niyaz müəllimin o işıqdan ağappaq, tərtəmiz səsi gələrdi. Niyaz müəllim gedə-gedə salam verərdi, salam alardı və işıq dolu küçədə Niyaz müəllimin səsi bütün səslərdən seçilərdi...

Biri vardı, biri yoxdu, səslərin də rəngi vardı, mənim balam... Bir məktəb binası vardı: o məktəbin eyvanına alma çiçəyinin qırmızı işığı düşərdi və o işıqdan məktəb zənginin qırmızı səsi gələrdi… Sonra-boş qalmış məktəb eyvanı, boş güçələr, səssiz-səmirsiz evlər... Və bu vaxt iki ağac çiçəklərin gözü ilə uzaqdan-uzağa bir-birinə baxardı: biri heyva ağacıydı, biri alma ağacıydı...

Dünyanı elə qəribə görmək üçün bəlkə səndən də balaca olmaq lazım idi, mənim balam... Bəlkə o yaz, mənim bu dünyada gördüyüm birinci yaz fəsli idi?.. İndi uzaqdan-uzağa o yerlərə bir də baxanda nədənsə mənə elə gəlir ki, bizim kənddə o yaz təkcə o iki ağac çiçək açmışdı, tək bir küçə işıqlı idi... Mənə elə gəlir ki, Niyaz müəllim o iki ağaçın arasında yaşadı, o işıqlı güçədən əsgər getdi və məhz buna görə də onun yazdığı məktub elə gözəl məktub oldu.

O məktub bizim həyətdə, pilləkənin başında, çıraq işığında oxundu. Yay idi. Biçin vaxtı idi. Arvadlar biçindən təzəcə qayıtmışdılar. Hələ axşam təzəcə düşmüşdü hələ hava boz idi, qaralmamışdı. Orada-burada-kolların dibində, ağacların sıx budaqları arasında (işıq üzü görməyən yerlərdə)

havanın qarası yavaş-yavaş bollaşırdı, sıxlaşırdı; get-gedə qatılaşan kölgələr elə bil xısın-xısın tərpəşirdi. Bir də başlarına təzəcə toyuqlar qonmuş, qarğalar, sağsağanlar doluşmuş ağacların nazik budaqları arabir tərpəşirdilər...

Çırağı mənim anam tutmuşdu, canım-gözüm, məktubu Niyaz müəllimin arvadı Mənzər xalanın özü oxuyurdu. Qulaq asan mən idim, nənəm idi; qonşuluqdan ayaqyalın, başıaçıq qaçıb gəlmiş Əsmər xala və Fatma xala idi. Bir də çiçəyi çoxdan tökülmüş iki ağac indicə, bu saatca çiçək açıb, o məktuba qulaq asırdı: biri heyva ağacıydı, biri alma ağacıydı...

O axşam bizim həyətdə Mənzər xala çıraq işığında o məktubu oxuyanda Niyaz müəllim haradasa «Qara dəniz» deyilən bir yerdə idi. O dənizin suyu gömgöy idi və o gömgöy suyun üzündə «qağayı» deyilən ağappaq quşlar üzürdülər... O dənizin qırağında meşələr vardı, o meşələrdə bizim yerlərdə bitməyən ağaclar bitirdi... Niyaz müəllim dava qurtaran kimi, əsgərlikdən qayıdıb, Mənzər xalanı da o yerlərə aparacaqdı. O meşələrdə Mənzər xala da gəzəcəkdi. O dənizi Mənzər xala da görəcəkdi, üstəlik, Mənzər xala o dənizdə çiməcəkdi də, «çimib ağappaq göyərçinə oxşayacaqdı», «hələlik salamat qal, göyərçinim. Özünə korluq vermə. Əgər istəyirsən ki, uşağımız gözəl olsun, çoxlu yat; çoxluca meyvə ye. Bir də gözəl şeylərə çox bax, mənim çiçəyim, vaxt tapdıqca gözəl şeylərə bax...»

«Gözəl şeylər... gözəl şeylərə bax...» Niyaz müəllimin bu qəribə sözlərinə arvadlar əvvəl gülüşdülər. Sonra ciddiləşdilər, sakitləşdilər, dünyanın gözəl şeylərindən danışmağa başadılar.

Nənəm lap bu başdan dedi ki:

– Niyaz düz yazıb. Lap yerində yazıb. Elə şey-ledi-Quranda da var. Uşağın gözəl olması üçün gərək Mənzər duru suya tez-tez baxsın.

Əsmər xala zarafatla dedi ki:

– Gözəl şey lalədir ki, o da yazda olur. İndi bu kənddə gözəl şey nə gəzir. Gözlə,-dedi,-hələ doğma. Yazda lalə çıxar, doğarsan.

Fatma xala zarafat elədi:

— Qayınanamı gətirimmi, Mənzər?-dedi,-Gətirim qoyum sizə. Tək adamsan, hərdən gül camalına tamaşa eləyərsən.

Bu söz nənəmin heç xoşuna gəlmədi:

— Qayınanalar bir ağır daş olub,-dedi,-düşüb gəlinlərin başına.-Və hirslənib, çıxıb getdi.

Anam gözünü qaranlığa zilləmişdi. Sakitcə baxırdı. Nəsə fikirləşirdi. Sonra fikrindən ayılıb:

— Üzün gülsün, a Niyaz,-dedi,-gör orda topun-tüfəngin içində nə axtarırsan...

Sonra anam arvadlara qəribə bir nağıl danışdı:

— Sənə bir gözəl şey deyəcəyəm, Mənzər,-dedi. -Amma sən Allah, gülməyəsən... Yatanda sağ əlini döşlərinin üstünə qoy. Elə gözəl yuxu görəcəksən ki... Görəcəksən ki, bir uca dağın başındasan, bir yumşaq buludun içindəsən. Görəcəksən ki, yırğalanırsan, Mənzər; elə bil nənnidəsən. Aşağıda, görəcəksən; hər yan düz-düzəngahdır, düz-dünya gömgöy otdur, hər yan qıpqırmızı lalədir... Bir də bir yekə günəbaxan görəcəksən, Mənzər, teşt boyda günəbaxan. Bir qara quş uçub gələcək, həmin günəbaxanın üstünə qonacaq. Sən gərək o quşdan qorxmayasan. Gərək gözlərini açmayasan. Açsan hər şey itib-gedəcək. Amma dözsən, açmasan, görəcəksən ki, quş kimi yumşaq bir şey uçub qonub döşünün üstünə. Bir də baxıb görəcəksən ki, quş deyil, əldir: Niyazın əli; Niyazı yanında uzanmış görəcəksən... Ayılanda elə yüngül olacaqsan ki; Mənzər, lap o buluddan da yüngül...

Anam bu yuxunu danışanda Mənzər xala o saatca əlini döşünün üstünə qoydu.

Fatma xala:

— Neçə vaxtdır ki, mən də bir yuxu görürəm,-dedi.-Danışsam, mat qalarsınız.

Ancaq Fatma xala o yuxunu danışmadı. Fatma xalanın əvəzinə Əsmər xala bir uzun yuxu danışdı və yuxuya qulaq asa-asa arvadları yuxu basdı. Sonra

arvadlar dağılışdılar; çünki biçindən gəlmişdilər; yorğun idilər və sabah ulduzlar sönməmiş yenə əkin biçməyə gedəcəkdilər.

O yay arvadlar səhərdən axşamacan zəmi biçdilər, ancaq Niyaz müəllimin sözləri də yadlarından çıxmadı, məktub unudulmadı... O məktub gün batanda yada düşdü, ay çıxanda yada düşdü, bir ağacda bülbül oxuyanda arvadlar sevinə-sevinə Mənzər xalanı səslədilər. Niyaz müəllimin dediyi o gözəl şey gah ot oldu-üstü şehli; gah gül oldu-qırmızı gül... Bir gün bərk yağış yağdı və o yağış kəsən kimi Fatma xala evlərinin damından aləmə səs saldı. Fatma qışqırıb Mənzər xalanı çağırdı:

– Mənzər, Mənzor, tez ol,-dedi.-Bayıra çıx.. Ora bax,. alyaşıla bax...

O səsə mən də bayıra çıxdım. O göy qurşağına, mən də baxdım.

O mənim bu dünyada gördüyüm birinci göy qurşağı idi...

Biçin qurtardı. Arvadları bostan işinə yolladılar və bir axşam bostandan qayıdanda Mənzər xala «deyəsən yaxınlaşıram»,-dedi. Və bircə bu sözə görə ertəsi gün arvadlar Mənzər xalanı yorğan-döşəkdən qalxmağa qoymadılar. Məni də o evdə pəncərənin qabağında oturtdular. Mən ağladım, orada oturmaq istəmədim. Məni ovutmaq üçün arvadlar. bir yekə ərik cırcıraması tutdular, qıçına sap bağladılar, mən o sapın ucundan yapışdım. Cırcırama xeyli vaxt özünü pəncərəyə çırpdı, sonra qıçını qırıb sapdan xilas oldu; uçub getmək istədi, amma necə gedəcəkdi: qapı bağlı; pəncərə bağlı; çıxmağa yer nə gəzirdi?.. Birdən hiss elədim ki, mənim də çıxmağa yerim yoxdur, bu dəfə daha bərkdən ağlamağa başladım.

Mənzər xala yerindən durub qapını açdı:

– Get həyətdə oyna,-dedi;-qəşəng balam, amma uzağa getməyəsən...

O həyətdən bütün kənd görsənirdi, dağların başı görsənirdi, dərələrin dibi görsənirdi. Bir döşdə, çaydan yuxarıda bir dünya yaşıllığın içində iri-iri günəbaxanlar saralırdı-ora, mənim zənnimcə, mütləq bostan olmalıdı. Yaşıllıq; günəbaxan sarısı... günəş dağın dalından təzəcə baş qaldırmışdı. «Üzün gülsün, a Niyaz; gör orda topun-tüfəngin içində nə axtarırsan».

Mən o gün Mənzər xalanın həyətində, hasarın üstündə oturmuşdum, hasarın o tərəfi zibil yeri idi. Zibillikdən pis iy gəlirdi, ancaq mən o hasardan heç cür aralanmaq istəmirdim, çünki hasarın ən alçaq yeri bura idi və dağların başı da, dərələrin dibi də yalnız burdan görsənirdi...

...Bir də gözümü açıb gördüm ki, hasarın bu biri tərəfində; otun içində yatmışam. Evdən, Mənzər xalanın yanından əvvəl «doxtur Səriyənin» səsi gəlirdi, sonra mən körpə çığırtısı eşitdim.

Mənzər xala bir qız doğdu, mənim balam və arvadların hamısı bir ağızdan «gözəldir» dedilər.

Ancaq o qız neçə müddət adsız qaldı. Kənd sovetindən neçə dəfə adam gəldi, dedilər ki, uşağa ad qoyulmalıdır; amma Mənzər xala uşağa ad qoymadı.

— Siz orda nə ad yazırsız, yazın,-dedi.-Mən Niyaza məktub yazmışam. Cavabı gəlməsə, ad qoymayacağam. Niyaz müəllimdən heç vaxt cavab gəlmədi. Buna görə də Mənzər xala birdən-birə dinib-danışmaz oldu və onun barəsində arvadlar sirli-sirli pıçıldaşmağa başladılar. Arvadlar sirli-sirli pıçıldaşıb, bu qərara gəldilər ki, gündüzlər mən Mənzər xalanın yanında olum, gecələr nənəm gedib Mənzər xalanın yanında yatsın, yoxsa, Allah uzaq eləsin; birdən Mənzər xala özünə bir şey eləyər, ya da uşağın başına bir iş gətirər...

Bir mən idim, bir Mənzər xala idi, bir də Mənzər xalanın qucağında adsız bir uşaq var idi. Mənzər xala saatlarla o alçaq hasarın üstündə otururdu, harasa baxdıqca baxırdı. Hərdən Mənzər xala mənə dağların başını göstərirdi:

— Dənizi görürsənmi?-deyirdi.-Qara dənizi ..

Mən dağların başına baxırdım, dərələrin dibinə baxırdım və eyni vaxtda, haradasa lap uzaqlarda adına «Qara dəniz» deyilən bir göy sulu dəniz də görürdüm və mənim o dənizdə üzüb-üzüb getməyim gəlirdi...

## M Y N D Ə R İ C A T


**Ön söz .......................................................3**

**Rəşid bəy Əfəndiyev**

**Uşaqların meşədəki əhvalatı ...........................12**

**Alma ağacının əhvalatı.....................................13**

**Əbdürrəhim bəy Haqverdiyev**

**Ayın şahidliyi ................. ..........................15**

**Süleyman Sani Axundov**

**Qan bulağı .......................................................19**

**Əhməd və Məleykə ..........................................23**

**Abdulla Şaiq Talıbzadə**

**Köç .......................................................26**

**Daşqın ..............................................................45**

**Camo Cəbrayılbəyli**

**Meşə nağaraçısı ................................................47**

**Dostlarımız ......................................................49**

**Hansı çiçək daha gözəldir ................................50**

**Qəribə ustalar ................................................ 52**

**Süleyman Rəhimov**

**Ceyran ..............................................................55**

**Günümüzün nağılı............................................59**

**Əli Vəliyev**

**Baldırğan suyu .................................................62**

**Qənirsiz gözəl ................................................ 63**

**Mikayıl Rzaquluzadə**

**Xan çinarın bir yarpağı....................................68**

**Gözəlliyin keşiyində ..........................................70**

**Əbülhəsən Ələkbərzadə**

**Sahildə . ....... .....................................................81**

**Mir Cəlal Paşayev**

**Söyud kölgəsi . ..................................................85**

**Gülbəsləyən qız .................................................89**

**Mehdi Hüseyn**

**Maral əfsanəsi ........................................92**

**Çinar.......................................................................94**

**Mirzə İbrahimov**

**Göyərçinlərim ................................................101**

**Murovdağın ətəyində.....................................109**

**Ənvər Məmmədxanlı**

**Buz heykəl ..........................................., . . 129**

**İlyas Əfəndiyev**

**Ovçunun nağılı ................................................132**

**Ceyran ovu .......................................133**

**Yasəmən ağacı ............................................134**

**Qılman Musayev (İlkin)**

**Bahar tüstüləri ............................... ... 136**

**Fırtına, insan və vaxt .....................................140**

**Bayram Bayramov**

**Göyçək .......................................................143**

**İsmayıl Şıxlı**

**Səhəri göyləyirdik ..........................................145**

**Hüseyn Abbaszadə**

**Xeybər əminin gülləri......................................154**

**Altay Məmmədov**

**Yadigar bulaq (İtmiş oğullar).........................159**

**Yusif Səmədoğlu**

**Qartal ..............................................................173**

**Əkrəm Əylisli**

**Qara dəniz ......................................................**

**Nəşriyyatın direktoru** *E. R. Rəhimov*

**Mətbəənin direktoru** *F. V. Fətəliyev*

**Redaksiya müdiri** *İ. A. Abbasov*

**Redaktoru** *M. T. Səfərov*

**Rəssamı** *A. A. Ələkbərov*

**Bədii redaktoru** *Y. F. Katakalidis*

**Texniki redaktoru** *Ə. Q. Rəhimov*

**Korrektorları** *B. M. Ələkbərova, E. M. Əlizadə*

**İB—4955**

Yığılmağa verilmiş 20. 07. 88. Çapa imzalanmış 16. 03. 89. FQ 14498. Kağız formatı 60X84. Mətbəə kağızı № 2. Ədəbi qarnitur. Yüksək çap. Fiziki çap vərəqi 11,5. Şərti ç. v. 10,69. Şərti rəng-ottisk 11. Uçot nəşr vərəqi 10,6. Tirajı 10 000. Sifariş № 268. Qiyməti 40 qəp.

Azərbaycan SSR Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsinin «Maarif» nəşriyyatı, Bakı—370111, Ə. Tağızadə küçəsi, № 4.

Azərbaycan SSR Dövlət Nəşriyyatı, Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsinin 3 №-li Bakı Kitab Mətbəəsi, Bakı, Ə. Tağızadə küçəsi, № 4.